AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
Z.M.BÜNYADOV adına ŞƏRQŞÜNASLIQ
İNSTİTUTU

Səməd Sərdariniya

# İrəvan müsəlman sakinli vilayət olmuşdur

Bakı – 2014

*Fars dilindən tərcümə edən:* **İbrahim Quliyev**

*Elmi redaktorlar:* **Əkrəm Rəhimli (Bije)**
**Səməd Bayramzadə**

*Redaktorlar:* **Məsiağa Məhəmmədi**
**Şahnisə Rüstəmova**

**Səməd Sərdariniya. "İrəvan müsəlman sakinli vilayət olmuşdur".** Bakı, "Zərdabi" nəşriyyatı, 2014, 202səh.

*Oxuculara təqdim olunan "İrəvan müsəlman sakinli vilayət olmuşdur" kitabı Cənubi Azərbaycanın görkəmli tarixçi alimi mərhum Səməd Sərdariniyanın əsərlərindəndir. Kitabda İrəvanın ən qədim dövrlərdən XX əsrin əvvəlinə qədər keçdiyi tarixi dövrlər, elm və mədəniyyəti, türk mənşəli tarixi abidələri geniş aspektdə şərh edilir. İrəvan tarixən Azərbaycan müsəlman türklərinə mənsub olan bir bölgə kimi zəngin faktlar və sənədlər əsasında oxucunun diqqətinə təqdim edilir. Kitab geniş oxucu kütləsi, elm adamları, müəllim və tələbələr üçün gərəkli məlumat kitabıdır.*

**İSBN 978-9952-8010-1-9**

Ş $\frac{070010003}{0103\text{-}2014}$ qrifli nəşr

© AMEA akad. Z.M.Bünyadov adına
Şərqşünaslıq İnstitutu, 2014

# İrəvan müsəlman-türk sakinli vilayət olmuşdur

Oxuculara təqdim olunan "İrəvan müsəlman sakinli vilayət olmuşdur" kitabı Güney Azərbaycanın tanınmış tarixçisi, mərhum doktor Səməd Sərdariniyanın çoxsaylı əsərlərindən biridir. Müasir Güney Azərbaycan tarixşünaslığında az müəllif tapılar ki, onun kimi yorulmaq bilmədən faktları, mənbələri və arxiv sənədlərini tədqiq edərək, tarixi həqiqətləri üzə çıxarmaq sahəsində zəngin irs qoyub getmiş olsun. "Azərbaycan mədəni dünyada", "Təbriz əvvəlinci şəhərdir", "Təbrizin Mərkəzi qeybi", "Əli Müsyo", "Təbriz Universiteti", "Azərbaycan mətbuat tarixi", "Təbriz teatrı", "Bağır xan Salari-Milli", "Molla Nəsrəddin Təbrizdə", "Arazın hər iki sahilində soyqırım", "Azərbaycan məşhurları" (3 cilddə) əsərləri müəllifin elmi axtarışlarının və yaradıcılığının bir hissəsidir. Onun şəxsi arxivində daha yeddi kitab, onlarca sanballı elmi məqalə oxuculara təqdim olunacağı günü gözləyir.

Görkəmli ensiklopedik alim Cavad Heyətin başçılıq etdiyi "Varlıq" dərgisinin nadir sayı ola bilər ki, orada S.Sərdariniyanın yazısına rast gəlinməsin. Tədqiqatçı Esmira Şükürovanın yazdığı kimi, Sərdariniya bir institutun gördüyü iş qədər elmi irs qoyub getmişdir. Bu məhsuldar, zəhmətkeş alimin Güney Azərbaycan tarixşünaslığındakı xidmətlərindən danışarkən belə bir əhəti vurğulamaq lazımdır ki, onun qələmindən çıxan bütün yazılar ancaq doğma vətənin - Azərbaycanın tarixinə və mədəniyyətinə həsr edilmişdir. Haqqında söhbət açacağımız "İrəvan müsəlman sakinli vilayət olmuşdur" kitabı böyük alimin apardığı tədqiqatlardan bir yarpaqdır.

Məlum olduğu kimi, tarixən azərbaycanlılar qonşularına mehriban və xoş münasibəti ilə seçilmişlər. Özünün əzəli, əbədi və qədim ərazisində yaxşılığa yamanlıqla cavab verən ermənilərə də sığınacaq vermək, onlara yaxşı münasibət bəsləmək xalqımızın humanizmi ilə bağlı olmuşdur.

Ermənilər Yaxın və Orta Şərqdə, xüsusən Azərbaycan və Türkiyə ərazisində özlərinə "məzlum bir xalq" kimi sığınacaq tapmışlar. Sonra isə başqalarının ərazisində dövlət yaratmaq istəyən ermənilər XVIII əsrdən üzü bəri Rusiyanın timsalında özünə arxa tapıb Azərbaycan torpaqlarının işğalına başlamışlar. Rusiya imperatoru I Pyotrun (1682-1725) Azərbaycanı, Türkiyəni, İranı işğal edib Fars körfəzinin isti sularına çıxmaq haqda arzusuna söykənən ermənilər 1722-ci ildə bu ərazilərdə özünə "Böyük Ermənistan dövləti" yaratmaq xülyası ilə I Pyotrun qəbulunda olmuş, "Şərq yürüşündə" ermənilərin canla-başla rus ordusunun və kəşfiyyatının xidmətində olacağına sədaqətlə söz vermişlər. Həmin tarixdən bu günə qədər ermənilər qonşu müsəlman torpaqlarını işğal etməklə, özgəsinin ərazisində yaşayıb ona arxadan zərbə vurmaqla, xəyanət və satqınlıqla Rusiyaya verdikləri vədə sadiq qalmışlar.

Ermənilərin azərbaycanlılara qarşı xəyanətlə dolu xidmətləri rus çarizmi tərəfindən əvəzsiz qalmamış, Türkmənçay müqaviləsindən sonra xalqımıza məxsus İrəvan əyaləti və onun ətrafı etnik təmizləmə aparılaraq ermənilərə verilmişdir. Bu haqda Güney Azərbaycanın tanınmış tarixçi-alimi mərhum Səməd Sərdariniyanın "İrəvan müsəlman sakinli vilayət olmuşdur" kitabında tarixi sənədlər əsasında bir çox faktlar verilmişdir. Adı çəkilən kitabda İrəvan xanlığının və onun ətraf əyalətlərinin tarixən azərbaycanlılara məxsus olması təkzib-

olunmaz faktlar əsasında iyirmi yeddi başlıq altında şərh olunur.

Vaxtilə Səfəvi hökmdarı Şah İsmayıl Səfəvi ana vətənin bu yerlərini gəzib Göyçə gölü ətrafında bir neçə gün istirahət etmiş və ölkənin paytaxtını Təbrizdən bura köçürmək haqda fikir söyləmişdir.

Doktor S.Sərdariniyanın kitabında Türkmənçay müqaviləsi ilə Şimali Azərbaycanın çarizmin əsarətinə düşməsindən sonra ermənilərə bu bölgədə yaradılmış şərait, verilmiş imtiyazlar açıqlanır. Kitabda gedən məlumatlarda göstərilir ki, çar Rusiyası İrəvan və onun ətrafındakı əyalət və yaşayış məntəqələrinin statistikası və demoqrafik vəziyyəti haqda məlumatları tərtib edib mərkəzə çatdırmaq məqsədilə İvan Şopen adlı məmuru bir heyətlə İrəvana göndərir. Müəllif Şopenin başçılığı ilə tərtib edilmiş statistikada Türkmənçay müqaviləsindən sonrakı vəziyyəti belə şərh etmişdir: “Ermənilərin arzusu ilə ruslar İrəvan mahalını və onun ətrafındakı dörd xanlığı, 41 bəyliyi və sultanlığı ləğv edib türkləri oradan köçməyə məcbur etmişlər. Torpaq və əmlaklar gəlmə ermənilər arasında bölünmüşdür” (səh.90). İrəvanda yaşayan əhalinin 143 000 nəfərdən 117 849 nəfəri azərbaycanlıdan, cəmi 25 151 nəfəri gəlmə ermənilərdən ibarət olmuşdur. 1828-1832-ci illərdə İrəvandakı azərbaycanlıların sayı 100 000 nəfər azaldığı halda, ermənilərin sayı gəlmələrin hesabına 82 377 nəfər artmışdır (səh.91). Müəllif kitabında Qahirədə çıxan “Hikmət” qəzetindən belə bir məlumatı nəql edir ki, 1904-cü ildə Qafqazda 3 208 875 nəfər müsəlman yaşamış və bunların da 352 351 nəfəri İrəvanda məskunlaşmış azərbaycanlı olmuşdur (səh.118). O dövrdə rus məmurlarının yazılı məlumatlarına əsasən, XIX əsrin 30-cu illərində İrəvan sakinlərinin 80 %-dən çoxu

müsəlman türklərdən ibarət olmuşdur. Halbuki sonrakı illərdə müsəlmanlara qarşı rus-erməni zorakılığı nəticəsində onların sayı azalmış və bu zorakılıq onları İrəvandan digər bölgəyə köçməyə məcbur etmişdir. Müəllif yazır ki, tarixən yerli xalq hesab olunan Qarapapaqlar tayfası onlara qarşı tətbiq olunan zorakılığa tab gətirməyib Güney Azərbaycanın Urmiya əyaləti ətrafına köçmüşlər.

6 böyük məscidi, 50 savadlı ali müsəlman ruhanisi olan və 1807 azərbaycanlı ailəsinin yaşadığı İrəvan şəhəri XIX əsrin sonunda erməni şəhərinə çevrilmişdir. Halbuki bu şəhərin iqtisadi, mədəni, elmi inkişafında həmin şəhərin sahibi olan azərbaycanlıların böyük xidməti olmuşdur. İrəvanda 1883-cü ildə dünyəvi istiqamətli ilk məktəbi təşkil edən, Güney Azərbaycan "maarifinin atası", "Ana dili" adlı ilk türkcə dərsliyin müəllifi Mirzə Həsən Rüşdiyyənin, ilk pedaqoji gimnaziyanı təşkil edən Mirzə Kazım, Firidun bəy Köçərli, Mirzə Cabbar Bağçaban, Sərraf Rəşidi, Hacı Mirzə Ağasi, Hacı Şeyx Həsən, Məhəmməd Nadim, İbrahim Münşizadə, Mirzə Abdullah İrəvani, Mir Bağır İrəvani, Hacı Mirzəli İrəvani, Hacı Mirzə Əbdülkərim və başqa onlarca din, elm, mədəniyyət xadimlərinin adları İrəvanın XIX əsrin sonu XX əsrin əvvəllərindəki tarixində iftixarla qeyd olunmuşdur. Azərbaycan mədəniyyətinin tanınmış simalarından olan Firidun bəy Köçərli öz xatirələrində M.K.Əsgərzadənin pedaqoji fəaliyyətinə yüksək qiymət verərkən yazmışdır ki, "...Mirzə Kazımın təşkil etdiyi məktəb cümlə İrəvan əhlinin rəğbətini kəsb etmişdi".

XX əsrin əvvəllərində İrəvanda və bütün Qərbi Azərbaycanda anti-müsəlman, anti-türk təbliğatının şiddətlənməsi, erməni zorakılığı və özbaşınalığının

artması yerli əhalinin İrəvandan kütləvi şəkildə didərgin düşməsi ilə nəticələnmişdir. XIX əsrin sonunda Daşnaksütyun partiyasının yaranması və erməni qatillərinin bu partiya sıralarında cəmləşməsi “dənizdən-dənizə böyük Ermənistan” haqda xülyanı formalaşdırdı və onu müsəlmanlara qarşı mübarizədə ideoloji hədəfə çevirdi. Daşnaksütyun partiyasının yaranması ilə Qərbi Azərbaycan torpaqları, o cümlədən İrəvan və onun ətrafındakı bölgələr erməni əsarətinə düşdü.

Doktor Səməd Sərdariniyanın kitabını vərəqlədikcə son yüz ildən artıq bir müddətdə erməni cəlladlarının azərbaycanlılara qarşı törətdikləri çoxsaylı qətllərin, talan və zorakılıqların geniş panoraması göz önündə canlanır. Müəllifin kitabındakı çoxsaylı tarixi faktlar bu gün İrəvanı özünə paytaxt etmiş ermənilərin tarixi keçmişi bilərəkdən təhrif edib saxtalaşdırmalarına tutarlı elmi cavabdır.

Doktor S.Sərdariniyanın kitabı 1999-cu ildə (1379) İranda fars dilində nəşr edilmişdir. İranda qondarma “erməni soyqırımına” aid onlarla yazı dərc olunduğu halda, ermənilərin azərbaycanlılara qarşı törətdikləri cinayətlərlə əlaqədar çıxan əsərləri barmaqla saymaq olar. Bu baxımdan, ictimaiyyətimizin diqqətinə təqdim edilən bu kitab xüsusi əhəmiyyətə malikdir. Təbii ki, bizim oxucumuz əsərin hansı şəraitdə qələmə alındığını və hansı auditoriyaya ünvanlandığını nəzərə almalıdır. Eyni zamanda, qeyd etməliyik ki, əsərdə işlənən bəzi ifadələr və terminlərdə kiçik dəqiqləşdirmələr aparılmışdır.

***Əkrəm Rəhimli (Bije)***

# Müqəddimə

Hal-hazırda Ermənistan Respublikasının paytaxtı və əhalisi ermənilərdən ibarət olan bir şəhər kimi tanınan İrəvan əsrlər boyu təkcə Azərbaycanın vilayətlərindən biri və müsəlman sakinli şəhər kimi deyil, həm də yadellilər qarşısında möhkəm qala hesab olunurdu. Belə ki, İran-Rusiya müharibələri zamanı şəhər əhalisi çar qoşunlarına qarşı müqavimət gostərərək onların qarşısını almışdı. İrəvan müsəlmanlarının bu kimi rəşadət və şücaətinə baxmayaraq, başqa səbəblərdən, o cümlədən ermənilərin xəyanəti nəticəsində İran-rus müharibələri İranın məğlubiyyəti ilə başa çatdı. Arazın o biri tayındakı 17 vilayət rusların işğalına məruz qaldı. Həmin tarixdən bu müsəlman sakinli vilayətin erməniləşdirilməsi siyasətinə başlanıldı. Ruslar İrəvan əhalisinin ermənilərin xeyrinə və onların məqsədlərinə uyğun olaraq erməniləşdirilməsi üçün hazırlığa başladılar.

Qafqazın işğalı üçün ermənilərin ruslarla gizli planı və əməkdaşlığı böyük Pyotr dövründən başlamış, onun xələflərinin hakimiyyəti, o cümlədən II Yekaterina dövründə də davam etmişdir. Nəhayət, İran-Rusiya müharibələri zamanı çarizm öz məqsədlərinə nail olmuşdur. Ermənilərlə rusların əməkdaşlığı sayəsində Arazın o tayındakı ***(şimalındakı - tərcüməçi)*** torpaqlarımız həmişəlik Rusiyanın təsir dairəsinə salınmış oldu.

Fransız Jan Mari Karzu "Ermənistan 1915" adlı kitabında ermənilərlə tam həmfikirlilik nümayiş etdirsə də, kitabın 39-cu səhifəsində belə yazır: "İran və Türkiyə erməniləri İran-Rusiya müharibələrinin gedişində könüllü hərbi qruplar təşkil etməklə, Rusiyaya zəruri xidmətlər və köməkliklər göstərərək bu ölkənin qələbəsini asanlaşdırdılar. Çünki onlar bu məntəqənin

müsəlman dövlətindən ayrılmasını bütün erməni millətinin azadlıq və istiqlalı yolunda ilk addım hesab edirdilər".

Lakin bu müharibələrdə ruslara müqavimət göstərən Qafqaz müsəlmanları onların qəzəb və kininə tuş gəldilər. Əbdüləzim Rezai iki müharibə arasındakı şəraitə işarə edərək yazır: "Gülüstan müqaviləsində İranla Rusiya arasındakı sərhəd düzgün müəyyənləşdirilmədiyi üçün müharibə ikinci dəfə alovlandı. Bir tərəfdən rus orduları Göyçəni işğal edərək, onu qaytarmaq tələbindən boyun qaçırırdılar, digər tərəfdən isə üləmalar cihada fitva verərək, Rusiya ilə müharibəni yenidən başlamaq üçün dövlətə təzyiq edirdilər. Abbas Mirzə, istəyinin əksinə olaraq, İran ordusunun komandanı təyin olundu. İlkin mərhələdə ruslar qəfil yaxalandılar. İran döyüşçüləri əldən getmiş bölgələrdə yaşayan müsəlmanların köməkliyi ilə xeyli irəli gedərək rusları Talışdan, Muğandan çıxardılar, Lənkəran limanını yenidən fəth etdilər. Bakı, Şəki, Şirvan camaatı da rus qarnizonlarına qarşı üsyana qalxdılar və həmin vilayətlər də ikinci dəfə İranın əlinə keçdi".[1]

Ruslar Arazın o tayındakı vilayətləri tutduqdan sonra heç vaxt bu bölgənin yerli sakinlərinə etimad göstərmədilər. Onların ermənilərə qol-qanad verməsi nəticəsində bu millətin nümayəndələri Rusiyanın iqtisadi, mədəni, siyasi, hərbi sahələrdəki tədbirlərində iştirak edərək nüfuz qazandılar. Lakin bütün bu himayədarlıqlara və məskunlaşmanın ermənilərin xeyrinə dəyişdirilməsinə baxmayaraq, 1918-ci ilə qədər ermənilər Qafqazın heç bir məntəqəsində əhalinin əksəriyyətini təşkil etmirdilər. Hətta erməni yazıçısı Anahid Ter Minasyanın dediyi kimi, bir çox əyalətlərdə,

[1]Tarix-e dəhhezarsale-ye İran. IV cild, səh.92

ümumiyyətlə, erməni yox idi. Adı çəkilən yazıçı əlavə edir: "Tiflis Konqresinin əsas nigarançılıqlarından biri Qafqazda erməni milli ərazisinin olmaması idi. Yerli idarəetmə ilə bağlı muxtariyyət əldə etmək üçün ruslara xahişnamə ilə bərabər, "zemstvolar" təsis etmək üçün pərakəndə erməni camaatının yaşadığı çox məhdud sayda əyalət vahidlərinin planı da təqdim edildi".[1]

Özünün icad etdiyi "Böyük Ermənistan"ı hər bir işdə əsas götürən Daşnak partiyası milli ərazinin olmaması problemini vəhşi və cinayətkar üsullarla həll etdi. "İrəvan vilayətindəki 211 azəri ("azərbaycanlı" mənasında – *tərcüməçi*) kəndi xarabalığa çevrildi və 100 minlərlə insan qətliam olundu. Təxminən 300 min İrəvan azərisi məhv edildi...".[2]

Müsəlmanların soyqırımı və etnik təmizlənməsi sonralar da amansızlıqla davam etdirildi. Hal-hazırda bu şəhərdə bir nəfər də müsəlman azəri yoxdur.

Təqdim olunan bu kitabda İrəvan tarixinin ilkin fomalaşma mərhələsindən başlayaraq daşnakların əli ilə müsəlmanların kütləvi qətlinə qədərki dövr araşdırılır. Əsərdə göstərilir ki, Çuxursəd vilayəti və onun mərkəzi olan İrəvan tarixən müsəlman ərazisi olmuşdur. İrəvan Azərbaycan əyalətinin dörd vilayətindən biri olan Çuxursəd vilayətinin mərkəzi idi. Bu vilayətin məşəqqətlər görmüş müsəlmanlarının cəsədləri üzərində təkcə Ermənistan Respublikası yaradılmamış, üstəlik, erməni ekstremistləri Dağlıq Qarabağa qarşı ərazi iddiası qaldıraraq, təcavüzkar rus ordusunun köməkliyi ilə Azərbaycan torpağına hücum edib Azərbaycan Respublikasının 20 faizdən çox ərazisini işğal etmişdir.

---

[1] Anahid Ter Minasyan. Qəfqaz dər tarixe moaser, səh.63

[2] Mənije Turabzade və başqaları. Mahiyyət-e təhəvvolat dər Asiya-ye Mərkəzi və Qəfqaz, səh.71

## Coğrafi mövqe

*Qərbdən Şərqə qədər bütün yer üzü,*
*Bir insan bədəni kimidir, fərqi yoxdur.*
*Bədən ruha möhtac olduğu üçün*
*Bu bədənin də ruhu İrəvandır.*
*(Qüdsi)*

(**Qeyd**: ***Bu əsərin farscadan bütöv tərcüməsi kitabın sonunda verilmişdir)***

Müxtəlif dövrlərdə İrəvan Çuxursəd vilayətinin (Azərbaycanın vilayətlərindən biri) mərkəzi, İrəvan xanlığı, İrəvan vilayəti olmuş və nəhayət, Ermənistan Respublikasının paytaxtına çevrilmişdir. Bu şəhər 40 dərəcə 15 dəqiqə şimal enliyində, 44 dərəcə 35 dəqiqə şərq uzunluğunda, Ağrı dağının (Ararat) 55 kilometrliyində, Alagözün cənub-şərqində, Göyçə gölündən 65 km cənub-qərbdə və Araz çayının qollarından olan Zəngiçayın sol sahilində yerləşir. İrəvan şəhəri İrəvançay adlanan çayın kənarındadır. [1]

İrəvan Ağrı dərəsinin şimal tərəfində 850-1300 metr hündürlükdə yerləşir.[2] Şəhərdən iki çay (Qırxbulaq və Zəngiçay) axır.[3] İrəvanın ünlü şairlərindən olan Hacı Mirzə Ağasinin atası Mirzə Müslüm Qüdsi İrəvan çayları haqqında bir şeirində deyir:

---

[1] "Həmşəhri" qəzeti, sayı 107, 20.3.1374

[2] Ə.Ələkbərli. Qədim türk-oğuz yurdu Ermənistan, Bakı, "Sabah", 1994, səh.184

[3] Jan Yunir. Delavəran-e qomnam-e İran dər cənghaye İran və Rusiye, səh.515

*Araz o çaylarsız Araz deyildir*
*Dəryada batanı xilas etmək olmur.*
*Ona görə onun (Arazın) suyunun dadı xoşdur ki,*
*Onun üzü bu sulara tərəfdir.*

*Heç kəs ona meyl salmazdı,*
*Əgər İrəvandakı sular ona axmasaydı.*
*Qırxbulağın Kövsər suyuna bənzəyən zülalı*
*Hər bir çəməndən və bağdan axır.*
*Hər kim ondan bir piyalə içsə,*
*Meyin keyfiyyətini unudar.*
*Əgər ki, bir xəstə dodağını onunla islatsa,*
*Bir daha o başqa bir xəstəlik görməz.*
*Zəngi ona görə kiçik xəndək olub ki,*
*Onun üstündə yüzlərlə qəsrlər və saraylar var.*
*Ürək açan qəsrlərin bu çayı*
*Nəzarətdə saxlaması onun səfasına sübutdur.*
*Zəngiyə Selsəbil (behişt suyu) demək olar.*
*Surətin aynası kimi üzü gizlətməsə də,*
*Bunun əksinə olaraq onun adını kafur qoydular.*
*Onun mənbəyindən ta son sərhədinə qədər*
*Bir damcısı da zaya getməz.*
*Hamısı dürr olar bu axar suyun,*
*Apreldə yağan yağışın damcıları tək.*
*Sularındakı saysız-hesabsız balıqlar*
*Dalğa yaratmaqla onun sularını parça-parça edər.*
*Suyunun üstü başdan-başa ördək-qaz*
*Üzərlər, ördəkdən, şahbazdan uzaq.*

İrəvanın gözəl havası var, lakin qış uzun çəkdiyindən bərk soyuqlar olur. Əksər halda səur ayında (ordibehişt - bizim təqvimlə aprel) qar yağır... Tiflisin on fərsəngliyində şirin su dəryaçası var. Həmin dəryaçanın ətrafında, təxminən iyirmi fərsəngdə (bir

fərsəng 12 min addıma, təqribən 6-8 km.-ə bərabərdir - *redaktor*), şimal tərəfdə İrəvan yerləşir. Adı çəkilən dəryaçada bir zər (104 sm.-ə bərabər uzunluq ölçüsü) böyüklükdə forel balığı görünmüşdür.[1]

*Havası cənnət havasına bənzər,*
*Fərəh verən kimi ruhuna qanad verər.*
*Əbədiyyət ağacına bənzəyən gözəlliyindən*
*Qocalıqdan sonra da cavanlıq gələr.*
*Bu eyş-işrət təsirli dinclik yerində*
*Heç vaxt xəstəlik olmaz.*

Qüdsi

Şərq tərəfdən İrəvanın 12 fərsəngində Ağrı dağı yerləşir. Camaatın fikrincə, Nuhun gəmisi orada yerə oturub. Dağ kifayət qədər yüksək olduğundan hava açıq və buludsuz olanda 2-10 fərsəng məsafə aydın görünür. Ağrı dağının hündürlüyü 17.266 ingilis futuna bərabərdir (3,5 ingilis futu, təxminən 1 İran "zər"i deməkdir). Ermənilər bu dağı Masis adlandırırlar. Etiqada görə, guya onların əcdadalarından olan Aram oğlu Masis bu dağı öz adına uyğun olaraq adlandırmışdır. Ancaq fransızlar onu Ararat, ərəblər Cudi adlandırırlar. Şardənin səyahəti zamanı İran əhalisi onu müqəddəs sayaraq deyirmiş ki, Nuhun gəmisi bu dağda dayanmaqla onu Yer kürəsinin başqa nöqtələrindən daha izzətli edib.[2]

İrəvan böyük İpək yolunun üstündə idi. Bu yol Çinin Tvan Hanq vilayətindən Kansu vilayətinə doğru uzanırdı. Oradan Şərqi Türküstana daxil olur, Beşbalıq,

---

[1] Bax: Etimadüs-səltənə. Mirat-ül Bildan. Doktor Hüseyn Nəvainin redaktəsi ilə, I cild, səh.182
[2] Bax: Yenə orada, səh.185

Almalıq, Otrardan keçərək Səmərqənd və Buxaraya çatırdı. Buxarada yolun əsas hissəsi Mərv və Gürgandan keçərək, Reyə gəlir, Reydən Qəzvinə, Zəncana, Təbrizə, İrəvana doğru, İrəvandan isə ya Trabzona, ya da Şamdakı limanlara qədər uzanırdı. Köməkçi yol isə Səmərqənddən Xarəzmə, Xarəzmdən Həştərxana, oradan isə Don sahillərinə və Azov dənizinin limanlarına gəlib çatırdı.[1]

Mərv hakiminin vəziri Məhəmməd Kazım Mərvi yazır: "Bu bölgədə hündürlükdə və möhkəmlikdə tayı-bərabəri olmayan iki qala vardır: Rum keçidində İrəvan qalası, Türküstan keçidində Mərv qalası.

Bu sözləri ilə ifrata varan şair onların hər ikisini tərənnüm edib, İrəvan qalasının yüksəkliyini birinci yerdə qeyd edir:

*Poladdan tökülmüş dağ kimi hasarı olan*
*Bu qalaya baxanda göz sulanır.*
*Onun dövrəsində səf-səf düzülmüş bürclər*
*Göy üzündəki ulduzlar kimi görünür.*
*Onun göyü əzən elə dişi var ki, (divarlardakı çıxıntılar nəzərdə tutulur)*
*Bundan günəş, ay və planetlər qorxuya düşüb.*
*Onun hər uca və yüksək guşəsindən*
*Günəşin və ayın qübbəsi görünür.*
*Belə qalalara heç kəs tay göstərə bilməz*
*Bunlardan biri Mərv, o birisi İrəvan qalasıdır".*[2]

---

[1] Bax: Abbas İqbal Aştiyani. Tarix-e Moğol, səh.569

[2] Məhəmməd Kazım Mərvi. Aləmara-ye Nadiri. Doktor Məhəmməd Əmin Reyahinin düzəlişi ilə, II cild, səh.210 və 613



**İrəvan qalası**

İrəvan qalası memarlıq baxımından da Şərqin türk məntəqələrinin mühüm mədəniyyət abidələrindən hesab olunur. Qalanın 50-60 bürcü olmuşdur. XVIII əsrin nadir və qiymətli incilərindən olan Xan sarayı və Göy məscid kimi bu qala da səyyahları həmişə heyrətə salmışdır. Qaladan əlavə, burada 7 məscid, 2-3 mərtəbəli evlər, kişi və qadın hamamları, xeyli sayda karvansaralar və digər abidələr olub. İrəvanın Gürcü, Culfa, Sərdar, Tağlı, Sulu, Susuz, Hacəli karvansaralarının hər birində onlarla dükan fəaliyyət göstərirmiş.[1]

*Bostan meyvələri ilə dolu*
*Bazarı, yeməkxanası, ticarət sıraları var idi.*
*Hamı gözüaçıq və xoşagələn təb əhli idi,*
*Hamı xaliqin lövhəsindəki yazıya bənzəyirdi*

---

[1] Bax: Ə.Ələkbərli. Qədim türk-oğuz yurdu Ermənistan. “Sabah”, Bakı, 1994, səh.186

*Hamı tədbirli idi.*
*Qüdrətli yaradanın baş nüsxəsinə bənzəyirdi.*
*Hamı Evkilidin çəkdiyi rəsm kimi xoşa gəlirdi.*
*Hamı ürəkaçan savad sahibi idi.*
*Dükan və qapalı bazarda xətir-hörmət tuturdular.*

*Evlərdə əziz qonaq kimi "xoş gəldin" deyir və xoş üz göstərirdilər.*

*Çaharbazar sanki Səfahan (klassik musiqinin melodiyası) səsidi.*

*Hər tərəf hind və Turan,*
*Nəfis Rum və İran malları ilə dolu idi.*
*Ürəklə və canla satılan malları alırdılar,*
*Çünki yaxşı mallar ucuz satılırdı.*

(Qüdsi)

İrəvan qalası haqqında söhbət açan bir çox səyyahlar və tədqiqatçılar buranın yer adlarını da qeyd etmişlər:

**Məhəllələr:** Şiləçi, Sabunçu, Boyaqçı, Toxmaq, Danabaşı, Dəmirbulaq, Bağçalar, Yoncalıq, Burəkçi və s.

**Karvansaralar:** Gərni, Culfa, Sərdar, Tağlı, Sulu, Susuz, Hac Əli və s.

**Bulaqlar:** Dəmirbulaq, Qırxbulaq, Dolmabulaq, Sərdar bulağı və s.

**Çaylar:** Gedər çay, Qırxbulaq, Zəngiçay və s.

**Bağlar:** Dərə bağı, Dəmirbulaq, Dərəkənd, Şəhər, Abbas bağı və s.

**Meydanlar:** Məscid meydanı, Zalxan meydanı, Fəhlə meydanı, Böyük meydan, Şəhər meydanı və s.

**Məscidlər:** Göy məscid, Qala məscidi, Hacıbəyim məscidi, Zalxan məscidi, Günlüklü məscid, Günbəzli məscid, Şəhər məscidi, Noruzəli məscidi.[1]

*Məhəllələri cananla vüsal küçəsi tək*
*Pərişan könülləri şad eyləyir.*
*Hər küçənin xoşüzlülüyü*
*Onu ürəkaçan xiyabana çevirir.*
*Şəhərin hər qədim küçəsi*
*Naim bağının təmizliyindən nişan verir.*
*Camalı ilə qəlb ovsunlayan bu şəhər*
*Bir baxışla candan yüz qəmi çıxarır.*
*O zaman ki, gül öz hüsnünü göstərir*
*Onun üzü xəzanın bəd yelini gömür.*

(Qüdsi)



**Azərbaycan türklərinə məxsus Göy məscid**




**İrəvanda Xan məscidi**



**İrəvan Sərdar xan sarayı**



**Zəngi çayı sahilində Xan bağı**

---

[1] Bax: Ə.Ələkbərli. Qədim türk-oğuz yurdu Ermənistan. Bakı, "Sabah", 1994, səh.186

## Ad

İrəvan - Rəvan - Erivan adlanan bu şəhər Ermənistan sovetləşdikdən sonra "Yerevan" adlandırılmışdır.[1]

Əziz Ələkbərli isə yazır ki, hal-hazırda Ermənistanın paytaxtı olan şəhər 1930-cu ilə qədər İrəvan, Erivan, bəzi mənbələrdə isə Erəvan adlandırılmışdır.[2]

## Tarixi keçmiş

Bartoldun yazdığına görə, "İrəvanın əsası hicri tarixinin başlanğıcında qoyulsa da, həmin təqvim üzrə IX əsrə qədər o, kiçik bir kənd olub. Qeyd edilən tarixdən sonrakı əsrdə İrəvan şəhərə çevrilmişdir".[3]

"Miladi tarixi ilə 661-ci ildə İrəvanın əsası qoyulmuşdur".[4]

Ə.Ələkbərli yazır: "İrəvan şəhəri müxtəlif dövrlərdə Sasani sülaləsinin, Ərəb xilafətinin, Qaraqoyunluların, Ağqoyunluların və Səfəvilərin ərazisinə daxil idi. Xüsusilə də Səfəvilər dövründə İrəvan Şah İsmayıl Xətainin diqqət mərkəzində olmuşdur. O öz sərdarlarından birini - Rəvanqulu xanı həmin məntəqənin hakimi təyin etmiş və ona şəhərin abadlaşdırılmasına diqqət yetirməyi tapşırmışdı.[5] İrəvan adlandırılan bu yer o zamana qədər də mədəniyyət mərkəzi olmuşdur.

---

[1] "Həmşəhri" qəzeti, sayı 107, 20.3.1374

[2] Ə.Ələkbərli. Qədim türk-oğuz yurdu Ermənistan. Bakı, "Sabah", 1994, səh.186

[3] Əli Pursəfər. Hokumətha-ye məhəlli-ye Qəfqaz dər əsr-e Qacar, səh.89

[4] Etimadüs-səltənə. Sədr ət-təvarix. Məhəmməd Müşirinin tərtibatında, səh.153

[5] Ə.Ələkbərli. Qədim türk-oğuz yurdu Ermənistan. Bakı, "Sabah", 1994



**İrəvan yaxınlığında Azərbaycan Qaraqoyunlu əmirlərinə məxsus Cəfərabad türbəsi.**

Jan Yunir yazır: "...Hündür təpələr İrəvanın qərb hissəsinin yaxınlığında idi. Həmin təpələrdə miladdan əvvəl 3-cü minillikdə metaləritmə ocaqları olmuşdu. Orada dəmir əridir, polad əldə edirdilər. Həmin təpələrdə aparılan tədqiqatlar nəticəsində bir çox arxeoloqlar burada qədimdə dulusçuluğun dəmir əritmədən və dəmirçilikdən əvvəl olması barədə fikir irəli sürürlər"[1].

*Hər addım torpağını qazanda*
*Kifayət qədər Allah nəməti tapılır.*
*Hər kəs bu torpaqda ocaq qalasa,*
*Həmin torpaqda qızıl və gümüş əridər.*
(Qüdsi)

Övliya Çələbinin dediyinə görə, bu şəhər XV əsrin əvvəllərində Teymurun tacirlərindən olan Xacəxan Lahicani adlı birisi tərəfindən bir yaşayış yeri kimi abad edilmişdi. İlk dəfə Səfəvi hökmdarı Şah İsmayıl Xətainin göstərişi və onun vəziri Rəvanqulu xanın başçılığı ilə XVI əsrin əvvəllərində şəhərə çevrilərək

---

[1] Jan Yunir. Delavəran-e qomnam-e İran dər cəngha-ye İran və Rusiye. Tərcümə edən: Zəbihulla Mənsuri, səh.588

hasara alınmışdı. Nadir şahın qətlindən sonra İrəvanda iğtişaşlar və qarışıqlıq baş verdi. Osmanlı dövləti İranın daxili işlərinə müdaxilə etmədi. Öz müstəqilliyini elan etmiş İrəvan digər Azərbaycan xanlıqları kimi müstəqil türk əmirliyi oldu".[1]

İrəvan uzun əsrlər boyu yerli türkdilli tayfaların, o cümlədən Qacar qəbiləsinin bir qolunun məskəni olub. Etimadüs-səltənənin yazdığına görə, "bu tayfalardan biri "yuxarıbaş", digəri isə "aşağıbaş" tayfası kimi tanınırdılar. Bu iki adla çağırılan eyni tayfa haqqında fransız və İran tədqiqatçıları bildirirlər ki, çayın yuxarı hissəsində yaşayanlar "yuxarıbaş", aşağı hissəsində yaşayanlar "aşağıbaş" adlandırılmışdır.

Mənbələrin verdiyi məlumata görə, Tiflis-İrəvan arasında dəmir yolu 1902-ci ildə, Culfa-İrəvan dəmir yolu isə 1908-ci ildə çəkilmişdi. İrəvan şəhərinin adı sovetlər dövründə "Yerevan" olmuşdur.

Bunu da qeyd edirlər ki, qədimdən Astarabadda yaşayan Qacar tayfası buraya gəlməzdən qabaq "Qovanlı" kimi tanınırdı.

"Dəvəllu adlanan tayfa da İrəvan ətrafında eyni adlı kənddə yaşadığına görə Dəvəllu adlanmışlar".[2]

Abbasqulu ağa Bakıxanov yazır: "Əmir Teymur Rum, Şamdakı tayfalardan (Gəncə ətrafındakı Ayrım tayfası da həmin qəbildəndir) əlli min türk ailəsini Gəncə, Qarabağ və İrəvan ərazilərində yerləşdirmişdi. Həmin yerlərin əksər əyalətlərinin əhalisi onların nəslindəndir". O, başqa bir yerdə qeyd edir: "İrəvan, Gəncə, Qarabağ əhalisinin və əmirlərinin çoxu Qacar nəslindən idi".[3]

---

[1] "Həmşəhri" qəzeti, sayı 107, 20.3.1374

[2] Etimadüs-səltənə. Mirat-ül Bildan. Doktor Hüseyn Nəvainin redaktəsi ilə, I cild, səh.69-72

[3] Abbasqulu ağa Bakıxanov. Gülüstani-İrəm, səh.70 və 173

# Dvin, yoxsa Dəbil

İrəvan bir şəhər kimi formalaşmazdan öncə bu ərazi Dvin adlandırılıb. O, müsəlman hökmdarlarının mühüm mərkəzlərindən və Azərbaycanın şəhərlərindən biri sayılırdı. Bəzi ərəb mənbələrində "əhalisinin tərkibi müsəlman və qismən xristianlardan ibarət olan"[1] bu şəhər “Dəbil” adlandırılırdı. Le Strenc yazır: "Ermənistan iki hissədən ibarət olub: daxili Ermənistan, xarici Ermənistan. Əhalisinin bir qismi xristian olsa da, bu əyalət qədim dövrdən müsəlman hakimiyyəti altında idi... Müsəlman əyalətin paytaxtı qədim zamandan "Dvin", bəzən də "Tvin", bəzi mənbələrdə isə Dəbil adlandırılıb. IV əsrdə Dəbil Ərdəbildən böyük idi və bu bölgənin ən mühüm şəhəri sayılırdı. Üç qalası var idi. Şəhərin Came məscidi də, onun yanında idi...".[2]

Professor V.F.Minorski yazır: "Dvin ərəb istilalarının ilk günlərindən islam hökumətinin mühüm mərkəzi sayılırdı... Digər şəhərlərindən fərqli olaraq Dvin ölkənin qurtaracağında, 72-ci meridian və 39-cu paraleldə yerləşirdi. Əyyubi sultanlarının əsli oradandır".[3]

"Şərəfxan Bitlisi (Bidlisi) bir neçə dəfə bu məsələyə toxunub ("Şərəfnamə", V.Velyaminov-Zernov, Peterburq, 1760, II cild, səh.213-239). O, Səlahəddin Əyyubinin əcdadından bəhs edərkən onu Dvin əhli adlandırıb. O qeyd edir ki, sonralar bu şəhər

---

[1] V.F.Minorski. Pejuheşha-ye dər tarix-e Qəfqaz. Tərcümə edən: Möhsün Xadim, səh.11

[2] Le Strenc. Coğrafiya-ye sərzəminha-ye xilafət-e şərqi. Tərcümə edən: Mahmud İrfan, səh.196

[3] V.F.Minorski. Pejuheşha-ye dər tarix-e Qəfqaz. Tərcümə edən: Möhsün Xadim, səh.11

dağılmağa başlamış və Çuxursədin Gərni kəndi kimi tanınmışdı. "...Misir məliklərinin əcdadı Şadi ibn Mərvanın da əsli Azərbaycan Dvininin Rəvəndə *(Rəvadiyyə oxunmalıdır)* kürdlərindən idi. İndi Gərni kəndi Çuxursədin bir kəndi kimi tanınır” (Misir çapı, 1930, I cild, səh.83). “Şərəfxanın adını çəkdiyi Gərni kəndi bu gün də mövcuddur".[1]

Professor Minorskinin "Şirvan və Dərbənd tarixi" və "Qafqaz tarixinə dair tədqiqatlar" əsərində bu şəhərin hakimləri və o zamankı tarixdə baş verən hadisələr şərh olunmuşdur. Kembric Universitetinin nəşr etdiyi çoxcildli "İran tarixi" kitabında bu şəhər və onun müsəlman hakimlərindən bəhs olunur.[2]

Bu dövr tarixçilərinin tədqiqatlarına görə, Dvin sikkə çap eləyən birinci müsəlman şəhərləri sırasında olmuşdu... "İranda qızıl sikkə çapı hicri təqvimi ilə 3-cü yüzilliyin, miladi təqvimi ilə IX əsrin birinci rübünün sonunda başlamışdı... Ümumiyyətlə isə İran sikkəxanalarında dinar zərb edilməsi tarixi III əsrin (hicri təqvimi) sonuna qədərki dövrə aid edilir".

Bu əsərdə Dəbil şəhərində sikkə zərb edilməsi tarixi hicri 241-ci il göstərilir və əlavə edilir ki, bu ölkənin qərbindəki kiçik əyalətlərdə sikkə zərb edilməsinin bir nümunəsi türk Yusif ibn Divdad Sacinin 303-cü ildə Dəbildə zərb etdirdiyi dinardır... Bu sikkənin həmin dövrdəki Abbasi dinarlarından heç bir fərqi yoxdur. Təkcə sikkənin arxasında xəlifənin adından əlavə, əmir Sacinin də adı yazılmışdır.

---

[1] Faruq Sumer. Qaraqoyunluha. Doktor Vahabvəlinin tərcüməsi, səh.39

[2] V.F.Minorski. Pejuheşha-ye dər tarix-e Qəfqaz. Tərcümə: Möhsün Xadim, səh.186

Kəsrəvi "Adları itmiş hökmdarlar" (farsca) adlı kitabının bir çox səhifələrində bu şəhərdən və onun hakimlərindən söz açmışdır. O yazır: "Ermənilərin bir çoxu iddia edir ki, burada hakimlik müsəlmanların əlinə ərəb istilasından sonra keçmişdi. Hökmdarlar buraya ya Bağdaddan, ya da Azərbaycandan göndərilirdi. Halbuki Dvin və onun ətrafı qədimdən İran əsilzadələrinin *(azərbaycanlı əsilzadə başa düşülməlidir)* əlində olmuş və bu bölgədəki əhalinin əksəriyyəti iranlılardan *(türklərdən - elmi redaktor)* ibarət olmuşdu". [1]

## Çuxursəd

Bu gün Ermənistan Respublikası adlanan torpaq əsrlər boyu Çuxursəd adını daşımış yurdun bir hissəsidir.

Professor Minorski Mirzə Səmianın "Təzkirat-ül Moluk" kitabı üzərində apardığı araşdırmalarla bağlı yazdığı şərhdə Çuxursəd vilayəti haqqında yazır: "Çuxursəd sonradan geniş yayılmış coğrafi bir termindir. O, ilk dəfə Səfəvilər dövründə daha çox İrəvan əyaləti haqqında işlənib. "Aləmara"nın 168-ci səhifəsində qeyd olunur ki, Qars Çuxursədlə Ərzurum arasında yerləşir. Həmin kitabın 558-ci səhifəsində yazılıb ki, Çuxursəd Axısxada qurtarır və onunla həmsərhəddir. "Çuxursəd" türk dilində "çökək yer" kimi şərh olunur. Göründüyü kimi, burada Arazın iki tərəfindəki çökəklik nəzərdə tutulur".[2]

Əllamə Mirzə Məhəmməd xan Qəzvini yazır: "Aləmaraye-Abbasi"də və qaim-məqamın ədəbi yazıla-

---

[1] Ə.Kəsrəvi. Şəhriyarane qomnan, səh.238 və 107

[2] Sazman-e edari-ye hokumət-e Səfəvi. Tərcümə: Məsud Rəcəbniya, səh.191

rının bir-iki yerində adı çəkilən və müsyö Minorskinin qeydində tez-tez bəhs olunan Çuxursəd İrəvanın yaxınlığında yerləşir”. Bu cümlə "Aləmara"da yüz dəfələrlə təkrar olunur. Deyilənə görə, o yer Naxçıvan və Qarabağın sərhəddində bir vilayət olub. Əllamə Qəzvini "Səəd" adının izahından xəbərsiz olduğunu bildirsə də, Faruq Sumer onu "Səədlu" tayfası ilə əlaqələndirir və yazır: "Səədlu tayfası Qaraqoyunlu qəbiləsinin ətrafında cəmləşmiş və bu ad (Qaraqoyunlu) altında bir konfederasiya yaratmış digər tayfaların başında dayanmışdılar. Bu tayfa öz adını miladi təqvimi ilə XIV əsrdə *(ehtimal ki, qeyd olunan əsrin ikinci yarısının ortalarında və yaxud əvvəllərində - müəllif)* tayfanın idarə edilməsində məsuliyyət daşıyan tayfa başçısı və əmiri "Səəd"in adından götürmüşdü. Belə görünür ki, bu əmirlə Qaraqoyunlu qəbiləsi arasında qohumluq əlaqəsi olmuşdu. Çünki iranlı müəlliflər Səədin övladlarını Qaraqoyunluların əmizadələri kimi təqdim etmişlər. Hafiz Əbrunun yazdığına görə, Naxçıvanın və Sürməlinin ətrafı qədimdən bu tayfanın məskəni olmuşdu. Miladi təqvimi ilə XV əsrdən sonra müxtəlif tarixi kitablarda haqqında danışılan bu tayfanın adı Səfəvilər dövründə İrəvana və üç əyaləti əhatə edən məntəqələrə verilməklə Çuxursəd yaranıb. Həmin adın bu tayfanın yaşadığı ərazi ilə əlaqəsi qətidir". Qüdsi bu vilayətin adı barədə yazır:

*Səadət onu aram etdiyindən,*
*Ona əvvəldən Çuxursəd adı verdilər.*
*Əlbəttə, ad fələkdən nazil olur,*
*Bu torpağa verilən ad səbəbsiz olmaz.*
*Səadət ona görə bura nəsib olub ki,*
*O, bu vilayətin adına vurulub.*

Professor Faruq Sumer Çuxursəd vilayəti ilə bağlı qiymətli tədqiqat aparmışdır. O, bu haqda yazır: "...Çox uzun araşdırmalardan sonra gəldiyim nəticəyə görə, iranlı müəlliflərin Çuxursəd adlandırdığı məntəqə Ərivanın qərb və cənub-qərb hissəsində bir bölgə olmuşdur. Osmanlı mənbələrində "Səəd çuxuru" kimi verilmişdir. Bu nahiyə qərbdə Araz və Arpaçayın qovuşağına, cənubda isə Araza qədər uzanırdı. Bildiyim qədər, bu kəlmə ilk dəfə "Kitabi-Diyarbəkriyyə" kitabında işlənib. Çələbinin gündəliyində [1] Yavuz Sultan Səlimin Səfəvilərlə müharibədən qayıdarkən düşərgə saldığı yerlər arasında bu bölgənin də adı çəkilmişdir *(məsələn, "Çuxursədin ətraflarından sayılan Hacılaləli yaxınlığında Kiçik Vadi kəndi və Böyük Vadi kəndindən aşağı" cümləsində Çuxursədin adı çəkilir - müəllif )*. Orada daha sonra yazılır ki, üçüncü gün saat 5-də Çuxursəd ətrafındakı Zəngi çaydan keçib, Dəvəli Ömər kəndini və Keçi Vəli yurdunu arxada qoyaraq İrəvan şəhərinin yaxınlığına endilər. Dördüncü gün saat 6-da Çuxursəd ətrafındakı təpədən keçib "səkkiz mənzillikdə" düşərgə qurdular. Həm sol, həm də arxa tərəf dağ idi. Burada adı çəkilən Çuxursəd və onun ətrafındakı yerlər böyük miqyaslı coğrafi xəritələrdə də qeyd olunur".

"Cahanara"da da Qaffari ona işarə edir. Həsən bəy Rumlu yazır ki, İskəndər Mirzə Qaraqoyunlu Qaqızman yoluyla Çuxursəd və Sürməliyə gəldi və qışı orada keçirdi. O, Səfəvilər bölməsində (səh.59) deyir ki, Şah İsmayılın Əlvənd Mirzə ağa Qaraqoyunlu ilə müharibəsi hicri 907-ci ildə *(miladi 1501-ci il)* Çuxursəddə və Şərur ətrafında baş verdi. Həmin

---

[1] Firudin bəy. "Monşəat-üs Səlatin" ("Sultanların salnaməsi"). İstanbul, 1274, 1-ci cild, səh.405

müəllif əsərinin başqa bir yerində Ərzurum valisi İskəndər paşanın Çuxursədə hücumunu şərh edərək yazır: "...Sultan Süleymandan qabaq Rumun padşahı və Ərzurumun hakimi olan İskəndər paşa Hacı bəy Dünbülini qətlə yetirmiş və Çuxursədə gələrək oranın bazarını yandırmışdı..." (səh.356). Müəllifin burada Çuxursəd bazarı adlandırdığı bazar yalnız İrəvan bazarı ola bilər.

İbrahim Pəçəvi Əfəndi şahzadə Bəyazidin İrana qaçmasından söhbət açarkən bu yerin adını "Saat Çuxuru" və "Səəd Çuxuru" kimi qeyd edir[1]. P.Əfəndi yazır ki, Tuyğun paşa, qardaşı Malatya əmiri Mustafa paşa, Eyntəb (Antep) əmiri Xosrov paşa öz əsgərləri ilə birgə onu təqib etməyə başladılar. Bir neçə dəfə maneələrlə qarşılaşsalar da, bir müddətdən sonra "Saat Çuxuru" adlanan yerdə şahzadəyə çatdılar .[2]

Səfəvilər miladi təqvimi ilə XVII əsrdə Çuxursədi Türkiyə ilə sərhəddə özlərinin 8 bölgədən ibarət ən böyük bəylərbəyliyinə çevirdilər. Çələbi öz kitabında[3] deyir: "87-ci paralel və 39-cu meridianda bir bölgə mərkəzi vardır ki, onu Çuxursəd adlandırırlar... Arpaçay Çuxursəddə Araza birləşir".

Əldə olan bu şərhlər əsasında "Çuqursəd"in, "Çuxursəd"in, "Saat Çuxuru"nun harada olmasını bilmək olar. Bu məlumatlara və yuxarıda deyilənlərə istinad etməklə, Çuxursədin dəniz səviyyəsindən aşağı olmasını və XIV əsrin ikinci yarısında “Səəd” adlı türkmən əmirinin *(Qara Məhəmmədin müasiri - müəllif)* qışlaq yeri olduğunu söyləmək mümkündür. Adı bu yurda verilmiş türkmən əmiri sonralar qəbiləsi

---

[1] Tarix, I cild, səh.396
[2] Yenə orada, səh.349
[3] Cahannüma, səh.391

ilə qış fəslini həmişə burada keçirmişdir. Səfəvilər dövründə də mərkəzi İrəvan olan bu bölgə böyük idarəçilik məntəqəsinə çevrildi. “Əsl "Səəd çuxuru” məntəqəsində Sürməli adlı digər bir yer də vardır ki, həmin yer Erivanın qərbindədir. Üçkilsə (Eçmiədzin) də Səəd çuxurunun ən mühüm yaşayış yerlərindən biridir. O, Iğdırın şimali-qərbində, Qaqızmanın şərqində, Arazın kənarında yerləşir. Hicri-qəməri tarixi ilə 788-ci ildə *(miladi tarixi ilə 1380-cı ildə)* baş vermiş Teymur dövrünün Birinci Şərq müharibəsində (3 illik yürüş) Sürməli qalası da işğal olunmuş və qalanın Tuman (Tümən) adlı türkmən hakimi də əsir düşmüşdü”.[1]

Hafiz Əbru "Zübdətüt-təvarix" əsərində Şahruxun ordusunun hərəkət istiqamətindən danışarkən deyir: "Tərəkəmələrin yaşadığı yerin və türkmən ordusunun əsasını təşkil edən Səd oğullarının qədim yurdu Naxçıvana və Sürməliyə doğru hərəkət etdilər... ". Deməli, o yer Səd oğullarının qədim yurdu olmuşdur.

Mirzə Səmia "Təzkirətül-müluk" əsərinin sərhəd əmirlərinin və xidmətdə olan şəxslərin tiyul və məvacibinə dair fəslində Səfəvilər dövründə Azərbaycan əyalətinin dörd bəylərbəyliyinə bölündüyünü aşağıdakı kimi şərh etmişdir: a) Təbriz, b) Çuxursəd, c) Qarabağ, d) Şirvan.

Beləliklə, mərkəzi İrəvan olan Çuxursəd vilayəti Azərbaycanın dörd əyalətindən biri olmuş və aşağıda qeyd olunan 8 inzibati əraziyə bölünmüşdür:

1. Naxçıvan - Arazın sol sahilində.

---

[1] Çuxursəddə sədlulardan əlavə, digər türkdilli qəbilələr – ustacıların və əspirluların da yaşadığı qeyd olunur. Bax: Şərəfəddin Əli Yəzdi. Zəfərnamə. Kəlküttə, 1887, I cild. səh.399

2. Maku - Arazın sağ sahilində (Çaldıran çölü də bura daxildir)

3. Zarzəbil - Göyçə gölünün cənub-şərqi hissəsində Zarzəbil adlı kənd.

4. Sədərək - İrəvandan Naxçıvana gedən yolun yarısındakı (Şərur nahiyəsində) yerləşir.

5. Bayəzid - Ağrı dağının cənubunda yerləşir.

6. Şadilu - Ağrı dağının yaxınlığında yerləşir.

7. Dünbüli kürdləri - Türkdilli olmayan bir elin bir hissəsi olmasını ehtimal etmək olar.

8. Məğazberd - Arpaçayın qərb tərəfində, İranın şimal-qərbində son nöqtə hesab olunan "Əfi" xarabalığının yaxınlığındadır. Səfəvi-Osmanlı müqaviləsində *(hicri-qəməri 1049, miladi 1639-cu il)* onun adı çəkilmişdir.

Çuxursəd adı çəkilən vilayətin adı olmaqla bərabər, bu vilayətdəki kəndləri və məntəqələri də əhatə edirdi. Etimadüs-səltənə yazır: "Çuxursəd kəndləri İrəvan və Şərur yerləridir. Türkmən Əlvənd paşa ilə Şah İsmayıl bu yerdə döyüşmüşdür".

## İrəvan Şah İsmayıldan Şah Abbasa qədər

Şah İsmayıl Xətai qiyamının başlanğıcında Ərdəbilin coğrafi mövqeyini iqamətgah üçün münasib bilmədiyindən, Çuxursəd vilayətinə getdi. Hicri-qəməri tarixi ilə 905-ci ildə (miladi təqvimi ilə 1500-ci ilin baharında) Ərdəbili ziyarət etdikdən sonra Göyçə gölü tərəfə yola düşdü. Zahirən bu səfərin məqsədi sultan Hüseynlə ittifaq bağlamaq kimi görünsə də, əslində o, Anadoluya getmək istəyirdi. O, qışlaqda çadır qurduğu vaxt bir neçə qasidini müridləri hazırlamaq üçün Anadoluya göndərdi. Qasidlərdən biri -

Həmzə bəy Qoçoğlu öz qəbiləsinə tərəf yola düşdü. Burada özünü Cahanşah Qaraqoyunlu nəslindən hesab edən Hüseyn Baraninin iddiası barədəki fikirləri bir kənara qoysaq, o zaman İsmayılın ətrafında xeyli insanın toplaşması barədə deyilənləri qəbul etməliyik. Şeyx Səfəvi Hüseyn bəyin əli ilə tutulmasından qorxduğu üçün gecə vaxtı öz müridləri ilə birgə həmin yerdən qaçdı və İrəvanın cənubundakı Çuxursədə gəldi. Burada ona doqquz dəstə (doqquz övlam) birləşdi. Səfəvilərdən olan Qaraca İlyas da tabeliyindəki şəxslərlə öz şeyxinin hüzuruna gəldi. İsmayıl yoluna davam edərək Qaqızman, Ərzurum və Tərcandan keçib Sarıqaya adlanan yerin cənubunda qışı keçirdi *(hicri-qəməri tarixi ilə 905-ci il / miladi tarixi ilə 1500-ci il).* İsmayıl burada ustaclı qəbiləsinin çavuşlu tirəsindən ata babası Süleyman olan oğulları qəbul etdi. İsmayıl 2 aydan artıq Sarıqayanı özünə məskən seçdi. Bu müddətdə o, mağarada yaşayan və yerli əhalinin rahatlığını pozan böyük ayını oxla ayağından vuraraq müridlərini heyrətləndirdi və sonra Ərzincana getdi".

Şah İsmayılın Ağqoyunlu Əlvənd Mirzə ilə döyüşü də hicri-qəməri tarixi 907-ci ildə *(miladi 1501-ci ildə)* Çuxursədin Şərur tərəfində baş verdi.

Əlvənd Mirzənin 30 minlik, İsmayılın isə 7 minlik qoşunu *(Hüseyn bəy Rumlunun yazdığına görə, əksəriyyəti cələfsiz idilər*) Şərur yaxınlığında üz-üzə gəldilər. Dərhal aydın oldu ki, Ağqoyunlu qoşunu döyüşə yaxşı hazırlaşmayıb, çünki əsgərlərin fərariliyinin qarşısını almaq üçün "göstəriş verildi ki, bütün dəvələri toplayıb zəncirlə bir-birinə bağlasınlar və qoşunun arxasında saxlasınlar. Beləliklə, hər kim vahiməyə düşüb vadiyə tərəf qaçsa, yolu bağlanacaqdı".

Əlvənd Mirzənin ən cəsur əsgərlərindən bir neçəsi - Lətif bəy, Seyid Qazi bəy (Seyid Qazi), Musa bəy, Məhəmməd bəy Qıçıği qətlə yetirildilər. Tezliklə Ağqoyunlu qoşunu darmadağın edildi və dəvələrin səfi onların qaçmasına mane oldu. Əlvənd isə çox çətinliklə də olsa, döyüş meydanından qaça bildi. Səfəvilər bu döyüşdə böyük qənimət əldə etdilər. "Aləmara"da yazılanlara görə, həmin döyüşdə 18 min adam həlak olub.

Şərur döyüşündəki qələbə Azərbaycanı İsmayılın ixtiyarına verdi. O, bu qələbədən sonra Təbrizə doğru hərəkət etdi və burada xüsusi ehtiramla qarşılandı.

İsmayılın Təbrizə gəlişi Azərbaycan tarixində böyük bir hadisəyə çevrildi. Həmin vaxtdan Səfəvi sülaləsinin şahlığının əsası qoyuldu.

Mirzə Müslim Qüdsi Şəruru vəsf edən bir şeirində yazır:

*Əgər göz cahan üçün bir nur çeşməsidirsə,*
*Cahanın gözü Şərurdur.*
*O, elə bir mülkdür ki, dünya xaqanları*
*Daim ona sahib olmağa cəhd edib.*
*Onun bol nemətinə görə*
*Hücumlara məruz qalıb.*
*Bütün il boyu burada bahardır,*
*Onun baharı xəzandan uzaqdır.*
*Orada axan çayların kənarında geniş otlaqlar var,*
*Heyvan sürülərinin sayı-hesabı yoxdur.*
*Buraya hörümçək boyda bir heyvan gəlsə,*
*Bir neçə günə erkək dəvəyə çevrilər.*

Yuxarıda deyildiyi kimi, İrəvan Şah İsmayıl Səfəvi dövründə əsas şəhərlərdən biri kimi formalaşdı.

O, daim Şah İsmayılın xüsusi diqqətində olmuş və sərkərdə Rəvanqulu xanı bu bölgəyə hakim təyin edərkən şəhərin abadlaşdırılmasına diqqət yetirməyi ona tapşırmışdı.

İrəvan Dövlət Universitetinin professoru, doktor Georgi Nalbandyanın yazdığına görə, Şah İsmayıl Çuxursəd vilayətinin tiyuldarlıq haqqını yığmağı böyük rumlu nəslinə tapşırmışdı. Bu nəslin hakimlərindən biri Divsultan Rumlu idi. Əldə olan tarixi məxəzlərə görə, Divsultan Rumlu İrəvanda diqqətçəkən tikinti işləri aparmışdı. Onlardan biri də böyük məscid olmuşdu.

Məşhur fransız səyyahı J.Şardən öz "Səfərnamə"sində keçdiyi gözəgəlimli və diqqətəlayiq yerləri sadalayıb təsvir edərkən erməni xəlifəliyinin ətrafındakı viran olmuş bir məscidin də təsvirini verir. O, qeyd edir ki, həmin məscid onun bünövrəsini qoyan şəxsin adı ilə "Divsultan məscidi" adlanır.

Divsultan Rumlu Şah İsmayıl zamanında onun oğlu Təhmasib Mirzənin tərbiyəçisi və lələsi olmuşdu. Məlum olduğu kimi, Təhmasib 10 yaşında atasının vəliəhdi və canişini təyin olunmuşdu.

Şah İsmayıl hərbi-strateji baxımdan önəmli olan İrəvan qalasının təmiri və möhkəmləndirilməsi barədə əmr verdi, şəhər və qala sonralar dəfələrlə osmanlıların hücumuna məruz qaldı." Bu, osmanlılara müqavimət göstərmək və əməliyyat aparmaq üçün İrəvan vilayətində şahın əmri ilə iki silahqayırma müəssisəsinin tikilməsinə səbəb oldu... İrəvan bəylərbəyliyi sikkə buraxmaq hüququna da malik idi.



**İrəvan bölgəsində və İrəvan xanlığında dövriyyədə olan Azərbaycan (Səfəvi) pulları**



**İrəvan şəhərində zərb olunmuş Azərbaycan (Səfəvi) pulu**

Səfəvi və Osmanlı dövlətləri arasında daimi ixtilafların bir səbəbi də İrəvan vilayətinin yerləşdiyi ərazi ilə bağlı olmuşdur. Vilayətə sahib olmaq üstündə tərəflər bir neçə dəfə üz-üzə gəlmişlər.

Şah İsmayılın hakimiyyəti dövründə ən ağır döyüşlər Çuxursəd vilayətində və Çaldıran çölündə getmişdir. Çaldıran döyüşündəki məğlubiyyət Şah İsmayılı sındırmışdır. "Bu qələbədən sonra Sultan Səlim öz adəti üzrə qonşu ölkələrə məktublar göndərdi, özü isə Təbrizə yollandı və bir neçə gün orada qaldı. Bir az sonra Naxçıvana və İrəvana səfərə çıxdı. İrəvan və Bayburd qalalarının fəthindən sonra Ərzurum yolu ilə Amasiyaya gəldi.



Şah İsmayıl Xətai

Çaldıran məğlubiyyəti o vaxta qədər ardıcıl qələbələr qazanan Şah İsmayılın əhval-ruhiyyəsinə ağır təsir göstərdi və bəzi tarixçilərin yazdığına görə, onda içki düşkünlüyü yarandı. Şah İsmayıl Sultan Səlimin ölümündən sonra cəmi 4 il yaşadı. O, daim Çaldıran məğlubiyyətinin qisasını almaq barədə düşünürdü, lakin tale bu arzusunu gerçəkləşdirmək üçün ona fürsət vermədi. Şah İsmayıl Səfəvi hicri-qəməri tarixi ilə 930-cu ildə Şəki ətrafına ova gedərkən xəstələndi və həmin ilin rəcəb ayında 38 yaşında ikən Sərabda vəfat etdi və Ərdəbildə torpağa tapşırıldı.

Şah İsmayılın vəfatından sonra onun 10 yaşlı oğlu Təhmasib taxta çıxdı və o, 54 il padşahlıq etdi. Şah Təhmasibin hakimiyyəti dövründə də Səfəvi və Osmanlı dövlətləri arasında çoxsaylı müharibələr baş verdi. Çuxursəd vilayəti və İrəvan şəhəri bu müharibələrə səhnə oldu.

Faruq Sumer yazır: "Süleyman Qanuni Təhmasibin işğalçılıq niyyəti barədə məlumat aldıqdan sonra üçüncü dəfə Şərqə doğru hərbi yürüşə hazırlaşdı *(hicri-qəməri tarixi ilə 961-ci ildə, miladi tarixi ilə 1554-cü ildə)*. Təhmasib isə Osmanlı qoşunlarının keçəcəyi bütün körpüləri yandırdı, yolları dağıdıb-xaraba qoydu, yol ətrafındakı əhalinin köçürülməsi barədə fərman verib, özü geri çəkildi. Süleyman Qanuni isə şah

Təhmasib tərəfindən müqavimət görmədiyindən, Çuxursəd bölgəsini (İrəvanın yuxarı hissəsini), Qarabağı, Naxçıvanı qarət eləsə də, dağıdılmış və yandırılmış yollarla irəliləyə bilməyib, təzədən Ərzuruma qayıtdı. Süleymanın payızda Təbriz və Ərdəbilə hücum edərək Səfəvi şeyxlərinin və atası Şah İsmayılın məqbərələrini məhv etmək niyyətini başa düşən Təhmasib Süleymanla sülh müqaviləsi bağlamaq qərarına gəldi və elçisini onun sarayına göndərdi. Danışıqlar prosesində ciddi bi maneə ortaya çıxmadı. Beləliklə, tərəflər arasında hicri-qəməri tarixi ilə 962-ci ilin rəcəb ayında *(miladi 1555-ci ilin may ayında)* Amasiyada sülh müqaviləsi imzalandı.

Bu müqaviləyə görə, Şəhrzur əyaləti və Van gölünün ətrafı Osmanlı dövlətinin ixtiyarına keçir, Arpaçayın şimalı iki dövlət arasında sərhəd olurdu. Əslində, "Amasiya sülhü" Təhmasib üçün böyük uğur idi. O, bu müqavilə ilə Səfəvi şiə dövlətini qoruyub saxlaya bildi və Osmanlı imperiyası tərəfindən bu dövlətin məhv edilməsi təhlükəsini birdəfəlik aradan qaldırdı. Səfəvi dövləti üçün ağır bir zamanda bu müqavilənin imzalanması Təhmasibin uzaqgörən bir dövlət başçısı olmasından xəbər verirdi. Doğrudur, saray əyanlarından bəziləri buna görə onu günahlandırmış, bacarıq və qabiliyyətinə şübhə kölgəsi salmaq istəmişlər...".

Şah Təhmasibin hakimiyyəti dövründə rumlu tayfasının böyük əmirlərindən olan Hüseyn xan Sultan (hicri-qəməri tarixilə 954-cü ildə/miladi tarixi ilə 1549-cu ildə) Çuxursəd bəylərbəyliyinin əmiri olmuşdur. Şah Təhmasibin etimad bəslədiyi əmirlərdən olan Şahqulu Sultan da Kirman, Astrabad, Məşhəd şəhərlərində və Çuxursəddə əmirlik vəzifəsini yerinə yetirmişdi. O, hicri-qəməri tarixilə 957-ci ildə *(miladi*

*1573-cü ildə)* Təbrizdə şahın darğası təyin olundu. Onun ölümündən sonra isə oğlu Məhəmməd Çuxursədə vali təyin olundu.

Qeyd edək ki, Şahqulu Sultan Təbrizdə darğa olarkən əhaliyə zülm etdiyindən, hicri-qəməri tarixi ilə 971-ci ildə (981-ci ilədək) Pəhləvan Yarinin rəhbərliyi ilə Təbriz camaatı ona qarşı qiyama qalxmışdır. Təhmasib öləndə Şahqulu Sultanın oğlu, Çuxursəd valisi, "Toxmaq" ləqəbli Məhəmməd xan həm də İstanbulda elçi idi.

Sədlular tayfası Şah Təhmasibin hakimiyyəti dövründə də Çuxursəddə yaşamış və tayfaya hicri-qəməri tarixi ilə 954-cü ildə Əlvənd xan, 959-cu ildə isə *(miladi tarixi ilə 1552-ci ildə)* Uluğbəy başçılıq etmişdi.

Alpautlar da Qaraqoyunlu qəbilələrindən idilər və onların arasından böyük əmirlər çıxmışdı. Bu qəbilə də Səfəvilər dövründə Çuxursəd ətrafında yaşamışdı.

Şah Təhmasibin ölümündən sonra (*hicri-qəməri tarixi ilə 974-cü ildə)* onun Qaradağ ətrafındakı Qəhqəhə qalasında zindana salınmış oğlu İsmayıl həbsdən azad olundu. O, hicri-qəməri tarixi ilə 974-cü ilin rəbiüləvvəl ayında Qəzvinə gəlib, oranı paytaxt elan etdi. II İsmayıl hakimiyyətini möhkəmləndirdikdən sonra Şah Təhmasibin zamanından İstanbulda elçi olan Toxmaq xanın qardaşları Sarı Laçını və Allahqulu bəyi əmisi oğlu Əbu Turab Mirzənin (Uyqut Mirzə) vasitəsi ilə qətlə yetirdi. Bu qətllər ustaclı əmirlərinin aradan götürülməsi ilə davam etdirildi. Bu zaman İstanbuldan geri qayıdan Toxmaq xan Çuxursəddəki əmlakının Əbu Turab Mirzə (əmisi oğlunun və qardaşlarının qatili) tərəfindən müsadirə olunduğunu gördü...

II İsmayıl Mustafa Sultanın qətlindən sonra ustaclıları əfv etdi və hətta özü Pir Məhəmməd xanın qızı ilə evləndi. Toxmaq xan da öz əvvəlki vəzifəsinə qaytarıldı. O, Çuxursəd bölgəsinin valiliyinə qayıdandan sonra mərkəzin buradakı etibarlı adamına çevrildi və yenidən bütün məsələlərə nəzarət etməyə başladı.

II İsmayıl hicri-qəməri tarixi ilə 985-ci ilin Ramazan ayının 13-də qəflətən vəfat etdi. Paytaxt əmirləri canişin məsələsinin müzakirəsinə başladılar. Onlar Təhmasibin böyük oğlu Məhəmməd Xudabəndənin üzərində dayandılar. Fiziki cəhətdən çox zəif olan Sultan Məhəmməd xəstəlik nəticəsində görmə qabiliyyətini də itirmişdi. O, hakimiyyətə gələndən sonra da Toxmaq xan Çuxursədin başçısı olaraq qaldı. Bu dövrdə İrəvanın abadlaşdırılması sahəsində ciddi işlər görülmüş, gözəl Xan sarayı, Xan bağı salınmışdı. Həmin illərdə əkin sahələrinin suvarılması üçün yeni su kanalları çəkilmiş, böyük dəryaçalar yaradılmışdı. Sovet hakimiyyəti qurulduqdan sonra bu dəryaçaya Şaumyanın adı verilsə də, azərbaycanlılar onu vaxtilə İrəvanda hakimlik etmiş Mahmud xanın ləqəbinə uyğun olaraq "Toxmaq dəryaçası" adlandırmışlar.

Türk sultanı III Murad mövcud sülh müqaviləsinə *("Amasiya müqaviləsi" nəzərdə tutulur- tərcüməçi)* baxmayaraq, bir sıra bəhanələrlə hicri-qəməri tarixi ilə 985-ci ilin şəvval ayında (miladi tarixi ilə 1575-ci ildə) Xoy, Səlmas, Urmiya şəhərlərinə və onların ətraflarına hücuma keçdi. Azərbaycanlı sərkərdələrdən Hüseyn Sultan Xubuşlu, Mahmud Sultan Rumlu bu döyüşdə həlak oldular və Təhmasibə məxsus olan ərəb atlarının (bədəvi atlar) əksəriyyəti (10 minə yaxın at) Osmanlı bəylərinin əlinə keçdi. Təbrizin yeni hakimi Əmir Xan

Türkmən öz qoşunu ilə işğal edilmiş torpaqları azad etmək istədisə də, buna nail ola bilmədi.

Şirvanşahlar xanədanının nümayəndəsi Əbu Bəkir Mirzə qarabörk tayfasından və Şirvandakı döyüşçü ləzgilərdən bir ordu toplayaraq hərəkətə keçdi. Osmanlı ordusu sərdar Mustafa Paşanın komandanlığı ilə 1578-ci ilin avqustun əvvəllərində Ərdəhanın ətrafına qədər gəlib çıxdı və sonra Gürcüstanı fəth etdi. Belə bir şəraitdə mərkəzi İrəvan olan Çuxursəd bölgəsinin bəylərbəyi Məhəmməd xan Toxmaq Ustaclı Qəzvinə məlumat verdi ki, Gürcüstanla bərabər İrəvanı da tutmaq istəyən Osmanlı qoşunlarının həmləsi qarşısında seyrçi qalmayacaq. Qarabağın bəylərbəyi İmamqulu xan Qacar Təbriz bəylərbəyi Əmir xan Türkmənlə ittifaq bağlayaraq münasib şərait yaranan kimi hücuma keçməyi planlaşdırdılar. Vəliəhd Həmzə Mirzə İraqi-əcəm, Fars, Kirman qoşunlarından ibarət alayın köməyə gələcəyi barədə də məlumat aldı. Qarabağ bəylərbəyi İmamqulu xanın və Məhəmməd xanın qoşunları birləşdiyi halda, türkmənlərlə ustaclılar arasında köhnədən qalma düşmənçiliyə görə ustaclılar Təbrizdə dayandı. İskəndər bəy Türkmənin rəvayətinə görə, 1578-ci ilin avqustunda Məhəmməd xan Toxmağın və İmamqulu xan Qacarın rəhbərlik etdikləri 15 minlik qoşun Çildər ətrafında Bərtərullah paşanın qüvvələri ilə üz-üzə gəlir. Əvvəlki döyüşlərdə olduğu kimi, bu qarşılaşmada da qızılbaş əsgərləri şücaətlə meydana girib, var qüvvələri ilə çarpışırlar. Buna baxmayaraq, Tiflis və bütövlükdə Gürcüstanın bir hissəsi Osmanlı hökumətinin tabeçiliyinə keçir.

Hicri-qəməri tarixi ilə 989-cu idə *(miladi tarixi ilə 1581-ci ildə)* Şamlu xanlarxanı sərdar Mustafa Paşa və digər əmirlər öz aralarında ittifaq bağlayıb, Abbas

Mirzənin hakimiyyətini elan etdilər. Bu xəbəri eşidən Şah Məhəmməd Xudabəndə vəziri Mirzə Sultanla birlikdə türkmən və təkəli bəylərini hərəkətə gətirmək üçün Xorasana yola düşdü. Onun Xorasana yürüşü vaxtı Osmanlı sərkərdəsi Fərhad paşa Çuxursədi işğal etdi. Vilayətin mərkəzi olan İrəvanda Məhəmməd xan saray məhəlləsinin ətrafına möhkəm bir hasar çəkdi. Ancaq sonda Məhəmməd xan Toxmaq Təbriz bəylərbəyi Əmir xan Türkmən və Qarabağ bəylərbəyi İmamqulu xan Qacar tərəfindən kömək gəlmədiyini görüb, ailəsini götürərək Naxçıvana yollandı. O, ailəsini Əlnəcəğ (Əlincə) qalasında yerləşdirməyə məcbur oldu.

Beləliklə, işğal olunmuş ərazilər, o cümlədən Çuxursəd torpaqları osmanlıların ixtiyarına keçdi. Osmanlı qüvvələri asta-asta və addım-addım irəliləyir, fəth etdikləri ərazilərdə möhkəmlənmək üçün istehkam qalaları ucaldırdılar.

## İrəvan I Şah Abbas dövründə

I Şah Abbas belə bir mürəkkəb şəraitdə *(hicri-qəməri tarixi ilə 996-cı ilin zilqədə ayında)* Qəzvində tacqoyma mərasimi keçirdi. Bu zaman onun 18 yaşı vardı. Ölkə ziddiyyətlər içində idi. Bir tərəfdən, xarici təzyiqlər, digər tərəfdən daxildəki qarşıdurmalar Səfəvilər dövlətinin mövcudluğunu təhlükə altına almışdı. Ölkənin şimal-qərb hissəsi, o cümlədən İrəvan bölgəsi hələ atasının hakimiyyəti zamanında osmanlılar tərəfindən işğal edilmişdi.



I Şah Abbas

O, hicri-qəməri tarixi ilə 1006-cı ildə sərhəddəki toqquşmaları nəzərə alaraq paytaxtı Qəzvindən İsfahana köçürməli oldu. Bundan sonra Şah Abbas dövlətin dayaqlarını möhkəmləndirməyə başladı. O, Gilan, Mazəndaran, Sistan, Lar və Luristan əmirlərinin özbaşınalığına son qoyaraq, onları mərkəzi hakimiyyətə tabe etdi. Həmin bölgələrdə türk tayfalarını məskunlaşdırmağa başladı.

Gənc hökmdar qısa müddətdə mərkəzi hakimiyyəti möhkəmləndirdikdən və daxili asayişi bərpa etdikdən sonra işğal olunmuş torpaqların azad edilməsi uğrunda mübarizəyə qərar verdi. O, Xorasanı özbəklərin işğalından azad etməklə *(hicri-qəməri tarixi ilə 1007-ci, miladi tarixi ilə 1598-ci il)* Səfəvilərin nüfuz dairəsini Ceyhuna qədər genişləndirdi. Növbə osmanılılar tərəfindən işğal olunmuş torpaqlara çatdı. Məlum olduğu kimi, Tiflis, Çuxursəd, Qarabağ, Şirvan, Təbriz, Nəhavənd hicri-qəməri tarixi ilə 998-ci ildə *(miladi tarixi ilə 1590-cı il)* bağlanmış müqavilə əsasında osmanlıların əlinə keçmişdi. Osmanlı dövləti digər əyalətlərdə olduğu kimi, bu yerlərdə də hərbi-inzibati strukturlar yaratmışdı.

Bu dövrdə Osmanlıların Avstriyaya hərbi yürüşü gözlənildiyinin əksinə olaraq, illərlə uzanmış və uğursuzluqla nəticələnmişdi. Digər tərəfdən, Osmanlı dövlətini əsgərlə təmin edən əsas mərkəzlərdə, o cümlədən

Anadoluda iğtişaşlar baş vermişdi. Sərhəd bölgələrində yerləşən bəylərbəyliklər də bu zaman xeyli zəifləmiş və qızılbaşların hücumlarının qarşısını almaq gücündə deyildilər. Şah Abbas hicri-qəməri tarixi ilə 1012 ci ildə (miladi tarixi ilə 1603-cü ildə) Qazi adlı qüdrətli hakimlərdən birinin dəstəyi ilə Osmanlı ordusu ilə müharibəyə başladı və onu uğurla başa çatdırdı. O, bütün itirilmiş əyalətləri geri aldıqdan sonra Bağdadı fəth etdi".[1]

Şah Abbas Təbrizi osmanlılılardan azad etdikdən sonra Naxçıvan uğrunda mübarizəyə başladı. O, eyni vaxtda diqqətini İrəvana yönəltdi. Ordu şəhərin bir fərsəngliyində dayanmışdı. Nəsrullah Fəlsəfi yazır: "Bu zaman İrəvanda üç qala var idi: biri, hicri-qəməri tarixi ilə 991-ci ildə türk sərdarı Fərhad paşa tərəfindən tikilmişdi. O,  Şah Abbasın atası Sultan Məhəmməd Xudabəndə ilə müharibə apardığı zaman qalanın inşa edilməsi barədə fərman vermişdi. Ona “Köhnə qala” deyirdilər. Həmin qalanın cənub-qərbində böyük bir təpənin üstündə ucaldılmış kiçik qalaya isə “Kuzəçi qalası” adı verilmişdi. Üçüncü qala isə Şərif paşanın fərmanı ilə ucaldılmış “Yeni qala” idi. Bu üç qalada və onların ətrafında 12 min türk əsgəri cəmlənmişdi. Onlar müdafiə və müharibəyə hazır vəziyyətdə idilər. Şah Abbas öz qoşunlarını bir neçə dəstəyə böldü: O, Azərbaycan ordusunun rəhbəri Zülfüqar xana “Kuzəçi qalası”nı ələ keçirməyi tapşırdı, digər məşhur sərkərdə Qırçığai bəyi isə öz xüsusi mühafizəçiləri ilə birgə “Köhnə qala”nın qarşısında qoydu. Bu zaman Osmanlı topçuları qala divarlarının üstündən Şah Abbasın əsgərlərini mərmi yağışına tutdular. Bir neçə sərkərdə

---

[1] Faruq Sumer. Qaraqoyunluha, s.185

və xeyli sayda qızılbaş əsgəri həlak oldu. Vəziyyətin gərginləşdiyini görən Şah Abbas topçubaşı Bərxurdar bəy Ənisə əmr etdi ki, İrəvan şəhərində top töksün və osmanlılardan alınmış bir neçə topu təcili olaraq Təbrizdən İrəvana gətirsinlər.

Bərxurdar bəy əvvəldən düzəldilmiş topları işə salmaqla bərabər, qısa zamanda "Fəth topu" adlanan yeni bir top da tökdü. Bir aydan sonra isə (həmin ilin şəvval ayının 22-də) "Nüsrət" adlı başqa bir topu orduya təhvil verdi. Şah Abbasın əmri ilə birinci top "Kuzəçi qalası"nı nişan almaq üçün Zülfüqar xana verildi. Həmin vaxta qədər nə səngər qazmaq, nə də "Köhnə qala"ya yaxınlaşmaq mümkün olmuşdu. Zülfüqar xan top əldə etdikdən sonra qısa müddət ərzində "Kuzəçi qalası"nı ələ keçirə bildi. Bundan sonra qoşun səngər düzəldib, digər iki qalaya doğru hərəkətə keçdi.

..."Kuzəçi qalası" ələ keçiriləndən sonra Şah Abbas Qırçığai bəyə "Yeni qala"nı tutmağı əmr etdi. O, Xorasan tüfəngçilərinin bir dəstəsini və öz xüsusi mühafizəçilərini də onun komandanlığına verdi. Zülfüqar xan Fərmanlını isə "Köhnə qala"nı mühasirəyə almağa göndərdi və yeni düzəldilmiş toplardan birini onun ixtiyarına verdi. Şah, eyni zamanda, "Köhnə qala"nın qarşısında hündür bir təpə qurulması haqqında da fərman verdi. Məqsəd həm ordunu düşmən gülləsindən qorumaq, həm də təpənin üstündən qala müdafiəçilərini nişan almaq idi. Həmin dövrdə Səfəvilər dövlətində olmuş xarici səfirlərdən biri bu barədə yazır: "İrəvan qalasının mühasirəsi zamanı Şah Abbas sərkərdə və əsgərlərinə göstəriş verdi ki, qala ilə ordu arasında hündür təpədən istifadə etsinlər. Məqsəd şahın ordusuna tuşlanmış düşmən toplarının atəşlərinin

qarşısını almaq idi. Bu işi görmək üçün həmin vilayətdən 13-14 min adam toplandı. Onları sərkərdə və əsgərlər arasında böldülər. Adamlar sürətlə və intizamlı şəkildə işləyir, heç kim başqasına mane olmurdu. Şahın əmrinə görə kimsə dəstədən qabağa keçə bilməzdi. Çünki qaladan atılan top və tüfənglərin səsindən heç kəs heç kəsin səsini eşitmirdi. Həlak olanları yerindəcə torpağa tapşırırdılar. Təpənin qurulması gecə-gündüz davam etdi... Osmanlı əsgərləri bir neçə dəfə qaladan çıxıb, torpaq daşıyanların üzərinə hücuma keçdilər. Xeyli insan həlak oldu. Lakin işçilər çox olduğundan və şahın fərmanı ilə yaxın qəsəbələrdən hər gün yeni insanlar gətirildiyindən onların sayı azalmırdı" .[1]

Nəhayət, hicri-qəməri tarixi ilə 1012-ci ilin zilhəccə ayının 28-də (cümə günü) “Yeni qala” Qorçığay bəyin tüfəngçilərinin əlinə keçdi. Bundan sonra “Köhnə qala” da qızılbaş əsgərləri tərəfindən mühasirəyə alındı. Türk sərkərdəsi Şərif paşa məğlub olduqlarını görüb sülh müqaviləsi bağlamağı təklif etdi. O, təslim olmazdan öncə şahdan qala sakinlərinə və əsgərlərə aman verilməsini istədi. Şah təkliflə razılaşaraq amannaməni (Əfv fərmanı) imzalayıb qalaya göndərdi. Lakin elə həmin vaxt qala müdafiəçilərinə xəbər gəldi ki, Osmanlı sultanı onlara kömək məqsədilə qoşun göndərib. Ağ bayraq qaldırılandan bir neçə gün sonra qalanın müdafiəçiləri fikirlərini dəyişdiklərini bəyan etdilər. Belə olan təqdirdə, Şah Abbas  yenidən qalaya hücum etmək əmri verdi.

“...Bu hadisə hicri-qəməri tarixi ilə 1013-cü ilin məhərrəm ayının əvvəllərində baş verdi. Müharibə

---

[1] Antonio de Quvea. Səfərnamə, səh.232

getməsinə baxmayaraq, həmin günlərdə də şiələr Kərbəla müsibətini unutmamışdılar. Aşura gecəsində əzadarlıq mərasimi keçirən qızılbaş ordusundan elə bir fəryad və nalə ucaldı ki, “Köhnə qala”dakı adamlar qorxuya düşdülər. Onlar elə guman etdilər ki, şah qəfil hücum əmri verib. Buna görə də qaladakılar dərhal təslim olmağı qərara aldılar. Şərif paşa ikinci dəfə sülh təklif etdi və ordu komandirlərindən birini üzr istəmək üçün şahın qərargahına göndərdi... Elçi məsələdən hali olduqdan sonra Kərbəla faciəsinə acıyaraq, imam Hüseyn müsibətindən şəfaət dilədi. Şah onun xahişini qəbul edib qala əhlinin malına və canına toxunmadı".[1]

"Çuxursəd əyalətində yaşayan sədlular bu döyüşlərdə iştirak etmək məqsədilə şahın yanına gəlib, ona öz xidmətlərini təklif etdilər. Şah onları hörmətlə qəbul edib, arzularını yerinə yetirdi. Onlar qalalara hücumlarda əsl şücaət və qəhrəmanlıq göstərdilər. Şah Abbas da onların bu xidmətlərini xüsusi dəyərləndirərək Qağəzamanı Sultan Sədlunun ixtiyarına verdi. Həmin qəbilənin başqa bir əmiri Əliqulu Sultan isə Osmanlılara xidmət etməyə getmişdi. Lakin onun oğlu Mehdiqulu bəy atasından üz döndərərək İrəvanda şahın hüzuruna gəldi".[2]

O dövrdə baş verən mühüm hadisələrdən biri də cəlalilərin bu şəhərə (İrəvana) sığınmasıdır. Nəsrullah Fəlsəfi yazır: "...Bu dövrdə Osmanlı dövləti həm daxildən, həm də xaricdən basqılar altında idi. Tədbirli və təcrübəli böyük vəzir, adlı-sanlı türk sərkərdələrindən biri olan Murad paşanın başı ölkənin qərb sərhədlərində xristianlarla müharibəyə qarışmışdı. Fürsətdən istifadə edən cəlailər Osmanlı dövlətinə qarşı qiyama

---

[1] Nəsrullah Fəlsəfi. Zendeqani-ye şah Abbas-e əvvəl, 1716, səh.22
[2] Faruq Sumer. Qaraqoyunluha, səh.234

qalxdılar. Osmanlı sultanı Murad paşaya dərhal cəlailərin fitnəsini dəf etməyi tapşırdı. Xristianlarla müharibəni dayandırmağa məcbur olan Murad paşa ordunu Hələbə doğru çəkdi.

O, tezliklə siyasi yolla Canpolad oğlunu və Təvili aradan götürdü. Murad paşanın qoşunları hicri-qəməri tarixi ilə 1017-ci ildə Təvilin qardaşı Məhəmmədlə ittifaqa girdi və 20 minə yaxın süvari döyüşçüsü olan Qələndəroğlunu da məhv etdi. Cəlalilər Ərzuruma qaçmağa məcbur oldular. Oradan isə bir nəfəri İrəvan hakimi Əmirgunə xanın yanına göndərib, ondan sığınacaq istədilər. Əmirgunə xan da razılıq verdikdən sonra onlar bu vilayətə sığındılar. Bununla bərabər, cəlalilər Şah Abbasın sarayına elçi yolladılar. Həmin elçi vasitəsilə göndərdikləri məktubda şahı sevdiklərini bildirir, onun xidmətində dayanmağa hazır olduqlarını bəyan edirdilər. Məktubda daha sonra qeyd olunurdu ki, əgər şah Osmanlı sultanına qarşı müharibəyə qalxsa, onlar cani-dildən qızılbaş hökmdarına xidmət edəcəklər...

Cəlalilər İrəvana yaxınlaşanda Əmirgunə xan qızılbaş rəhbərlərindən və əyanlarından ibarət bir heyət düzəldib onları qarşılamağa göndərdi. Qonaqpərvərliklə qarşılanan, müxtəlif tayfalardan ibarət təxminən 10 min nəfərlik dəstə İrəvanın üç fərsəngliyində Üçkilsə adlanan ərazidə yerləşdirildi. Sonra onların hamısı Təbrizə göndərildi...".[1]

Bu hadisədən bir neçə il sonra Osmanlılar İrəvana və bütövlükdə Azərbaycana hücum etmək qərarına gəldilər. Hətta bu məqsədlə mütəşəkkil bir ordu da yaratdılar. Lakin məqsədlərini həyata keçirə bilmədilər. "I Şah Abbasın həyatı" kitabında oxuyuruq: "Hicri-

---

[1] Nəsrullah Fəlsəfi. Zendeqani-ye şah Abbas-e əvvəl, səh.1750

qəməri tarixi ilə 1025-ci ilin şaban ayında Osmanlı dövlətinin baş vəziri Məhəmməd paşa çoxsaylı ordu ilə İrəvana doğru hərəkət etdi. O, bundan bir il əvvəl Osmanlı sultanı Əhməd xanın fərmanı ilə Azərbaycana hücum etmək tapşırığı almış və qoşun toplamaq üçün Diyarbəkr şəhərində iqamətgah yaratmışdı. Qoşun Misirdən, Şamdan, Anadoludan, Trablisdən, Beyn-ül nəhrdən və digər Osmanlı müstəmləkələrindən toplanmışdı. Bu xəbər Şah Abbasa çatan kimi o, İsfahan tüfəngçilərinin başçısı Mirfəttahın, qızılbaşın tanınmış sərkərdələrindən olan Əmirgunə xan Qacarın komandanlığı ilə odlu silahla silahlanmış bir hərbi bölüyü İrəvan qalasını müdafiə etməyə göndərdi. Şah tüfəngçilərinin komandiri və artilleriya rəisi Qırçığai bəyə, fars bəylərbəyi İmamqulu xan kimi digər adlı-sanlı sərkərdələrə isə Osmanlı qoşununu izləməyi, onları şərqdən və qərbdən mühasirəyə almağı tapşırdı. Onlar qoşuna azuqə gələn yolu bağlamalı, gözlənilməz hücum və həmlələrlə Osmanlı ordusunun İrəvan qalasını ələ keçirməsinin qarşısını almalı idilər.

Həmin ilin şəvval ayının axırına qədər Məhəmməd paşa İrəvan qalasını mühasirədə saxladı, amma qalanın müdafiəçilərinin iradəsini qıra bilmədi. Osmanlılar top atəşləri ilə bir neçə dəfə qala divarlarını dağıtsalar da, onu ələ keçirə bilmədilər. Eyni zamanda, Qırçığai bəyin və İmamqulu xanın dəstəsi də qəfil həmlələrlə, ərzaq gətirilən yolu bağlamaqla Osmanlı ordusuna böyük ziyan vurdu. Ərzaq çatışmazlığı, soyuq hava şəraiti, ağır xəstəliklər mühasirəni davam etdirməyə imkan vermədiyindən, türk sərkərdəsi məcbur olub Şah Abbasın yanına elçi göndərdi və ona sülh bağlamağı təklif etdi. Lakin sülh şərtlərinin tez-tez pozulması Nüsuh paşanı və Qazi xanı qoşunların ön hissəsini geri

çəkməyə vadar etdi... Məhəmməd paşa İrəvanın mühasirəsindən əl çəkib, Qazi xanla birlikdə Ərzuruma qayıtdı. Tərəflər arasında sülh şərtləri tam razılaşdırıldıqdan sonra o, Qazi xanı yenidən şahın yanına göndərdi, özü isə digər türk sərkərdələri ilə birlikdə İstanbula yola duşdü".[1]

İskəndər bəy Türkmən "Tarixi-aləmaraye-Abbasi"də şah qoşunlarının İrəvanı müdafiə etməsini təfsilatı ilə şərh etmişdir. Üstəlik, o həmin günləri poetik şəkildə də tərənnüm etməyə çalışıb:

*Vuruşmaq üçün Rum elindən*
*Məkrli, hiyləli bir ordu sərkərdəsi gəldi.*
*Dünya padişahı isə (öz torpağını) qorumaq üçün*
*Haqq qoşununu silahlandırdı.*

*O, Lütfillahın (Həzrəti Əli nəzərdə tututlur - tərcüməçi)*
*qəzəbindən kəmər bağlayıb,*
*Öz sərkərdələrinin arasına girdi.*
*O istədi ki, bu dünya bəndələrindən biri*
*Allahın həqiqi qəzəbini görsün.*
*O, qeybdən bir səs eşitdi və həmin səs deyirdi:*
*"Qələbə Allahın vəlisi Əlinin oğluna məxsusdur".*
*Bu, qeybdən gələn heyrətamiz bir nida idi*
*Əlinin lütfü ilə düşmənin fəna tarixi yazıldı.*

Bundan əlavə, gözəl qələm sahibi və istedadlı şair Xacə Məhəmməd Yusif Qəzvini də bu tarixi nəzmə çəkib:

---

[1] Nəsrullah Fəlsəfi. Zendeqani-ye şah Abbas-e əvvəl, səh.1747

*O zaman ki, Rum ordusunun sərdarı*
*İrəvan mülkünə varid oldu,*
*İki-üç ay qalanın ətrafında oturub*
*O qalaya daş atıb, qışqırıq saldı.*
*Gördü ki, Əli şiələrinin qılıncı ilə*
*Ordusunun yarısı qətlə yetirilib.*
*Hiylə kəmərini bağladı belə*
*Qaçmaqdan savayı bir çarə görmədi.*
*Şəvval ayının 20-ni keçəndə*
*Onun ordusunun yarısı qırılmışdı.*
*Din şahının dövləti xoşbəxt oldu*
*Rum ordusu isə baş götürüb qaçdı.*
*O böyük tarixin ardınca*
*Şiələrin bugünkü bayramı gəldi.*

Rum (Osmanlı) ordusu çıxıb gedəndən sonra, yəni hicri-qəməri tarixi ilə 1015-ci ildə qoşun başçıları və əsgərlər möhtəşəm bir qələbə paradı düzənlədilər. Şah Əğrəqin ordusunu Bərgüşada tərəf göndərib, özü yaxın adamları ilə birgə həmin şənliyə qatıldı. O, şənlikdən sonra "Yeni qala"nı bir daha nəzərdən keçirdi, Əmirgunə xana və digər sərkərdələrə şahanə bir nəvaziş göstərdi. Əmirgunə xan döyüşlərdə göstərdiyi şücaət və qəhrəmanlığa görə "Sarı Aslan" adına layiq görüldü".[1]

Şah Abbasın xüsusi ehtiramla yanaşdığı Əmirgunə xan qacarlar tayfasının ən məşhur şəxslərindən idi. O, Çuxursədin azad edilməsində göstərdiyi xidmətlərə görə həmin yerin bəylərbəyi oldu. Əmirgunə xan hicri-qəməri tarixi ilə 1035-ci ildə (miladi tarixi ilə1623-cü ildə) vəfat etdi. O, ömrünün sonunadək həmin vəzifəni daşıdı".[2]

---

[1] Tarix-e Aləmara-ye Abbasi, səh.909
[2] Faruq Sumer. Qaraqoyunluha, səh.223

Şah Abbasın xüsusi münəccimi Cəlaləddin Məhəmməd Yəzdi "Tarixe-Abbasi" adlı əsərində yazır: "Çuxursəd hakimi Əmirgunə xan Qacar davada kürəyindən aldığı güllə və ayağından aldığı ox yarasını özü müalicə etdi. Deyilənə görə, o, gülləni öz əliylə kürəyindən çıxararaq, yerinə məlhəm qoyub tikmişdi”.[1]

Hicri-qəməri tarixi ilə 1032-ci ildə Əmirgunə xan I Şah Abbas tərəfindən əmr aldı ki, Gürcüstana məxsus Axısqa bölgəsini tutsun və qiyama qalxmış gürcüləri sakitləşdirsin. Hicri-qəməri tarixi ilə 1035-ci ildə gürcülərlə aparılan digər bir müharibədə Əmirgunə xan yaralandı və müalicə olunmaq üçün İrəvana yollandı. O, İrəvanda həmin yaradan vəfat etdi və Şah Abbas onun vəzifəsini oğlu Təhmasibqulu xana tapşırdı.[2]

A.Oleari hicri-qəməri tarixi ilə 1049-cu ildə (miladi tarixi ilə 1639-cu ildə) tamamladığı və 1656-cı ildə yenidən çap etdirdiyi əsərinin 668-670-ci səhifələrində Səfəvilər dövlətinin maliyyə vəziyyətinə toxunur. O, şah sarayının vergilərdən gəlirinin 8 milyon rayeştaler (yəni, bəzi mənbələrin göstərdiyi kimi, 640 min tümən yox, 160 min tümən) olduğunu yazır. Onun bildirdiyinə görə, həmin məbləğin bir milyondan çoxu Qəndəhardan, təxminən, bir o qədəri də İrəvan və Babildən (Bağdaddan) toplanırdı.

---

[1] Nəsrullah Fəlsəfi. Zendeqani-ye şah Abbas-e əvvəl, səh.115
[2] Səid Nəfisi. Tarix-e ectemai-ye siyasi-ye İran. I cild, səh.29

# İrəvan sonuncu Səfəvi şahları dövründə

Hicri-qəməri tarixi ilə 1038-ci ildə I Şah Abbas vəfat etdi. Həmin ilin cəmadiüssani ayında onun nəvəsi Əbu Nəsir Sam Mirzə I Şah Səfi adı ilə İsfahanda hakimiyyətə gəldi. O, hicri-qəməri tarixi ilə 1041-ci ildə İrəvanda hakimlik, Çuxursəddə bəylərbəyilik edən Təhmasibqulu xana Azərbaycana basqın edənləri cəzalandırmağı əmr etdi. Təmasibqulu xan da basqınçıları darmadığın edərək, onları Diyarbəkrə qədər qovub, qələbəylə geri qayıtdı.[1]

Osmanlı sultanı IV Murad Şah Abbasın ölümündən sonra Səfəvilər dövlətinin daxilində baş verən qarşıdurmalardan istifadə etmək qərarına gəldi. O, Bağdadı, Azərbaycanı işğal etməklə Şah Abbas dövründəki məğlubiyyətlərin əvəzini çıxmaq istədi. Osmanlılar Səfəvi dövlətinə qarşı hücuma başlasalar da, onların qarşısı alındı. Belə olan halda, Sultan Murad şəxsən özü orduya rəhbərlik etmək qərarına gəldi. O, hicri-qəməri tarixi ilə 1045-ci ildə İrəvana hücum etdi. Şəhər Əmirgunə xanın oğlu Təhmasibqulu xan tərəfindən Osmanlılara təslim edildi. Bu hadisəyə Osmanlı tarixçiləri müfəssəl şəkildə toxunmuşlar. Onlar yazırlar ki, IV Sultan Murad Əmirgunənin oğlunun bu addımından sonra ona xüsusi diqqət yetirdi. O, Boğaz adlı məhəlləyə köçdü və həmin məhəllə bu gün də Əmirgunənin oğlunun adı ilə "Əmirqan" adlanır. Osmanlılar İrəvanı tutduqdan sonra Təbrizə doğru hərəkət etdilər. Lakin Sultan Murad Təbrizi işğal edə bilmədi, ətraf kəndlərdə və qəsəbələrdə dağıntılar törətdikdən sonra İstanbula qayıtdı.

---

[1] Səid Nəfisi. Tarix-e ectemai-ye siyasi-ye İran. I cild, səh 29

Şah Səfi İrəvanı azad etmək qərarına gəldi. O, şəhəri mühasirəyə almaq üçün İsfahandan toplar gətirmək barədə göstəriş veridi. Həmin günlərdə Xoyda "Baliməz" və ya "Yoldaş" adlanan çox böyük bir top da var idi. Baş komandan Rüstəm xanın qardaşı Lor hakimi Kəlbəli xan və Əliqulu xan Yasavulla birgə həmin topu götürmək üçün Xoya yollandı. Onlar topu götürüb şah ordusuna yetişdilər...[1] İrəvan uğrunda bu döyüşlərdə Osmanlı ordusu 22 min nəfər canlı qüvvə itkisi vedi. Şəhər yenidən Səfəvilərin ixtiyarına keçdi.[2]

İrəvan qalasının fəthi ilə bağlı Şah Səfi Xəlil bəy Zaxoriyə və Səfdər xana müraciətlə iki fərman imzalamışdır. Onların hər ikisi "İranın Qafqazla əlaqələri haqqında sənədlər" kitabında çap olunmuşdur. Hicri-qəməri tarixi ilə 1045-ci ilin zilqəddə ayında imzalanmış birinci fərmanda deyilir: "Rum hökmdarı Firənglə sülh bağlayan kimi ordusunu götürüb İrəvan qalasını ələ keçirməyə gəldi. Şəhərin hakimi Təhmasibqulu xan Qacar üzüqaralıq edərək... qalanı onlara təslim etdi. Rum hökmdarı da kürəkəni və vəziri Murtəza paşanın, o cümlədən digər mötəbər paşa və əmirlərin rəhbərliyi altında orada 12 min döyüşçü saxlayıb özü geri qayıtdı. O, qalada xeyli hərbi sursat, top və odlu silah da saxladı. Bizim hökmdarımız bu xəbəri eşidib, yenidən qalanın azad edilməsini əmr etdi. O, qazilərə qalanı mühasirəyə almaq, onu top atəşlərinə tutmaq haqqında göstəriş verdi. Qısa müddətdə toplar ön cəbhəyə gətirildi, mərmi zərbələri ilə Şirhacı hasarının divarı altındakı taxta döşəmələr dağıdıldı. Şəvval ayının 17-də əsgərlər yürüşə başladı, səhərdən-axşama qədər

---

[1] Doktor Məhəmməd Əmin Riyahi. Tarix-e Xoy, səh.103

[2] Etimadüs-səltənə. Mirat-ül Bildan. Doktor Hüseyn Nəvainin redaktəsi ilə, I cild, səh.184

davam edən döyüşdə Murtəza paşa və digər bir neçə paşa qətlə yetirildi. Rum əsgərlərinin çoxu həlak oldu, qalanları isə əsir alındılar. Murtəza paşanın qətlə yetirilməsi xəbəri (artıq döyüşün üçüncü günü idi) hələ digər döyüşçülərə çatmadığından, onlar qalabəyinin əmri ilə daha böyük cəsarət və əzmlə döyüşürdülər. Bu zaman bizim imanlı qazilər qalanın ətəyindəki divara yaxınlaşıb, orada möhkəmləndilər. Bir qədər keçəndən sonra onlar yenidən yürüşə başladı və çətinliklə də olsa qala qapılarını aça bildilər. Bundan sonra sayı, təxminən, beş min nəfər olan paşa və mühafizəçilər qibleyi-aləmə pənah gətirib, ondan aman istədilər. Naibi-humayinimiz cənnəti-məkan ata-babasının cəddinə dua-səna edərək həmin insanların malına və canına aman verdi. Torpaqların azad edilməsində və dövlətin qorunmasında xidmətləri olan şəxslərə şaha layiq diqqət göstərilməli, onlar mükafatlandırılmalı, ehtiyacları və xahişləri yerinə yetirilməlidir".[1]

"Şah Səfi tərəfindən Əmirgunə ləqəbi almış Təhmasibqulu Mirzə IV Sultan Muradın qoşunlarına bir müddət müqavimət göstərdi, ancaq sonda İrəvanı ona təslim etdi. Bu satqınlıq müqabilində ona Yusif paşa ləqəbi verildi. Nəticədə o, Hələbin hakimi və vəzir oldu. İrəvanda əsir götürülən Təhmasibqulu tezliklə sultanın qəlbinə yol tapıb, onun ən yaxın dostuna və munisinə çevrildi. O, sultanın bütün əyləncə məclislərində iştirak edir, daim onunla bir yerdə olurdu. Ancaq IV Sultan Murad öldükdən sonra onun yerinə gələn sultan İbrahim Səfəvi dövlətinə dost münasibəti ilə tanınırdı. O, hakimiyyətə gələn kimi Təhmasibqulu xanı Səfəvi dövlətinin Osmanlıdakı səfirinə təhvil

---

[1] Əsnadi əz rəvabet-e İran ba mənateğ-e Qəfqaz, səh.93

verdi və səfir də onu Səfəvi hökmdarının əmri ilə İstanbul şəhərində edam etdirdi.

Hicri-qəməri tarixi ilə 1045-ci ildə İrəvan yenidən Səfəvi dövlətinin ixtiyarına keçdi. Səfəvilərin nüfuzlu şəxslərindən biri ora hakim təyin olundu. Bununla da Çuxursəddə Əmirgunə xanın irsi hakimiyyətinə son qoyuldu və bundan sonra Çuxursədə hakimlər Səfəvi dövləti tərəfindən göndərildi”.[1]

A.Bakıxanovun yazdığına görə, Şah Səfinin yanına girov kimi göndərilən kumık əmiri Surxay Mirzənin qardaşı Əlqas Mirzəyə Səfiqulu xan ləqəbi verilib və o, əmirlər sırasına daxil olduqdan sonra bir müddət İrəvanda və Şirvanda hakimlik edib.[2]

Faruq Sümer də yazır: "Şah Səfi zamanında Ağcaqala və Lorinin valisi olan İsa xan Sultan hicri-qəməri tarixi ilə 1066-cı ildə (miladi tarixi ilə 1656-cı ildə) Çuxursəddə də hakimlik etmişdir".

Şah Səfinin ölümündən sonra onun oğlu II Şah Abbas hakimiyyətə gəldi. O, hicri-qəməri tarixi ilə 1052-ci ildə taxta çıxdı. Onun hakimiyyəti hicri-qəməri tarixi ilə 1077-ci ilə qədər davam etmişdir. Bu illərdə Osmanlı imperiyası Avropa dövlətləri ilə siyasi və hərbi konfliktlər yaşadığından, Azərbaycana və o cümlədən İrəvana hücumlar olmamışdır. Lakin II Şah Abbasın hakimiyyəti dövründə daxili vəziyyət qeyri-stabil olmuş və hakimlər tez-tez dəyişdirilmişdir. Çuxursəd bəylərbəyi Məhəmmədqulu xan da bu dövrdə tutduğu vəzifədən azad olunmuşdur.

Hicri-qəməri tarixi ilə 1077-ci ilin rəbiüləvvəl ayında II Şah Abbas vəfat etdi və onun oğlu Səfi Mirzə

---

[1] Əlipur Səfər. Hökumətha-ye məhəlli-ye Qafqaz dər əsr-e Qacar, səh.90
[2] A.Bakıxanov. Gülüstani-İrəm, səh.234

əvvəlcə II Səfi adı ilə taxta çıxdı, lakin çox tezliklə o, Şah Süleyman kimi tanındı. Onun hakimiyyəti dövründə də İrəvan qonşuları tərəfindən təcavüzə məruz qaldı. "Lakin hicri-qəməri tarixi ilə 1089-cu ildə (miladi tarixi ilə 1679-cu ilin iyun ayının 4-də) İrəvanda güclü zəlzələ baş verdi və şəhər yerlə-yeksan oldu. Bundan sonra qala yenidən bərpa olundu və daha da genişləndirildi".[1]

Bu zəlzələdən öncə İrəvanda olmuş məşhur fransız səyyahı J.Şardən öz "Səfərnamə"sində bu torpaqlar haqqında ətraflı söhbət açmışdır. O, yazır: "İrəvan böyük şəhərdir, çoxlu bağları olsa da, çirklidir. Burada böyük binalar yoxdur. Ətrafı dağlıqdır. İki çayı var: Biri Zəngi adlanan böyük çay, ikincisi kiçik Qırxbulaq çayıdır. Zəngi çayı şəhərin kənarından axır, Qırxbulaq isə şəhərin içindən keçir. Şəhər kənarında yerləşən İrəvan qalası da şəhər hesab olunur. Qalanın əhalisi müsəlmanlardan ibarətdir, amma burada ermənilərin də dükanları var. Onlar gündüz dükana gəlib, alver edir, gecə isə şəhərə qayıdırlar. Qalanı iki min silahlı mühafizə edir. Bir neçə top daim döyüşə hazır vəziyyətdə saxlanılır. İrəvan hakiminin evi qalada Zəngi çayının axar-baxarlı yerindədir.

Burada bir "Narınc" qala da vardır. Orada da böyük toplar qoyulub... İrəvanda ətrafına ağaclar əkilmiş dördguşəli böyük bir meydan vardır. Həmin meydanda cıdır yarışları keçirilir... Əyalətdə əkinçilik inkişaf edib, burada hər cür ağac və bitki əkilir. İrəvanın ətrafından axan çayda çoxlu balıq olur, ən çox isə forel ovlanır".[2]

---

[1] Ə.Ələkbərli. Qədim türk-oğuz yurdu Ermənistan, səh.185

[2] Etimadüs-səltənə. Mirat-ül Bildan. Doktor Hüseyn Nəvainin redaktəsi ilə, I cild, səh.181

Şah Süleymanın yeddi oğlu var idi. Böyüyü Hüseyn Mirzə idi. Şahın ölümündən sonra *(hicri-qəməri tarixi ilə 1006-cı ildə)* əmirlər onu hakimiyyətə gətirdilər. Saray əyanları onun qorxaq və cəsarətsiz olmasından istifadə edib hakimiyyəti ələ almaq istəyirdilər. Hüseyn Mirzənin dövründə Səfəvilər sülaləsinin ömür kitabı qapandı və hicri-qəməri tarixi ilə 1135-ci ildə əfqanlar İsfahanı işğal etdilər.

Əvvəlcə Mahmud Əfqan hakimiyyətə gəldi. Mülayim xarakterə malik olan bu adam bir sıra hadisələr nəticəsində son dərəcə dəyişdi. O, təsəvvürəgəlməz dərəcədə vəhşi cəza üsulları tətbiq etməyə başladı. İş o yerə gəlib çatdı ki, vəziyyətdən çıxmaq üçün əfqan ağsaqqalları çarə axtarmalı oldular. Onlar Mahmudun öz göstərişi ilə zindana atılmış əmisi oğlu Əşrəfi həbsdən azad edib, onun yerinə taxta oturtmaq qərarına gəldilər. Beləliklə, Əşrəf Əbdüləziz oğlu hicri-qəməri tarixi ilə 1137-ci ilin şaban ayında (miladi tarixi ilə 1725-ci ilin aprelində) İsfəhanda taxta çıxdı və onun adına sikkə kəsildi. Bununla da qısa zamanda hakimiyyət uğrunda mübarizə başa çatdı. Əşrəf sultan qəsrinə sahib olan kimi Mahmud qətlə yetirildi.

Hicri-qəməri tarixi ilə 1139-cu ildə (miladi tarixi ilə 1726-cı ildə) Osmanlı ordusu ilə Əşrəfin qoşunları arasında döyüş baş verdi. Əşrəf məğlub olduğunu görüb, qarşı tərəfə sülh təklif etdi. Həmin müqavilənin şərtlərinə görə, Səfəvi dövlətinin əksər şəhərləri, o cümlədən İrəvan Osmanlılara təhvil verilirdi.[1]

Məhəmməd Kazım Mərvi bununla bağlı yazır: "Mahmud Əfqan İsfahanda hakimiyyətə gələn kimi Rum hökmdarı Sultan Əhməd paşalara göstəriş verdi

---

[1] Dr. Məryəm Əmir Əhmədi. Tarix-e ectemai və siyasi-ye İran dər əsr-e Səfəvi, səh.100

ki, İrəvan və Gürcüstandan Təbrizə, Bağdad ətrafından Həmədana qədər bütün əraziləri işğal edib, hər şəhərə hakim və amil təyin etsinlər. Növbəti ildən isə bu şəhərlərin gəlir və məhsulları hesablansın".[1]

## İrəvan Nadir şah Əfşar dövründə

Hicri-qəməri 1135-ci ildə, yəni Mahmud Əfqan İsfahana yaxınlaşdığı günlərdə dövlət adamları vəliəhd Təhmasib Mirzəni atasına kömək üçün Qəzvinə göndərdilər. O, ordu toplayıb əfqanlarla döyüşə girişməli idi. Təhmasib Mirzə də əvvəlcə Qacarqəvanlu əyalətinin hakimi Fətəli xanı sarayın səlahiyyətli nümayəndəsi və əmirlər əmiri təyin etdi. Bu zaman Nadirin qəhrəmanlıqları barədə məlumat alan vəliəhd ona ittifaq təklif etdi. Nadir də onun yanına gələrək "Təhmasibqulu xan" ləqəbini qəbul etdiyini bəyan etdi.

Təhmasibqulu xan hicri-qəməri tarixi ilə 1143-cü ilin məhərrəm ayının birində öz qoşunu ilə Azərbaycana daxil olaraq Savucbulağı, Marağanı, Dehxarqanı azad etdi. Məhərrəm ayının 27-də isə o, Təbrizə daxil oldu və sonra İrəvanı mühasirəyə almağa yollandı. Ancaq burada olarkən əfqanların Məşhədə hücum etməsi xəbərini eşitdi. Buna görə də Osmanlılarla məsələni yarımçıq qoyub, dərhal Təhmasibin Məşhəddə hakimlik edən 12 yaşlı oğlu Rzaqulu Mirzənin köməyinə tələsdi.

---

[2] Aləmaraye-Nadiri, səh.1050



**Nadir şah Əfşar**

Nadirin Şərqə yürüşündən sonra Şah Təhmasib ona tam arxayın olaraq özü 18 minlik ordu ilə Səfəvilər dövlətinin qərb torpaqlarının azadlığı uğrunda mübarizəyə başladı. O, hicri-qəməri tarixi ilə 1143-cü ilin cəmadiül-əvvəl ayında İsfahandan Təbrizə gəldi. Sonra İrəvana yönələrək, şəhərin yaxınlığında Osmanlılara ağır zərbə endirdi. Təkcə bir döyüşdə osmanlıların 9 minə yaxın döyüşçüsünü sıradan çıxarıb, İrəvanı mühasirəyə aldı.[1]

Məhəmməd Kazım Mərvi yazır: "Marağa və Təbriz ətrafındakı məntəqələri mübarək qədəmləri ilə şərəfləndirən hökmdar arxada qalan qazilərin və igidlərin gəlib onlara yetişməsi üçün çadır qurub bir neçə gün gözləməyi əmr etdi. Bu zaman Təbriz, Marağa, Urmiyadan başqa, Azərbaycanın İrəvan, Gəncə, Şirvan kimi şəhərləri də Osmanlıların əlində idi. Buna görə də hökmdar əvvəlcə İrəvana gedib Çuxursəd əyalətini işğal altında saxlayan Əli paşa Həkim oğlunu cəzalandırmaq, İrəvandakı qalaları azad etmək, sonra digər Azərbaycan şəhərlərinə yollanmaq fikrində idi.

...Səhəri gün padşah Əfrasiyaba bənzər əmirlərlə birgə hərəkətə keçib, qalanın dövrəsinə yetişdi və ətrafı seyr etməyə başladı. Qalanın möhkəmliyinə və dözümlülüyünə söz ola bilməzdi. Qibleyi-aləmin kə-

[1] Abbas İqbal Aştiyani. Tarix-e mofəssəl-e İran, səh.716

məndi kimi yolu kəsən firuzəyi hasar göyün doqquzuncu qatına yüksələrək, insanda vahimə oyadırdı. Hasar uca dağa, qarşısındakı xəndək isə uçuruma bənzəyirdi".[1]

"Osmanlılar şahı çaşdırmaq üçün İrəvan qoşunlarının başçısı Əli paşanı və Bağdad hakimi Əhməd paşanı həmin dövrdə yiyəsiz qalmış İraqi-əcəmi işğal etməyə göndərdilər. Buna görə də Şah Təhmasib özünü dərhal Həmədana çatdırdı və Kürdxan kəndində Osmanlı qoşunu ilə üz-üzə gəldi. Əhməd paşa bir müddət şahın başını sülh danışıqları ilə qataraq, qəflətən Səfəvi ordusuna hücum etdi. Şah Təhmasib və sərkərdə Məhəmməd xan Bəluc ağır itkilərə məruz qaldılar. Əhməd paşa Kirmanşahı və Həmədanı, Əli paşa isə Marağa və Təbrizi ələ keçirdi. Şah Təhmasib İsfahana qayıtmalı oldu.

Ancaq Əhməd paşa Nadirdən çox qorxurdu və buna görə dərhal sülh danışıqlarına başladı. Bağdadda imzalanan həmin sülh müqaviləsinə görə, Şah Təhmasib Təbrizi, Ordulanı, Loristanı, Kirmanşahı saxlamaq şərti ilə, Arazın sol sahilini, yəni Gəncəni, Tiflisi, İrəvanı, Naxçıvanı, Dağıstanı Osmanlılara güzəştə gedirdi.

...Bu zaman Herat cəbhəsində də müharibə gedirdi. Müəyyərülməmalik Şah Təhmasiblə Əhməd paşa arasında bağlanmış müqaviləni imzalamaq üçün Nadirə gətirdi. Təhmasibqulu xan bərk qəzəbləndi və müqaviləni imzalamaqdan imtina etdi. O, Osmanlı səfiri vasitəsilə Əli paşaya belə bir ultimatum göndərdi: Ya Səfəvi dövlətinin bütün vilayətlərini qaytar, ya da müharibəyə hazırlaş. Özü isə Heratı azad edəndən sonra Bağdada yola düşdü.

---

[1] Aləmara-ye Nadiri, səh.209

...Qeyd etdiymiz kimi, Nadir əfqanlara qarşı döyüşdüyü müddətdə Osmanlı əsgərləri İrəvanın dörd qalasını, Gəncəni, Qarsı, Tiflisi işğal etmişdilər. Nadir bu dörd qalanı azad etmədən öncə Osmanlı əskərlərini həmin ərazilərdən qovub çıxara bilməzdi. O, qalaların mühasirəsi ilə məşğul olduğu vaxt Abdullah paşa Səfəvi ordusuna hücum etmək üçün 7 min süvari və 50 min piyada qoşunla İrəvan yaxınlığına gəldi. Tərəflər Bağavurd düzənliyində (bəzən tarixçilər Murad təpəsi də yazırlar) üz-üzə dayandılar. Təhmasibqulu xan hicri-qəməri tarixi ilə 1148-ci ilin məhərrəm ayının 26-da Osmanlı qoşununa ağır zərbə endirdi. Abdullah paşanın və Diyarbəkr paşasının komandanlığındakı olan ordu 5 min döyüşçü itirdi. Bu qələbədən sonra Gəncə və Tiflis təslim olsa da, İrəvan və Qars  müqavimət göstərməkdə davam edirdi".[1]

Osmanlı böyükləri Bağdad valisi Əhməd paşaya Təhmasibqulu xanla sülh müqaviləsi bağlamağı əmr etdilər. Əhməd paşa Qarsın Osmanlıların əlində qalması şərti ilə İrəvanı qaytarmağa hazır olduğunu bildirdi. Beləliklə, hicri-qəməri tarixi ilə 1148-ci ilin əvvəllərində Osmanlılarla  Nadir arasında (Nadir tərəfindən Babaəli məsul olmaqla) sülh müqaviləsi imzalandı. Beləliklə, Səfəvilər dövlətinin qərb və şimali-qərb vilayətləri geri alındı.

Məhəmməd Kazım Mərvi yazır: "Amma xoşbəxt ulduzlu naib o qələbədən sonra İrəvan istiqamətinə yollanmağı lazım bildi və yol tədarükünə başladı. Köç-köç dalınca İrəvana yola düşdü. Nadir o yerlərdəki yaylaqda şah çadırı qurub, qeybdən xoş səda gözlədi.

[1] Abbas İqbal Aştiyani. Tarix-e mofəssəl-e İran, səh.716

Bu xəbəri eşidən İrəvan hakimi Həsən paşa 30 min süvari ilə döyüşə hazırlaşdı. Xoşbəxt ulduz sahibi rumluların cəsarətini və şücaətini görən kimi təcrübəli əmirlərə - Əliqulu bəyə, əmir Aslan xana, İmamverdi xan Qoroğluya göstəriş verdi ki, onları dəf etsinlər.

Fərman sahibi döyüşün gedişində öz qazilərini də həmin süvarilərin üstünə yönəltdi. Döyüş şiddətləndi. Savaşda sonsuz çətinliklər olsa da, ilahinin lütf nəsimi Nadirin bayrağının üstünə əsdi və düşmənlər İrəvana tərəf qaçmağa başladılar... Xoşbəxt ulduz sahibi onların malını və döyüş qənimətlərini qazilərə bağışlayıb, görkəmli sərkərdələrini mükafatlandırdı. Eyş və sevinc səsi göyə yüksəldi. Ancaq Abdullah paşanın Gəncə yaylağına gəlməyə hazırlaşması xəbərini eşidib neçə gün orada dayandı...".[1]

"Nadirin döyüşçüləri Arpaçayın kənarına qədər irəliləyib, həmin bölgədəki yerləri yenidən geri aldılar. Nadir əkin-biçinin artırılması, su arxlarının təmizlənməsi və xarabalıqların abadlaşdırılması üçün fərman verdi".[2]

İrəvanın fəthindən bir neçə ay əvvəl Nadir şahın Gürcüstan çarına xitabən verdiyi fərmanda İrəvan hakimi Məhəmmədqulu xanın da adı çəkilmişdir. Fərmanın mətni belədir: “Bu bölgənin tabeliyimizdə olmasını bildirməsini qiymətləndiririk. Bu müddət ərzində körpü başında olan Marağa hakimi baş sərkərdə Əliqulu xan, Əlişəkər dairəsinin bəylərbəyi Mustafa xan və İrəvan bəylərbəyi Məhəmmədqulu xana göstəriş verdi ki, 2000 nəfərlə yanaşı suyu keçib, yolüstü aliqədr Nəcəfsultan Qaraçorluya Caruf eli əhalisini cəzalandırmaq üçün yardım lazım olsa, ona

---

[1] Aləmara-ye Naderi, səh.392

[2] Nadir şah. Kəsrəvinin müqəddiməsi ilə, səh.41

yardım edin. Sonra Tiflis və Gürcüstanın aliməqam sərdarı İslamış xanın yanına gəlib, bir-birləri ilə birləşsinlər. Tiflis qalasını tutub, müxalifləri cəzalandırsınlar. Hər halda, xatircəməm ki, öz xidməti işlərində səy edib və mətləblərini bildirib, himayə edildiklərindən əmin olsunlar".[1]

İrəvanın fəthindən bir qədər sonra hicri-qəməri tarixi ilə 1148-ci ildə Nadir Muğan çölündə tacqoyma mərasimi keçirdi. Həmin mərasimdə İrəvan xanı da iştirak edirdi. Abraham Qatiqusun xatirələrində deyilir: "İrəvan xanına fərman gəldi ki, təzə ayın əvvəlində (şaban) hazırlaşıb, rəcəb ayının 28-də (24 sentyabr) yola düşsün və şabanın 29-da Muğan düzünə yetişsin".

Hicri-qəməri tarixi ilə 1149-cu ildə Azərbaycanda, o cümlədən İrəvanda taun xəstəliyi tüğyan edirdi. Mərvinin yazdığına görə, onlar iki mənzil qət edib, Şəmsəddinli məhəlləsində, Xalxanə qəsəbəsində dincəldilər. Bu vaxt Gürcüstandan da bir neçə nəfər gəlib çıxdı və onlar bildirdilər ki, Tiflisə və Gürcüstanın digər mahallarına vəba və taun yayılıb. Uca xaliqin bəndələri orada bir neçə gün mehribanlıqla baş girələdilər ki, birdən o dərmansız dərd və Allahın qəzəbi o yerlərə gəlib çıxar. Əksəri Şamaxı və İrəvan şəhərlərinin, Yengicə qalasının, Qarabağın, Qaradağın qazilərindən ibarət olan Allahın bəndələri sonuncu səadət pilləkəninə ayaq qoymağa hazırlaşarkən onlara öz vilayətlərinə qayıtmaq barədə icazə verildi. Qazilər sıraları genişlənə-genişlənə İrəvanın Göyçə yaylağına qalxdılar və bir neçə gün həmin yaylaqda qaldılar ki, bu müddət ərzində taun xəstəliyi İrəvan şəhərindən keçib getsin. Həmin diyarın bəylərbəyi olan Məhəmmədrza xan

---

[1] Əsnadi əz rəvabet-e İran ba mənateğ-e Qəfqaz, səh.120

Pesakuhi Astanaya gəlib dərgahı öpmək fikrində idi. Ancaq hesabül-əmr həmin yerlərdə vəba və taun yayıldığı üçün bəylərbəyinin gəlişinə ehtiyac olmadığını bildirdi. Məhəmməd Rza xan ordunun yanından məyus və məhrum qayıdaraq Çuxursədə yola düşdü.[1]

"Nadir şah 1156-cı ildə Dağıstandan qayıtdıqdan sonra Qurban bəy Özbəyi və Məhəmmədrza xan Əfşarı İrəvan mülkünə sərdar təyin etdi. O, həmin şəxslərə sərhədlərin və adı çəkilən qalanın əsaslı şəkildə təmir edilməsini, ordunun hazırlığını yüksəltməyi tapşırdı. Şahın fərmanında deyilirdi ki, düşmən həmin ərazidən keçdiyi təqdirdə sərdarlar onun qarşısını almağa çalışmalı və cahanaraya ürəklə xidmət etməlidirlər. Əgər bu işin öhdəsindən gələ bilməsələr, İrəvan qalasında gizlənib, müqəddəratlarının həll olunacağı anı gözləməlidirlər. Arzu edənlər çoxdur, bu diyarın hakimliyinə namizəd olacaq kifayət qədər mötəbər sərkərdə vardır".[2]

Padşah İrəvanın əhəmiyyətli mövqeyini nəzərə alıb, oranı Aşur xan Sərdara da tapşırdı. Hicri-qəməri tarixi ilə 1156-cı ildə Sam Mirzənin iğtişaş törətdiyini görüb Aşur xana onun fitnəsinin qarşısını almağı əmr etdi.

Mərvi yazır: "...Hökmdar İrəvanda yaşayan Aşur xan Əfşarı Azərbaycanın sərdarı təyin etdi. Ona tapşırdı ki, düşmən hansı səmtdən gəlsə, qarşısını alıb saxlamağa çalışsın...".

"Xoya düşməni cəzalandırmaq üçün gedən Nadir şahın yaxınlarının sırasında İrəvan sərdarı Aşur xan da var idi".[3]

İrəvanın Göycə yaylağı Nadir şahın sevdiyi yer idi. O, burada tək dincəlmiş, həm də oğlunun və qardaşı

---

[1] Aləmara-ye Nadiri, səh.657
[2] Yenə orada, səh.47
[3] Yenə orada, səh.1039

oğlunun toyunu Göyçə yaylağında etmişdi. Bu barədə "Ələmaraye-Nadiri"də oxuyuruq: "Qələbə taleli hökmdar Gürcüstana gedəndə İrəvanın Göyçə yaylağında şah çadırı qurdurdu... Onun qəlbində gizli bir arzu - görkəmli şahzadə İmamqulu Mirzəni və qardaşının adını verdiyi İbrahim xanı evləndirmək fikri baş qaldırdı. Buna görə də Humayunun hökmü ilə toy hazırlığına başlandı. Bir neçə gün Göyçə yaylağında şadyanalıq məclisi və toy-büsat düzənləndi. Bu iş başa çatandan sonra Xorasanı idarə etmək hüququnu şahzadə İmamqulu Mirzəyə, İraqdakı vacib intizam məsələlərini isə İbrahim xana tapşırdı".[1]

Nadir şah hicri-qəməri tarixi ilə 1169-cu ildə (miladi tarixi ilə 1747-ci ildə) Quçan qalasına sığınmış kürdlərin qiyamını yatırmaq üçün həmin istiqamətə doğru hərəkət etdi və Quçanı ələ keçirərək orada dayandı. Həmin il cəmadiülaxir ayının 11-də (bazar günü) qərara aldı ki, ona qarşı sui-qəsddə şübhəli bilinən yaxın adamları ələ keçirsin və sabahı gün onları edam etdirsin. Amma əks tərəf daha uzaqgörən olub, gecə ikən Nadirin özünü qətlə yetirdi. Qatillər arasında Məhəmməd bəy Qacar İrəvani də var idi. Mirzə Mehdi xan Astarabadi bununla bağlı yazır:

*Gecə başında qətl və qarət fikri var idi,*
*Amma səhər nə bədənin başı, nə də başın tacı var idi.*
*Nilufər çarxın bir dəfə fırlanmağı ilə*
*Nə Nadir hakimiyyətdə qaldı, nə də onun izi.*

Nadirin qətlindən bir neçə saat sonra onun ordusundan və sarayından heç bir əsər-əlamət qalmadı

[1] Ələmara-ye Nadiri, səh.869

və nəticədə, Azərbaycanın müxtəlif vilayətlərində xanlıqlar adı ilə müstəqil və yarımmüstəqil hakimiyyətlər yarandı. Onlardan biri də İrəvan xanlığı oldu. Bu xanlıq "Ağrı dərəsində və Göyçə gölü ətrafında yerləşirdi. O, Araz çayından tutmuş cənubi-qərbə qədər geniş bir ərazini əhatə edirdi. İrəvan xanlığının mövcud olduğu illərdə həmin yerlər dəfələrlə Osmanlı, İran, Kartli-Kaxeti arasında münaqişə meydanı olmuşdu. İrəvan şəhəri də tez-tez hücumlara sinə gərmişdi".[1]

“Bu xanlığın hakimiyyəti altında olan ərazi 12 mahala bölünürdü. Xanın sarayı bir vəzir və bir neçə mirzədən ibarət idi. Qoşuna rəhbərliyi xan öz üzərinə götürmüşdü. Bu xanlığın əhalisi əkinçilik, bağçılıq, bostançılıq və heyvandarlıqla məşğul olurdular".[2]

Nadir şah öldürüləndən sonra Qacar tayfasının başçılarından olan Hüseynəli xan Qacar İrəvani, yəni Qacar Əfşar Çuxursəd vilayətinin hakimi oldu. Şahidlərinin yazdığına görə, o, əvvəldən həmin yerlərin böyüklərindən biri olmuşdu. Nadirin hakimiyyəti devriləndən sonra digər yerlərin böyükləri kimi müstəqil hakimiyyət təsis etməyə başladı.[3]

XVIII əsrin ikinci yarısında İrəvan xanlığı iqtisadi baxımdan xeyli inkişaf etsə də, siyasi baxımdan hələ o qədər möhkəm deyildi.[4]

Hicri-qəməri tarixi ilə 1162-ci ildə (miladi tarixi ilə 1749-cu ildə) Gürcüstan çarı İrakli Hacı Çələbini aradan götürmək üçün müşavirə keçirmək adı ilə gəncəli Şahverdi xan, qarabağlı Pənahqulu xan, qaradağlı

---

[1] Ə.Ələkbərli. Qədim türk-oğuz yurdu Ermənistan, səh.185
[2] Azərbaycan ensiklopediyası. İrəvan xanlığı bölməsi.
[3] Bax: Əlipur Səfər. Hökumətha-ye məhəlli-ye Qafqaz dər əsr-e Qacar, səh.90
[4] Bax: Azərbaycan ensiklopediyası. İrəvan xanlığı bölməsi.

Kazım xan, irəvanlı Hüseynəli xan, naxçıvanlı Heydərqulu xanla Gəncənin qərbində görüşüb, onların hamısını bir yerdə əsir götürdü. Bu xəbəri eşidən Hacı Çələbi şücaəti ilə ad çıxarmış Ağarza bəylə ittifaqa girib, Gəncənin yarım fərsəngliyində Qızılqaya adlalan yerdə onu məğlub edib, adları çəkilən xanları azad etdi.[1]

XVIII əsrin ortalarında Urmiya xanlığının rolu artmağa başladı. Onun qurucusu Fətəli xan Əfşar öz rəhbərliyi altında Azərbaycanda mərkəzi hakimiyyət yaratmağa çalışırdı. O, bu planı gerçəkləşdirmək məqsədilə hərbi qüvvələri gücləndirmək üçün bir sıra tədbirlər gördü. Fətəli xan Nadir şahın sabiq sərkərdələrindən birini 15 minlik əsgərlə öz tərəfinə çəkməyə müvəffəq oldu. Azad xan da Xoy hakimi Şahbaz xanın himayəsində idi. Fətəli xan Təbriz, Marağa, Qarabağ xanlarını və kiçik hakimlərdən bir qrupunu özünə tabe edə bildi. O, bəzi xanlarla ittifaq bağlayandan sonra bütün Qafqazda öz hakimiyyətini genişləndirib, İrəvana, Qarabağa, Kaxetiyə (Şərqi Gürcüstana) nümayəndə göndərərək, onlardan tabe olmaq əlaməti kimi öz girovlarını göndərməyi tələb etdi. Nümayəndələr adı çəkilən hakimlərdən mənfi cavab gətirdilər. Bu əhvalatdan sonra döyüş əməliyyatları başlandı. Miladi tarixi ilə 1751-ci ilin baharında Fətəli xanın ordusunun böyük bir hissəsi İrəvan qalasına yaxınlaşıb, onu mühasirəyə aldı. Lakin Kaxeti hakimi II İrakli İrəvanda mühasirəyə düşənlərə kömək məqsədi ilə xeyli hərbi qüvvə göndərdiyi ücün, Urmiya qoşunları İrəvanı buraxıb, Kaxetiyə üz tutdu. Tərəflər arasındakı döyüşdə Urmiya ordusu qalib gəldi və Kaxeti hakimindən girov və qənimət aldı.[2]

---

[1] Bax: A.Bakıxanov. Gülüstani-İrəm, səh.161

[2] Bax: Azərbaycan tarixi. Tərcümə edən: Doktor Nəsrulla İshaqi Bayat, I cild, səh.125

Kərim xan Zənd Azad xan və Fətəli xanla mübarizə üçün Azərbaycana gələndə İrəvan hakiminə təzyiq göstərib, onun döyüşçülərini öz qüvvələrinin tərkibinə birləşdirdi. O, Urmiya şəhərini işğal edib, Əfşar hökumətini devirdi. Kərim xan Azərbaycan əmirlərini tabe etdikdən sonra diqqəti Zəki xan Zəndə yönəltdi. Buna görə də öz qoşunu ilə İraqi-Əcəm tərəfə yollandı. Bu yürüşdə o, Azərbaycanın, Şirvanın yerli hakimlərini, onlara bağlı adamların çoxunu özü ilə apardı. Tarixçilərin yazdığına görə, Hüseynəli xanın əmisi oğlanları da Kərim xanın məcburi döyüş dəstəsində idilər. Müəllim Rozuy "Məcməüt-təvarixe-Gülüstanə" əsərinə yazdığı şərhində Hüseynəli xanı Kərim xan Zəndin məcburi yoldaşları sırasında qeyd etmişdir.[1]

Kərim xanın ölümü ilə əyalətlərin mərkəzi Zənd hökuməti ilə əlaqələri qırıldı və Azərbaycanda hər şəhərin hakimi istiqlal təbili çaldı, aralarında çəkişmələr başlandı. Bu arada Əhməd xanın bariz şəxsiyyəti *(Xoy hakimi)* daha qabarıq göründü.

Birinci təhlükə hicri-qəməri tarixi ilə 1193-cü ildə Gürcüstan valisi İrakli tərəfindən yarandı. O, İrəvanı işğal etmək fikrinə düşmüşdü. İrəvan bəylərbəyi Hüseynəli xan Ziyad oğlu Əhməd xandan kömək istədi. Gürcülərdən gələn təhlükənin qarşısını almaq üçün Əhməd xan Xoydan aralıda və Təbriz hakimi Nəcəfqulu xan isə Arpaçayın sahilində qərargah yaratdı. İrakli bu hazırlıq barədə xəbərləri eşidib, İrəvandan əlini çəkdi və Tiflisə qayıtdı.[2]

Hüseynəli xanın hakimiyyəti dövründə onun göstərişi ilə İrəvanda Göy məscid tikildi. Əsgər Zeynalov

---

[1] Bax: Azərbaycan tarixi. Tərcümə edən: Doktor Nəsrulla İshaqi Bayat, I cild, səh.125

[2] Bax: Doktor Məhəmməd Əmin Riyahi. Tarix-e Xoy, səh.163

bu barədə yazır: "Həm Bakı, həm Gəncə, həm də İrəvan Azərbaycanın qədim şəhərlərindəndir. Miladi tarixi ilə 1760-cı illərdə... Hüseynəli İrəvan xanı idi... Bir gün səhər təzəcə yuxudan duran xalq maraqlı bir mənzərə ilə üzləşdi. Şəhərin ortasından daş karxanasına gedən yolun bir tərəfinə yonca, digər tərəfinə arpa tökülmüşdü. Yükləri daş olan ulaqlar daş karxanasından qayıdanda yonca yeyirdilər. Ulaqlar əziyyət çəkməsin deyə şallaqlar parçadan tikilmişdi. Bu, Hüseynəli xanın tədbiri idi. Xalq onu mehriban və səxavətli bir insan kimi tanıyırdı. Bu həmin Hüseynəli xan idi ki, bayram günlərində İrəvandakı təpənin başına qalxar, əlini alnının üstünə qoyub şəhərə baxardı. Hansı evdən tüstü qalxmazdısa nökərini çağırıb deyərdi ki, bu düyü və kişmişi apar həmin evə ver. Qoy o evin də dudkeşindən tüstü qalxsın. Onun kəlamlarından biri zərbülməsələ çevrilib: "Yalnız qışda içdiyim su ürəyimə yatır, çünki hamı bu soyuq sudan içə bilir".[1]

Hüseynəli xan hakimiyyətə gələndə, təxminən, 160 il idi ki, İrəvan xanlığı mövcud idi. Türk tarixçisi İ.Peçevinin yazdığına görə, İrəvan xanlığının bünövrəsi miladi tarixi ilə 1604-cü ildə qoyulub.

Hüseynəli xan qayıdıb, keçmişə nəzər salmaqda idi... O illər ki, onun ata-babaları İrəvanda hökmranlıq etmişdilər. Onun ataları özlərindən elə bir əsər yadigar qoymuşdular ki, tarixdə əbədi qalacaqdı. Hüseynəli xan yaxşı başa düşürdü ki, tale ona yaxşı bir fürsət yaradıb və o, bu fürsətdən istifadə etməlidir. Buna görə də Hüseynəli xan əcdadlarının adını yaşatmaq məqsədi ilə kisənin ağzını açıb, İrəvanda bir məscid tikmək qərarına gəldi. O, ustaları sənət beşiyi olan Təbrizdən dəvət

---

[1] Doktor Məhəmməd Əmin Riyahi. Tarix-e Xoy, səh.184

etdi. Çünki Qahirədə, Şamda, Heratda, İstanbulda, Dehlidə, Bağdadda və ümumiyyətlə, Şərqdə elə bir qiymətli memarlıq nümunəsi ola bilməzdi ki, orada Təbriz memarlıq məktəbinin nümayəndələrinin əllərinin izi olmasın. Düşmənlər elə ki, Təbrizi dağıdardılar, ilk növbədə, onun sənətkarlarını öz ölkələrinə aparardılar.

Sənətkarlar işə başladılar. Torpağı qazıb tikintinin bünövrəsini qoydular. İş sürətlə gedirdi. Lakin bir gün səhər tezdən şəhərə xəbər yayıldı ki, ustalar gecə ikən qaçıblar. Əlacsız qalan Hüseynəli xan bilmədi, nə etsin. Başqa ustalar çağırdı. Onlar gəlib əvvəlki tikintini görəndən sonra çiyinlərini çəkib getdilər. Yenə bir dəstə gəldi, onlar da binanın strukturundan baş aça bilmədilər. Hüseynəli xanın əli hər yerdən üzüldü. Birdən qeyri-adi bir hadisə baş verdi. Təbrizli ustalar qayıdıb gəlmişdilər.

Hüseynəli xan qəzəbli halda onlardan indiyədək harada olduqldarını soruşdu. Ustalar dedilər: "Bir il vaxt lazım idi ki, bünövrə yaxşı bitişsin. Bilirdik ki, sən bu qədər gözləməyə razı olmayacaqsan, ona görə də gizlicə qaçdıq. İndi həmin müddət başa çatıb və biz qayıtmışıq".

Hüseynəli xan başqa bir söz demədi.

Binanın tikintisi davam etdi... Təbrizdə 1465-ci ildə tikilmiş Göy məsciddən, təxminən, üç əsr keçəndən sonra İrəvanda da Göy məscid ucaldı. Məscidin dörd minarəsi vardı. Üstündən illər keçəndən sonra da o öz gözəlliyi ilə insanları heyrətləndirməkdə idi.

Tarixçi Məhəmmədov yazır: "Hüseynəli xanın oğlu Göy məscidin aynalı salonunu tikdirdi və məşhur rəssam Mirzə Qədir İrəvani məscidin divarında bəzi heyvanların şəklini çəkdi. Onun həyətində hovuz var idi və hovuzun içərisindəki fəvvarələr 1-1,5 metr

hündürlüyünə su vururdu. Nəziri olanlar bəzən qənd gətirib hovuza tökürdülər. Çünki camaat ondan şərbət kimi istifadə eləyirdi. Əsrin ziyalıları da Göy məsciddə toplaşırdı. XX əsrin 30-cu illərinə qədər İrəvanda Mirzə Hüseyn ağa adlı bir alim yaşayıb. O, həmişə Göy məsciddə oturardı. XX əsrin əvvəllərində onu Kazan və Peterburq universitetlərinə dəvət etmişdilər. Ən qüdrətli dilçilər Mirzə Hüseyn ağanın yanına gəlib, ərəb dilinin qrammatikasını ondan öyrənərdilər. Türkiyədən alimlər onun yanına gələrdilər. O, xoş təbli bir şair idi. Mirzə Hüseyn ağa 1937-ci ilin repressiyaları zamanı qətlə yetirildi.

Hal-hazırda İrəvanın Göy məscidinin təkcə bir günbəzi və 8-10 hücrəsi var. İrəvanda və bütövlükdə Ermənistanda azərbaycanlıların əli ilə yaradılmış tarixi əsərləri Azərbaycanın memarlıq nümunələrindən ayrılıqda saymaq mümkün deyil. Buna görə də onlar haqqında yazmaq hamımızın vəzifəsidir. Lakin böyük təəssüf hissi ilə bildirirəm ki, bu sahədə heç bir iş görülməyib. İrəvanın Göy məscidi Şərqin digər məscidlərindən heç də geri qalmır".[1]

Xatırlatmaq lazımdır ki, "İrəvandakı Göy məscidin əsas dairəvi günbəzindəki yazıları hicri-qəməri tarixi ilə 1180-ci ildə Mir Mürtəza Təbrizi və Qaffar Ovcani adlı iki sənətkar yazmışdır".[2]

---

[1] Bax: "Ərk" qəzeti (Təbriz), 23.10.1381 hicri-şəmsi ili

[2] "Salam" qəzeti, 20.10.1375-ci il





**Ayaq üstə dayanmış oğlan portreti**

**Oturmuş qadın portreti**

**(Rəssam Mirzə Qədim İrəvani)**





**İrəvanda karvansara**

**Sərdabad qalası uğrunda döyüş səhnəsi**

**(Rəssam general-mayor Qriqori Qaqarin)**

Azərbaycan Ensiklopediyasında Hüseynəli xanın miladi tarixi ilə 1783-cü ildə vəfat etdiyi göstərilir: "Kartli-Kaxeti hakimiyyəti Rusiyanın himayəsi altına keçdiyinə görə 1783-cü ildən İrəvan xanlığının da Ru-

siyaya meyli gücləndi. Osmanlı imperiyası Qafqazda Rusiyanın siyasətinin güclənməsindən narahat idi. Buna görə İrəvanın yeni hakimi Qulaməli xanı Gürcüstan əleyhinə qaldırmağa çalışırdı. Ancaq tezliklə Qulaməli xan II İraklinin tərəfdarlarının əli ilə qətlə yetirildi və onun yerinə Əli Məhəmmədxan gəldi".

Məhəmməd xan Qacar İrəvani İrəvanın sonrakı hakimi oldu. Qacar tarixinin müəllifi hicri-qəməri tarixi ilə 1201-ci il hadisəsindən danışarkən onu Urmiya bəylərbəyi Məhəmmədqulu xanın sadiq müttəfiqi kimi təqdim etmişdir. Həmin ildə Xoy hakimi Hüseynqulu xan Donbolinin xərac verməkdən boyun qaçırması Məhəmmədqulu xanı qəzəbləndirdi. O, Azərbaycan əmirlərini, o cümlədən Məhəmməd xan İrəvanini çağırıb, Xoy və Səlmas üzərinə hücuma apardı.[1]

## İrəvan Ağa Məhəmməd xan Qacar dövründə

Ağa Məhəmməd xan Qacar Lütfəli xan Zəndi hakimiyyətdən saldıqdan sonra diqqətini Azərbaycan vilayətlərinə yönəltdi. Burada bir neçə il idi ki, xanlar mərkəzi hakimiyyətə tabe deyildilər. Ağa Məhəmməd xan atasının bu torpaqlara uğursuz hücumlarını qələbə ilə başa çatdırmaq və bu barlı-bəhərli bölgənin iqtisadi və ticari üstünlüyündən istifadə etmək istəyirdi. Onun hərb maşınının xərcləri dəhşətli dərəcədə çox idi. Artıq onu daxili qarət və soyğunçuluq hesabına ödəmək mümkün deyildi. Buna görə də o, Azərbaycanın qızıla bərabər torpaqlarını ələ keçirməyə çalışırdı.[2]

---

[1] Bax: Əlipur Səfər. Qacar dövründə Qafqazın yerli hökumətləri, səh.92

[2] Bax: Pənahi Simnani. Ağa Məhəmməd Qacar, səh.184

Ağa Məhəmməd Kirmanı fəth edəndən sonra qoşunun baharda Tehranın ətrafında toplanması barədə göstəriş verdi. Oraya təqribən 60 min insan gəldi. Novruzdan 53 gün sonra (şəmsi təqvimi ilə 1174-cü ilin (*miladi tarixi ilə 1795-ci il)* ordibehişt ayının 23-də) o, Tehrandan çıxdı. Son ana qədər Ağa Məhəmməd xanın haraya yollanacağını heç kəs bilmirdi.

Qacar ordunu üç hissəyə böldü: bir hissəni sağ tərəfdən Muğana, Şirvana, Dağıstana göndərdi. İkinci hissəni sol tərəfdən İrəvan istiqamətinə yolladı. Özü isə onların arasında Qarabağın möhkəm qalalarından hesab olunan Şuşa qalasına doğru irəlilədi. Süleyman xan Araz çayı üzərində körpü saldırdı və oradan keçdilər.[1] 35 günlük mühasirədən sonra İrəvan qalası Ağa Məhəmməd Qacarın ixtiyarına keçdi.[2]


**Ağa Məhəmməd xan Qacar**

Ağa Məhəmməd xan Qacar bu səfərdə Gürcüstana hücum etdi və 15 nəfəri əsir edib özü ilə apardı. 1796-cı ildə Rusiya qoşunları general Zubovun komandanlığı altında hücum əməliyyatlarına başladı. Bu zaman Xorasan bölgəsində cari işlərlə məşğul olan Ağa Məhəmməd xan Azərbaycan hakimlərindən, o cümlədən İrəvan bəylərbəyi Məhəmməd xandan, Təbriz və Xoy bəylərbəyi Hüseynəli xan Donbolidən və digərlərindən məktublar

---

[1] Bax: Səid Nəfisi. Tarix-e ectemai-ye siyasi-ye İran. I cild, səh.66
[2] Bax: Azərbaycan Ensiklopediyası

aldı. Həmin məktublarda da bu barədə yazılmışdı: “Rusiya imperatriçası Tiflisdə qətlə yetirilmiş bir qrup rus əsgərinin intiqamını almaq üçün kifayət qədər yaxşı silahlanmış və toplarla təchiz edilmiş 80 minlik ordunu bölgəyə göndərib. Başqa bir dəstə isə Dərbəndi mühasirəyə alıb. Bundan əlavə, Bakı və Talış bölgəsi ruslara təslim edilib, Şirvan və Gəncə camaatı da əmrə tabe edilib. Adı çəkilən bölgədə vəziyyət qarışıq, əhali isə pərişandır. Gərək tezliklə bir əlac fikirləşəsiniz, əks halda, bütün nizam-intizam pozulacaq”.[1]

Ağa Məhəmməd xan tərəfindən İrəvan hakimliyi vəzifəsi saxlanılmış və Məhəmməd xan Qacar İrəvani də Azərbaycanın əksər yerli əmirləri kimi dinclik xatirinə Ağa Məhəmməd xanın dostluq həlqəsinə qoşulmuşdu. Amma fürsət düşsəydi, başqa bir hami tapıb, ondan kömək istəyərdi. O, hicri-qəməri tarixi ilə 1209-1211-ci illərdə Osmanlı dövlətinə tərəf üz çevirdi və Osmanlı sultanı III Süleymana və Ərzurum valisi Yusif paşaya yazdığı məktubda Ağa Məhəmmədin yenidən qoşun çəkməsi barədə məlumat verərək, ona kömək əli uzadılmasını, Osmanlı dövlətinin himayəsinə qəbul edilməsini xahiş etdi.[2]

Ağa Məhəmməd xan Qacar İrəvan xanını zindana salıb, idarəçilik işlərini Əliqulu xana tapşırdı. Ağa Məhəmmədin qətlindən sonra 1797-ci ildə Əliqulu xanı İrəvandan qovdular. Həmin ilin sonlarında Fətəli şah Məhəmməd xanı zindandan azad edib, yenidən İrəvanın hakimi təyin etdi.[3]

---

[1] Xanək Eşqi. Siyasət-e nezami-ye Rusiye dər İran (1790-1810-cu illər), səh.42

[2] Bax: Əlipur Səfər. Hokumətha-ye məhəlli-ye Qəfqaz dər əsr-e Qacar, səh.92

[3]Bax: Azərbaycan Ensiklopediyası

## XIX əsrin astanasında İrəvanın iqtisadi durumuna bir nəzər

Çarlz İsəvi özünün mükəmməl "İranın iqtisadi tarixi - Qacariyyə dövrü (hicri-qəməri 1215-1332-ci illər)" əsərində XIX əsrin birinci yarısında İrəvanın iqtisadi vəziyyəti barədə qiymətli məlumatlar vermişdir. O, İrəvanın sənətkar və xırda tacirlərinin təşkilati vəziyyəti barədə yazır: "Sənətkarlar kütləsi ustalardan ibarət idi. Ustalar kustar sənaye məhsullarının istehsalında çox mühüm yer tuturdular. Gəlirləri hər peşə üzrə ustaların sayına uyğun olurdu. Ustalar öz peşələri ilə bağlı olmayan əmtəə istehsal etmək hüququna da malik idilər. Peşə üzrə hər hansı inhisarçılığa yol verilmirdi və sənətkarlar onların üzvlərindən hər hansı birinin başqa işə keçməsinin qarşısını ala bilməzdilər. Lakin rəqabətdən qorunmaq üçün hər bir usta öz istehsal etdiyi məhsulu yalnız müəyyən bir yerdə satırdı və müştəriləri aldatmaq hüququ yox idi. O, mal satarkən kimdənsə qabağa keçə, ya öz malını tərifləyə, başqalarının malını pisləyə bilməzdi. Ödədikləri icarə haqları onları daxilən birləşdirirdi və əgər bir usta keyfiyyətsiz mal düzəltsəydi, müştərini aldatsaydı və s. onun dükanı mıxlanar, həmin dükan başqasına verilərdi.

Yalnız ustaların haqqı var idi ki, özlərinə şagird götürüb, peşələrini onlara öyrətsinlər və onları usta olmağa hazırlasınlar. Ustaların yanında işləyən şagirdlərin sayı sabit deyildi. Adətən, hər ustanın bir və ya iki şagirdi olurdu. XIX əsrin birinci 30 illiyyində İrəvan şəhərində ustalarla şagirdlər arasındakı nisbət təqribən aşağıdakı kimi idi:

| | *ustaların sayı* | *şagirdlərin sayı* |
|---|---|---|
| Çəkməçi | 10 | 15 |
| Dulusçu | 11 | 19 |
| Bənna | 25 | 70 |
| Dəmirçi | 20 | 45 |
| Nalbənd | 12 | 10 |
| Dərzi | 18 | 20 |
| Pinəçi | 60 | 150 |
| Gümüş mütəxəssisi | 6 | 21 |
| Metal ustası | 40 | 3 |
| Dülgər və taxta ustası | 49 | 150 |
| Yəhər ustası | 8 | 19 |

Yegizarovun dediyinə görə, İrəvan sənətkarları 722 nəfər usta və 667 nəfər şagirddən ibarət idi. Birbaşa olmasa da, hər ustaya bir şagird düşürdü, əlbəttə, elələri də var idi ki, ümumiyyətlə, şagirdi yox idi. Çörəkçilərin və misgərlərin şagirdi olmadığı halda, dülgərlərin, pinəçilərin, bənnaların hər birinin 4 şagirdi var idi. Ölkənin bütün şəhərlərində şagirdlərlə ustaların sayı fərqli idi. Sənətkarlıqla əlaqəsi olmayan ustaların şagirdlərinin sayı məhdud idi. İrəvan, Naxçıvan, Ordubad şagirdlərinin və ustalarının sayı aşağıdakı kimi idi: İrəvanda 143 usta, 43 şagird, Naxçıvanda 109 usta, 41 şagird, Ordubadda 140 usta və 128 şagird var idi.

...Ustalar lazım olan halda özlərinə fəhlə götürürdülər. Məsələn, İrəvanda 6 nəfər taxıl tacirinin şagirdi yox idi, amma taxılı daşımaq, yükləmək işinə 24 nəfər fəhlə cəlb etmişdi. Çörəkçilərin də şagirdi yox idi, lakin bu sahədə çalışan 18 nəfər usta 50 nəfər fəhlə işə götürmüşdü. Bu şəhərdəki 52 nəfər baqaliyyə tacirinin nə şagirdi, nə də fəhləsi var idi. Amma 10 nəfər ayaqqa-

bı ustasının yanında beş fəhlə və 15 şagird çalışırdı. 11 nəfər dulusçu 23 ixtisaslı fəhlə və 19 şagird işə cəlb etmişdi. 25 nəfər usta-bənna bu qayda ilə öz əlinin altında 18 fəhlə və 70 şagird işlədirdi. 7 nəfər dəri ustasının 30 fəhləsi olduğu halda, bir nəfər də şagirdi yox idi. 6 gümüş ustasının 8 fəhləsi və 21 şagirdi, 8 sərracın (yəhər ustasının) 12 fəhləsi və 19 şagirdi, 49 dülgərin 90 fəhləsi və 150 şagirdi var idi. Dəmirçilər, misgərlər (dəmir lövhə düzəldənlər), nalbəndlər, şam düzəldənlər, metal ustaları, iptoxuyanlar, nəleyndüzəldənlər (mollalar üçün çustabənzər ayaqqabı), yun parça ustaları, hətta bir nəfər fəhlə belə saxlamırdılar. Hər peşənin sərmayə qoyuluşu məhdud və az idi. Peşə ustaları yalnız bir və ya iki şagirdlə işləyirdilər. Çox iş və fəhlə tələb edən sənətlər sənətkarlıq mərtəbəsi sırasında olmayıb, kapitalist emalatxanaları istehsalının göstəricisi sayıla bilərdi".[1]

Əhməd Əşrəf də bu sahə ilə bağlı məlumat verir. O yazır: "İrəvanda, demək olar ki, hər ustanın bir şagirdi var idi. XIX əsrin əvvəllərində bu şəhərdə 722 usta və 667 şagird çalışırdı. Şagirdlik yaşı adətən 12 yaşdan başlanır və həmin şagird 10 ilə ustalıq məqamına çatırdı. Ustalar öz şagirdlərinə dini işləri və sənətin sirlərini öyrədirdilər. Şagird öz ustasından yemək və paltar alırdı, lakin onun əməkhaqqı almaq hüququ yox idi, yalnız şagirdlik pulu alırdı. Ustadlıq məqamına yüksəlmiş şagirdin belinə xüsusi kəmər bağlanır və onun əməkhaqqı artırılırdı. Bəzi hallarda sənətkarlar günəmuzd fəhlələrdən istifadə edirdilər. Bəzi sənətkarlar isə işə yalnız günəmuzd fəhlə götürür, başqaları isə həm günəmuzd fəhlə, həm də şagird saxlayırdı".[2]

---

[1] Çarlz İsəvi.Tarix-e eqtesadi-ye İran. Tərcümə edən:Yəqub Ajand, səh.146 və 218

[2] Əhməd Əşrəf. Məvane-ye tarixi-ye roşd-e sərmayedari dər İran, doure-ye Qacariyye, səh.32

Çarlz İsəvi kitabının digər bir bölməsində yazır: "İrəvanda pambıq əkini geniş yayılmışdı. İstehsal olunan məhsulun bir hissəsi Türkiyəyə, bir hissəsi isə Tiflisə daşınırdı. Ancaq məhsulun Trabzona çatıb-çatmaması haqqında əlimizdə məlumat yoxdur".[1]

İrəvan İpək yolunun üstündə olduğundan müsafirlər və tacirlər buradan keçirdi. Buna görə də o, mühüm şəhərə çevrilirdi. Kembric Universitetinin professoru Pyotr Avri yazır: "Ağa Məhəmməd xan Qacar İrəvan, Xoy, Rəşt, Qəzvin kimi şəhərləri xarici ticarətin əsas dayaqları səviyyəsinə qaldırdı. İrəvan və Xoy şəhərləri Qara dəniz vasitəsilə Qafqaz və Osmanlının ticarət mərkəzləri sırasında idilər".[2]

Çalz İsəvi "Xalçaçılıq" bölməsində bu sənət barədə şərh verdikdən sonra, onun ixracı haqqında yazır: "Təbriz mühüm xalçaçılıq mərkəzi idi. Trabzon və İrəvan yolu ilə Təbriz xalçaları xarici ölkələrə çıxarılırdı”.[3]

İrəvan əmtəə ixracatının əsas yolu olduğu kimi, Avropa mallarının idxalı sahəsində də mərkəzi xətt hesab olunurdu. Adını çəkdiyimiz müəllif bu barədə yazır: "Rəqabətin digər səbəbi Avropa mallarının Qafqazdan gömrük haqqı olmadan keçməsi idi. Mallar Qara dəniz vasitəsilə Potidən Batuma daşınır, oradan İrəvana, İrəvandan isə Təbrizə aparılırdı".[4]

---

[1] Çarlz İsəvi.Tarix-e eqtesadi-ye İran. Tərcümə edən:Yəqub Ajand, səh.218, 448

[2] Pyotr Avri. Tarix-e moaser-e İran. I cild, tərcümə edən: Məhəmməd Rəfi Mehrabadi, səh.154

[3] Çarlz İsəvi.Tarix-e eqtesadi-ye İran. Tərcümə edən:Yəqub Ajand, səh.218, 448

[4] Yenə orada, səh.218, 448

## İrəvan İran-Rusiya müharibələrində

İran-Rusiya müharibələrinin hər iki mərhələsində İrəvanın azərbaycanlı əhalisi çar ordusuna qarşı rəşadət və cəsarətlə vuruşmuşdur. Onların igidlik və qəhrəmanlığını Azərbaycan tarixinin qızıl səhifələrindən saymaq olar.

"Məftun" təxəllüslü Əbdürrəzaq Dünbüli "Sultaniy-yə" əsərində rusların hücumları qarşısında İrəvanın müsəlman əhalisinin göstərdiyi qəhrəmanlığı və şücaəti şərh edərək yazır:

*Bütün ruslar qan və torpaq içində*
*Nizələrin başı sinələri param-parça edib.*
*İti qılınclardan bədənlər*
*Kəsik-kəsik, doğram-doğram.*
*Qəlpələr dolu kimi yağdı.*
*Baş, sinə, ayaq, papaq töküldü xəndəyə.*
*Xəncər kəsib-doğramaqdan par-par yanırdı,*
*Qalanın divarından qan su kimi axırdı.*
*Həmin döyüşdə qılıncların doğradığı*
*Meyidlərlə xəndək və arxlar dolmuşdu.* [1]

Bu müharibələrin birinci mərhələsində İrəvan hakimi Məhəmməd xan Qovanlu Qacar ruslarla razılığa gəlsə də, şəhərin müsəlman əhalisi düşmən qarşısında mətanətlə dayandı. Hicri-qəməri tarixi ilə 1228-ci ildə (miladi tarixi ilə 1813-cü ildə) ədalətsiz Gülüstan müqaviləsinin bağlanması ilə döyüşlərin birinci mərhələsi başa çatdı. Bu biabırçı müqaviləyə görə, Arazın o

[1] Hidayətullah Behbudi. Ədəbiyyat dər cəngha-ye İran və rus, səh. 14

tayındakı vilayətlərin çoxu zorla Rusiya imperiyasına birləşdirildi. İrəvan və Naxçıvan şəhərləri Qacarlar dövlətinin əlində qaldı. Bu iki şəhər strateji baxımdan son dərəcə əhəmiyyətli idi. Nəsrəddin şahın xüsusi həkimi fransız Fövriyyə, İrəvan və Naxçıvanı Fransanın Elzas və Lurnu şəhərləri ilə müqayisə etmişdir.[1]

Gülüstan müqaviləsi bağlandığı vaxtdan ta İran-Rusiya müharibələrinin ikinci dövrünə qədərki 13 il ərzində cəbhələrdə sakitlik bərqərar oldu və İranla Rusiya arasında zahirən sülh hökm sürdü. Amma bu müqavilədən doğan təhqir və məğlubiyyət acısı cəmiyyəti sarsıtmış, xalqın qəlbində kin və nifrət yaratmışdı. Azərbaycan əhalisinin bu dövrdəki ümumi narazılığı Gülüstan müqaviləsinə qarşı ictimai etirazların bariz nümunəsidir. XIII əsrin birinci yarısının (hicri) ədib və tarixçisi Əbdürrəzaq Dünbüli hicri-qəməri tarixi ilə 1229-cu ilin hadisələrini şərh edərkən yazırdı: "...İki min nəfər İrəvan sakini könüllü şəkildə cihada qalxıb silahlanmış, bir neçə alim, çalmalı ərbab, zöhd və təqva əhli kəfən geyinib, qələbə qılıncı qurşamışdılar...".[2]

Qəhrəman İrəvan camaatı təpədən-dırnağacan nifrət ruhunda köklənmişdi. Onlar irəvanlı sərkərdə Hüseyn xanın və onun qardaşı Həsən xan Sarı Aslanın komandanlığı altında silaha sarılaraq düşmənlə ölüm-dirim mübarizəsinə qalxdılar. Səid Nəfisinin yazdığına görə, "Hicri-qəməri tarixi ilə 1241-ci ilin zilhiccə ayında *(miladi tarixi ilə 1826-cı ilin iyun ayında)* başlamış ikinci müharibədə ilk olaraq İrəvan sərkərdəsi Hüseyn xan beş min nəfərlik ordu ilə Gülüstan müqaviləsindən

---

[1] Doktor Fövriyyə. Se sal dər dərbar-e İran. Tərcümə edən: Abbas İqbal, səh.147

[2] Hidayətullah Behbudi. Ədəbiyyat dər cəngha-ye İran və rus, səh.59

sonra yaranmış sərhəddən keçib Rusiya tərəfindən işğal olunmuş əraziyə daxil olmuşdur".[1]

Müharibələrin ikinci mərhələsinin əvvəllərində Yermolovun komandanlığı altındakı Rusiya ordularının ardıcıl məğlubiyyəti çar I Nikolayı qorxuya saldı. O, vəziyyətdən çıxmaq üçün general Paskeviçi əvvəlcə tam səlahiyyətlə Yermolova yardımçı göndərdi, sonra isə ordu komandanlığını ona həvalə etdi. General Paskeviç çox təcrübəli idi. O, ilk döyüşlərdən qarşı tərəfin zəif nöqtələrini aşkar edir və növbəti səfərlərdə qələbə qazanmağa başlayır. Qələbə xəbəri çarı sevindirir və o, Paskeviçə yazdığı məktubda ona razılığını bildirməklə yanaşı, İrəvan şəhərinin müsəlman əhalisinin müqavimətindən narahatlığını bildirir: "Prins Menşikovun İrəvan barədə göndərdiyi məlumatlardan aydın olur ki, İrəvanda olduqca ciddi müqavimətlə rastlaşacağınızı gözləməlisiniz, onun mühasirəsindən çəkinməməlisiniz və buna hazır olmalısınız.[2]

Sonrakı hadisələr göstərdi ki, çarın qorxusu əbəs deyilmiş. Təbii ki, bu müharibənin bütün təfərrüatını burada əks etdirmək mümkün deyil. İrəvan əhalisinin müqavimətini təşkil etmək üçün ziyalılar (alim və yazarlar) şəhərin əhalisi içərisində çox ciddi təbliğata başladılar.

İran-rus müharibələrinin ilk mərhələsində İrəvan hakimi Məhəmməd xan Qovanlu Qacar rus sərkərdəsi Sisyanovdan kömək istəmişdi. Lakin Səid Nəfisinin yazdığına görə, "o, görəndə ki, ruslar irəliləyə bilmir, qacarların tərəfini tutmaq istədi. Məhəmməd xan vəziri Mirzə Şəfiyə İrəvan qalasına getmək barədə göstəriş verdi. O getdi və sülh bağlamaq qərara alındı... Mə-

---

[1] Səid Nəfisi. Tarix-e ectemai-ye siyasi-ye İran. I cild, səh.123
[2] Səid Nəfisi. Tarix-e ectemai-ye siyasi-ye İran. II cild, səh.130

həmməd xan Qacarın hərəkətləri barədə məlumat Sisyanova çatan kimi o, hiyləyə əl atdı. Xəbərdarlıq etmədən Dərkə yolundan İran ordularının üzərinə hücuma keçdi, yenidən döyüş başlandı. Bu arada İran ordusunun tərkibində olan Şəmsəddinli və Qazax süvarilərinin bir qismi qiyama qalxdı və əhalini qarət etməyə başladı. İran ordusunun komandanlığı vəziyyəti belə görüncə geri çəkildi. Qarşısında maneə görməyən Sisyanov İrəvana daxil oldu və şəhər məscidini qərargaha çevirib, oradan topları istehkamlara yönəltdi; onunla Məhəmməd xan Qacar arasında qızğın döyüş başladı.

Şəhərin müsəlman əhalisi bu qeyri-bərabər döyüşdə bütün vasitələrlə işğalçılara nifrətini göstərdi. Bu dövrü tədqiq edən Jan Yunir yazır: "İrəvan şəhərinin came məscidi qərb tərəfdə idi. Ayrı-ayrı məzhəblərin nümayəndələrinin qarışıq yaşadığı bütün şərq şəhərlərində came məscidi müsəlmanların çoxluq təşkil etdiyi ərazidə tikilirdi. Şəhərin qərbində də demək olar ki, əhalinin hamısı müsəlman idi.

Dalov İrəvanın qərbinə daxil olandan sonra söz verdi ki, müsəlmanlara dini nöqteyi-nəzərdən problem yaratmayacaq və hər bir müsəlman öz şəri borcunu sərbəst yerinə yetirə biləcək. Torpaqlarının Dalov tərəfindən işğal edilməsindən qəzəblənən yerli əhali heyıflərını azan vermək yolu ilə çıxırdılar. Səhər tezdən, günorta vaxtı və qürub çağı İrəvan kişilərinin böyük əksəriyyəti şəhərin qərbində azan verir və şərq tərəfdəki müsəlmanlar da onlara qoşulurdu. Əlahəzrətin (şəhərin hakimi və Abbas Mirzə nəzərdə tutulur) bu məsələdən xəbəri yox idi. Çünki o, İrəvan mühasirəyə alınmazdan və Dalov şəhərə girməzdən qabaq oradan getmişdi. Bir də eşitdi ki, şəhərin qərbində və şərqində insanlar azan verməyə başlayıb, heyrətləndi. Əlahəzrət

gördü ki, heç kim onlara mane olmur. Dalovun keşikçiləri sanki onları eşitmir. O da azanın ahəngini tutmağa başladı, lakin azan vermək əvəzinə üzünü şəhərin qərbinə tutub Məhəmməd xana müraciətlə dedi ki, Abbas Mirzə ona kömək göndərir. Sabah gecə həmin qüvvə hücuma keçəcək. Abbas Mirzə əlavə etdi ki, keşikçibaşı Məhəmmədhüseyn xanın komandanlığı ilə onun əsgərləri hücuma başlarkən o da həmlə etsin.

İrəvan döyüşü müsəlmanların rus ordusu ilə müharibəsində unudulmaz səhifələrdən biri olub. Həmin gecə İrəvanın müdafiəçiləri çar zabit və əsgərlərini çox ağır hala saldılar. Müsəlman ölkələrində müqəddəs yerlərin bəst yeri olduğunu bilən ruslar qaçıb şəhər məscidinə doluşaraq aman istədilər. Şəhərin müdafiəçiləri səhərə qədər döyüşdülər. Şəhərin keçid və yolları rus əsgərlərinin meyitləri ilə örtülmüşdü, bütün arxlar ərğuvan kimi qızarmış, sanki torpağın üstünü lalələrlə rəngləmişdilər. Dalov müharibənin davam edəcəyi təqdirdə sonuncu əsgərinin də məhv olacağını görüb geri çəkildi".[1]

Bütün bu döyüşlərdə ermənilərə etimad göstərilmədi, çünki onlar ruslarla yaxınlaşmağa fürsət axtarırdılar. Səid Nəfisi bu barədə yazır: "Həmin günün səhəri şəhərin hakimi Məhəmməd xan Qacar dedi ki, qalanın keşikçiləri ermənilərdir, qorxuram ki, onlar öz dindaşları ilə birləşsinlər və qalanı təslim etsinlər. Fətəli şah bir qrup əsgər göndərdi ki, gedib qalanı tutsunlar".[2]

Müharibələrin ikinci dövründə ermənilər ruslarla yaxın əməkdaşlıq etdilər. Bu xəyanətlərin bəzilərini qeyd etmək yernə düşər. Səid Həfisi yazır: "Hicri-qə-

---

[1] Jan Yunir. Delavəran-e qomnam-e İran dər cəngha-ye İran və Rusiye. Tərcümə edən: Zəbihulla Mənsuri, səh.588
[2]Səid Nəfisi. Tarix-e ectemai-ye siyasi-ye İran. I cild. səh.244

məri tarixi ilə 1242-ci ilin ramazan ayında *(1828-ci ilin 25 aprelində)* Benkedarov bir gecə əvvəl şah ordusunun tərk etdiyi Eçmiədzin kilsəsini maneəsiz işğal etdi. Orada dörd yüz nəfərlik şah qornizonu var idi. Onlar köçəndə azuqə və erməni keşişlərini də özləri ilə aparmışdılar. Bir qrup müsəlman süvarisi İrəvan sərdarı Hüseyn xanın qardaşı Həsən xan Sarı Aslanın komandanlığı ilə Sərdarabad, Eçmiədzin və İrəvan arasındakı çöldə ordu düşərgəsi qurmuşdu. Sərdarabad Hüseyn xan Sərdar tərəfindən İrəvan yolunun üstündə qurulmuş qala idi və onun işğalı İrəvanın itirilməsi demək idi. İrəvan şəhərinin zəbt edilməsi isə şah ordusuna ən ağır zərbə ola bilərdi.

Ermənilərin katolikosu Nerses rus orduları ilə birlikdə Eçmiədzinə daxil oldu. Onun çox böyük nüfuzu vardı. O, ermənilərin bir qrupunu silahlandırdı, azuqə topladı və şah ordusunun vəziyyəti barədə məlumat əldə etdi".[1]

Xanək Eşqi yazır: "...Zaqafqaziyanın Rusiyaya birləşdirilməsinin ciddi tərəfdarları olan erməni ruhaniləri, mülkədarları, kapitalistləri Rusiyanın diqqətini öz tərəflərinə çəkmək üçün müxtəlif vasitələr fikirləşirdilər”.

XIX əsrin ikinci yarısında Yosef Amin, Movses Banqramyan, Şahembryan və digər şəxslər erməniləri Rusiyaya yaxınlaşdırmaq üçün ciddi səy göstərirdilər. Miladi tarixi ilə 1896-cı ildə, Rusiya ilə Osmanlı arasında müharibə getdiyi bir vaxtda fəal ermənilərdən ibarət "Xarici İşlər üzrə Təhqiqat Cəmiyyəti" adlı cəmiyyət təşkil olundu. Həmin cəmiyyətin keçirdiyi

[1] Səid Nəfisi. Tarix-e ectemai-ye siyasi-ye İran. II cild, səh.135

iclaslarda ermənilərin Rusiyanın himayəsinə keçməsinin zəruriliyi vurğulanırdı.

1885-ci ildən başlayaraq başda mitropolit Yosef Arqunti olmaqla, Eçmiədzinin yuxarı dairələri, söz və iş adamları, həmçinin böyük mülkədarlar yuxarıda qeyd edilən proqramın icrası istiqamətində Rusiyada ciddi fəaliyyət göstərirdilər. Hələ 1782-ci ilin dekabrında erməni ruhaniləri, böyük mülkədarlar və həmçinin tanınmış şəxslər rus imperatriçası II Yekaterinaya göndərdikləri məktublarda xahiş edirdilər ki, erməni millətini özlərinin sədaqətli dostlarından hesab etsin və onları öz himayəsinə qəbul eləsin.[1]

Ruslar XIX əsrin əvvəllərində və İranla müharibə başlanan vaxt erməni Nersis İskova çar Rusiyasının sərhədləri çərçivəsində erməni muxtar vilayətini yaratmağı söz vermişdilər. Bu vəd təkcə İran-rus müharibəsində erməni silahlı qüvvələrini ruslara xidmət işinə səfərbər etmədi, həm də bir çox ölkələrdə, o cümlədən Hindistanda ticarətlə məşğul olan erməni varlılarının maliyyəsinin "səfərbərliyə alınması" ilə nəticələndi.

...1804-cü ildə Zaqafqaziyada şah ordusu rus qoşunları ilə ilk dəfə üz-üzə dayanarkən Qarabağ erməniləri onlarla birləşərək Qarabağı və Şuşanı ruslara təslim etdilər. Ancaq bu zaman müsəlmanlar İrəvanda və Bakıda ruslara ciddi müqavimət göstərir, hətta rus ordusunun komandanı Sisyanov Bakı qalasının ətəyində öldürülmüşdü. İkinci İran-Rusiya müharibəsində, daha dəqiq desək, 1826-cı ildə də erməni silahlı qüvvələri ruslara əsaslı şəkildə kömək etməyə başladılar. Qarabağlı general Mədətyanın və katolikos İskov Nersisin komandanlığı altında ruslar Abbas

---

[1] Bax: Xanək Eşqi. Siyasət-e nezami-ye Rusiye dər İran (1790-1810-cu illər), səh.23

Mirzəni məğlub edib, İrəvanı, Naxçıvanı və Zaqafqaziyanın digər şəhərlərini işğal etməyə nail oldular.[1]

Bu xəyanətlərə baxmayaraq, İrəvan şəhərinin kəfən geyinmiş müsəlman alimlərinin və adi insanlarının müqaviməti nəticəsində ruslar dəfələrlə məğlubiyyətə uğradılar. Məhəmməd Həsən xan bir məktubunda İrəvanın üləma və ağsaqqalarını bu cür təsvir edir: "...Sizə məlum olduğu kimi, rus kafirləri Gəncə şəhərinin əhalisinə qalib gəlmiş, onları qətlə yetirmiş, əsir almış və həmin şəhərdə möhkəmlənmişlər. Rusların qoşun hissələri Car və Tələyə gecə hücum edib, həmin yerlərə ciddi ziyan vurmuşlar. Onlar orada ordu saxlamış və sərkərdə Şahbazur İrəvan şəhərinə qarşı döyüşə getmişdir. Aləmin və xalqın pənahı, düşmənləri məğlub edən... Fətəli şah... onları cəzalandırmağa gəldi. O, düşmənləri tələyə salıb, mühasirəyə alaraq ildırım kimi çaxan qılınclarla ehtiraslı kafirləri yuxudan oyatdı... Eşitmişəm ki, çeçen, kabardin və hüri xalqı məğlub olmuş əsgərlərə yardım aparan kafirlərin yolunu Mazdokda kəsmişlər. Onlarla üzbəüz döyüşə girmiş və heç kim tərəfindən göstəriş almadan Allahın fərmanı və peyğəmbərin buyruğu ilə islamın və müsəlman dövlətinin qeyrətini çəkmişlər *(Xudavəndi-təala onların üzlərini ağ etsin və onlardan razı olsun!)*. İndi onların qarşılarında Dərbənd yolundan başqa bir yol yoxdur. Onları xüsusi diqqətlə izləyin, əgər gəlsələr yollarına sədd çəkin. Necə olursa-olsun, onların Dərbənddən keçmələrinə yol verməyin. Elə ki, Dərbənd istiqamətdən yolu bağladınız, bizdən yardım üçün əsgər istəyin və xudavəndi-təalanın köməyi ilə göndərəcəyik. Biz Dağıstan əmirlərinə də məktub yazmışıq, onlarla da

---

[1] Bax: Mənije Turabzadə və başqaları. Mahiyyət-e təhəvvolat dər Asiya-ye mərkəzi və Qəfqaz, səh.60-61

məşvərət keçirə bilərsiniz. Bu xeyirli əmrlə razılaşsanız, Allah-təala da sizdən razı qalacaq. Bu, sizə, başqa əmirlərə, bütün qeyrətli və islam təəssübü çəkən müsəlmanlara vacibdir. Müsəlmana kafirlərlə dostluq etmək və onlardan ənam almaq caiz deyil. Onların müsəlmanlara yaxşılığı müsəlmanlar üzərində qələbə çalmaq üçündür. Qələbə qazanan kimi dostluqlarına əncam çəkmək və islamı məhv etmək, nadanlığı və azğınlığı yaymaq istəyəcəklər. Bu fani dünyadan bir şey əldə etmək olmaz, çünki dünya gedəri, axirət əbədidir. Müsəlman mütləq Allahın və onun rəsulunun xoşuna gələn işlər görməlidir. Müsəlman Allahın əmrinə, peyğəmbərin buyruğuna əməl etmək üçün cihad etməlidir. Sizin üləmalarınız da sizə bunu demişlər".[1]

Hüseyn xan Sərdar öz ixtiyarında olan kiçik qüvvə ilə qələbəyə imkan yarandığını hiss etdi. İrəvan şəhərinin üləmalarını və ruhanilərini dəvət edərək onlardan şəhərin müsəlman əhalisini cihada, döyüşçülərin və müdafiəçilərin sıralarına qoşulmağa vadar etməyi xahiş etdi. İrəvan komandanının xahişi ilə üləmalar və ruhanilər şəhərin müsəlman əhalisini düşmən əleyhinə qaldırmaq, döyüşə təşviq etmək və kəfən geyinib ələ silah götürmək üçün hərəkətə gəlib, xalqın arasına girdilər. Onlar şəhərin küçə və xiyabanlarını dolaşır, camaatı məscidə toplayaraq gurultulu xütbələrlə onları cihada səsləyirdilər.

İrəvan üləmalarının dəvəti nəticəsində qeyrətli müsəlmanların əksəriyyəti ələ silah götürüb, Hüseyn xan Sərdarın rəhbərliyi altında İrəvanın müdafiəsinə qalxırlar. O da döyüşçüləri qarşıdakı istehkamlara doğru apardı. Rusların hücumu güclü top atəşləri ilə

---

[1] Əsnadi əz rəvabet-e İran ba mənateğ-e Qəfqaz, səh.189

müşayiət olunurdu. Qarşı tərəf də bir neçə ədəd topla düşmənə cavab verirdi. Gərgin döyüş gedirdi. Bu qanlı davada rusların həmlələrinin qarşısı xüsusi əzm və şücaətlə döyüşən insanların igidlik və mərdliyi hesabına alındı. Müsəlmanlar tərəfindən belə bir mətanət gözləməyən düşmən qüvvələrinin komandanı qorxuya düşüb geri çəkilməyə məcbur oldu və Hüseyn xan Sərdarın fərmanı ilə çevik süvarilər onları təqib etməyə başladılar. Fərarilərin böyük bir hissəsi geri çəkilərkən məhv edildi. Bu qanlı döyüş meydanında 40 nəfərdən artıq müsəlman döyüşçüsü şəhid oldu, düşmən qüvvələrindən isə 400 nəfər məhv edildi.[1]

Ruslarla üz-üzə dayanan İrəvan müsəlmanları Osmanlılarla əməkdaşlıq etməyə başlasalar da, bu əməkdaşlıq uzun müddət davam etmir. Xanək Eşqi yazır: "İrəvan sərdarı Hüseynqulu xan özü şəxsən çox istəyirdi ki, Ərzurumun qoşun başçısı Əmin paşa ilə görüşsün. Uzun müzakirələrdən sonra iki sərkərdənin Arpaçayın sağ sahilindəki Magizborda qalasında görüşməsi qərara alındı. 1811-ci ilin 30 avqustunda Ərzurumun qoşun başçısı ilə İrəvan sərdarı adı çəkilən yerdə görüşdülər. Onları müşayiət edən pəhləvanlar qədim şərq adətinə uyğun olaraq rəngarəng paltar geyinib, nizamla bir-birlərinin ardınca gedirdilər. Onların ayaqlarının səsi və onları müşayiət edən musiqinin ahəngi Arpaçay boyunca əks-səda verirdi. 150 nəfərlik hərbi süvarinin silahı, geyindikləri paltarlar və bəzəkli atlar  bu görüşü xüsusi təmtəraqlı edirdi. Bu zaman at üstündə olan kürdlərdən biri çaparaq qoşun böyüyünün yanına gəlib, əlindəki tapança ilə sərdara tərəf atəş açdı və güllə onun başına dəydi. Əmin paşa atdan yerə yıxıldı. Oradakı

---

[1] Bax: Nasir Nəcmi. İran dər miyan-e tufan ya şərh-e zendegi, səh.157

adamlar onu götürüb dərhal Qarsa, sərkərdənin öz qoşununun qərargahına apardılar. Əmin paşa çox keçmədən ağır yaradan canını tapşırdı. Onun cansız cəsədini Ərzuruma apardılar. Bu hadisədən sonra İrəvan sərdarı Hüseynqulu xan da öz adamları ilə İrəvana qayıtdı. Magizborda məhəlləsinin nüfuzlu adamlarından olan Qarabəy tərəfindən bu işə təhrik edilmiş qatil kürd çoxdan Əmin paşanı aradan götürmək üçün münasib fürsət gəzirmiş... Əmin paşanın qətli təkcə Qacarların və Osmanlıların Rusiya əleyhinə birgə mübarizə aparmasına mane olmadı, həm də iki dövlət arasında münasibətlərin gərginləşməsinə səbəb oldu".[1]

İrəvan camaatının bütün bu rəşadət və vətənpərvərliyinə baxmayaraq, bır sıra səbəblərə görə İran-Rusiya müharibələri İran ordusunun məğlubiyyəti ilə başa çatdı. Nəticədə İran üçün biabırçı Türkmənçay müqaviləsi bağlandı və 17 vilayət rusların əlinə keçdi. Lakin İrəvan müsəlmanlarının cəsarətli, qeyrətli hücumları, Hüseyn xanın və onun qardaşı Həsən xan Sarı Aslanın göstərdiyi şücaətlər bu müharibənin şanlı səhifələrindən sayılır. İrəvan rusların əlinə keçəndən sonra, demək olar ki, şəhər başdan-başa xarabalığa çevrildi, küçə və meydanlar əsgər meyidləri ilə doldu. Paskeviçin şəhər məscidlərindən birinin kilsəyə çevrilməsi barədə verdiyi fərman bu işğalın ən təhqiramiz faktlarından biri idi. Abbasabad, Sərdarabad, İrəvan qalalarının işğalı üç ay çəkdi və bu üç qaladakı yüz ədəd top, azuqə, xeyli döyuş sursatı və çoxlu qənimət rusların əlinə keçdi.

---

[1] Xanək Eşqi. Siyasət-e nezami-ye Rusiye dər İran (1790-1810-cu illər), səh.150

 

***1828* - Rusiya ilə İran arasında ikinci müharibənin (1826-1828) yekunlarına əsasən, Türkmənçay sülh müqaviləsi bağlanıb**

İrəvan şəhərinin işğalı Paskeviç üçün parlaq qələbə idi. Müharibəni başa çatdırmaq üçün daha onun qarşısında ciddi bir maneə qalmamışdı. Buna görə çar sarayı ona ən yüksək hərbi imtiyazı verdi və o, bu dövrün ən məşhur sərkərdəsinə çevrildi. Üstəlik, çar Rusiyasının hərbi ənənəsinə görə, sərkərdə işğal etdiyi şəhərin adını daşımalı idi. Həmin ənənəyə uyğun olaraq Paskeviç də İrəvanski, yəni İrəvani titulunu aldı.[1]

Rus çarı Hüseyn xan və qardaşı Həsən xan Sarı Aslana qarşı öz qəzəb və hiddətini, hətta Türkmənçay müqaviləsinin mətnində belə əks etdirib. Həmin müqavilənin XII maddəsində deyilir: "Müqavilə bağlamış tərəflər öz təəbələrinin xeyrinə olaraq Arazın bu tayında daşınmaz əmlakları olan şəxslərə həmin əmlakı satmaq və ya əvəz etmək üçün üç il müddətində möhlət verilməsinə razılıq verir və bunu bir şərt kimi qəbul edirlər.

Bununla bərabər, bütün Rusiyanın əlahəzrət imperatoru onu da bildirir ki, İrəvanın sabiq sərdarı Hüseyn

[1] Səid Nəfisi. Tarix-e ectemai-ye siyasi-ye İran. II cild, səh.141

xan, qardaşı Həsən xan və Naxçıvanın sabiq hakimi Kərim xan bu müqavilədən sonra tutduqları vəzifədən uzaqlaşdırılır".[1]

İran-rus müharibəsi başa çatanda 88 yaşı olan Hüseyn xan Sərdar iki il sonra, hicri-qəməri tarixi ilə 1245-ci ildə vəfat etdi. Onun hakimliyi dövründə İrəvanda və onun ətrafında xeyli abadlıq işləri görülmüşdü. O dövrün şairləri onun öz xalqının mənafeyi üçün gördüyü işləri, o cümlədən Araz çayından İrəvan şəhərinə və əkin yerlərinə arx çəkməsini, qalalar, əzəmətli imarətlər tikməsini vəsf edən çoxlu şeirlər yazmışlar. Məsələn, Mirzə Həsən Təbəsi bu tarixi faktları ehtiva edən məsnəvisində onun ucaltdığı binanı tərənnüm etməyə çalışmışdır:

*Cəmşidə bənzəyən o xaqanın dövründə*
*(Allah ondan razı olsun!)*
*Ucaldılan bu bina*
*Bizim sərdarımızdan yadigar qalacaq.*

Hüseyn xan Sərdar tərəfindən inşa edilmiş İrəvandakı Sərdarabad binasının tarixi barədə Təbəsi belə deyir:

*Özü asiman məqamında olan Sərdar*
*Hər mərtəbəni ölçüb-biçib tikdi.*
*Onun zəhməti ilə Sərdarabad yarandı.*
*Elə ki, tikildi, oxumağa başladı*
*Mənim ağıllı ağsaqqalım dedi ki, dünyada*
*Sərdar təzə bir qalanın binasını qoydu*

Fətəli şah dövründə yaşamış İrəvan şairlərindən birinin Hüseyn xan Sərdar tərəfindən tikilmiş İrəvan məscidinin və mədrəsəsinin tarixi barədəki qəsidəsinin də bir neçə beytini də xatırlamaq yerinə düşər:

---

[1] Yenə orada, II cild, səh.183

*Cəmşid cəlallı xaqanın hakimiyyəti dövründə*
*Mülk alan və mülk bağışlayan hökmdar*
*Gördüyü hər bir işlə tarixə bir naxış vurdu.*
*O xeyirxahlıqlardan biri də məscidin tikilməsi oldu.*

## İrəvan Türkmənçay müqaviləsindən sonra

Gülüstan müqaviləsi imzalandıqdan sonra Qacarlar dövlətinin təsir dairəsində qalmış İrəvan hicri-qəməri tarixi ilə 1243-cü ildə (miladi tarixi ilə 1828-ci ildə) göstərilən ciddi müqavimətə baxmayaraq, Azərbaycanın Quzeyi Türkmənçay müqaviləsinə əsasən Rusiya imperiyasının müstəmləkəsinə çevrildi və həmin tarixdən başlayaraq, bu müsəlman sakinli diyarın erməniləşdirilməsinə başlanıldı. Ruslar İrəvan əhalisinin tərkibinin ermənilərin xeyrinə dəyişdirilməsi məqsədilə bütün işləri gördülər. Ermənilər çar hökumətinin köməyi ilə Rusiyanın iqtisadi, mədəni, siyasi və hərbi sahələrinə nüfuz etdilər.

Miladi tarixi ilə 1985-ci ildə Ermənistan Respublikasında nəşr edilmiş "Ermənistan tarixi" adlı kitabda 1828-ci ildəki İrəvan şəhərinin əhalisinin tərkibi aşağıdakı kimi verilmişdir: “Azərbaycanlılar 1805 ailə, yəni 7331 nəfər; ermənilər isə 567 ailə, yəni 2369 nəfər”.[1]

Yazılı mənbələr miladi tarixi ilə 1827-ci ildə İrəvanda 2400 ailənin, cəmi 12 min nəfər insanın yaşadığını göstərdiyi halda, bildirməliyik ki, Rusiya tərəfindən işğaldan sonra onların bir hissəsi İrana və Türkiyəyə köçmək məcburiyyətində qaldılar. Mühacirətə gedənlərin evləri və əmlakları həmin ölkələrdən gələnlər tərəfindən zəbt olundu. Nəticədə İrəvandakı

---

[1] "Sirdaş" qəzeti. Bakı çapı, 1992, noyabr, səh.4

azərbaycanlıların sayı 1807 ailə, 7331 nəfər azaldığı halda, ermənilərin sayı 567 ailə, 2379 nəfər artdı. Bütün bunlara baxmayaraq, hələ də dörd xan ailəsi, 41 bəy və sultan müqabilində, cəmi 8 erməni məliki və ağası orada yaşayırdı. 50 ruhani müqabilində isə, 19 nəfər keşiş var idi.[1]

Türkmənçay müqaviləsindən sonra, yəni 1829-cu ildə ruslar İvan Şopenin başçılığı ilə sonuncu işğal olunmuş yerlərin, yəni İrəvan və Naxçıvan xanlıqlarının iqtisadi, coğrafi vəziyyəti, sosial təbəqələri və əhalinin tərkibi barədə məlumat əldə etmək üçün bir heyət təşkil etdilər. Hesabatın hazırlanması üçün 4 il vaxt lazım gəldi. Rusca "Kameralnoe opisanie" adlanan bu sənəd işğal ərəfəsində və ruslar tərəfindən işğaldan sonra iki xanlıqdakı vəziyyəti əks etdirən ən dəqiq mənbələrdən biridir. Həmin sənədə görə, 1826-cı ildə bu iki xanlıqda 143 min insan yaşamış və həmin əhalinin 117.849 nəfəri müsəlman, 15.151 nəfəri isə erməni olmuşdur. Yəni müsəlmanlar cəmiyyətin 80 faizindən çoxunu təşkil etdiyi halda, ermənilər 20 faizdən də az idi. Müsəlman əhalinin isə əksəriyyəti azərbaycanlılar idilər. Yerdə qalan müsəlmanlar Qacar dövlətinin məmurları (kargüzar və qoşun üzvləri), onların ailələri və kürd əyalətindən gələnlər idi.

Adı çəkilən sənəddə göstərildiyi kimi, 1828-ci il müqaviləsinin ardınca 20 mindən artıq azərbaycanhli türk-müsəlman (Qacar dövlətinin məmurları da daxil olmaqla) bu iki xanlığı tərk etmək zorunda qaldı və İrana köçdülər. Nəticədə 1828-ci ildə müsəlman əhalinin sayı 93 min nəfər azaldı. Dörd il sonra, yəni 1832-ci ildə müsəlmanların sayı yenə də azaldı. Adı çəkilən

---

[1] Bax: Ə.Ələkbərli. Qədim türk-oğuz yurdu Ermənistan, səh.186

sənəddə göstərildiyi kimi, mühacirət nəticəsində müsəlman əhalinin sayı 82373 nəfər azaldı. Lakin həmin 4 il müddətində, yəni 1828-ci ildən 1832-ci ilə qədərki dövrdə ermənilərin sayı 82377 nəfər artdı. Daha doğrusu, erməni əhalinin sayı 25151 nəfərdən 82377 nəfərə qalxdı. Yəni 4 il müddətində erməni əhalisinin sayı 3 dəfə artdı. Bu xərçəngvari yayılmanın səbəbi nədir?[1]

Bu xərçəngvari yayılmanın səbəbi ermənilərin İrandan, Osmanlıdan və digər yerlərdən bu bölgəyə köçmələri olmuşdur. Müxtəlif tarixi mənbələrdə dəfələrlə toxunulan bu məsələ "Ermənistan tarixi" kitabında da öz əksini tapıb. Osmanlı torpağından bu ölkəyə mühacirətin əsas səbəblərindən biri barədə danışmaq yerinə düşər. Pasdar Maciyan yazır: "1829-cu ildəki rus-Osmanlı müharibələrində ruslar tərəfindən işğal olunmuş ərazilərin erməni sakinlərinin bir hissəsi (ən başlıcası, Ərzurum, Alaşgerd (Eleşkirt), Bayəzid, Qars və Van) Osmanlını tərk edib, rusların ardınca getdi. Beləliklə, yüz min nəfərə qədər erməni müharibə nəticəsində Ermənistana [İrəvana] gəldi və Axalkalakidə (40 min nəfər), Şirakda (12 min nəfər), İrəvan və Sevanda [Göyçə gölü] (25 min nəfər) məskunlaşdılar. Bu mühacirətlər Rusiyanın hakim dairələrinin səyi nəticəsində baş tuturdu. Ruslar erməni məsələsinin idarə olunmasını erməni polkovniki Lazarevə tapşırmışdılar. Mühacirlərə torpaq, kənd təsərrüfatı ilə məşğul olanlara lazımi vəsait verirdilər və onlar beş il müddətində vergilərdən azad edilmişdilər".[2]

---

[1] Bax: Fərhad Pərdedar. Siyasət-e toseetələban-e Rusiye-ye tezari. “Varlıq” jurnalı, 74, səh.84

[2] Pasdar Maciyan.Tarix-e Ermənestan. Tərcümə edən: Məhəmməd Qazi, səh.367

Arazın o tayındakı vilayətlərin Rusiya imperiyasına ilhaq edilməsinin ilk illərində xanlıqlar ləğv olundu. Xanların əksəriyyəti yenidən öz hakimiyyətlərini bərpa etmək ümidi ilə İrana qaçdılar. Çar hökuməti bu situasiyadan istifadə edərək onların torpaqlarını, əmlaklarını müsadirə etdi. Çarizm xanlıq quruluşunu silah gücünə hərbi-inzibati idarəçiliklə əvəz etdi. Xanlıqlar əyalət və dairələrə çevrildi. Dairələrin çoxu "müsəlmanların əyalət rəisi" adlandırdığı hərbi şəxsə tabe idi və onun rezidensiyası Şuşada yerləşirdi. Digər əyalətlər də Dərbənd əyalətinin hərbi idarə rəisinə tabe idi. Bu yerlərdə çarizm qanunlarının həyata keçirilməsi ordu komandirlərinə tapşırıldığından, həmin idarəçilik sistemi "komendantlıq" adlanırdı. Əyalət keçmişdəki kimi məntəqələrə bölünürdü və bu məntəqələri naiblər (bu vəzifələrə əsasən bəylər seçilirdi) idarə edirdi. Şəkidə və Qarabağda əyalət məhkəmələri yaradılmışdı. Onların da sədri komandantlar olurdu.

Qafqazın Rusiya əsarətinə düşdüyü ilk günlərdə çar hökumətinin gözü bu ölkənin təbii sərvətlərinə dikilmişdi və həmin sərvətlərdən öz məqsədləri üçün istifadə etmək istəyirdi. Ancaq mübaşir idarəçilik metodu çarizmin ümidlərini doğrultmadı. Mübaşirlər daha çox öz şəxsi mənafelərini güdürdülər. Buna görə də 1830-cu illərin axırlarında yeni hərbi idarəçilik sistemi layihəsi təsdiqləndi. Çar məmurları elə düşünürdülər ki, mübaşir idarə üsulunun ləğvi o vaxta qədər bir neçə dəfə qiyama qalxmış narazı xalqı sakitləşdirəcək.

Bu islahatda məqsəd Qafqazda çarizmin mövqeyini möhkəmləndirmək idi. 1840-cı ildə çar hökuməti Qafqazla bağlı bir sıra qanunlar verdi. Həmin qanunlara əsasən, mübaşir idarəçilik üsulu ləğv edildi. Qafqaz iki məntəqəyə - Gürcüstan və mərkəzi Şamaxı

şəhəri olmaqla Xəzərsahili əyalətlərə bölünürdü. Sabiq məmurlar yerlərini rus məmurlarına verdilər.[1]

Türkmənçay müqaviləsindən 10 il sonra çar Qafqaz vilayətini yoxlamaq üçün İrəvana gəldi. Əli Əkbər Bina yazır: "Hicri-qəməri tarixi ilə 1253-cü ildə Məhəmməd şahın başı Xorasanda Herat döyüşlərinə qarışmışdı. Bu vaxt şaha xəbər çatdı ki, I Nikolay Gülüstan və Türkmənçay müqavilələri əsasında Rusiyanın müstəmləkəsinə çevrilmiş Cənubi Qafqaz şəhərlərini görmək üçün ora gəlir.

Həmin vaxt Tehranda idarəçilik məsələlərini Məhəmməd şah tərəfindən dövlətin səlahiyyətli şəxsi təyin edilmiş (mötəmeddövlə) Fərhad Mirzə həyata keçirirdi. Şah Məşhəddən mötəmeddövlənin (yəni Fərhad Mirzənin) yanına bir nəfər göndərərək ona belə bir tapşırıq verdi: “Təbriz əmiri-nizamı Məhəmməd xan Zəngənəyə töhfələr və hədiyyələr göndərib, ona tapşır ki, vəliəhd Nəsrəddin Mirzənin başçılığı ilə bir heyət düzəldib imperatoru qarşılamaq üçün İrəvana yola düşsün və orada mənim adımdan imperatoru salamlasın”.

Bu zaman vəliəhd Nəsrəddinin 8 yaşı vardı.

Təbriz əmir-nizamı töhfə və hədiyyələri aldıqdan sonra Məhəmməd şahın göstərişinə uyğun olaraq, 1253-cü ilin rəcəb ayında vəliəhdlə birgə İrəvana gəlib çıxdı. Bu səfərdə əmiri-nizam Məhəmməd xanın yol yoldaşları aşağıdakı şəxslər olmuşdur: Nizam-ül-üləma Hacı Molla Məhəmməd, Məhd Əliyanın qardaşı Etizadüddövlə Dullu, Məhəmməd şahın məktubunu, töhfə və hədiyyələri aparan Məhəmməd Tahir Qəzvini, Mirzə Məhəmməd Tağı Fərahani (sonralar baş əmir və

---

[1] Bax: “Tarix-e Azərbaycan”. Tərcümə edən: İ.A.Əfşar, səh.177

baş nazir oldu), həkimbaşı Mirzə Məhəmməd və tərcüməçilik edən Mirzə Əli Əkbər Təbrizi.[1]

Türkmənçay müqaviləsi imzalanandan sonra illər boyu mühacirət davam etdi. Səid Nəfisi yazır: "Türkmənçay müqaviləsi nəticəsində ölkədə sakitlik yaranmış, ən azı Qacarlar dövləti intəhasız dərd-sərlərdən azad olmuşdu. Müqavilənin icrası zamanı qarşıya çıxmış maneələr və ixtilaflar sonradan aradan götürüldü. Məsələn, 17 il iki dövlət - İran və Rusiya arasında problem yaratmış didərginlər və qaçqınlar haqqındakı XIV maddə, nəhayət, 1844-cü ilin iyun ayının 3-də *(hicri-qəməri tarixi ilə 1260-cı ilin cəmadiülaxir ayının 28-də)* İranın baş naziri Hacı Mirzə Ağasi və Rusiyanın səlahiyyətli nümayəndəsi A.Medem tərəfindən Tehranda təfsir edilərək, müqavilədəki ixtilafın aradan qaldırılması üçün aşağıdakı sənəd imzalandı: "Rusiya və İranın qonşu vilayətlərinin sakinlərinin bir-birinə mühacirəti zamanı baş verən intizamsızlığa və çoxüzlülüyə son qoymaq üçün müqavilə bağlamış iki dövlətin nümayəndələri öz dövlətlərinin icazəsi və razılığı ilə aşağıdakı müqaviləni imzaladılar:

Birinci maddə: Bundan sonra hər iki dövlətin təbəələri öz dövlətlərinin buraxılış vərəqəsi və mötəbər icazənaməsi olmadan bu ölkədən o biri ölkəyə keçə bilməzlər.

İkinci maddə: Hər kəs ki, hər iki dövlətə tabe olsa və üçüncü dövlətin ərazisinə getsə, buraxılış vərəqəsi olsa da saxlanacaq, onun bütün geyimi, silahı (yanında olandan başqa) daha yaxındakı sərhəd məntəqəsinin işçilərinə və yaxud da səlahiyyətli nümayəndəyə, vəzifəli şəxsə, öz dövlətinin konsuluna veriləcək.

---

[1] Bax: Əli Əkbər Bina. Tarix-e siyasi və diplomasi-ye İran. II cild, səh.153

Üçüncü maddə: Hər iki dövlətin təbəəsinin mühacirət üçün öz dövlətindən icazə almaq barədəki ərizəsinə başqaları tərəfindən müdaxilə olmadan baxılacaq.

Dördüncü maddə: Əgər iki dövlətin kargüzarları aralarındakı dostluqdan istifadə edərək bir-birindən bir neçə ailə üçün buraxılış vərəqəsi istəsələr və bu qanuna zidd olmasa, ondan imtina etməyəcəklər”.[1]

Bu müqavilədən sonra da bütün problemlər həll olunmadı. Arazın o tayında yaşayan və rusların hakimiyyətinə dözməyən müsəlmanların İrana mühacirəti və ermənilərin İrandan Rusiya ərazisinə köçü davam etdi. Qarapapaqların şimaldan cənuba köçü də bu qəbildəndir. Hicri-qəməri tarixi ilə 1267-68-ci illərdə Rusiyanın səlahiyyətli nümayəndəsi tərəfindən İranın xarici işlər nazirinə göndərilmiş sənədlərdə də Qarapapaq camaatının İrana köçü haqqında danışılır: "Hökmdara yaxın olan ləyaqətli və şərafətli cənabın şəfqətli dostluq köməyinə ümidlə İrəvanın Göyçə torpağında məskunlaşmış Qarapapaq tayfasından bir neçə ailənin köçməsinə icazə məsələsi ilə bağlı məlumat gəlib çatdı. Dostsevən yüksək cəlallı cənabın o şərhinin tərcüməsindən anlaşdı ki, şövkətli və cəlallı cənabın öz xidmətindən göndərdiyi məktubda canişinə aid bir sifarişnaməsi vardır. Bu barədə müəzzəmullah cənabın dostsevənə məktubu çatarsa, əlbəttə, o cənabla mehribanlıq izharı ilə razılaşılacaq, çünki məsələ onun ixtiyarında olduğu üçün zəhmət tələb etmir.

Yazıldı 1267-ci ilin zilhiccə ayının 19-da.

Cəlalınıza və ləyaqətinizə dostların böyük hörmət izharı ilə...

---

[1] Səid Nəfisi. Tarix-e ectemai-ye siyasi-ye İran. II cild, səh.193

Qarapapaq tayfasına məxsus bir neçə ailənin İrəvandan köçməsi barədə dövlət başçısı əlahəzrət padşahın göstərişi ilə dostsevən knyaz Zanovun diqqətinə bir xahiş çatdırıldı. Rus sərhədçilərinin məlumatlarından aydın oldu ki, İrana gəlmək arzusunda olan və dövlət başçısının müəyyənləşdirdiyi bir neçə ailə qərarını dəyişib. Lakin öz qərarında israr edən və adları göndərilmiş siyahıda olan digər 17-yə yaxın ailə müəyyən olunaraq padişahın Rusiyaya müraciəti nəticəsində köçmək icazəsi aldı. O cənabın bu izn və icazəsindən rus dövlətinin müqavilənin şərtlərinə uyğun olaraq adları çəkilən şəxslərin qayıtmasının nə zaman və necə reallaşacağı aydın olur. Belə ki, erməni Yusif xan mühacirət üçün xahişnaməni Rusiya məmləkətinə çatdırmalıdır. Köçmək istəyən şəxs tələbnamə yazmalı və çar sarayından bu barədə göstəriş gəldikdən dərhal sonra İran dövlət başçısı iki dövlət arasında qayıdış yerini müəyyənləşdirməlidir.

3 şaban 1268-ci il"[1]

İrəvan, Aleksandropol, Naxçıvan, Hurbayəzid bölgələrinin təşkilinə dair rus imperatorunun 1849-cu il tarixli fərmanı ilə İrəvan vilayəti meydana gəldi. Bu vilayət şimaldan Tiflis, şərqdən Yelizavetpol [Gəncə] vilayəti, qərbdən Türkiyə, cənubdan İran dövləti ilə həmsərhəd idi. Bu vilayətin ərazisi 27.830 kv.km, əhalisi 829.550 nəfər idi. İrəvan vilayətinin əhalisi taxılçılıq, heyvandarlıq, ipəkqurdu yetişdirmək, tütünçülük, üzümçülüklə... məşğul idi. Vilayətdə hərbi inzibati işlər hərbi komandantlığın nəzarəti altında idi. O, hərbi məsələlərdə hərbi nazirə tabe idi. Vilayət işlərində isə Qafqaz canişininin göstərişlərini yerinə yetirirdi.

---

[1] Əsnadi əz rəvabet-e İran ba məntəqe-ye Qəfqaz, səh.429-31

1879-cu ilin oktyabrın birində İrəvan vilayətində şəhər şuraları təsis olundu.[1]

Qafqaz ölkələrinin o zamankı bölgüsü barədə Seyid Həsən Tağızadə yazır: "Nəhəng Rusiyanın bir əyaləti olan Qafqazın mərkəzi hökuməti Gürcüstanın paytaxtı Tiflis şəhəri idi. Çar sarayının səlahiyyətli nümayəndəsi, rusların öz sözü ilə desək, "namestnik" adlanan hakim və baş rus general-qubernatorunun qərargahı Tiflis şəhərində yerləşirdi. Gürcüstan, Bakı, İrəvan və digər bir neçə əyalət general-qubernatora tabe idi. Yuxarıda qeyd etdiyimiz əyalətlər "quberniya" adlanırdı və onların da başında "qubernator" adlanan vali dayanırdı. O, Osmanlı əyalətlərindəki vilayət valisinə bərabər idi (İrəvan əyalət qubernatoru kimi). Hər vilayət bir neçə nisbətən böyük vilayətə bölünürdü ki, rusca buna "uyezd" deyilirdi. O, Osmanlı vilayətinin bölgüsündəki "sancağ"a bənzəyirdi. Osmanlıların "mütəsərrof"una bənzəyən "uyezd" hakiminə "naçalnik" deyilirdi.

Məsələn, İrəvanın əyalət vilayətlərindən biri (uyezd) Naxçıvan idi. O, İrəvan valisinə tabe idi və mərkəzi adı çəkilən Naxçıvan şəhəri idi. Hər vilayət və yaxud "uyezd" də "uçastka" adlanan (Osmanlı dövlətindəki qəzaya bənzər) kiçik vilayətə bölünürdü və onun da başında "pristav" dayanırdı (osmanlıların qaim-məqamı kimi). Naxçıvan böyük vilayətinə tabe olan kiçik vilayətlərdən biri Araz çayının yaxınlığında, Ələmdar və  Gər-Gər nahiyəsi ilə üzbəüzdə yerləşən Ordubad qəsəbəsi idi ki, təxminən Mərənd və yaxud Şəbüstər boyda olardı.

---

[1] Bax: Azərbaycan Ensiklopediyası. İrəvan quberiniyası bölməsi

Kiçik vilayətlər və yaxud "uçastka"lar da bölüklərə bölünürdü ki, hər bölüyə və ya mahala da "çast" deyirdilər. Kəndlərin bir hissəsini əhatə edən bölük bütövlükdə "uçastka"ya tabe idi. "Çast" Osmanlı vilayətinin bölgüsündəki nahiyəyə oxşayırdı və hər "çast"ın rəhbərliyində "qlavar" dayanırdı ki, bu da Osmanlıdakı müdirə bərabər idi. Məsələn, erməni olan İklis (Əkvalis) bölüyündə yüksək və aşağı təbəqə var idi və hər biri "qlavar" adlı hakimə malik olan "dəstə"nin bölüyü Ordubada tabe idi. Hər nahiyə də kəndləri əhatə edirdi. Məsələn, ondan iyirmiyə qədər kəndin kəndxudasına "katta" deyirdilər və Dəstə nahiyəsinin kəndlərindən biri olan Vənənd kəndi atamın doğulduğu yer idi".

## İrəvan Nəsrəddin şah dövründə


Nəsrəddin şah Qacar

Hicri-qəməri tarixi ilə 1265-ci ildə, Nəsrəddin şahın hakimiyyətinin ikinci ilində II Aleksandr Qafqazdakı işləri qaydaya salmaq üçün İrəvana gəlir. Mirzə Tağıxanın məsləhəti ilə şah baş adyutant Əziz xana tapşırıq verir ki, İrəvana gedib Qacarlar dövlətinin hədiyyələrini II Aleksandra çatdırsınlar. Etimadüs-səltənət Məhəmməd Həsən xan bununla bağlı yazır: "...İlin əsas hadisəsindən biri də rus dövlətinin həzrət vəliəhdinin qarşılanması üçün baş adyutant Əziz xanın İrəvana getməsidir. O günlərdə rus dövlətinin vəliəhdi, mər-

hum Nikolayın oğlu və hal-hazırda imperator olan əlahəzrət II Aleksandr Qafqazda və Gürcüstanda qayda-qanun yaratmaq üçün İrəvana gəlmişdi. Məlum olduğu kimi, bu iki dövlət arasında bir zaman müharibələr getmişdi. Ordu əmiri Səvabdid Mirzə Tağı xan sonralar ordunun baş komandanı vəzifəsinə təyin edilmişdi. Baş adyutant Əziz xana şah sarayından göstəriş gəldi ki, əbədi dostluq nümunəsi olaraq qiymətli daş-qaşlarla və almaslarla bəzədilmiş bir portret və asiman rəngli həmayil həzrət vəliəhdə hədiyyə aparılsın. Dövlət səfirinin birinci müavini, ordu xəzinədarı İsmayıl xan ordu əmirinin Gürcüstan general-qubernatoru üçün nəzərdə tutduğu hədiyyələri dəvələrə yüklədi. Əziz xan şah sarayından Zəncana gəldi, bir neçə gün orada molla Məhəmməd Əlinin dəstəsi ilə mübarizə apardı. Sonra Araz çayının sahilinə endi və rus sərhədçiləri tərəfindən ona yüksək qonaqpərvərlik göstərildi, onu qəbul etmək üçün hər cür şərait yaradıldı. Oradan isə vəliəhdin gəlməsinə səkkiz gün qalmış İrəvana yola düşdü və gəlib həmin vilayətə çatdı. Sabahısı gün səfirliyin birinci müavini İsmayıl xan Tiflisə yollandı. O, ordu əmirinin hədiyyələrini Gürcüstan general-qubernatoruna çatdırıb, altı gündən sonra geri qayıtdı. Səkkizinci gün Əziz xan vəliəhdlə görüşdü. O, İrəvana gəlib çatandan iki saat sonra eşik ağasını və xüsusi adyutantını faytonla Əziz xanın yanına göndərdi. Əziz xan səfirliyin əməkdaşları ilə birgə çarın hüzuruna gəlib, həmayili və Humayunun portretini ona təhvil verdi. Əlahəzrət şahənşahın səmimi dostluq, ittifaq tərəfdarı olduğunu bildirdi. Vəliəhd hədiyyələri qəbul edib, əvəzində Əziz xana və səfirliyin hər bir əməkdaşına xüsusi iltifat göstərərək, onlara qiymətli hədiyyə-

lər verdi. Vəliəhd cavabında onun da böyük məhəbbət və minnətdarlığının şahənşaha çatdırılmasını istədi.[1]

Hicri-qəməri tarixi ilə 1291-ci ildə *(miladi tarixi ilə 1875-ci ildə)* vəliəhd Müzəfərəddin Mirzə də Xudafərində İrəvan hakimi ilə görüşdü. Təbrizdən göndərilmiş aşağıdakı teleqraf xəbərində də İrəvan hakiminin öz heyəti ilə birgə Xudafərində vəliəhdlə (Müzəffərəddin Mirzə) görüşündən danışılır: "Təbriz... Ordu qəzetində cənab sahibdivanın yazdığına görə, ayın 17-də [zilqəddə] Xudafərin körpüsündə İrəvan hakimi Rusiyanın 8 nəfər hörmətli mənsəb sahibi ilə birgə İranın ali dövlət nümayəndəsi - zamanın vəliəhdi ilə görüşmüşdür... Onlar üç gün həmin yerdə qalaraq, əlahəzrətin qonağı olublar".[2]

Bu illərin diqqətçəkən hadisələrindən biri də Nəsrəddin şahın Avropa səfəri zamanı *(hicri-qəməri 1306-cı ilin şaban ayının 12-dən 1307-ci ilin səfər ayının 24-nə qədər)* İrəvandan keçməsidir. Şah öz "Səfərnamə"sində bu vilayəti görməsini belə təsvir edir: "Culfada aşağıdakı şəxslər şahla görüşə gəlmişdi: İrəvan hakimi general Litvinan Şalikov, İrəvan jandarmeriyası Burşakov, polkovnik Fon Derton və İrəvan əyalətinin mühəndisbaşısı, digər çoxlu sayda böyük sahibmənsəblər...

Bundan əlavə, Ordubad üləmaları da şahın hüzuruna gəlmişdilər: Vaiz Hacı Mirmufid, tayfa başçısı Hacı Mirhaşım, müdərris Ağa Mir Yəhya, Ağa Mir Yusif, nəccar Ağa Mirsadıq və digər rəhbər şəxslər...

---

[1] Bax: Etimadüs-səltənə. Mirat-ül Bildan. Doktor Hüseyn Nəvainin redaktəsi ilə, I cild, səh.987

[2] "İran" qəzeti. 241-ci say, seşənbə günü. 1291-ci il zilqəddə ayının 26-sı, 1875-ci il yanvarın 5-i. Məhəmməd Hafizzadənin "Araz tarixin keçidlərində" əsərindəki hekayətdən, səh.193

Ramazan ayının 12-si, bazar ertəsi günü:

Bu gün gərək İrəvana gedim, səhər yuxudan qalxıb geyinməliyəm. Bir saat yarım keçəndən sonra atlara minmək üçün bayıra çıxdıq...

Burada müsəlmanların vəziyyəti barədə qısaca danışmaq lazım gəlir. Təəssübkeş və həyəcanlı ülәmalar təsəvvürəgəlməz dərəcədə İrana, şaha və İran həyatına meyilli idilər. Bütün bunlar son dərəcə təəccüblü görünürdü. Onlar ruslara o qədər nifrət edirdilər ki, əgər deyilsəydi ki, bu kənddəki bütün rusları qırın, dərhal qırardılar. Heç kəsdən qorxuları yox idi. Kazaklar onları döyürdü, qarşısını aldıq. Onlar kötək yesələr də, başları partlasa da, torpaq yesələr də, heç nə veclərinə deyildi. Camaat aşurə günündəki kimi heç nəyə məhəl qoymur, heç bir yaranın qeydinə qalmırdı. Xülasə, vəziyyətləri o qədər əcaib idi ki, yazmaq mümkün deyil.

Nəhayət, atı sürdük, üç fərsəng gedib, Sədərək çaparxanasına çatdıq. Burada atları əvəz edərək təzədən yola düşdük. Dəvəliyə çatıb, orada nahar elədik. Dəvəli müsəlmanları da başqalarının gördükləri işləri görürdü. Bundan əlavə, Dəvəli Ağrı dağla üzbəüzdə yerləşir. Ağrı dağın qəribə əzəməti var. Uzaqdan onun ətrafına qədər düzənlikdir. Bu düzənliyin ortasında xudavəndi-aləm başı asimana çatan iki dağ xəlq edib. Onlardan biri hündür, digəri kiçikdir. Birinin adı böyük Ağrı dağ, o birisininki kiçik Ağrı dağdır. Bu dağların hər ikisi Arazın o biri tayındadır. Böyük Ağrı dağ çox uca və yüksəkdir, kiçik Ağrı dağ isə bir o qədər də hündür deyil, amma çox xoşagələn və konusvari görkəmi var. Başdan-ayağa qara bürünüb. Bu iki dağın arasında boyundakı xala bənzəyən bir dərə var. Bu tərəfdən və o biri tərəfdən yüksələn, qara bürünmüş bu iki dağ ana və övlada bənzəyir. Böyük dağ ana, kiçik

dağ övladdır. Böyük və kiçik Ağrı dağ üç dövlətin - Rusiya, İran, Osmanlının sərhədində yerləşir və hər üç dövlətin səlahiyyətindədir. Hər üç dövlətin təbəələrinin mal-qarası və özləri bu yerlədə gəzib-dolaşır. Kiçik Ağrının xeyli hissəsi İrana məxsusdur. Tehranın 10 fərsəngliyində yerləşən məşhur Dəmavənd dağı böyük Ağrıya oxşayır və biri Tehranda, biri isə burada olmaqla onlar iki qardaş təəssüratı yaradırlar. Çox qəribədir ki, bu böyüklükdə iki dağın ətəyində su və çeşmə çox azdır. Ətrafı çox qurudur, böyük Ağrının ətəyində, qarların altında Ağa Xork adlı ruslara məxsus bir kənd var. Ora Hacı İbrahim Xəlilin oğlu Yusifin mülküdür. 25-dən artıq evi olmaz və cəmi bir çeşməsi var. Kiçik Ağrı dağının ətəyində məşhur Sərdar bulağı var.

Nahar yeyib Dəvəlini keçdikdən sonra böyük və gilli bir çay qarşımıza çıxdı. Onun adı Vedi çayıdır. Vedi çayı Vedibasar adlı böyük bir mahalı su ilə təmin edir. Vedibasar sözü də elə bu çayın adından götürülmüşdür. Vedi çayı sağ tərəfdə Arıca adlanan dağlardan axıb gəlir... Bu dağlarda bol qar olur. İndi aprel ayı olmasına baxmayaraq, qar hələ əriməyib, elə bil təzəcə yağıb. On yuva gedəndən sonra bir kəndi keçib Qəmərli bölüyünə çatdıq. Bu bölüklərin suyu Ağrı dağdan gəlir. Burada Məhəmmədqulu xanın (onun babası Ağa Məhəmməd xan dövründə hakim və tanınmış şəxs olmuş Mirməhəmməd xan Ziyadlı Qacar, atası Hüseynqulu xan Sərdar idi) nəvəsi Məhcəli xanın oğlu, Qəmərlidə də böyük mülk sahibi olan Abbasqulu xan İrəvani görüşə gəlmiş adamlar arasında idi.

Bu kəndlərin əksəriyyətində erməni və müsəlmanlar çoxluq təşkil edirdi. Karnibasardan keçdik. Orada Karnibasar adlı bir çay axır və bu mahalı su ilə təchiz edir. Karnibasardan keçib, Ağhəmzəliyə gəlib çıxdıq.

Burada atları dəyişməli idik, amma dəyişə bilmədik. İrəvana doğru sürdük.

Qəbraqdan İrəvana qədər bütün yolboyu kəndlər idi. Buralarda boş yer yox idi. Əkin yerləri çaylar vasitəsilə suvarıldığından kəndlər abad görünürdü. Günün batmasına bir saat yarım qalmış İrəvan şəhərinə çatdıq. Bizi qarşılamağa xeyli adam gəlmişdi. Pənah xan İrəvani adlı bəstəboy, kök, 46-47 yaşlı və İrəvanda çox hörməti olan bir kişi İrəvan süvarilərini bizimlə görüşə gətirmişdi, onun əlində İran bayrağı da var idi. Xanla bir qədər söhbət edib, şəhərə daxil olduq.

İrəvan şəhəri dərənin içində yerləşir. Burada ilk dəfə ağ akasiyanın gülünü gördük. Dünən keçdiyimiz bölüklərdə isə iydə (lox) gülü çox idi. Həmin güllər faytonumuzu və fəzanı ətrə bürümüşdü. Dəvəli və Qəmərli arasında Rusiyanın rəiyyəti olan Kürdək əyaləti yerləşir. Türnükənddə, Əzizanlıda, Gümrüdə, Buralanda bürdqanlılar yaşayır. Onlar özləri min evdən ibarət olduqlarını desələr də, başçıları 500 ev olduqlarını bildirdi. Buralar onların qışlaqlarıdır, yaylaqları isə Akrıcada, Saraclı yüksəkliyində Araza qovuşan Qarasu çayının kənarında yerləşir. Bunların birinin başçısı Fətəli ağa, digərinin başçısı Fətəli ağanın xoşagəlimli, suyuşirin gənc oğlu idi. Rusların məhəlləsində Avropa standartlarına uyğun evlər, binalar tikilmişdi. Bütövlükdə 18 min əhalisi vardır. İki gözəl plakat hazırlanmışdı və bizim adlarımızı yazmışdılar. İrəvanın başçılardan, döyüşçülərdən, vəzifə sahiblərindən ibarət bütün əhalisi, istər müsəlman, istər rus olsun, İrəvana tam hazır vəziyyətdə gəlmişdilər. Üç yüz-dörd yüz erməni əsgəri də (ermənilərdən təzəcə əsgər yığırdılar və onların komandirləri ruslar idi) sıraya düzülmüşdü. Bizi qarşılamağa gələnlərə çatıb, atdan düşdüm. Ev sahibi, əminüs-sültan və di-

gərləri də gəlib çatdılar. Gəlib otağın qapısında dayandıq, bütün sahibmənsəblərə və camaata minnətdarlıq etdik. Əsgərlər də bizim qarşımızdan keçdilər və bundan sonra hökumət binasına daxil olduq. Bina çox gözəl idi. Bu bizim əvvəl gördüyümüz bina idi, amma çox yaxşı təmir olunmuşdu, xeyli gözəlləşmişdi. Şam etdik və şamdan sonra da ev sahibi və vəzifə sahibləri gəldilər. Atəşfəşanlıq başlamışdı. Bayıra çıxdıq. Bütün pilləkənlərin üstündə adamlar dayanmışdı. Onlar atəşfəşanlıq edirdilər. Camaatın əksəriyyəti fransız, erməni və digər qadınlardan ibarət idi. Kişilər ayaq üstə idilər. Atəşfəşanlıq və qonaqpərvərlik gəldiyimiz gündən son gecəyədək davam etdi. Buranın bütün evlərində Təbriz xalçası və Təbriz kilimləri var idi. Hətta otaqların pərdələri də xalçadan idi.

Bu iki gündə gördüyümüz bütün kəndlərdə mal-qoyun sürülərinin otlaması üçün heç yerdə görmədiyimiz çoxlu çəmənlik və otlaqlar var idi. Burada müxtəlif növ qaramal, çoxlu yük eşşəyi, madyan, camış gördük. İnəklər, camış balası, dəvə bir yerdə otlayırdı.

Buranın mötəbər generallarından biri bizi qarşılamağa gələn Kemişov idi... Bizim gəlişimizdən sonra hava tutuldu, qısa ildırım və göy gurultusundan sonra gur yağış yağdı. Xeyli müddət idi ki, İrəvana yağış yağmırdı, camaat bunu bizim ayağımızın sayalı olması ilə əlaqələndirdi.

Ramazan ayının 13-ü, çərşənbə axşamı günü:

Bu gün Dilicana getməliyik. Yolun uzunluğu 14 fərsəngdir. Sübh namazına 1 saat qalmış yuxudan oyandıq. Hacı Heydər saqqalını təraş eləyib gəldi... Biz də əvvəlki qayda üzrə faytonlara oturduq və yola düşdük. Maşallah, Əziz sultanımızın da üzü və əhvalı əla idi. Bu yol haqqında əvvəlki səfərimizdə müfəssəl yaz-

mışdım. Bu səfərdə yalnız təzə bir şey görəcəyimiz halda yazacağam. Əvvəlki səfərimizdə gördüyüm İrəvan çox bərbad vəziyyətdə idi, amma indi çox abadlaşmışdı. Çox yaraşıqlı evlər, çoxsaylı məscid və mədrəsələr tikilmişdi. Küçələrdən çox sürətlə keçib, İrəvan şəhərinin yaxşı göründüyü bir yüksəkliyə çatdıq və sonuncu dəfə Ağrı dağını görüb, oradan ötüb keçdik.[1]

Nəsrəddin şah Avropadan geri qayıdarkən xüsusi həkimi fransalı Fövriyyə də onunla olub. O, yol qeydlərində İrəvan şəhərini belə xatırlayıb: "Biz səfərə çıxanlar öz fayton yoldaşlarımızla Ararat, Nuh və onun gəmisindən danışdığımız zaman gözlərimizin qarşısından bu quru və hündür yerlər üçün qeyri-adi görünən gözəl vahələr keçir. Bir hissəsi böyük meyvə ağacları və barsız ağaclar arxasında qalan, aralarından yüz minlərlə xüsusi parıltıya malik şəffaf arxlar axan evlər görünür. Ola bilsin ki, bu, şair Pirdəvinin təsvir etdiyi həmin yerdir: "Bu yerdəki körpə ağaclar birbaşa ali əcdadımız Nuhun əkdiyi lətif qönçələrdəndir".

Həzrəti Nuh bu otun şirəsindən içdi və bununla da həmin qiymətli ot əbədiyyət qazanıb bizim günlərə qədər yaşadı. Gərək onun oğlu Samın səsinə minnətdar olaq. Bu cür fikirlərlə İrəvan şəhərinə çatdıq və ovcumuzun içindəki şəhər sıx bağlar içərisində olduğundan oraya daxil olanadək onu görə bilməmişdik.

Saat yeddiyə yaxın idi, Araratın zirvəsi bütün əzəməti ilə görünürdü. Günəşin son şüaları dağın başında oynadığından və dağın aşağı hissəsinə kölgə düşdüyündən xüsusi mənzərə yaranmışdı. Göyçəgöl dəryaçasının yanından yol aşağı enməyə başladı. Biz min

---

[1] Bax: Nəsrəddin şahın Avropaya üçüncü səfəri ilə bağlı xatirələri. İran Milli Arxivinin sənədləri (I cild), səh.108

metrlik yüksəklikdə olsaq da, 4200 metr yüksəkliyə malik olan Ararat yenə bizi heyran etməkdəydi.

11 sentyabr - hicri qəməri 1307-ci ilin məhərrəm ayının 15-i.

Şah Eçmiədzinin böyük xəlifəsi ilə görüşmək istəyirdi. Eçmiədzin Ermənistanın 17 kilometrliyindədir. Biz saat on tamamda hərəkət etməyə başladıq. Çünki şah günorta vaxtı erməni keşişi ilə görüşməli idi. Yerli könüllü əsgərlərin hamısına hərbi mühafizə məqsədi ilə əlahəzrətlə birgə hərəkət etmək tapşırığı verilmişdi. Briqada generalı Bekolmışov bu qrupa rəhbərlik etməli olan Gürcüstan çarının nəvəsini mənə təqdim etdi.

Bu hərbi qrup fəxri qarovul vəzifəsini yerinə yetirməkdən başqa, həm də bizim təhlükəsizliyimizi qoruyurdu. Çünki yollarda qaçaq və yolkəsənlər var idi. Tatar və qeyri-millətlərdən olan bu adamlar çox təhlükəli idilər. Yolkəsənlərdən birinin adı Kərəm idi. O, bu yerlərdə çox məşhurdur və rus hərbçilərinə qarşı mübarizə aparır.

Kərəm rus hərbçiləri ilə son döyüşlərin birində yaralanmış və Maku hakimi Teymur ağanın yanına qaçmışdır. Ruslar onu ələ keçirmək üçün Teymur ağaya nə qədər təkid etsələr də, Teymur ağa onu təhvil vermir. Kərəm daha çox İrəvan hakimi ilə düşmənçik edir, tez-tez ona məktub göndərərək özünü onun yadına salır, vəziyyəti barədə məlumat verir və bildirir ki, yaxşılaşan kimi onun (yəni İrəvan hakiminin) hüzuruna gəlib, başına bir güllə sıxacaq və intiqamını alacaq.

Səhər saat 10-da biz faytona mindik, Zəngi körpüsündən keçib, şəhərdən çıxdıq. Körpüyə gedən yolun üstündə İrəvan sərdarlarının qəsri ucalır, onun qonşuluğundakı məhəllə hündür və boz divarlarla əhatə olunurdu.

...Getdiyimiz yolla saat 4 radələrində İrəvana qayıtdıq, hava qaralana qədər şəhərin görməli yerlərini gəzdik. Əvvəlcə sərdarlar qəsrinin qarşısında dayandıq. Hər yerdə müsəlman mədəniyyətinin izləri görünürdü və indi dağılmış qəsr həmin mədəniyyətin ən gözəl nümunələrindən biri idi. Minalı və açıq mavi rəngli kaşılarla bəzədilmiş zal, geniş qapılar, müxtəlif rəngli şüşələri olan açılan pəncərələr, divara, sütünlara, tavana vurulmuş kiçik aynaların ətraflarında zərgərcəsinə işlənmiş ornamentlər, gül və buta şəkilləri bu gün İrəvanda sərdarlar qəsrinin abadlıq dövrünün şahidi hesab oluna bilər.

Onun indiki mənzərəsi də diqqətdən kənar qala bilməz. Tağlı şəkildə tikilmiş köhnə körpü ilə Zəngi çayı ayağımızın altından axır. Bir qədər uzaqda şəhər bağları, ondan o tərəfdə isə geniş çöllər görünür. Araratın zirvəsi də üfüqdən aydın nəzərə çarpır. Şəhərin qədim tikilisi məsciddir, adı çəkilən qəsr kimi onlar da xarabazarlığa çevrilib. Yalnız onun günbəzi nisbətən salamat qalmışdır. Məscidin daxili və xarici parlaq rəngli kaşılardandır. Həmin kaşılardan bəziləri qopub və onların sınıqları hər tərəfə səpələnib.

Şəhərdə daha yaxşı qalmış başqa bir məscid də gördük, müsəlmanlar orada namaz qılır. Onun inşaat üslubu da əvvəlki məscidin inşaat üslubuna oxşayır. Əvvəlki qayda üzrə burada da rəngbərəng kaşılardan istifadə olunub. Lakin bu məsciddə tünd mavi rəng digər rənglərdən çoxdur. Onların üzərində qızılı rənglə Quran ayələri yazılıb.

İrəvan bazarı Tiflis bazarına oxşayır. Yəqin ki, qabaqda görəcəyimiz digər bazarlar da belə olacaq. Tikintilərin quruluşu və satış qaydaları gördüklərimizdən çox da fərqlənməyəcək.

Hava qaranlaşdığından gəzintini dayandırıb, bir o qədər də çox adam olmayan meydan yolundan şəhərin

yeni məhəlləsindəki, yəni rus məhəlləsindəki iqamətgahımıza qayıtdıq. Beləliklə, çox şeylərin şahidi olduğumuz gündüz gəzintisinə son verdik".[1]

Bu illərdə hələ Daşnaksütyun partiyası təşkil olunmamış, ifrat erməni iddiaları qarşıdurmalara səbəb olmamışdı. Arazın o biri sahilində və İrəvan şəhərində yaşayan millətlər, o cümlədən müsəlmanlar və ermənilər dinc şəraitdə yaşayırdılar. Üstəlik, İran mühacirlərinin çoxu həmin şəhərlərdə işləyirdilər.

Mirzə Həsən Rüşdiyyə Təbrizi yeni üsullu məktəbi ilk dəfə İrəvan şəhərində təsis etdi. Fəxrəddin Rüşdiyyə bu barədə yazır: "Rüşdiyyə yeni üsulla əlifbanın təlim edilməsinin metod və üslubunu tam müəyyənləşdirdikdən sonra əvvəlcə İrəvana getdi və hicri-qəməri tarixi ilə 1301-ci ildə ögey qardaşı Hacı Axundun köməyi ilə Qafqazın zadəgan müsəlmanları üçün yeni üsullu mədrəsəni (ibtidai məktəb) təsis etdi. Onun öz kəşfi olan bu üsulla (fonetik əlifba) tədrisə başladı. "Vətən dili" kitabını türkcə öz üsulu ilə tədris edərək, 60 saat ərzində ibtidai sinif şagirdlərinə oxumağı və yazmağı öyrətməyə nail oldu.

İrəvan müsəlmanları onu ləyaqətlə qəbul etdilər və mədrəsənin şagirdləri günbəgün artırdı. Bu mədrəsə dörd il müddətində onun nəzarət və rəhbərliyi altında fəaliyyət göstərdi.

"Vətən dili" kitabı ta 1917-1918-ci ilə qədər Qafqaz və Türküstanın məktəblərində ibtidai sinif vəsaiti kimi tədris olundu. Rüşdiyyə bu 4 il ərzində tədrisdə böyük təcrübə əldə etdi".[2]

---

[1] Doktor Fövriyyə. “Se sal dər dərbar-e İran”. Tərcümə edən: Abbas İqbal Aşiyan, səh. 105-110

[2] Fəxrəddin Rüşdiyyə. Zendeginame-ye pir-e maaref-e Rüşdiyye, səh.20


**Mirzə Həsən Rüşdiyyə**


**İrəvanda Darülmüəllimin**

Nəsrəddin şah Qacar Avropadan qayıdarkən İrəvandakı bu mədrəsəyə baş çəkdi və onu bəyəndi. Bu görüşdən sonra Mirzə Həsən Rüşdiyyə Təbrizdə yeni üsullu mədrəsə təsis etmək üçün Nəsrəddin şahla birgə Vətənə qayıtmaq icazəsi aldı və öz yurduna qayıtdıqdan sonra Təbrizin Şeşgilan məhəlləsində ilk mədrəsəni yaratdı.

Lakin Rüşdiyyədən qabaq Mirzə Kazım Qazi Əskərzadə İrəvanda bir mədrəsə təsis etmiş və onun ilk dərsliklərini yazmışdı. Qulamrza Budaqi bu barədə yazır: "Mirzə Kazım Qazi Əsgərzadə miladi tarixi ilə 1823-cü ildə Təbrizin "Alan Bərağuş" məhəlləsində dünyaya göz açmışdı. Ənənəvi təhsil aldıqdan sonra İrəvan konsulluğunda katib kimi çalışmağa başlamışdı. Mirzə Kazımın mədəniyyətə, elmə hədsiz marağı onu dövlət işindən uzaqlaşdırdı. Yeni təlim, tərbiyənin alovlu və fəal təbliğatçısı olan Qazi Əsgərzadə İrəvanda bir mədrəsənin bünövrəsini qoydu və orada tədrisə başladı. Adı çəkilən şəxs bir neçə dərsliyin, o cümlədən "Hesab elmi", "Sərf və Nəhv", "Bəlağət elmi"nin və s. müəllifidir. Mirzə Kazım 1892-ci ildə İrəvanda vəfat etmişdir. Mirzə Kazımın şeirlərinin dili

çox sadədir. Onlara yazıldığı dövrü nəzərə almadan (130 il əvvəl), bu günkü uşaq ədəbiyyatının meyarları ilə yanaşsaq, bir qədər monoton görünəcək. Lakin unudulmamalıdır ki, həmin sadə şeirlər bugünkü Azərbaycan uşaq şeirinin ilk nümunələrindəndir. Bu adsız, nişansız maarif xadiminin şeirlərindən birini təqdim etməklə onun  xatirəsini yad edirik:

*Oğlum, oğlum, naz oğlum,*
*Dərsindən qalmaz oğlum.*
*Bülbül kimi dərs oxu*
*İstər çox, ya az, oğlum.*
*Qələmin al əlinə,*
*Bir yaxşı zad yaz, oğlum.*
*Oğlum gedir məktəbə,*
*Oxur, çatar mətləbə.*
*Dərsin oxur, rəvanlar,*
*Nə oxuyubsa, anlar.*
*Daş üstə çiçək qazar,*
*Məşqini göyçək yazar.*
*Mənim oğlum candı, can.*
*Dərslərin oxur rəvan.*
*Gümüşdəndi davatı,*
*Qələmi var beş-altı.*
*Qələmdanı şəkilli*
*Qələmi xallı, milli.*
*Dəftəri var tər-təmiz*
*Kitabı ondan əziz.*
*Kağızları rəngbərəng*
*Oğlum, gətir yaz görək.*[1]

---

[1] "Əsr-e azadi", 19.1.1378,  səh.2



**Bağçaban Mirzə Cabbar (1885-1966). İranda ilk uşaq bağçası və lal-karlar məktəbinin təsisçisi, ilk uşaq kitabının müəllifi və naşiri**

Sonralar Təbrizdə ilk lal-kar mədrəsəsinin əsasını qoymaqla adını bu ölkənin mədəniyyət tarixinə yazmış Mirzə Cabbar Əsgərzadə Bağçaban da İrəvanda doğulub, orada böyümüşdü. O öz tərcümeyi-halında yazır: "Mənim babam Rza Təbriz əhli idi. Atamın adı Əsgər idi və İrəvan şəhərində memarlıq və qənnadı işi ilə məşğul olurdu. Mən 1264-cü şəmsi ilində İrəvan şəhərində doğuldum. Məscidlərdə qədim üsulla təhsil almışdım. 15 yaşımda təhsili atmaq zorunda qaldım. Dolanışığım atamın sənəti ilə məşğul olmaqdan çıxırdı. Cavanlıq dövrümdə gizli şəkildə evlərdə qızlara dərs keçirdim. Qafqaz qəzetlərinin müxbiri, "Molla Nəsrəddin" jurnalının felyeton yazanlarından və şairlərindən idim. Şəmsi tarixi ilə 1291-ci ildə İrəvanda "Leylək" yumor jurnalının müdiri oldum. Bu jurnal Birinci Dünya müharibəsi başlayandan sonra fəaliyyətini dayandırdı".[1]

---

[1] Cabbar Əsgərzadə Baxçaban. Öz əli ilə yazdığı tərcümeyi-hal, səh. 16

Sərdari-milli Səttarxan Məşrutə inqilabından illər öncə bir müddət Qafqazın dəmir yol tikintisində adi fəhlə işləmiş və bir neçə gün kərpic sexində briqadir olmuşdu.[1]

“Səfərnamə”də qeyd edildiyi kimi, Arazın o tayındakı müsəlmanlar, xüsusilə də, İrəvan müsəlmanları Nəsrəddin şahı necə məhəbbət və təəssüb hissiylə qarşılamışdılarsa, onun ölüm xəbərini eşidəndə də o qədər mütəəssir olmuş, kədərlənmişdilər. "Əxtər" qəzeti özünün 22-ci il 42-ci sayında (hicri-qəməri tarixi ilə 1313-cü il zilhəccənin 13-ü, miladi tarixi ilə 1896-cı il mayın 16-sı) "Qarabağdan təsirli məktub" adlı bir yazı çap edib. Həmin yazının bir yerində deyilir:

*“Cənab, "Əxtər" yazarı*
*Təəssüf ki, rüzgar başqa cür oldu.*
*Gözlərdəki yaş Ceyhun oldu.*
*Təkcə dövlət ziyan görmədi bu hadisədən*
*Bütün dünyanın qəlbi qanla doldu.*

Həqiqətən, siyasət məzhərinin, xudavəndin hakimiyyət nümayəndəsinin başına gələn bədbəxtlik bütün insanların qəlbinə təsir edib. Çünki şad və gözəl günlərin ən xoş çağında taxt-tac sahibinin və millətin hamısının vücuduna sədəmə toxunub. Bütün Qafqaz müsəlmanlarının qəlbində bunun təsiri var. Buna görə də Tiflis, İrəvan, Naxçıvan, Bakı və digər kimi şəhərlər matəm bayrağı qaldırıb, əzadarlıq mərasimində sıraya durublar”.

---

[1] R.Rəisniya. Do mobare-ze conbeş-e məşrute, səh. 8

## İrəvan XX əsrin astanasında

XX əsrin astanasında, rüsvayçı Türkmənçay müqaviləsinin bağlanmasından və Arazın o tayındakı vilayətlərin İrandan ayrılmasından 70 ildən artıq vaxt keçməsinə baxmayaraq, hələ də gediş-gəliş davam edir, Arazın hər iki tərəfində yaşayan insanlar arasında qırılmaz əlaqələr mövcud idi.

Hicri-qəməri tarixi ilə 1311-ci ildən Təbrizdə nəşrə başlayan "Nasiri" qəzetinin bir çox şəhərlərdə nümayəndəliyi vardı. Diqqətçəkən məqam budur ki, qəzetin Tehran və İsfahan nümayəndəlikləri ilə yanaşı, Araz çayının o biri sahilindəki şəhərlərin də əksəriyyətində, o cümlədən İrəvanda, Bakıda, Tiflisdə, Şuşada, Naxçıvanda, Ordubadda, Təmərxanşurada, Dərbənddə, Petrovskidə fəal müxbirləri çalışırdı. Onların göndərdikləri xəbər və məlumatlar qəzetin səhifələrində önəmli yer tuturdu. Ağamirzə Cəfər Mirzəcanzadə "Nasiri" qəzetinin İrəvan şəhəri üzrə məsul nümayəndəsi idi. Qəzetin hicri-qəməri tarixi ilə 1315-ci ilin rəbiüs-sani ayında nəşr olunmuş 17-ci sayında deyilirdi: "İrəvandakı müxbirimizin yazdığına görə, həmin şəhərin müsəlmanları və möminləri elm və biliyə xüsusi diqqət yetirirlər. Onlar insan həyatının elmdən və bilikdən asılı olduğunu yaxşı bilirlər. Buna görə də ibtidai məktəb təsis etmək üçün bir məclis təşkil ediblər. Ən mötəbər müsəlmanların hər biri öz imkanı daxilində həmin məclisə pul köçürərək məktəb tikintisinə yardım etməyi qərara alıb. Yaxın zamanda yeni üsullu məktəbin bünövrəsi qoyulacaq. İnşallah, onların bu xeyirli işi fayda verəcək və tez bir zamanda məktəb fəaliyyətə başlayıb və müsəlman balalarına xidmət

edəcək. Allah təala ölkəmizin bütün insanlarını huşyar və ayıq etsin".

Həmin qəzetin 20-ci sayında isə belə bir məlumat vardır: "İrəvan quberniyasının Aleksandropol şəhərində qeyri-millətdən olan bir şəxsdə yaşı təxminən 1200 il olan antikvar bir qılınc vardır. Qılıncın üzərində iki möhür çəkilmiş və Kufə xəttilə qızılla qazılmış aşağıdakı cümlələr vardır: "Sən şahi-mərdan Əlidən qalıbsan yadigar, La fəta illa Əli la seyfə illa Zülfiqar ya rəhmanir-rəhim". Qılınc sahibinin fikrincə, o, mövlalar mövlası əleyhüssəlam zamanında Abbasa məxsus olub. Qılıncı əldə etmək istəyən şəxs İrəvan quberniyasının Aleksandrapol şəhərində tacir Molla Əli bin Kərbəlayi Tarıverdiyə müraciət edə bilər".

Bu illərdə Qacariyyə dövlətindəki kasıblıq və işsizlik ucbatından əhalinin çox böyük hissəsi Arazın o biri tayına mühacirət edir, bu şəhərlərdə işə düzəlirdilər. Abdulla Mustafa yazır: "Qacar dövlətinin təbəələrinin böyük hissəsi Qafqaza gəlmişdi. Hər il xeyli azərbaycanlı fəhləlik üçün Rusiya torpaqlarına üz tuturdu... Fəhlələrdən əlavə, buraya əvvəldən xeyli iranlı köçüb gəlmiş və onlar kiçik köşklərdə alver edirdilər. Onların bəzisinin çox böyük ticarət evləri də vardı... Bu ticarət evlərindəki işləri istiqamətləndirmək və fəhlələrə məsləhət vermək üçün Qacarlar dövləti Tiflisdə bir baş konsulluq, Bakı və Batum şəhərlərində isə iki konsulluq açmışdı. Bundan əlavə, İrəvanın vilayətinin hər bir şəhərində, Gəncədə, Vladiqafqazda bir konsul köməkçisi çalışırdı...".[1]

Qahirədə çap olunan "Hikmət" qəzeti "Tərcüman"a istinad edərək bütün Rusiyadakı və Arazın o biri

[1] Abdulla Mustafa. Mənim həyatım və yaxud Qacariyyə dövrünün ictimai və inzibati tarixi. II cild, səh. 92

sahilindəki əsas vilayətlərdə yaşayan müsəlmanların statistikasını dərc etmişdir. Bu qəzetin hicri-qəməri tarixi ilə 1322-ci ilin şəvval ayında (miladi tarixi ilə 1904-cü ilin dekabrın 8-də) çap olunan 838-ci sayında deyilir: "...1905-ci ildə Rusiya dövlətində müsəlmanların sayı 18 milyona çatmışdır. Onların 12 milyon nəfəri sünni, 6 milyona qədəri isə Cəfəri məzhəbinə aiddir. Onlar türk, türkmən, tatar, qırğız, çeçen, avar, çərkəz, laz və başqa dillərdə danışırlar. Taciklərin danışdığı dil isə farsca-türkcənin qarışığından ibarətdir.

Həmin məqalədə Qafqaz müsəlmanlarının sayı 3 milyon 208 min 875 nəfər göstərilmişdir. Onların 352. 351 nəfəri İrəvan müsəlmanlarıdır".

Şəmsi təqvimi ilə 1285-ci ilin mordad ayından 1286-cı ilin tir ayına qədər Fransanın Qacarlar dövlətində səlahiyyətli nümayəndəsi kimi çalışan və əsl adı Kular Desko olan Ujen Uben həmin dövrdə bir sıra vilayətlərə, o cümlədən Azərbaycana səfər etmiş və yol qeydlərini sonradan kitab halında nəşr etdirmişdir. O öz “Səfərnamə”sinin bir yerində İrəvanı azərbaycanlıların şəhəri adlandırır və yerli dilin xarakteristikasını verməyə çalışır. O yazır: "Qəzvindən çıxandan sonra fars dili öz yerini yavaş-yavaş türk dilinə verir... Yalnız bir neçə kəndin sakini fars dilində danışır. Toponimlərin məzmunu, adların və sözlərin tələffüzü fars və ruscadır. Biz türk-azəri ləhcəsində danışan bölgəyə çatırıq. Həmin günlərdə Təbrizdə, İrəvanda, Tiflisdə, Bakıda söhbət əsasən rus ordusunun yaponlar tərəfindən məğlub edilməsinidən, Rusiyanın daxilində, eyni zamanda, Qafqazda və İrəvanda baş verən proseslərdən gedirdi. Bu hadisələr XX əsrin əvvəllərində mühüm dəyişikliklərə gətirib çıxardı.

Rus ordusunun Sakit okean hövzəsində ən böyük dayağı olan Port Arturun süqutu *(1902-ci il yanvarın 2-də)* və Rusiya silahlı qüvvələrinin komandanı general Anatoli İstusolun yaponlara təslim olması çarizmin qürubunun yaxınlaşması demək idi. Yaponlar Port Artur qalasını ələ keçirəndən sonra intensiv hücumlarla Maqadanda rus ordusunu darmadağın etdilər. 300 yüz min nəfərlik çar ordusunun 120 min nəfəri məhv edildi, yaralandı, əsir götürüldü. Bundan sonra Baltik dənizindən rus qüvvələrininin möhkəmləndirilməsinə kömək üçün Port Artura gətirilmiş dəniz qüvvəsi Sakit okeandakı Susima boğazında bütünlüklə tar-mar edildi. İyirmi döyüş gəmisindən 13-ü suya batırıldı, dördü düşmənin əlinə keçdi. Çar Rusiyası müharibəni bütünlüklə uduzdu. Rusiya yaponlarla alçaldıcı sülh müqaviləsi bağlamağa məcbur oldu.

Rus imperiyasının Yaponiyaya məğlub olması ölkənin daxilində və dünyada böyük rezonans doğurdu".[1]

Bu hadisə dünya mətbuatında sensasiya doğurdu. "Hikmət" qəzetinin 848-ci sayında (hicri-qəməri 1323-cü il rəbiüləvvəl ayı, miladi tarixi ilə 1905-ci il iyun ayının 4-ü) dərc olunmuş "Siyasi ibrət, rus ordusunun məğlubiyyəti və onun məhv olması" başlıqlı məqalədə bu hadisəyə xüsusi diqqət yetirilmişdir. Müəllif Rusiyanın məğlubiyyətini onun imperiya hərisliyi və xalqın öz dövlətinə biganə münasibəti ilə əlaqələndirmişdir. Elə həmin nömrədəcə bu hadisəyə işarə edən bir şeir dərc olunmuşdur.

Yaponlar II Nikolayın dəniz limanlarını tamamilə darmadağın etdilər. Ruslar təkcə Artur limanında 40 mindən çox qurban verdilər. Çar total çağırış haqqında

---

[1] "İran" qəzeti. “İranda və dünyada XX əsrin tarixi”, 1376-cı il, 26-27 bəhmən

fərman verəndə kəndli və fəhlələrdən ibarət on minlərlə insan "Çarizmə ölüm", "Yaşasın yaponlar" şüarı ilə nümayişə çıxdı.[1]

Bu təhqiramiz məğlubiyyət çar rejiminin gücdən düşdüyünü göstərir, xalqı azadlıq və ədalət uğrunda mübarizəyə sövq edirdi. Çar hakimiyyəti ümid edirdi ki, müharibə ona öz siyasi mövqeyini möhkəmlətməkdə kömək edəcək, Rusiyada inqilabın qarşısını alacaq. Lakin müharibənin nəticəsi çarizmin gücsüz olduğunu, xalqdan ayrı düşdüyünü göstərdi... Çar hökuməti müharibə yolu narazı qüvvələri boğmaq, əzmək istəyirdi, amma əksinə, inqilabı sürətləndirdi. Çünki bu dövrdə Rusiyada yaşayan kəndlilər, fəhlələr vəhşi və soyğunçu kapitalizmin zülmü altında inildəyir, heç bir insani hüquqa malik olmadıqlarından, əzab çəkirdilər. Qafqaz və Mərkəzi Asiya xalqları da rus istismarçılarının təzyiqi altında idilər. Onlar öz övladlarını ədalətsiz müharibə maşınının ağzına atmaq istəmirdilər. Buna görə də bu ölkələrdə, xüsusilə Qafqazda ciddi inqilabı qüvvələr formalaşmışdı.[2]

II Nikolay müvəqqəti də olsa "xalqın istəklərinə cavab verməyə məcbur oldu. O, Duma adlanan parlamentdə bütün Rusiya xalqlarının nümayəndələrinin iştirakını təmin etmək məcburiyyətində qaldı. 1907-ci ildə bütün Qafqazda tanınan "Şərqi rus" qəzetinin təsisçisi Məhəmməd Ağa Şahtaxtinski (1864-1931) İrəvandan II Dumaya deputat seçildi".[3]

---

[1] "İran" qəzeti. Tarix-e ğərn-e bistom dər İran və cəhani, 1376-cı ilin 26-27 bəhmən ayı

[2] Bax: yenə orada

[3] R. Rəisniya. “İran və Osmani dər astane-ye ğərn-e bistom”, səh. 601

## İrəvan 1905-1906-cı illər erməni-müsəlman davasında

Miladi tarixi ilə 1828-ci ildə bağlanmış ədalətsiz Türkmənçay müqaviləsi ilə Qüzey Güneydən ayrı düşdü. Ermənilər rusların himayəsi altında tədricən Qacarlar və Osmanlı dövlətindən köçərək bu regionda, o cümlədən İrəvanda məskunlaşdılar. Onlar XX əsrə qədər az sayla Qafqazın müxtəlif bölgələrində pərakəndə şəkildə yerləşmişdilər. Anahid Ter Minasyanın yazdığına görə, "ermənilər, hətta İrəvan əyalətində də hissediləcək say fərqinə malik deyildilər. Yalnız 1905-ci il inqilabı dövründə onların bu arzu və istəkləri gerçəkləşdi".[1]

“Böyük Ermənistan” dövləti yaratmaq vəzifəsini qarşısına qoyan Daşnaksütyun partiyasının təsisçilərinin ilk məqsədi Şərqi Anadoluda və İrəvan əyalətində ermənilərin say üstünlüyünə nail olmaq idi. Onlar bu ərazilərdə erməni dövlətini ərsəyə gətirmək üçün artıq çox ciddi fəaliyyətə keçmişdilər. Daşnaklar hələ XIX əsrin sonlarından Osmanlı dövlətində bu işi həyata keçirmək üçün çalışırdılar. Lakin o dövrdə bütün qüvvələrini proqramlarının birinci hissəsini, yəni Qafqazda qarma-qarışıqlıq yaratmaq məqsədini reallaşdırmağa sərf etdiklərindən bu işi başa çatdıra bilməmişdilər. Buna görə də onlar fürsət gözləməli olmuşdular. Rus-yapon müharibəsinin başlaması, çar ordusunun bu müharibədə məğlub olması, 1905-ci il inqilabının baş verməsi onlara bu fürsəti verdi. Yuxarıda adını çəkdiyimiz erməni yazıçısının yazdığına görə, "Daşnak partiyası-

[1] Anahid Ter Minasyan. Enqelab-e 1905 dər Qəfqaz. Tərcümə edən: Kavə Bayat, səh. 17

nın 1904-cü ilin fevral-mart aylarında Sofiyada keçirilən III qurultayında qərara alındı ki, partiya Qafqaz ermənilərinin müdafiəsi vəzifəsini öz üzərinə götürsün, bu məqsədlə təbliğat vasitələrindən, silah və gücdən istifadə etsin. Bu qərar gələcək proseslərin dönüş nöqtəsi sayılır".[1]

Rusiyanın Yaponiya tərəfindən məğlub edilməsi beynəlxalq sensasiyaya səbəb olmaqla bərabər, çar dövlətinin əsaslarının möhkəm olmadığını üzə çıxardı və 1905-ci il inqilabı ilə nəticələndi. Həmin dövrdə Batumda İran konsulluğunda katib vəzifəsində çalışmış və bu tarixi hadisələri yaxından müşahidə etmiş Səid Marağai öz xatirələrində yazır: "Mövqelərindən geri çəkilmiş və həmin mövqeləri yaponlara təslim etmiş məğlub qoşun düşdüyü vəziyyətdən və komandirlərdən narazı idi. Bu narazılıqlar ölkə daxilində qarma-qarışıqlıq yaratmışdı. Dövlət əleyhinə olan qüvvələr bu fürsətdən istifadə edərək, öz fəaliyyət və təbliğatlarını genişləndirmiş, dövlət rəhbərliyini bacarıqsızlıqda və qabiliyyətsizlikdə ittiham etməyə başlamışdılar. Əsgərlər silah-sursata və geyimə görə narazı idilər. Çox bahalı hərbi gəmilər əldən verilmişdi. Dövlət işlərinə ictimai nəzarət olmadığından, orduda sui-istifadə halları baş alıb gedirdi. Bütün bu qüsurlar təbliğat vərəqələrində əks olunur, şəhərlərdə yayılırdı. Ölkənin müxtəlif yerlərində qanlı çarpışmalarla nəticələnən nümayişlər baş verirdi. Çox keçmədi ki, narazılıq dalğası bütün ölkəni bürüdü. Partiyalar, siyasi dairələr, dövlət məmurları, fəhlələr öz tələblərində təkid edir, azadlıq istəyirdilər. Lakin dövlət onları eşitmirdi. Çar hökuməti proseslərin qarşısını almaq üçün dəstə başçı-

[1] Anahid Ter Minasyan. Enqelab-e 1905 dər Qəfqaz. Tərcümə edən: Kavə Bayat, səh. 4

larını, əsas şəxsləri, hərəkətverici insanları, barışmaz qüvvələri həbs və sürgün edir, onları aradan götürmək üçün silaha əl atırdı. Sonradan məlum oldu ki, hərəkat liderləri gizli iclas keçirərək ümumi tətil elan etmək, hakimiyyət nümayəndələrinə qarşı terrordan istifadə etmək və dövlət aparatını iflic etmək barədə qərar qəbul ediblər. Moskva şəhərinin komendantı, Bakının valisi, Gəncə Jandarm İdarəsinin rəisi, Batumun üç şəhər rəhbəri iki-üç gün müddətində qətlə yetirildi. Əksər dövlət idarələrində: dəmiryol, poçt, teleqraf və s. məmurlar sabotaja əl atdılar. Zavodlar tətil edir, fəhlələr işə çıxmırdı, qarma-qarışıqlıq və qeyri-stabillik bütün ölkəni bürümüşdü. Hətta çarın öz iqamətgahını tərk edərək ailəsi ilə haradasa sığınacaq tapması barədə şayiələr dolaşırdı...

Batumda və Rusiyanın bir çox digər şəhərlərində son dərəcə təhlükəli vəziyyət yaranmışdı. Bu zaman dövlət rəhbərliyi min bir hiyləyə əl atsa da, xalqın tələblərini qəbul etməkdən başqa çarəsi yox idi. Beləliklə, 1905-ci ilin oktyabr ayında çar xalqa azadlıq veriləcəyi haqda manifest elan etdi. Manifestdə xalqa hər cür azadlıq, o cümlədən azad seçkilər, Duma təşkili və s. vəd edilirdi.

Bu mürəkkəb və gərgin illərdə Qafqaz xalqlarının milli oyanışı Rusiya sarayında ciddi narahatlıq doğurmuşdu. Rusiyanın hakim dairələri bu oyanışın mərkəzi hakimiyyətə qarşı yönələcəyindən qorxaraq milli münaqişələrə əl atdılar. Jan Mari Karzu yazır: "1905-ci ildə Bakıda ermənilərlə azərbaycanlılar arasında qanlı çarpışmalar oldu. Bu çarpışmaların kökünü Rusiya imperiyası üçün təhlükəli ola biləcək milli oyanışda axtarmalıyıq. Rusiyanın hakim dairələri Qafqazın oyanışında güclü millətçilik tendensiyasının

olduğunu iddia edirdilər. Bu tendensiya böyük Rusiya imperiyasının planlarının ziyanına idi. Ona görə də çar hökuməti bu oyanışı hansı vasitə ilə olursa-olsun beşiyində boğmağa çalışırdı. 1894-cü ildə hakimiyyətə yiyələnmiş Rusiyanın sonuncu çarı II Nikolay Romanovlar sülaləsinin ömrünü uzatmaq üçün bütün hiylələrə əl atırdı. Rusiyada yaşayan xalqların arasında qırğın salmaq da bu fəndlərdən biri idi. Çarizmin fikrincə, daxili müharibələrə meydan verməklə, xalqları bir-birinə qarşı qoymaqla öz zəifliyini gizlədə və hakimiyyətdə qala bilər.

Oktyabr inqilabının rəhbəri Lenin doğru olaraq Rusiyanı xalqlar həbsxanası adlandırmışdı. Üzeyir Hacıbəyov da belə bir əqidədə idi: "Rusiya məmləkətində bərabərlikdən əsər-əlamət yoxdur. Hamı bir gözdə görünmür. Birinə ehtiramla yanaşılır, digərinə məhəl qoyulmur. Biri qul olur, digəri saray sahibi. Belə bir şəraitdə biz müsəlmanların vəziyyəti hamınkından dəhşətlidir".

Çar Rusiyasında milli məsələ həlldedilməz bir problemə, xroniki bir xəstəliyə çevrilmişdi. İmperiyanın xalqlara eyni gözlə baxmaması, birinə qayğı ilə yanaşması, digərinə təhqiramiz münasibət bəsləməsi ölkədə hərc-mərcliyə, xaosa gətirb çıxarmışdı. Bununla bərabər, çar hökuməti xalqların mərkəzi hakimiyyət əleyhinə birgə mübarizəsinin qarşısını almaq üçün onları bir-birindən təcrid edir,  açıq və gizli şəkildə bir-birlərinə qarşı qoyur, yalançı təbliğatlarla onlarda bir-biri haqqında səhv təsəvvürlər yaratmağa çalışırdı. Məsələn, onlardan biri tənbəl, digəri xürafatçı, başqa birisi xəsis kimi təqdim edilirdi. Hətta xalqların bir-birini təhqir etməsi üçün onların xəsisliyi, satqınlığı haqqında müxtəlif yalan əhvalatlar düzəldib yayırdı.

Çarizmin bu təfriqəçilik və səhv təsəvvürləri yaymaqda yalnız bir məqsədi var idi - o da özünün qanlı hakimiyyətini əbədiləşdirmək. Belə məşum hadisələrdən biri Arazın o tayında ermənilərlə müsəlmanlar arasındakı dava oldu.

"Molla Həsrəddin" jurnalının birinci sayında bir karikatura çəkilmişdi. Həmin karikaturada bir-birinə düşmən olan müsəlmana və erməniyə silahı bir çar kazakı verir və bunun müqabilində onların hər ikisinin cibini boşaldır.

Bakı şəhər idarələrinin 1905-ci il qətliamının başlaması barədə təhqiqatların və bu münaqişədə rusların oynadığı rola aid (dövlət və ordu idarələrinə aid) sənədlərin üzərindən müəmma pərdəsini götürəndə məlum olur ki, nifaq və xəyanət toxumunu ruslar əkmişlər. Onlar ermənilər və türklər arasında şayiə yayırdılar ki, qarşı tərəf hücum məqsədilə silahlanır və əlavə edirdilər ki, polis heç bir halda intiqam əməliyyatlarına müdaxilə etməyəcək. Xülasə, barışıq və asayişi bərqərar etməli olan polis (bəzən hadisələrə müdaxilə etmədən) bir şəxsin həbsi və ya düşmən tərəflər arasında dava zamanı qəsdən yubanmaqla öz niyyətini həyata keçirirdi.[1]

Qafqazın ayrı-ayrı xalqları arasında təfriqə və düşmənçilik siyasəti yürütmək əvvəldən, bir qədər də dəqiq desək, Qafqazın ruslar tərəfindən işğalınadək davam edirdi. "Mərkəzi Asiyada və Qafqazda dəyişikliklərin mahiyyəti" kitabının müəllifləri bu barədə yazırlar: "Rusların azərilərə qarşı diskriminasiya siyasəti və onların açıq-aşkar erməniləri himayə etmələri

---

[1] Bax: R. Rəisniya. Üzeyir və inqilab, səh. 50

ermənilərlə azərbaycanlılar arasında ictimai və iqtisadi ziddiyyətlərin dərinləşməsinə səbəb oldu.

1872-ci ildə azərbaycanlıların 5 faizi neft çıxarmaq hüququ qazandığı halda, ermənilərin səhmi azərbaycanlılarınkından 10 dəfə çox idi. 167 neft müəssisəsindən cəmi 49 kiçik sex azərilərə məxsus idi. 1900-cü ildən sonra 115 neft müəssisəsindən 49 kiçik sex azərbaycanlıların əlində olduğu halda, erməni ailələri 55 orta və böyük istehsal gücünə malik sexə yiyələnmişdi. 1900-cü ildən sonra Bakı quberniyasındakı 115 sənaye müəssisəsinin 29 faizi ermənilərin, yalnız 18 faizi azərilərin əlində idi. Azərilər rəqabətdən tamamilə kənarda idilər. Baxmayaraq ki, məhsuldar qüvvə baxımından azərilər qat-qat çox idilər. Bakı fəhlələrinin 17,5 faizi erməni, 70 faizi isə azərbaycanlılardan və başqa millətlərin nümayəndələrindən ibarət idi. Erməni əhalisinin 4,83 faizi böyük iş icraçısı və digər vəzifələrdə çalışırdı. Həmin dövrdə ermənilərin 39 faizi şəhərlərdə, 61 faizi isə kəndlərdə yaşayırdı.

Azərbaycanlılarla ermənilər arasında mədəni və dini ixtilaflardan əlavə, konflikt yarada biləcək bir sıra digər səbəblər də var idi. Məsələn, inkişaf etməkdə olan Azərbaycan kapitalizmi erməniləri özü üçün maneə hesab edirdi. Üstəlik, azərbaycanlı fəhlələr də erməni iş icraçılarına qarşı birləşməyə məcbur olmuşdular".[1]

Müştərək məzhəbin, adət-ənənənin, dini etiqadın mühüm amil sayıldığı bu dövrdə ermənilərlə ruslar arasında əlaqələrin sıxlaşması cənub istiqamətində sərhədlərini genişləndirmək arzusunda olan çar Rusiyasının isti sulara çatmaq ehtirasını daha da artırır və bu

---

[1] Mənije Turabzadə və başqaları. Mahiyyət-e təhəvvolat dər Asiya-ye Mərkəzi və Qəfqaz, səh. 69

məqsədi həyata keçirməsinə əlverişli şərait yaradırdı. Bu məqsəd həmin dövrdə erməniləri Rusiyanın təbii müttəfiqinə çevirə bildi. Digər tərəfdən, bu əlverişli siyasi şərait onları ifrat millətçiliyə və bəzən bundan da artığına sövq edirdi...

Bununla yanaşı, Rusiyanın nisbətən yeniləşməsi də Zaqafqaziyanın rusların hakimiyyəti altında bu bölgəsində yaşayan və getdikcə millətçiliyə daha çox meyl edən ermənilərin mənafeyinə uyğun idi. Dövlət və ordu işlərinə qəbulda onlara daha çox üstünlük verilir və rus cəmiyyətinə inteqrasiya olunmalarına şərait yaradılırdı. Bölgənin iqtisadi inkişafı ilə əlaqədar ermənilər ticarətdə, sənayedə, xüsusilə, Bakı neftinin ixracı sahəsində yaxşı mövqe tuta bildilər.

Şəhər mədəniyyəti, peşə növlərinin artması, Qərblə əlaqələrin inkişafı güclü ictimai təbəqələşməyə səbəb oldu və cəmiyyət iki yerə parçalandı. Bu zaman Daşnak partiyasının ifrat millətçilik fəaliyyəti bu təfriqəni daha da gücləndirdi.[1]

Daşnak partiyasının ifrat millətçiliyi onları Rusiya hökuməti ilə də üz-üzə qoydu. Aliyə Orfeinin fikrincə, XIX əsrin son illərində və XX əsrin əvvəllərində inqilabçı ermənilərlə çar hökuməti arasında baş verən siyasi çarpışmalar ermənilərin millətçilik düşüncələrinin güclənməsindən yaranmışdı.[2]

1905-ci il erməni-müsəlman davasını çar Rusiyası özü törətsə də, ancaq daşnakların çılğınlığı və onların “Böyük Ermənistan” yaratmağa tələsməsi sonrakı qanlı

---

[1] Bax: Aliyə Orfei. "Motaleat-e Asiya-ye Mərkəzi və Qəfqaz" jurnalı, 1371-ci il, payız, səh. 153

[2] Bax: yenə orada, səh. 153

və faciəli çarpışmaların meydana gəlməsində ümdə rol oynadı.

Məmməd Səid Ordubadi "Qanlı sənələr" adlı kitabında həmin qırğınların başlaması barədə yazır: "Ermənilər hər fikirdən, hər sözdən müsəlmanlar əleyhinə qiyam fikrinə düşərək müxtəlif hiylələrə əl atırdılar. Onlar hər yerdə müsəlmanları sıxışdırır, acı sözlərlə onları təhqir edir, əlaqələrini kəsir, lazımsız mübahisələr başlayırdılar. Müsəlmanlar da bu işin sonunu böyük bir uzaqgörənliklə duyaraq, özlərini müdafiə etmək üçün hazır olmağa çalışırdılar. Yerli hökumət xırda cinayətləri nəzarət altında saxlasa da, böyük hadisələrin qarşısını almaq fikrində deyildi. Bu hadisələr onu göstərirdi ki, hər iki millət bir-birindən təcrid edilərək qarşıdurmalara sövq edilir. Bu zaman ermənilər müsəlmanlar əleyhinə daha çox məhdudiyyətlər yaratmağa başlamışdılar. Doğrudur, bəzi ermənilər iğtişaş yaratmaqdan boyun qaçırsalar da, nüfuzlu və imkanlı şəxslər davanın tez başlamasını istəyirdilər. Araqarışdıranlar partiya komitələrindən olduqlarından onların sözləri təsirsiz ötüşmürdü və nəticə onların istədikləri kimi oldu.

Fevralın 2-də müsəlmanlar arasında xüsusi nüfuza malik olan  Ağarza adlı şəxs Quba meydanında erməni komitəsinin tapşırığı ilə qətlə yetirildi. Bu faciəvi hadisəni müsəlmanlar öz milli heysiyyatlarının təhqir olunması kimi qəbul etdilər. Bundan sonra onların hisslərini cilovlamaq mümkün olardımı? Bu hadisə müsəlmanları nəhayətsiz dərəcədə həyacanlandırdığı halda, onlara yuxarıdan intiqam almamaq barədə göstəriş gəldi. Lakin bir azərbaycanlı məhbusun istintaq araşdırması üçün aparılarkən yolda erməni əsgəri tərəfindən günahsız yerə güllələnməsi müsəlmanları daha çox qəzəbləndirdi.

Həmin gün fevralın altısı idi. Hadisələrin gedişi bizi qan dəryasına doğru aparırdı. Həmin gün ermənilər həqiqətən qırğın törətmək istəyirdilər, azərbaycanlılar isə heyrət və təəccüb içində donub qalmışdılar. Əvvəllər bir-biri ilə mehriban olan qonşular indi əlaqələrini kəsmiş, bir-birlərini qətlə yetirməyə hazır idilər. Nəhayət, xeyli öncə hər iki millətin vücudunda yerləşdirilmiş bomba partladı və bütün Qafqaz həmin partlayışdan od tutdu. Görək, bu partlayıcı maddə həqiqətən bomba idimi? Bəli, bu bomba ayın altısında partlamaqla Bakının faciəsinə çevrildi və onun atəşi buradan başlayaraq bütün Qafqazı bürüdü...".

Polis qüvvələri qarşıdurmalara müdaxilə etmirdilər. Bu qeyri-sabitlik İrəvana, Naxçıvana, Şuşaya doğru uzanmaqda idi. Nəhayət, Gəncə və Tiflisə də sirayət etdi. Bu qarşıdurmalarda 128 erməni, 158 azərbaycanlı kəndi qarət və talanlara məruz qaldı. Qətlə yetirilən azərbaycanlıların sayı ermənilərinkindən çox idi. Bakıda, Naxçıvanda azərbaycanlılar qalib gəlmişdilər, İrəvanda, Üçkilsədə isə ermənilər qələbə qazandılar.

Rusların bitərəfliliyi bir o qədər də uzun çəkmədi. Vorontsov Daşkov vali vəzifəsinə gələn kimi azərilərin əleyhinə hücum fərmanı verildi və erməni-müsəlman davasının birinci mərhələsi bir-iki ildən sonra başa çatdı.[1]

Arazın o biri sahilindəki əksər şəhərlərdə çoxsaylı insan itkilərinə səbəb olmuş erməni-müsəlman davalarında İrəvan şəhəri də qana bələndi. Görkəmli yazıçı Məmməd Səid Ordubadi "Qanlı sənələr" kitabında həmin faciələri belə təsvir edir: "1905-ci ildə gözlənilmədən Bakıda baş verən qırğınlar birdən-birə sakitləş-

---

[1] Bax: Mənije Turabzadə və başqaları. Mahiyyət-e təhəvvolat dər Asiya-ye Mərkəzi və Qəfqaz , səh. 70

mədi. May ayının əvvəllərində bu hadisələr Naxçıvan və İrəvan şəhərlərinə sirayət etdi. Bu dövrdə Naxçıvanda müsəlmanlar say baxımından ermənilərdən çox idilər. Əvvəldən dava arzulayan ermənilər Naxçıvan qarşıdurmalarında ağır məğlubiyyətə düçar oldular. Onların bu uğursuzluğu İrəvan ermənilərinin bərk qəzəblənməsinə səbəb oldu.

Onlar bu hadisədən sonra azərbaycanlılar əleyhinə daha çox ləyaqətsiz hərəkətlər etməyə başladılar: qonşuluq əlaqələrini kəsir, müsəlmanlara nifrət və qəzəblərini açıq-aydın büruzə verirdilər. Hadisələrin gedişi tezliklə İrəvanda da iğtişaşların baş verəcəyini güman etməyə şərait yaradırdı. Ayrı-ayrı yerlərdən gələn qorxunc xəbərlər şəhər sakinlərini məyus edir, tacirlərin əlini işdən soyudur, ticarəti böhrana sürükləyirdi. Müsəlmanlar qayğı və narahatçılıq içində idi. Xüsusilə də, düşmənin güclü olması, azərbaycanlıların isə davaya hazır olmaması ziyalı və gözüaçıq azərbaycanlıları həyəcanlandırırdı. Məzlumlar pəjmürdə və iztirablı görünürdülər. Hamının üzündə əzab və iztirab var idi. Bir sözlə, müsəlmanlar özlərini son dərəcə itirmişdilər.

Ermənilər Naxçıvandakı məğlubiyyətin intiqamını almaq üçün tələsirdilər. Onlar qisas hissi ilə yanıb-qovrulur, müsəlmanlara zərbə vurmaq, onları pərişan etmək üçün hər cür hiyləyə əl atırdılar. Buna görə Naxçıvana gedən yolları nəzarətə götürmüş, şəhərə gedib-gələnləri pusur, müxtəlif vasitələrlə onlara mane olmağa çalışırdılar. Özləri isə gizlincə Naxçıvan ermənilərinə silah-sursat yardımı edirdilər. İrəvan müsəlmanları isə bu mürəkkəb və ziddiyyətli dövrdə nəinki qırğına hazırlaşmır, üstəlik qonşuluq haqqı kimi xam xəyallara qapılmışdılar. Şəhərin sakinlərindən hər biri yalnız özünü müdafiə etmək haqqında düşünür, vəziyyətdən

çıxmaq üçün davadankənar yollar gəzirdi. Nəhayət, Naxçıvan odunu söndürmək üçün general Əlixanov-Avarski Tiflisdən Naxçıvana ezam oldu. Digər tərəfdən də, Voronsov Daşkovun göstərişi ilə şeyxülislam Uluxanlı İrəvan qazisi ilə birgə Naxçıvana yola düşdü.

İrəvan ermənilәri barışıq xəbərini eşidən kimi öz "ziyalı"larını Naxçıvana göndərib oradakı erməni camaatının vəziyyətindən xəbər tutmağa tələsdi. Onlar buradakı məğlubiyyəti pərdələmək, ermənilərin bacarıqsızlıqlarını gizləmək üçün müsəlmanlar haqqında ləyaqətsiz şayiələr yaymağa başladılar. Buna baxmayaraq, İrəvan və onun ətraflarında yaşayan müsəlmanlar Naxçıvanda ermənilərin məğlub olmasına sevinir, bu qələbəni öz qələbələri hesab edərək, qürurla gəzib-dolanırdılar. Onlar bu zaman ermənilərin bütün qüvvələrini səfərbərliyə alıb, azərbaycanlıları soyqırıma məruz qoymaq üçün yeni planlar hazırlamaqda olduqlarını başa düşmürdülər. Nəhayət, mayın 23-də baş verən hadisə ermənilərə bu planı gerçəkləşdirməyə şərait yaratdı.

1905-ci il mayın 23-də "Qarsaçay" erməni çay bağçasına gedən üç nəfər müsəlman sərxoş vəziyyətdə polis idarəsinin qarşısına gəlir. Onlar burada məsuliyyətsiz hərəkətlər etməyə başlayırlar. Ermənilər fürsətdən istifadə edib, onları möhkəmcə döyür. Sonda həmin üç nəfər xəncərini çıxarıb, özlərini müdafiə edə-edə və qışqıra-qışqıra bazar meydanına tərəf qaçırlar. İçkili müsəlmanların səsi hər tərəfə yayılır.

Bu qışqırıqları eşidən erməni və müsəlmanlar üz-üzə gəlir və onların arasında şiddətli dava başlayır. Ermənilərin hiylə və fırıldağından xəbərsiz olan bəzi müsəlmanlar humanistlik nümayiş etdirir, öz dükanlarını buraxıb, onların yiyəsiz qalmış mağazalarına

güdükçü olurlar. Bəziləri isə erməniləri qorumaq üçün onları öz dükanlarında gizlədirlər. Lakin ermənilərin hiddət və qəzəbini görən bəzi müsəlmanlar, nəhayət vəziyyəti başa düşüb müqavimət göstərməyə başlayırlar. Bir-birinin ardınca cinayətlər baş verir. Əgər həmin gün müsəlmanlar "hümanizm bəlasından" xilas olub, ermənilərlə həqiqi döyüşə girsəydilər, bu təcavüzkarların aqibətinin necə olacağını indi də təsəvvür etmək mümkün deyil. Fəqət müsəlmanların ermənilərin məkrli niyyətindən xəbərləri yox idi. Onlar zaman-zaman qoruyub saxladıqları qonşuluq haqqını qabardaraq əhalini birtəhər sakitləşdirdilər. Gecə sakit və aram keçdi.

24 may 1905-ci il səhər saat 9-a yaxın ermənilər öz mağazalarını açmaq üçün bazara gedən müsəlmanlara atəş açdılar. Lakin müsəlmanlardan xəsarət alan olmadı, bir neçə erməni isə yaralandı. Elə bu zaman gəlib çıxan əsgərlər bir neçə dəfə havaya atəş açaraq, erməniləri sakitləşdirdilər. Bir neçə dəqiqədən sonra şəhərdə gediş-gəliş tamamilə kəsildi və hər kəs öz yerində donub qaldı. İrəvanı dəhşətli bir sükut bürüdü.

Lakin saat iki radələrində ermənilər yenidən müsəlmanları şiddətli gülləbarana tutdular. Erməni məhəllələrindən açılan atəşlər ara vermədən davam edirdi. Onlar binaların, hasarların üstündən, pəncərələrdən müsəlmanları hədəfə götürürdülər. Asimandan güllə dolu kimi yağırdı. Müsəlmanlar isə bu atəşlərə cavab vermir, öz təmkinlərini qoruyub saxlamağa çalışırdılar. Əslində bu, təmkin də deyildi, sadəcə olaraq hazırlıqsız və müharibə görməyən, ermənilərin məkrli planından xəbərsiz olan müsəlmanlar özlərini itirmişdilər. Belə bir vaxtda İrəvan şəhərində cəmi iyirmi tüfəng, təxminən bir qədər də fişəng var idi. Tüfənglərin

əksəriyyəti köhnə və paslanmış ov tüfəngləri idi. Tarixçilərdən biri haqlı olaraq, həmin silahları Nuhdan qalmış əşya adlandırmışdı.

Belə bir şəraitdə hökumət də ermənilərin silahlamasının qarşısını almır, iğtişaşlara qarşı heç bir tədbir görmürdü. Buna görə də ermənilər istədiklərini edir, atəş açır, müsəlman məhəllələrinə hücum edirdilər. Bir sözlə, müharibə mələyi şəhərin başı üstündə idi. Günün ikinci yarısında atəş yenidən şiddətləndi. Qadınların, azyaşlı uşaqların fəryadı şəhəri başına götürdü. Ora-bura vurnuxan müsəlman kişiləri nə edəcəklərini bilmir, qadınların, qocaların, uşaqların nalələri onları əsəbləşdirirdi. Əslində, hamı - qadın, uşaq, qoca, cavan, əyan, xan, rəiyyət öz canının hayındaydı. Belə bir vəziyyətdə millət, xalq, mədəniyyət, var-dövlət hamının yadından çıxmışdı. Müsəlmanların ermənilərə cavab vermək imkanı yox idi. Erməni məhəlləsində yaşayan müsəlmanların imdad səsi hər an asimana yüksəlirdi. Lakin onlara imdad edə, fəlakətdən qurtara biləsi qüvvə yox idi. Xülasə, güllələrin ildırım çaxmasına bənzəyən işığı, bombaların qaldırdığı toz-duman şəhəri cəhənnəmə döndərdi. Nəhayət, müsəlmanların fəryadına dözməyən bir zabit əsgərləri ilə birgə hadisələrə müdaxilə etdi. O, erməni məhəllələrində yaşayan və güllələrə tuş gəlmiş qadınları, uşaqları oradan çıxarıb, müsəlman məhəllələrinə gətirməyə başladı. Bu döyüşdə erməni məhəlləsində yaşayan 11 nəfər qətlə yetirildi: Onların dördü qadın, ikisi uşaq və beşi kişi idi. Öz evlərinin içində cəhənnəm əzabı yaşamış və yuxarıda qeyd etdiyimiz zabitin köməyi ilə xilas olmuş müsəlmanların göz yaşları yağış kimi axır, hıçqırıqdan bir kəlmə söz belə deyə bilmirdilər. Bu vəziyyəti görən müsəlmanların qeyrət və qürur hissi

oyanmağa başladı. Onlar artıq bu şəkildə yaşamağın mənasız olduğunu düşünməyə, çarə axtarmaq barədə fikirləşməyə başlamışdılar. Necə deyərlər, müvəqqəti də olsa milli şüurları oyanmışdı.

İrəvan müsəlmanları özlərində güc taparaq bir yerə toplaşdılar. Şəhərdə könüllülər dəstəsi yarandı. İslamiyyət adı ilə bir yerə yığışan müxtəlif millətlərin nümayəndələri silaha sarıldılar. Onlar gecə ikən ermənilərə qarşı yürüşə çıxmaq qərarına gəldilər. Ancaq müsəlman ağsaqqalları bu məsələdən xəbər tutan kimi onları nəsihət və məsləhət yolu ilə hücumdan çəkindirməyə çalışdılar. Bu zaman hələ də erməni məhəlləsində 30-40 müsəlman ailəsi qalmışdı. Döyüşlərin beşinci günü onlar hökumətin və məmurların mühafizəsi altında şəhərin müsəlman hissəsinə köçürüldülər. Ancaq yenə də tərəflər arabir bir-birlərinə atəş açırdılar.

Bəzi yerlərdə ermənilər səngərlərdə gizlənib müsəlmanları güdür, müsəlmanlar da erməniləri izləyərək hədəfə alırdılar. Səngər döyüşlərində ermənilər daha öndə idilər. Çünki onların əksəriyyəti hərbi xidmət keçmiş, silahla düzgün rəftar etməyi öyrənmişdilər. Daşnak döyüşçüləri ən müasir silahlara malik idilər. Müsəlman könüllülərinin bəzilərinin, ümumiyyətlə, silahı yox idi. Silahların isə əksəriyyəti işləmirdi... Ancaq onların arasında ətraf kəndlərdən gəlmiş bir neçə mahir atıcı da var idi. Bu döyüşlərdə ermənilər daha çox itki verdi. Onlar mumdan düzəldilmiş oyuncaq kimi bir zərbə ilə yerə sərilirdilər. Döyüşün gedişində məlum oldu ki, ermənilər qorxaq və cəsarətsizdirlər. Belə ki, onların əksəriyyəti Bakıdakı, Naxçıvandakı hadisələr zamanı canlarını götürüb İrəvana gəlmiş və döyüşlərə təsadüfən düşmüşdülər. Ruhən sındırılmış

bu insanlar  qorxa-qorxa döyüşə girir və məhv olurdular.

Ermənilərin itkilərinin çox olmasının başqa bir səbəbi isə onların sərxoşluq etmələri ilə bağlı idi. Belə ki, erməni əsgərlərinə əvvəlcədən istənilən qədər  araq, çaxır və s. alkoqollu içkilər verilmişdi. Hər öldürülən müsəlmana görə erməni əsgəri alkoqollu içki ilə "mükafatlandırılırdı". Buna görə də onlar hərdənbir bayıra çıxaraq havaya bir atəş açır və yalandan "bir müsəlman vurdum" deyib, içki tələb edirdilər. Beləliklə, onların bütün gülləələri havayı gedir, məzhəkə qəhrəmanına çevrilirdilər.  Bu gün də ermənilərin İrəvan davasındakı “qəhrəmanlığı”  xalq lətifəsi kimi səslənir.

Xülasə, səngər davaları başa çatdı. Naxçıvanda sülh və barışıq  elan olunması xəbəri İrəvan ermənilərinə və müsəlmanlara çatdı. Hökumət də yuxudan oyandı, tərəflərin yorulduğunu və onların ovqatını görüb, İrəvan şeyxülislamına və yepiskopa teleqraf göndərərək hər ikisini eyni vaxtda şəhərə dəvət etdi. May ayının 31-də onlar şəhərə gəldilər.

1905-ci il 31 may tarixində çap olunan bir qəzetdə deyilir: "May ayının 31-də erməni və müsəlmanların ali qonaqlarından ibarət barışıq heyətinin gəlişi münasibətilə şəhər bəzədildi. Yüksək rütbəli şəxslər və yerli böyüklər tərəfindən qarşılanan qonaqlar Abbasqulu ağa İrəvanskinin evinə yollandılar. Bu məhəllədə müsəlmanlar az idi, onların əksəriyyəti şəhərin digər hissələrinə köçmüşdü. Bazarın böyük hissəsi erməni məhəlləsində yerləşdiyindən, burada alış-veriş dayanmış və müsəlmanlar  bir nəfər kimi həmin bazardan üz döndərmişdilər.

1905-ci ilin iyun ayının əvvəllində şeyxülislam və yepiskop bulvara çıxaraq camaatın qarşısında moizə

oxuyub nəsihət verməyə başladı. Yalnız bundan sonra, daha doğrusu, müvəqqəti sülh bağlanandan sonra əhali bazara çıxıb alış-veriş etməyə başladı. Bağda qalan bir neçə bağban da şəhərə qayıtdı.

Amma bu barışıq uzun çəkmədi. Bir neçə gündən sonra yenidən bazar və dükanlar bağlandı, gediş-gəliş kəsildi. Sanki bütün şəhər donmuşdu. Hamı qorxu və həyəcan içində idi. Müsəlmanların məhəlləsində ermənilərin bir neçə anbarı çapılmış, erməni məhəlləsində isə müsəlmanların evləri yağmalanmışdı. Üstəlik, erməni komitəsi tərəfindən azərbaycanlıların yaşadıqları kəndlərə hücum etmək əmri verilmişdi.

Son xəbərlər - İrəvan ətrafında iğtişaş yaratmaq üçün ermənilər Baş Qərargah yaratdı. İğtişaş planı hazırlandı. Bölük komandirləri təyin olundu və hansı dəstənin hansı məntəqəyə hücum edəcəyi müəyyənləşdi. İrəvan müsəlmanları yenə qorxu və vahimə içindəydi. Qırğının baş verəcəyi anı gözləyirdilər. Arabir şəhərin ayrı-ayrı nöqtələrindən güllə səsi eşidilirdi *(İrəvandan gələn xəbərlərdən və İrəvan əyanlarının hərbi bilgilərindən məlum olur ki, ermənilər müsəlmanları aldadıblar. Onlar müsəlmanların başını qatıb, nəzərdə tutulmuş hücuma keçmək üçün müxtəlif nöqtələrdən tüfənglərlə atəş açıblar ki, müsəlmanlar çaşbaş düşsünlər. Bu, müharibələrdə sınaqdan keçmiş üsuldur; əgər komandir düşmənin bir cinahından hücuma keçmək istəyirsə, düşmənin digər cinahından seyrək atəşlərə başlayır ki, onu başqa tədbirlərə əl atmaqdan çəkindirsin).*

Buna görə də müsəlmanlar həmin atəşlərə fikir vermədən öz işləri ilə məşğul idilər. Digər tərəfdən, müsəlmanlar bir-biri ilə dil tapa bilmir və onların arasında ciddi ixtilaflar hökm sürürdü. Bu zaman

İrəvan əyan-əşrəfi də xalqı firqələrə parçalayır, hər kəs özü başçı olmaq istəyirdi. Onların arasında gedən şiddətli mübarizə hadisələri proqnozlaşdırmaq imkanı vermir, camaatı işindən-gücündən ayırırdı. Buna görə də şeyxülislam xanlara və əyanlara xitabla oxuduğu moizəsini lənətlə tamamlamalı olmuşdu: "Cəmaat, biz bu şəhərə gəldik ki, bir-birinə kin bəsləyən iki milləti barışdıraq, lakin əyanlar rəhbərlik və firqəbazlıq xatirinə münaqişənin qarşısını almağa imkan vermirlər. Lənət olsun İrəvan əyanlarına! Lənət!" *(Tarixi məlumatlardan aydın olur ki, öz ata-babalarından təkəbbür xəstəliyini miras almış İrəvan əyanları indi də o cürdürlər. Ermənilər onları aradan götürmək fikrində idilər, onlar isə bəylik, xanlıq iddiası ilə baş qatırdılar. Ar olsun, o şəxslərə ki, atalarının səhvlərini təkrarlayır və qurumuş ağacları göyərtmək istəyirlər).*

Həmin günlərdə milli məsələləri həll etmək məqsədi ilə fərmandarın yanına getmək üçün rəhbər seçilirdi... Məclisdə iştirak edənlərin hər biri öz namizədliyini irəli sürür və xalqın rəhbəri olmağa çalışırdı. Layiqli bir iş görməyənlər dəridən-qabıqdan çıxır, ağzı köpüklənə-köpüklənə millətdən, xalqdan danışırdı. Xalqa ağalıq etmək kimi xam xəyala düşən bu insanlar əməl paltarı geyinmək istəyirdilər. Onların hər biri özünü tayfasının böyüyü kimi tanıdaraq, layiq olmadığı surətdə, xalqın da böyüyü olmaq fikrindəydi *(Əziz müxbirim! İrəvanda hər kəsin özünü rəhbər gördüyü üçün xalqa rəhbər olmaq fikrinə düşməsindən darılma. Çünki islam dünyasının harasına baxsan, bu cür insanları görəcəksən. Bu da bəzi müsəlmanlarda hümmət, insanpərvərlik olmamasından irəli gəlir. Bizim bu xüsusiyyətlərimiz XI əsrdə baş verən*

*pisliklərin oxşarıdır. Bunlardan darılma. Bizim kiçik şəhərimiz Ordubad da bu dərdə mübtəladır).*

Bir tərəfdən, vətən və millətin mühafizəsi fikri, digər tərəfdən xalqın əyanların ətəyindən yapışması və onların oyunbazlığı, mənasız işlərə görə ədavət toxumu səpmələri ziyalıları çox ciddi şəkildə narahat edirdi. Həmin günlərdə İrəvana xəbər çatdı ki, ermənilər müsəlmanları mühasirəyə alıb və onları qırırlar. Müsəlmanlar bu xəbəri eşidən kimi bərk həyəcana düşüb, məyusluq və ümidsizliyə qapıldılar. Onlar özlərini düşmən mühasirəsində hiss edirdilər. Ətraf erməni kəndləri ilə əhatə olunduğundan təklənmək qorxusu var idi.

Bu zaman İrəvana təkcə cənub yolu ilə gediş-gəliş davam edirdi. Ancaq qırğın başlayan kimi o da kəsildi. Müsəlman kəndlilərinin vəziyyəti son dərəcə ağırlaşdı. Kəndlər təkcə İrəvandan deyil, həm də bir-birlərindən təcrid olundular. Müharibə görmüş və savadlı on minlərlə erməninin müqabilində, müharibə görməmiş və savadsız müsəlman kəndlisinin bircə yumruğu var idi (Ermənilər şəhərdə hər gün kiçik çaplı tüfənglərlə müsəlmanların evlərini dağıdırdılar. Silahsız-sursatsız müsəlmanlar isə öz ölüm saatlarını gözləyirdilər. Buna görə də hamının sifətində əcəl kölgəsi vardı. Onlar bunu Allahdan gəlmiş bəla hesab edir və əksər halda nəzir-niyaz verməklə canlarını xilas edəcəklərinə ümid edirdilər *(Doğrudur, nəzir-niyaz bəlanı dəf edir, ancaq bu məsələdə onun bir faydası ola bilməzdi. Fikrimcə, yersiz təvəkkül və vaxtsız ümid axmaqlıqdır).* İmkanı olan şəxslər istəyirdilər ki, bacardıqca tez başqa bir yerə köçsünlər. Onlar canlarını və mallarını vətənlərindən çox istəyirdilər. Bu şəxslər təkcə öz arvad, uşaqlarını təhlükədən xilas etmək barədə düşünürdülər. İmkanı olmayanların düşmən əlində əsir

qalıb-qalmaması onları maraqlandırmırdı. Üstəlik, bu biqeyrətlər özlərinə insan və müsəlman deməkdən çəkinmirdilər. Bəli! İrəvanda rəhbərlər arasında bu intriqalar gedəndə bölgədə qan su yerinə axır, günahsız başlar kəsilir, müsəlmanlar qan gölündə üzürdülər.

İrəvanda müqəddəs kitablar yandırılanda özünü Quran əhli kimi təqdim edənlər təfriqəçiliklə məşğul idilər. İslam arxivlərinə od vurulanda onlar rəhbərlik davası döyürdülər. Köməksiz, kimsəsiz insanların fəryadı şəhəri bürüyəndə İrəvanın əyan-əşrəfi iclas keçirib, tayfabazlıq edirdilər. Xülasə, İrəvan şəhəri bir atəş ocağına çevrilmiş, nəcib müsəlman milləti od və tüstü içində yanıb külə dönürdü. İrəvanın şərq tərəfindəki Qırxbulaq adlanan yerdə yaşayan əhalinin dörddə üçünü ermənilər, dörddə birini isə yazıq və məzlum müsəlmanlar təşkil edirdilər.

İyun ayının ilk günündə 20 evdən ibatət olan Kuzəcik kəndində baş verən faciə ilə yeni fırtına və qırğınlar başladı. Tirjabat adlı qonşu erməni kəndində hazırlanan və həyata keçirilən həmin hücumu ardıcıllıqla sizə təqdim edirik:

Məşum Güzəcik faciəsi - 1905-ci il iyunun 1-də günortadan sonra ermənilər Güzəcik kəndini mühasirəyə alaraq onu şiddətli atəşə tutdular. Kənd əhli silahsız olduğundan, hər kəs öz əhli-əyalını götürüb yarım verstlikdə yerləşən Mənkus müsəlman kəndinə doğru qaçmağa başladı. Onları təqib edən ermənilərin Mənkus kəndinə də hücum etmək planı var idi. Kəndin ağsaqqalı Hümmət bəy Hüseynzadə şəhərə köçdüyündən, əlli yaşlı bir kişi ağsaqqallıq vəzifəsini öz üzərinə götürdü. Onun adı Novruz idi. Mənbələr onu Novruz Kazım oğlu kimi təqdim edir. Novruz KİŞİ azərbaycanlıların ermənilərin qabağında qaçdığını görüb, hün-

dür bir yerə çıxaraq qışqıra-qışqıra onlara müraciə edir: "Ey oğullar, hara qaçırsınız? Siz öz fərariliyinizlə biz Qafqaz müsəlmanlarını başqa millətlərin yanında başıaşağı eləmək istəyirsiniz? Məgər qaçmaqla ermənilərin əlindən qurtara biləcəksiniz? Onlar sizdən əl çəkəcək? Yox! Yox! Əgər ermənilərin qabağından qaçsanız, onlar daha da cəsarətlənəcək, bizi və ailəmizi görünməmiş təhqirlərə məruz qoyacaqlar.

Məgər onlar həmin ermənilər deyillərmi ki, bir il əvvəl mən bir barmağımı tərpədən kimi az qalırdılar Qırxbulağ mahalından baş götürüb qaçsınlar. Bəs indi sizə nə olub? Niyə qadınlara qoşulub onların qarşısından qoyun sürüsü kimi qaçırsınız? Qaçırsınızsa, qaçın, amma mən tək-tənha qalsam da, onların qarşısında təslim olmayacağam, ölənəcən öz kəndimi, elimi, evimi qoruyacağam.

Ey müsəlmanlar! Hər bir millət gərək öz şəxsiyyətinə və heysiyyətinə hörmət etsin. İslam şəriətinə, peyğəmbəri əkrəm həzrəti Məhəmmədin (s) buyruğuna və Allah təalanın hökmünə görə, düşmən qarşısında fərarilik edərək ölmək pis əməl və günah işdir. Bilirsinizmi, bu qəbiristanda yatan əcdadlarımızın sümükləri qəbirlərdən çıxarılandan və qonşu kəndə od vurulandan sonra bu məzarların yerində Ermənistan yaradılacaq. Mən axirət məsuliyyətini gözümün önünə alaraq son nəfəsədək cihad edəcəyəm. Sizi də cihada çağırıram".

O, nitqini başa çatdırır, əhali bu qeyrətli və vətənpərvər insanın – Novruz Kişinin dediklərinə əhəmiyyət vermədən qaçmağına davam edir *(Müəllifin qeydi: Bağışla məni, ey ustad! Sənin sözlərinin qarşısında özümü saxlaya bilmirəm. Əgər o günlərdə ağalarımız ağa, bəylərimiz bəy olsaydılar, özlərini satmasaydılar, xalqı başçısız qoymasaydılar, bir çox məsələlər elə o*

*zaman həll olunar və bu günə qalmazdı. Xalq yaxşı deyib: "Mərd, namuslu ağanın həyatinə daş atmazlar, bağ-bostanına inək və qoyun buraxmazlar". Buna görə mən bilə-bilə Kazımı Novruz ağa əvəzinə Novruz kişi yazıram. Həm də "KİŞİ" kəlməsini böyük hərflərlə yazıram.*

*Ey xalqımızın comərd oğlu, sən torpağının və vətəninin yolunda şəhidlik camını başına çəkdin. Allah sənə qəni-qəni rəhmət etsin! Qoy sənin itkin düşən məzarın nurla dolsun! Amin!).*

Novruz Kişi sonadək kəndi tərk etmir və sonra ermənilərin mühasirəsinə düşür. Qohumları onu azad etmək üçün səy göstərsələr də, düşmən sayca qat-qat çox olduğundan, bu, mümkün olmur. Novruz Kişi öz qoşalülə tüfəngi ilə evinə yaxınlaşan ermənilərdən birini vurur, digərləri qorxub geri çəkilirlər...

Bütün bu rəvayətləri bir erməni danışıb. Bir az keçəndən sonra ermənilər yenidən evin üzərinə hücuma keçiblər. Novruz Kişi yenə də onlardan birini öldürüb, digərləri qaçmağa məcbur olub. Həyəcanlı Novruz Kişinin gülləsi qurtarandan sonra o, tüfəngini seçmə ilə dolduraraq düşmən tərəfə yüyürüb. Düşmənlər çətinliklə də olsa onu əsir götürə biliblər. Onlar kəndin bütün evlərinə, o cümlədən məscidə, minbərə, müqəddəs kitablara od vuraraq, Novruz Kişini qolubağlı Tirjabat kəndinə gətiriblər. Burada ona uzun müddət işgəncələr verdikdən sonra başını kəsiblər. Həmin erməninin dediyinə görə, Novruz Kişinin başını Ayrapet adlı kənd keşişi kəsib. Çünki Kuzəcikdə Novruz Kişinin evinə hücum edənlərdən biri həmin keşişin oğlu olub. Novruz Kişi bir güllə ilə onu qanına qəltan eləmişdi. Beləliklə, Novruz Kişinin başı "1500 müsəl-

manın sərkədəsi" adı ilə əvvəlcə Aleksandropola, sonra isə Bakıya göndərilib.

İyunun 2-nə aid məlumatlar - İyunun ikisində ermənilər həmin günə qədər müsəlmanların pənahgahı olan Məkus kəndinə hücum edirlər. Bu dəfə erməni dəstələrindəki silahlıların sayı 10 min nəfərə qədər olub. Hər dəfə də kəndin üzərinə beş min tüfəngdən atəş açılırdı. Kəndin müsəlmanlarının çoxunun silahı olmadığından, onlar fürsət tapan kimi arvad-uşağını götürüb aradan çıxırdılar. Bütün kənd boşalandan sonra hərəkət etməyə taqəti olmayan səksən yaşlı şikəst bir qoca ermənilərin əlinə keçir. Deyilənə görə, ermənilər onun gözlərinə, qarnına təndir şişi soxmaqla qətlə yetiriblər.

Kuzəcik qırğını zamanı müsəlmanlar ətrafdan kömək diləyəndə, həmin kəndin 15 fərsəngində yerləşən Qaladibi kəndinin ağsaqqalı Cahanbaxş bəy iki atlı ilə birgə Xunqus kəndində idi. Onlar bu fəryadı eşidən kimi, tüfənglərini götürüb, kəndin şimali-şərqində yerləşən dağın zirvəsinə qalxaraq qadınları təqib edən erməniləri atəşə tutublar. Nəticədə iki ermənini məhv ediblər. Beləliklə də qadınlar və uşaqlar qaçaraq 15 fərsəngdə yerləşən Təzəkənd kəndinə gəlib çıxa biliblər. Həmin vaxt yaxınlıqdakı 12 kəndin didərgin düşmüş müsəlman əhalisi bu kəndə yığışmışdı.

1905-ci ilin 3 iyunu - İyunun üçündə ermənilər mərkəzdə yerləşən və 150 evi olan Güllücə kəndinə hücuma başlayırlar...

Qırğının başlanması - İyunun 3-də sübh vaxtı Güllücə kəndinin şimalında yerləşən və hər birində dörd yüz ailə olan 12 kəndə 10 min erməni könüllüsü toplaşır. Onlar cənub tərəfdə – dağın arxasında yerləşən və beş yüz ailəsi olan Başkən erməni kəndindən

Güllücəni atəşə tuturlar. Ermənilərin məqsədi müsəlmanları ya öz hakimiyyətləri altına almaq, ya da onları məhv etmək idi. İstəyirdilər ki, bu yolla uzun müddətdən bəri beyinlərində dolaşdırdıqları ideyanı gerçəkləşdirsinlər. Buna görə də bütün ermənilər silahlanıb, müsəlmanlar əleyhinə müharibəyə başlamışdılar.

Beləliklə, camaat qaçandan sonra 15 nəfər nüfuzlu şəxs, o cümlədən Məşədi Qəmbər, Mahmud, Hacı Hüseyn və başqaları öz var-dövlətlərini qorumaq üçün kənddə qaldılar. Onlar silaha sarılaraq ermənilərə müqavimət göstərməyə başladılar. İlk qarşılaşmadaca 8 ermənini məhv etdilər. Ancaq ardı-arası kəsilməyən erməni hücumları nəticəsində Mahmud öldürüldü. Onun kənddə sahibsiz qalmış arvadını bir erməni əsgəri 8 güllə ilə qətlə yetirdi. Qalan müsəlman silahlıları birtəhər aradan çıxıb, 1,5 fərsəngdə yerləşən Tutiya, Damagirməz və Kamal kəndlərinə sığındılar. Bu qırğında hamıdan sonra kəndi tərk edən Seyid Mustafanın oğlu Mirsüleymanın atını ermənilər güllə ilə vurub öldürdülər. Ancaq o, bir ermənini öldürərək canını qurtara bildi.

1905-ci il 4 iyun - Düz ortada yerləşən 150 evlik Kamal kəndinin sakinləri yaşadıqları yerin təhlükəli olduğunu görüb, arvad-uşaqlarını götürərək, hücumdan qabaq cənub səmtdə yerləşən Damagirməz kəndinə qaçdılar. Sonra bu kəndin də adamları onlara qoşulub, yuxarıda adı çəkilən iyirmi verstlikdə yerləşən Təzəkənd kəndinə üz tutdular.

Bu hadisələrdən 18 gün sonra İrəvanda sülh bağlandı. Hökumət ətraf kəndlərə qoşun göndərdi. Bir qrup əsgər də Güllücədə yerləşdirildi. Bundan sonra müsəlmanlar öz yerlərinə qayıtdılar.

## İrəvan müsəlmanlarının soyqırımı

"Böyük Ermənistan" röyası ilə yaşayan ermənilər 1918-ci ilə qədər Qafqazın heç bir bölgəsində əksəriyyət təşkil etmirdilər. Ter Minasyan yazır: "Tiflis konfransının əsas nigarançılıqlarından biri Qafqazda erməni əhalisinin sayca az olması idi. Onlar muxtariyyət əldə etmək istəyir və belə bir xahişlə konfransa müraciət etmişdilər. Pərakəndə erməni cəmiyyətlərini əhatə etmək üçün əyalət vahidlərindən məhdud bir miqyasda zemstvolar təsis etmək planı ətrafında fikirlər səsləndi".[1]

Daşnak partiyası milli tərkib problemini istismarçı dövlətlərin, əsasən də ingilis müstəmləkəçilərinin köməyi ilə cinayətkarcasına həll etdi. Yeri gəlmişkən, sözü "Mərkəzi Asiyada və Qafqazda dəyişikliklərin mahiyyəti" kitabının müəlliflərinə verək və görək onlar bu barədə nə deyirlər: "Müttəfiqlərin strateji məqsədlərindən biri böyük Osmanlı dövlətini parçalamaq idi. Bu məqsədlə onlar Osmanlı ərazisi daxilində yaşayan millətləri və islam əleyhinə qüvvələri qızışdırmağa çalışırdılar. Bu zaman qərb ölkələrinin, xüsusilə də Fransanın siyasi və mənəvi dəstəyini qazanan, Rusiyanın hərbi himayəsi altında fəaliyyət göstərən daşnaklar ifrat millətçilik və işğalçılıq hisslərinə qapılmışdılar. Onlar Rusiya Ermənistanını, Gəncə-Qarabağ bölgəsini, Şərqi Türkiyənin 6 vilayəti, Güney Azərpbaycanın bir hissəsini qəsb edərək "Böyük Ermənistan" yaratmaq xülyası uğrunda mübarizəyə başlamışlar. Formalaş-

---

[1] Anahid Ter Minasyan. Enqelab-e 1905dər Qəfqaz. Tərcümə edən: Kavə Bayat, səh. 63

maqda olan ölkədə ermənilər  tədricən üstünlük təşkil edirdilər.

Rus casusları hələ xeyli əvvəl ermənilərə pul və silah verərək onları Türkiyə əleyhinə müharibəyə təhrik etmişdilər. Nəhayət, Osmanlı dövlətinin rəsmiləri ermənilərin xəyanətlərini görüb onları sərhəd bölgələrdən köçürmək qərarına gəldi. Əks halda, ölkənin  şərq sərhədlərini qorumaq mümkün olmayacaqdı. Çünki ermənilər Osmanlı dövlətinə qarşı üsyana qalxmış, xarici ölkələrlə əlaqəyə girmişdilər. Onların bu xəyanətkar addımları XX əsrin astanasında bir milyona yaxın insanın fəlakətinə və  səbəb oldu.

Daşnaklar, eyni zamanda, Urmiya və Salmasda da xristianların köməyi ilə bir neçə dəfə türklərin ümumi qətli barədə fərman vermiş və görünməmiş cinayətlər törətmişdilər.



**Urmiyada soyqırım**

Arazın o biri tayında da həmin hadisələr baş verdi. Daşnaklar İrəvan və Qars əhalisini qətliama məruz qoydular, onların mülklərini qarət etdilər. Ərdəhanda, Axsada, Borçalıda da azərbaycanlılar təzyiq altında idilər. 1917-ci il inqilabı və vətəndaş müharibəsi bu ölkənin hər yerində olduğu kimi Qafqazda da fəlakət və qanların tökülməsinə səbəb oldu. Gürcü, azəri və erməni siyasətçiləri Tiflisdə bir hökumət təşkil edib,

müstəqil şəkildə idarəçilik işlərinə başladılar. Bu zaman Dağıstan da menşeviklərlə ağqvardiyaçılar arasında çəkişmə meydanı idi. İmam Nəcməddin və Uzun Hacı da dini ideyalara söykənərək mübarizəyə qalxmışdı. Bakı şəhəri bolşeviklərin əlində idi.

Daşnaklar hakimiyyətsizlikdən istifadə edib, İrəvan bölgəsindəki azərbaycan kəndlərini yerlə-yeksan etdilər. İrəvan hadisələri Zaqafqaziya Seymində fevralın 5-dən–20-dək müzakirə edildi. Seym məsələni araşdırmaq üçün İrəvana nümayəndə heyəti göndərdi. Təhqiqatın nəticəsi belə olmuşdu: İrəvan vilayətində 211 Azərbaycan kəndi dağıdılmış və yüz minlərlə insan qətliam olunmuşdur. 300 minə yaxın İrəvan azərbaycanlısı qətlə yetirilib və qalanları özlərini bir təhər Gəncə və digər şəhərlərə çatdırmışlar. Yalnız az bir hissə dədə-baba torpağında qalmışdır.

Qafqazda ikinci erməni-azərbaycanlı qırğınına çevrilən bu hadisələr iki xalq arasında münasibətləri o qədər kəskinləşdirib ki, daha onların üçtərəfli Qafqaz Federal Hökuməti İttifaqında bir yerdə qalması mümkün deyil.

Buna görə 1918-ci il mayın 26-da Federasiya parçalandı. Bundan sonra üç müstəqil cümhuriyyət – Azərbaycan, Ermənistan, Gürcüstan təşkil olundu".[1]

Bu hadisədən sonra minlərlə İrəvanlı müsəlman evini, mülkünü atıb, dağlara və biyabanlara qaçdı. Həmin qaçqınlardan biri də maarifçi xadim Mirzə Cabbar Baxçaban oldu. O, bir kəndə gəlib çıxaraq xeyli ağır və məşəqqətli günlər yaşadı. Sonradan Vətənə – Təbrizə köçərək burada öz sevdiyi peşəsi ilə məşğul olmaq

[1] Mənije Turabzadə və başqaları. Mahiyyət-e təhəvvolat dər Asiya-ye Mərkəzi və Qəfqaz, səh.71

qərarına gəlir. Cabbar Baxçaban əvvəl Təbrizdə, sonra isə Tehranda kar və lallar üçün bir mədrəsə açır.

Mirzə Cabbar Baxçabanın keçirdiyi ağır və dözülməz günlər barədə onun ürəkparçalayan xatirələrindən bir hissəni burada vermək yerinə düşər. Bu xatirələr o qanlı-qadalı illərin mənzərəsini düzgün təsəvvür etməyə imkan verir. O yazır: "Dünyanı oda calayan Birinci Dünya müharibəsinin axırlarında mən yarımcan halda bir kəndə gəlib çıxdım. Taqətdən düşmüşdüm. Bütün ailəm qarın yatalağı xəstəliyinə tutulmuşdu. Mən özüm də 25 gün cəhənnəm əzabı çəkmişdim. Qızdırma içində qovrulurdum. Bizə nəinki dava-dərman, heç bir qaşıq su verən də yox idi. Bir gün qızdırmanın atəşindən evdən çıxıb qaçdım. Özümü Araz çayına atmaq istəyirdim. Lakin adamlar yetişib, məni birtəhər sakitləşdirdilər. Nəhayət, 25 gündən sonra özümə gəldim. Bu vaxt gördüm ki, ermənilərin əlindən qaçarkən özümüzlə götürdüyümüz xırda-para şeyləri də oğurlayıblar.

Rəbiyə adlı 6 yaşlı bir qız bizə xidmət edirdi. Öz arıq vücudu ilə səhra adamını xatırladan bu qız bütün günü bizim üçün çöllərdən bitki toplayırdı. On gün müddətində yalnız həmin otlarla qidalandım. Qazayağı adlanan bitkinin gövdəsini çeynəyir, suyunu udurduq. Təbii ki, həmin günlərin məşəqqətlərini adi sözlərlə ifadə etmək mümkün deyil. Sadəcə olaraq, həmin məşəqqətli günlərdə biz beş nəfərin salamat qalması Allah möcüzəsi idi...

Özümə gələndən sonra hər iki ayağımın topuqdan aşağı qaraldığını gördüm. Bir neçə gündən sonra məni dəvənin belinə bağlayıb bir kəndə gətirdilər. Ayaq barmaqlarım suluqlamışdı. Deyilənə görə, bu, yeyici su idi.

...Doğrusu, insan gözləmədiyi anda həyat özünün bütün sifətlərini göstərir. Bu hadisədən bir il əvvəl mən öz doğma yurdumda vəzifə sahibi idim. Evsiz-eşiksizlərə yer-yurd vermək işinə baxır, əhaliyə taxıl bölürdüm. Amma indi məni nə bir tanıyan var, nə də özüm və ailəm üçün çörək qazana bilirdim. Bütün mənalarda fəlakətə məhkum olmuş bir insan idim. Həmin kəndə çatanda gördüm ki, bütün evlər qaçqın və köçkünlərlə doludur. Çətinliklə bir boş tövlə tapıb orada məskunlaşdıq.

Ədalətsizlik və mərhəmətsizlikdən məyus olmuşdum. Ayaqqabı və papağımı satandan sonra nə edəcəyimi bilmirdim. Qara fikirlər məni gecələr səhərəcən yatmağa qoymurdu. Qan azlığı və halsızlıq da bir yandan sıxırdı. O qara üfunətli tövlənin təndir istisində boğulur və təngnəfəs olurdum. Ağcaqanadlar, bit və birələr bədənimi lalə kimi qıpqırmızı eləmişdi. Kirpiklərim ağırlaşıb qapananda və məni yuxu aparanda dəhşətli yuxular görürdüm. Həmin yuxuların bəzisini 50 ildən sonra da xatırlayıram.

...Bir vaxt kəndin əhalisi məndən qaçdığı halda, indi başıma toplaşır, məndən aralanmırdı. Onlar da qaçqın və köçkünlər idilər. Mən onlara təsəlli və ümid verməyə çalışırdım. Qəribə idi ki, bu adamlar mənim nağıllarıma qulaq asır və inanırdılar. Bəzən mənə elə gəlirdi ki, elə bu mehriban və arıq adamlardan biri mənim pal-paltarımı oğurlayıb.

...Noraşen kəndində bir köynək və dizdikdə (alt paltarı) qaldığım, hər iki ayağımın qanqrena olduğunu və meyidimin bir xəndəyə atılacağını düşündüyüm həmin günlərdə təsadüfən bir xeyirxah insana rast gəldim. Onun köməyi ilə məni qəsəbənin yeganə həkimi olan doktor Səfizadənin yanına gətirdilər. O,

mənim müəllim olduğumu biləndə çox sevindi. Çünki həmin ağır zamanlarda müəllimlər hərəsi bir tərəfə qaçmış, qəsəbədə dərs verən bir adam qalmamışdı. Tanrı məni sanki nemət göndərmişdi. Üstəlik, həkimin uşaqları təhsil baxımından geri qaldığından, mən onun üçün göydəndüşmə idim. Doktor yubanmadan mənim ayağım üçün dərman hazırlamağa başladı. Asissenti olmadığından o, əməliyyatı təkbaşına etməli oldu. Doktor ayaq barmaqlarımın arasını kəsib, məlhəm qoyaraq yaranı bağladı. Bir qədər keçəndən sonra mənim rəhbərliyim altında məktəb fəaliyyətə başladı...

Təsis etdiyim bu qarışıq məktəbdə yerli uşaqların tərbiyə və təlimi ilə məşğul olurdum. Doktorun dörd oğlu, üstəgəl digər iki oğlan və bir qıza dərs deyirdim.

Nəhayət, tarixin bir vərəqi də çevrildi və ermənilər həmin kəndə hücum edəndə mən doktorla birgə öz ata-baba yurduma – İrana qaçdım. Makuya tabe olan Ərəblər kəndinə gəlib çıxdım".[1]

## Qafqaz müsəlmanlarının beynəlxalq təşkilatlara müraciətləri

Daşnaklar müsəlmanlara qarşı davamlı soyqırım aktları, istismarçı dövlətlərin cinayətkarları himayə etmələri Qafqaz müsəlmanlarını Qacarlar dövlətinə müraciət etməyə vadar etdi. Mənşur Gürgani bu barədə yazır: "1298-ci ilin ordubehişt ayının 10-da xeyli müsəlmanın diri-diri torpağa basdırılması ilə nəticələnən erməni qətliamından sonra Naxçıvan əhalisi Qacarlar dövlətinin oradakı konsulluğu qarşısında toplaşıb,

---

[1] Cabbar Baxçabanın öz əli ilə yazdığı tərcümeyi-haldan, səh. 34

dövləti şüarlarla öz qüvvələrindən istifadə etməyə çağırdılar. Bu nümayişlər bir neçə gün davam etdi.

Ermənilərlə müsəlmanlar arasında sülh bağlanandan sonra ingilislər İrəvanı, Naxçıvanı, Ordubadı, Şəruru və daha bir neçə məntəqəni Ermənistana birləşdirməyi qərara almışdılar. Lakin həmin məntəqələrin müsəlman əhalisi qəti şəkildə bunun əleyhinə çıxdı. Ancaq sonda ingilislərin köməyi ilə ermənilər həmin yerləri də işğal etdilər.

Naxçıvan əhalisi tərəfindən yerli hökumətlərə, yerli qoşun komandirlərinə, o cümlədən bölgənin məsul şəxslərinə 12 teleqram ünvanladı. Tanınmış və nüfuzlu şəxslər isə Qacarlar dövlətinə, şaha, xarici ölkələrin səfirlərinə, Amerika prezidentinə, Beynəlxalq Sülh Təşkilatına və s. teleqramlar göndərərək, qonşu müsəlman dövlətinə birləşmək istədiklərini bəyan etdilər. Onlar bu teleqramlarda müsəlman olduqlarını, 92 il öncə zorla Rusiyaya birləşdiklərini yazırdılar. Bu zaman qoşun komandiri Kəlbəli xandan, hökumət başçısı Sultanovdan, qərargah rəisi Hacı Hüseynəli Qurbanovdan və Milli Şuranın nüfuzlu üzvlərindən ibarət Naxçıvanda Müvəqqəti Hökumətin təşkil olunmasını xahiş etdilər. Təşgil olunmuş hökumət dərhal bir qətnamə qəbul etdi. Qətnamədə Naxçıvanda təşkil olunmuş Müvəqqəti Hökumətin Qacarlar dövlətinə tabe olduğu bildirilir və yerli əhali həmin dövlətin təbəəsi kimi təqdim olunurdu. Adı çəkilən hökumət tezliklə Şeyx Əbdülcabbar Bektaşdan, Mehdiqulu xan Diyarbəkridən, Hacı Seyid Bağır Heydərzadədən və Hüseynağa Novruzzadədən ibarət heyət yaradıb, Təbrizə ezam etdi. Heyət üzvlərinin səlahiyyətləri onlara verilmiş etibarnamə ilə müəyyən olunmuşdu. Nümayəndə heyəti çox təmtəraqlı üslubda yazılmış məktubu vəliəhdə

çatdırmalı idi. Həmin məktubda deyilirdi ki, biz türklər 92 il öncə zorla Arazın o sahilindəki qan qardaşlarımızdan ayrı salınmışıq. Xahiş edirik ki, bizim çoxdankı arzumuza – birləşmək istəyimizə diqqətlə yanaşasınız.

Nümayəndə heyəti ordubehişt ayının əvvəllərində Təbrizə gəlib çıxdı. Onlar buradakı ingilis nümayəndəliyinə belə bir tələbnamə ilə müraciət etdilər: "Əgər ingilislər ermənilər üçün dövlət yaratmaq istəyirlərsə, bunu ermənilər yaşayan ərazilərdə yaratsınlar. Hətta bir nəfər belə erməni yaşamayan müsəlman torpaqlarında erməni dövləti qurula bilməz.

İngilis dövləti naxçıvanlıların bu tələbini Sülh Konfransının gündəliyinə saldı. Təbrizdə isə qısa danışıqlardan sonra Qacarlar dövləti Naxçıvana göndərmək üçün bir nümayəndə heyəti hazırladı. Əli Heyət həmin heyətin başçısı təyin olundu. Üstəlik, Müsəddiq Divan adlı bir şəxs də Naxçıvanda Qacarlar dövlətinin rəsmi nümayəndəsi idi. Lakin ingilislər bu torpaqların İrana qaytarılmasının əleyhinə idilər. Onlar İranın bu məsələdə təkid edəcəyi halda, mübahisəli Bəlucistan məsələsini qaldıracaqlarını bildirdilər. Təbrizdə ermənilərin nümayəndəsi olan Nersin adlı şəxs də prosesləri pozmağa çalışırdı.

Nəhayət, Sülh Konfransında Naxçıvanın İrana birləşməsinə imkan verilmədi".[1]

Vəliəhdin dəftərxana müdiri Mokərrəmülmülk Naxçıvan camaatının vəliəhdə göndərdiyi teleqrafı Daxili İşlər Nazirliyinin adından yaydı. Bu informasiyadan sonra Xoy əhli ayağa qalxaraq Naxçıvana kömək etmək və təcavüzkar erməniləri cəzalandırmaq

---

[1] Mənşur Gürgani. Rusiya və İngiltərənin İranda rəqabəti, səh. 80

üçün hazırlığa başladı. Lakin onların qarşısı alındı. Dövlət nümayəndələri tezliklə Naxçıvana kömək etmək barədə rəsmi qərar qəbul edəcəklərini vəd etdilər.

Naxçıvan camaatı adından Təbrizdən Tehrana göndərilən teleqrafın mətnini qısa ixtisarla dərc edirik: *"316 nömrəli teleqraf. Təbrizdən Tehrana. Göndərilmə tarixi 23, çatma tarixi 24 qaus. Təcili və dövlət əhəmiyyətli.*

*Daxili İşlər Nazirliyinin yüksək məqam sahibinin mübarək hüzuruna (Allah onun ömrünü uzun etsin!) Naxçıvan əhalisindən. Erməni əsgərləri məskunlaşdırma adı ilə öz mühacirlərini İrəvandan bizim tərəflərə və yaxın məntəqələrə gətirirlər. Onlar müsəlmanlar yaşayan məntəqələrə çatan kimi qətl-qarət törədir və azərbaycanlıları tərk-silah edirlər. Müsəlmanların əleyhinə olan bu əməllər onları özlərini müdafiə etməyə və müqavimət göstərməyə məcbur edir. Biz Naxçıvan müsəlmanlarının həzrəti-valadan xahişi budur ki, bizim məmləkətin siyasi müqəddəratını tezliklə həll etsin və bizlərə öz təbəəliyimizə qayıtmaq vaxtını məlum eləsin. Əgər üç gün müddətində bizlərin siyasi müqəddəratı müəyyən olunmasa və böyük dövlətlərdən [?] nümayəndə heyəti gəlib çatmasa, bu yerlərin müsəlmanları tamamilə məhv olacaq və sonda bu məsələnin təhlükəli və pis nəticəsi İran məmləkətinə də sirayət edəcək. İnanırıq ki, bu yerin məzlum müsəlmanlarının halından böyük dövlətlər ittifaqını [Antanta nəzərdə tutulur] məlumatlandıracaq və nəticəsini bizlərə bildirəcəksiniz. Əgər həqiqətən rəyasət aləmində bu yerin müsəlmanları edama məhkumdurlarsa, onda heç bir sözümüz yoxdur. Yox, əgər bizlərin həyat və yaşamaq haqqımız varsa, onda açıq-aydın ərz edirik ki, Amerika*

*prezidenti cənab Vilsonun "hər millətin öz müqəddəratını həll etmək hüququ vardır" fikrinə əsaslanacağıq.*

Naxçıvanın müsəlman vəkilləri: Cəfərqulu xan, Bəhram xan, Mehdiqulu xan, Mirzə Həsrullah, şeyx Cabbar".

Naxçıvan əhalisi bu teleqrafdan əlavə, Xoy camaatına da yardım xahişi ilə müraciət etmişdi. Xoy əhalisi də öz növbəsində kömək üçün hər an hazır olduğunu bildirmişdi. Mükərrəmül Mülkün bu barədəki məktubunda deyilir: *"Sizin bəndəniz Xoy əhalisinin hazırlığı barədə xəbər tutan kimi onların qarşısını aldı. Xoylulara açıq şəkildə yazdım ki, onların atdığı addım dövlət əleyhinədir. Əgər sizlər hər hansı bir tədbirə əl atsanız, dövlət qarşısında məsuliyyət daşıyacaqsınız. Naxçıvan əhalisinə də teleqrafla bildirdim ki, onlara rəsmi cavab verilənə qədər sakit oturub, gözləsinlər. İndi tədbir görmək üçün tezliklə qərar qəbul etməyinizi xahiş edirik. Rəbiüləvvəl ayının 11-i. 9926 nömrəli məktub. Mükərrəmül Mülk. Azərbaycan əyaləti".*

Naxçıvan camaatına qarşı erməni silahlı qüvvələrinin təcavüzləri ilə bağlı Nazirlər Kabinetinin dəftərxanasından Təbrizdəki vəliəhd aparatının əməkdaşlarına müraciətlə bir məktub göndərilib. Həmin məktubda deyilir: *"Qüdrətli sərhədçilərdən sayılan Maku sərdarı İqbalüs-səltənədən və başqa xanlardan öz könüllü dəstələrindən istifadə etməklə erməni təcavüzkarlarının qarşısını almağı və ermənilərdən Naxçıvan camaatına qarşı təcavüzdən əl çəkməyi tələb etməliyik. Əks halda, İran daxilində xalq ermənilərlə pis rəftar edəcək və intiqama əl atacaq. Bu barədə erməni rəhbərləri ilə müzakirələr aparmaq üçün Təbrizdən də bir nümayəndə heyəti göndərmək lazımdır..."*.

Həmin məktubun bütöv mətni belədir: *"Əzəmətli, şan-şöhrətli əlahəzrət vəliəhdin kargüzarlarının mübarək hüzuruna!*

*Əvvəlki teleqraflara və müqəddəs əlahəzrətin son teleqrafına cavab olaraq bildiririk: Əvvəla, sərdar İqbalüs-səltənəyə, digər rəhbərlərə, xanalra əmr verilsin ki, tezliklə öz qüvvələrini səfərbər edib, hər hansı silahlı qüvvənin İran torpağına girməsinin qarşısını dərhal alsınlar.*

*İkincisi, bu fərmanda göstərildiyi kimi, Təbriz və Tehranda möhtərəm şəxslərdən ibarət bir heyət yaradılaraq xüsusi təlimatla təlimatlandırılıb döyüş və hücum bölgələrinə göndərilsinlər. Onlar erməni silahlılarının böyükləri və komandanları ilə görüşüb əlahəzrətin və İran dövlətinin adından onlarla danışıq aparsınlar. Desinlər ki, İran torpaqlarında sizin çoxsaylı həmməzhəbləriniz məskunlaşıb və uzun illər asayiş içində yaşayıblar. Əgər onlar müsəlmanlara qarşı təcavüzkar hərəkətlərinə son qoymasalar, xüsusilə də İran təbəələrinin malına və canına ziyan toxundursalar və bu barədə xəbərlər İran dövlətində yayılsa, onda dövlət rəhbərliyi İranın erməni sakinlərinin təhlükəsizliyi ilə bağlı heç bir hadisənin məsuliyyətini üzərinə götürməyəcək. Biz dövlət olaraq sizin həmməzhəblərinizə qarşı müsəlmanların düşmənçilik hisslərinin qarşısını almağa qadir olmayacağıq. Bundan əlavə, İran dövləti Naxçıvanda öz təbəələrini mühafizə və himayə etməyə məcbur olacaq. Buna görə də, intiqam hissini bir kənara qoyub sülhlə rəftar etmək və müsəlmanlarda canlarına, mallarına və öz gələcəklərinə inam yaratmaq lazımdır.*

*Bütün bunlarla bərabər, qorxu və dəhşətdən qaçqına çevrilərək İran torpağına pənah gətirmiş şəxslərlə imkan daxilində mehribanlıqla rəftar edilməlidir. Yerli*

*əhalini onları yaxşı qəbul etməyə təşviq etmək lazımdır ki, onlar özlərinə qarşı soyuqluq hiss etməsinlər".*

Naxçıvan camaatının vəliəhdə göndərdiyi və nəticə görmədiyi teleqraflardan üç ay keçəndən sonra Naxçıvan, Ordubad, Şərur camaatı tərəfindən baş nazir Vusuqəddövləyə aşağıdakı məzmunda məktub göndərilir.

Bu zaman İran dövləti gizlində ingilislərlə müqavilə bağlamışdı. 1919-cu ildə bağlanan bu müqavilə ilə İran olan-olmaz müstəqilliyini də itirmişdi. Naxçıvan camaatı isə bundan xəbərsiz idi. Onların baş nazirə ünvanladığı məktubda deyilirdi: *"Əzəmətli və şövkətli baş nazirin yüksək məqamına!*

*Üç ay əvvəl təkrar-təkrar müqəddəs əlahəzrətin mübarək hüzuruna və ali məqamına İrana birləşmək barədə öz çoxdankı arzumuzu ərz etmişdik. Bildirmişdik ki, Naxçıvan və Ordubad vilayətlərinin əhalisi rus imperiyasının istibdadı və qəsbkaranə istilasından sonra bütün vətənpərvərlik hissləri ilə ümid gözlərini Kəbə timsallı ali İran dövlətinə dikib. Onlar gözləyirdilər ki, millətlərin azadlığının bütün dünyada sülhün əsası kimi qəbul olunduğu, imperializm hərisliyinin ədalətə məğlub olduğu indiki zamanda yenidən ali dövlət bu ayrı düşmüş xalqı öz idarəçiliyi altına alaraq, üç yüz minlik İran müsəlmanlarının həyatını təmin edəcəkdir. Təəssüf ki, əhalinin bu barədə xahişi dövlət başçıları tərəfindən qulaqardına vurulmuş, nəticədə İrəvandakı müvəqqəti erməni hökuməti bu gün bəyan etdiyi kimi istilaçılıq fikrinə düşmüşdür. Onlar istəyirlər ki, bütün ədalət və azadlıq ölçülərinin əksinə olaraq Naxçıvanı işğal edib, İrəvan müsəlmanlarının başlarına gətirdikləri qanlı olayları bizim də başımıza gətirsinlər. Canımızı, malımızı qətl-qarət etsinlər.*

*Naxçıvan əhalisi əvvəldən təkbaşına necə müdafiə olunubsa, ermənilərin həmlələrini necə dəf edibsə, yenə də o şəkildə onların təcavüzlərinin qarşısını ala bilər. Lakin bədbəxtçilik bundadır ki, biz ingilis dövlətinin müsəlmanlar barədə yaxşı niyyətdə olduğunu düşündüyümüz halda, gözlənti və ümidlərimizin əksinə olaraq, həmin dövlətin Qafqazdakı məmurlarının açıqlamalarından ermənilərin Naxçıvanı işğal etmələrindən razı qaldıqlarını müşahidə edirik. İranın müqəddəratına məsul olan siz həzrət-əşrəfi-alidən acizanə xahiş və mərhəmət diləyirik ki, bu vilayətin nicatında daha fəaliyyətsiz qalmayasınız. Bu gün İran cəmiyyətinin bir hissəsinin həyatı təhlükədə olduğu üçün İranın bugünkü yüksək dövlət rəhbərləri tarixi məsuliyyət daşıyacaqlar. Birinci növbədə ingilis dövlətinin səfirliyi ilə dərhal müzakirəyə başlayın ki, onların məmurları ermənilərin hücumlarının qarşısını almağa söz versinlər. İkincisi, ali dövlət tərəfindən bu vilayətin idarəçiliyi və nizam-intizamı üçün məmurlar ezam etməyiniz və əhalinin asayişini təmin elməyiniz lazımdır.*

*Bu arzu və xahişimizi teleqraf vasitəsilə Təbrizdəki konsulluqlara, böyük dövlətlərin Tehrandakı səfirlərinə və Fransa səfirinin əli ilə Sülh konfransına təqdim etmişik. İnanmırıq ki, Naxçıvan əhalisinin qanuni xahişi haqq və ədalət uğrunda mübarizə aparan, zəif mllətlərin həris imperatorların əlindən xilas edilməsi yolunda milyonlarla qurban verən və nəticədə adı aləmibəşəriyyətin azadlıq və səadət simvoluna çevrilən böyük müttəfiq dövlətlərin nigarançılığına səbəb olsun.*

*Sonda İran ictimaiyyətinin və dünya müsəlmanlarının hamısının diqqətinə çatdırırıq ki, əgər biz Naxçıvan sakinləri öz soydaşlarımız və həmməzhəbimizlə birləşmək hüququndan məhrum olsaq və bəşəriyyətin*

*bütün ədalət və hüquq normalarının əksinə olaraq, qaniçən düşmənlərimiz olan ermənilərin tabeliyi altında qalmağa məcbur edilsək, deməli, onlar bu vilayətin 300 mindən yuxarı günahsız sakinlərinin malını, canını, namusunu erməni əsarəti altında fəlakət və fənaya məhkum edirlər.*

*18 səur, Naxçıvan, Şərur, Ordubad və ətraf əhalinin ümumi vəkilləri və nümayəndələri: Mehdiqulu xan, Şeyxülislam, Əbdülcəbbar, Hacı Seyyid Bağır".*

Ağayi Mənsur bu teleqrafı da lazımi orqanlara göndərir.

Bəs bu müraciətlərin müqabilində dövlət nə təklif edir?

*"19 Səur 98*

*[möhür rəqəmi] Nazirlər Kabinetinin arxivi. Nömrə 50.*

*...İngilislər bir tərəfdən, camaata hərtərəfli təsir göstərirdilər ki, Naxçıvanda ermənilərin hakimiyyətini yaratsınlar, digər tərəfdən Naxçıvan camaatının İrana birləşmək xahişinin Sülh Konfransının təsdiqinə göndərilməsini təxirə salırdılar. Onlar bütün güc və qüvvələri ilə İran nümayəndə heyətinin konfransda iştirakına mane oldular".*[1]

Eynulla Müddəli adlı şəxs o böhranlı illərdə Naxçıvanın siyasi mənzərəsini belə təsvir edir: "1918-20-ci illərdə Azərbaycan Demokratik Cümhuriyyəti dövründə Naxçıvanda siyasi vəziyyət mürəkkəbləşmişdi. Hələ 1918-ci ilin baharından bu bölgədə ermənilərin təcavüzü başlamış, qısa fasilələrlə 1920-ci ilin aprelinə qədər davam etmişdi. Azərbaycan Demokratik Cümhuriyyəti zəif olduğundan, Naxçıvandan türk ordusu gedəndən

[1] Yuxarıdakı üç sənəd doktor Pərviz Caruvəndin "İran və Qafqaz" (səh.187-193) kitabından götürülmüşdür.

sonra – 1918-ci ilin noyabrın 3-də burada Türk-Araz adlı müstəqil bir dövlət yarandı və Qars İslam Şurası adlı bir hökumət təşkil olundu. 1919-cu ilin yanvarın 7-də bu ittifaq Cənubi-Qərbi Qafqaz adlı dövlətlə birləşdi və ingilislər onu ləğv edənə – 12 aprelə qədər öz mövcudluğunu qoruyub saxladı. Naxçıvanda ingilis hərbi komandanlığı yarandı. Bu zaman Naxçıvana erməni təcavüzləri gücləndi. İngilislər bütün imkanlarını işə salaraq çalışırdılar ki, Naxçıvanı daşnak Ermənistanına versinlər. Buna görə də Azərbaycan Demokratik Cümhuriyyətinin nümayəndələrinə təzyiq edərək onları Naxçıvanı tərk etməyə məcbur edirdilər.

Beləliklə, bir neçə aydan sonra – 1919-cu il mayın 3-də ermənilər Naxçıvana hücum edə bildilər. Ancaq onlar orada uzun müddət qala bilmədilər. Naxçıvan Milli Şurasının rəhbərliyi (Cəfərqulu xan, Kəlbəli xan, Xəlil bəy və başqaları) Azərbaycan Demokratik Cümhuriyyətinə ermənilərə heç vaxt itaət etməyəcəklərini bildirərək, xalqı ermənilərlə qeyri-bərabər müharibəyə dəvət etdilər. Avqustun 30-da Naxçıvan ermənilərdən təmizləndi. Ermənilər qaçandan sonra Azərbaycan Demokratik Cümhuriyyəti Səməd bəy Cəmilinskini Naxçıvanın hərbi komandanı təyin etdi. Lakin bundan sonra da Naxçıvan ermənilərin daimi hücumlarına hədəf oldu.

Belə bir şəraitdə Naxçıvan əhalisi gah Türkiyə, gah da İrana üz tutaraq erməni hücumlarını dəf etmək üçün kömək istəyirdi. Naxçıvanın bəzi dairələri, xüsusilə də əvvəlki xanların nəslindən olan şəxslər xarici siyasətdə İranın himayədarlığına üstünlük verirdilər.

Naxçıvan əhalisini erməni təcavüzündən qorumaq üçün Naxçıvan və Şərur nümayəndələrindən ibarət bir qrup İran dövlətindən yardım almaq məqsədi ilə Təbri-

zə – vəliəhd Məhəmməd Həsən Mirzə ilə görüşə yollandılar. Nümayəndələri qəbul edən vəliəhd Tehranla məsləhətləşmələrdən sonra mötəbər və rəsmi bir nümayəndə heyəti təşkil edib, Naxçıvana yola saldı. Xüsusi fərmanla nümayəndə heyətinə Mirzə Əli Heyət rəhbərlik edirdi”.[1]

Naxçıvanda vəziyyət ağır olsa da, o erməni caynağından xilas ola bildi. Lakin gördüyümüz kimi, əsrlər boyu müsəlmanların vətəni olmuş İrəvanda və onun ətraf yerlərində daşnaklar xaricilərin köməyi ilə soyqırım törətməklə, yerli müsəlmanları didərgin salmaqla həmin əraziləri qəsb edib, o torpaqların sakinlərinin cəsədləri üzərində Ermənistan Respublikasını yaratdılar.

Bu proses, yəni soyqırım və bu diyarın müsəlmanlarını dərbədər salmaq siyasəti sonralar da davam etdirilib. 1950-ci ildə azərbaycanlıların xeyli hissəsi zorla Ermənistandan xaric edildi. Ermənilər öz cinayətkar əməllərini gizlətmək üçün türk-azəri məntəqələrinin çoxunun adlarını dəyişib erməni adları ilə əvəz etdilər. Səbahəddin Eloğlu Zəngəzur hadisələri haqqındakı kitabında *(Zəngəzur hadisələri, Bakı, 1992)* yazır: "Ermənistanın indiki ərazisinin 82 faizi Azərbaycan torpaqlarıdır. Bu əraziləri 1828-ci il Türkmənçay müqaviləsindən sonra ruslar müxtəlif vaxtlarda və müxtəlif yollarla Azərbaycandan ayırıb ermənilərə verib. Məsələn, Zəngəzur, Dərələyəz, İrəvan xanlığı, Şəmsəddin vilayəti, Göycə azəribaycanlıların ata-baba torpaqlarıdır. Bu yerlərdə 15-dən artıq rayon, 10 böyük şəhər, 11 kiçik şəhər və ya qəsəbə, yüzlərlə kənd adı dəyişdirilib. Onlardan bir neçəsini sadalayırıq: Allahyarlı – Tumanyan, Hacı Həzər - Kamo, Karvansara - İcevan, Duzkənd

---

[1] Eynulla Müddəli. Heyət ailəsi və Naxçıvan, Doktor Cavad Heyət. Məqalələr toplusu, Bakı, 1995, səh.122

- Axuryan, Sərdarabad - Oktembryan, Qəmərli – Artaş-art, Hamamlı - Spitak, Ağababa- Amasiya".[1]

Ermənilər Aşıq Ələsgərin doğulduğu Göyçə vilayətini də öz caynaqlarına keçirdilər. Sovet dövründə Azərbaycanın bütün tarix kitablarında Göycə mahalı Vardanes kimi Berd, Göycə gölü isə Sevan adlandıraraq Ermənistan xəritəsinə daxil edilmişdi. Bu vilayətin dərələrinin, təpələrinin, çaylarının da adları erməniləşdirilmişdi. Azəri müsəlmanları kütləvi şəkildə köçməyə məcbur etdilər.[2]

Yerdə qalan azərbaycanlılar son illərin hadisələrində, 1988-ci ildə bu torpaqlardan qovuldular. İran İslam Respublikasının Ermənistandakı səfiri Həmidrza Hikkar İsfəhani "Ermənistanda etnik azlıqlar" kitabında yazır: "Ermənistan Respublikası cəmiyyətin quruluşu baxımından keçmiş Sovet İttifaqı resbulikaları arasında milli tərkibə görə yekcins cəmiyyətə malik olmuşdur. Burada həmişə milli azlıqların sayı qəsdən azadılmışdı".

Cəmiyyətin monomilli olmasının səbəbi soyqırım siyasəti və müsəlmanların qovulması olub. Həmin müəllif buradakı müsəlmanların son illərdəki vəziyyəti barədə yazır: "Ermənistan azərbaycanlıları ən böyük milli tərkib kimi İrəvan şəhərində yaşamış və öz mədrəsələrini təsis etməyə çalışmışlar. 1970-ci ildə Ermənistanda əhalinin siyahıyaalmasında azərbaycanlıların əksərən kəndlərdə yaşadığı, yalnız az bir qisminin İrəvan, Qafan, Qacaran, Gümrü şəhərlərində yaşadıqları qeyd edilmişdi. Ümumiyyətlə, Ermənistanın müxtəlif məntəqələrində azərbaycanlıların sayı aşağıdakı kimi olmuşdur: Amasiyada 82,7%, Vardanesdə [Göycə

[1] Əbdüləhəd Behrad. Qarabağ dər çeşməndaz-e tarix, səh.135
[2] Doktor Hüseyn Məhəmmədzadə Sədiq. Divane-farsiye-Seyid Əbülqasim Nəbati, səh.378

mahalı] 65%, Meqridə 57%, Qafanda 53,6%, Krasnoselskdə 51,5%, Masisdə 33,2 f%, Sisyanda 30,1%, Boğqonadzorda 18,8%, Quqarekdə 28,8%, Kalinində 29,1%, Əzizbəyovda (Vaykeknunidə) 27,7%.

Ermənistanda yaşayan azərbaycanlıların təkidi və təşəbbüsü ilə İrəvanda azərbaycanlıların texniki sahələr üzrə məktəbi, qəzet-jurnalı, Azərbaycan dilində tamaşa göstərən xüsusi teatrı, Ermənistan sərhədlərindən kənarda yaşayan soydaşlar üçün radio verilişləri, Abovyan adına Azərbaycan dili və ədəbiyyatı üzrə pedoqoji institutu fəaliyyət göstərmişdi.

Ermənistanda yaşayan azərbaycanlıların hamısı müsəlman və əksəriyyəti şiəməzhəb idilər. Masis rayonunda və Ermənistanın digər yerlərində kürdlərlə yaxınlıqda sünnüməzhəblər də yaşamışlar.

Burada qarışıq nikahlar çox az olub. Qarabağ münaqişəsi Ermənistandakı azərbaycanlıların qaçqın və didərgin düşməsinə səbəb oldu.[1]

Deyilənə görə, təkcə İrəvanda deyil, ümumiyyətlə, bütün Ermənistan ərazisində bu gün "bir nəfər də azərbaycanlı qalmamışdır".[2] Sübut olunmuş tarixi faktlara görə, uzun əsrlər boyu bu ərazi azərbaycanlılara məxsus olub və erməni azlığı da müsəlmanların ətrafında sülh və barış içində yaşayıb. Onlar daim bu vilayətin müsəlman hakimlərinin himayə və yardımından faydalanmışlar.

İrəvan Dövlət Universitetinin müəllimi doktor Qorki Nalbandiyan yazır: "...Ararat ərazisi və ya Çuxursəd vilayətində qızılbaşlara qoşulan böyük sədulu əmirləri hökmranlıq edirdilər. Onlar öz xristian təbəələrinə,

---

[1] Məcəlle-ye motaleat-e Asiya-ye mərkəzi və Qəfqaz. Dördüncü il, ikinci mərhələ, N9, 1374-cü ilin baharı, səh. 99

[2] "Sirdaş" qəzeti, Bakı nəşri, noyabr, 1992-ci il, səh. 4

xüsusilə yüksək rütbəli erməni ruhanilərinə, tacirlərə, qeyri-müsəlmanlara mülayim və xoş üz göstərirdilər. Təsdiqlənmiş qaynaqlarda da Şah İsmayılın ermənilərlə mülayim və xoş davranması, xüsusilə də, Eçmiədzinin böyük yepiskopu Zəkəriyyəyə yaxşı münasibəti dəfələrlə qeyd olunub".

Hal-hazırda İrəvanda və Tiflisdə Qafqaz incəsənət əsərlərinin tədqiqi ilə məşğul olan doktor Şəhriyari Ədl 1831-ci ilin statistikasına əsaslanaraq İrəvan şəhərində 6 məscid, 7 kilsə olduğunu bildirir. Görünür ki, İrəvanda müsəlman əhalinin say baxımından xristianlardan üstün olmasına baxmayaraq, Qacar sərdarı bu iki dinin daşıyıcılarının müvazinətini qoruyub-saxlamağa xüsusi diqqət yetirmişdir.[1]

## Soyqırımdan xilas olmuş bəzi tayfalar

İrəvan qətliamından canını götürüb Arazın bu tayına gəlmiş Baxçaban tayfasından əlavə, İrəvanda yaşayan müsəlman tayfalarının da bir qismi təhlükənin yaxınlaşdığını görüb illər boyu zəhmətlə qurduqları ev və mülklərini atıb Arazın bu tayına üz tutublar. Onlardan bir qrupu Xoyda məskunlaşdı və varisləri indi də orada yaşayır. Həmin adamlar sırasında Raşidi, Əhmədi, Azərm, doktor Necat, Dadur, Dəstrəncin adlarını çəkə bilərik.

İrəvan azərbaycanlılarından biri olan Rəvanşad Cəfər Raşidi ailəsi ilə birgə İrana gəlmiş və Xoy şəhərində məskunlaşmışdır. O da Cabbar Bağçaban kimi maarifpərvər bir ziyalı olduğundan, bu şəhərdə bir sıra xeyriyyə işləri görüb.

---

[1] Ayətullahzadə Şirazi. Tərh-e motalee və mərəmmət və ehya-ye məsced-e came-ye İrəvan, I cild

Raşidilərin əsli Mərənddən idi. Ataları mərhum Hacı Molla Hüseyn hər il məhərrəm və ramazan aylarında Arazın o tayına gedib, İrəvanda vaizlik edər və dini təbliğatla məşğul olardı. Nəhayət, XX əsrin əvvəllərində Hacı Molla ailəsi ilə birlikdə İrəvan şəhərində daimi yaşamağa qərar verir.

Hacı Molla Hüseynin böyük oğlu Mirzə Əbdülhüseyn də molla olduğundan, atası vəfat edəndən sonra onun yerini tutur. Ailənin digər bir övladı Mirzə Əli Əkbər İrəvanda parça satışı ilə məşğul olsa da, elm, bilik tərəfdarı olmuşdur. Onun kiçik qardaşı, xüsusi istedada malik olan Cəfər Raşidi İrəvan mədrəsələrində dərs verirdi. O, Ettehadiyyə mədrəsəsinin rəhbəri olmaqla bərabər, xeyriyyə cəmiyyətinin xahişi ilə şəhərdəki pedoqoji tərbiyə mərkəzində də dərs verir, uşaqlara peşə seçimində kömək göstərirdi.

Bu maarifpərvər insan əslən İrəvandan olan Şamama adlı bir xanımla ailə qurduqdan sonra Təbrizdə yaşamışdır. Qaynatası Tağı Tağıyev İrəvan şəhərinin un və çörək şurasının müdiri idi. Onların nigah kağızı üç dildə – türkcə, farsca, rusca yazılmışdır.

Cəfər Raşidi öz ata-baba yurduna qayıtdıqdan sonra daimi yaşayış yeri kimi Xoy şəhərini seçmişdir. O, şəmsi tarixi ilə 1298-ci ildən bu şəhərdə müəllimlik etmiş, xeyli qiymətli işlər görmüşdür. Hüseyn Omid yazır: "Cəfər Raşidi 1298-ci ildən başlayaraq Xoy mədəniyyətinə xidmət etmişdir. Sirus, Nisvan və digər mədrəsələrə rəhbərlik etmiş bu şəxs 35 il müddətində çox qiymətli işlər görmüşdür".[1]

Buna görə də Xoy şəhərindəki mədrəsə onun şərəfinə "Raşidi" adlanmış və bu gün də həmin adı

---

[1] Azərbaycan mədəniyyət tarixi (I cild), səh. 364

daşımaqdadır. Cəfər Raşidi şəmsi tarixi ilə 1332-ci ildə (1933) Xoy şəhərində vəfat etmişdir. Onun İrəvanda türk və rus dillərində təhsil almış həyat yoldaşı Şamama xanım Xoy şəhərinə gəldikdən sonra gecələr ərindən fars dilini öyrənmiş, gündüzlər isə şəhərdəki ilk qızlar mədrəsəsində yeniyetmələrin təlim-tərbiyəsi ilə məşğul olmuşdur. O, 31 il bu sahədə fəaliyyət göstərmiş və şəmsi tarixi ilə 1350-ci ildə vəfat etmişdir. Onların övladı Əli Raşidi anasının söhbətləri əsasında İrəvanda keçən günlər barədə xatirələr yazmışdır. Şamama xanım deyirmiş ki, Novruz bayramı İrəvanda xüsusi təmtəraqla keçirilirmiş. Şəhərin müsəlman kişiləri fərvərdin (martın 26-da) ayının ilk beş günündə qohumlara baş çəkər, sovqat aparardılar. Fərvərdin ayının 6-cı günündən başlayaraq xanımlar bayram təşrifinə başlardılar. Cəfər Raşidinin onunla bərabər İrəvandan qaçmış digər qardaşları da Xoy şəhərində məskunlaşmışdılar. Mirzə Əbdülhüseyn Raşidi şəmsi tarixi ilə 1322-ci ildə vəfat etmişdir. Təbrizdə Raşidi Sabunbişirmə zavodunu yaratmış Mirzə Əli Əkbər isə şəmsi tarixi ilə 1354-cü ildə dünyadan köçmüşdür.

Onu da qeyd edək ki, bu tayfanın İrəvanda qalmış üzvləri ermənilərin əli ilə qətlə yetirilmiş, malları-mülkləri talan edilmişdir. Onlardan biri olan Dadurlar ailəsi bütünlüklə məhv edilmişdir. O qanlı illərdə İrəvandan (İrana) qaçan azərbaycanlılar ömürlərinin sonuna qədər vətən həsrəti ilə yanıb-qovrulmuşlar.

İrəvanın məşhur xanlarından olan Cəmil bəyin qızı və Əlixan bəyin nəvəsi Səriyyə xatun (miladi 1908-1990-cı illər) Bakıya köçsə də, ömrünün axırına qədər doğulduğu ana torpağın nisgili ilə yaşamış, 1990-cı ildə gözlərini əbədi yummuşdur. Bu şairə xanım uzun illər doğulduğu torpaq haqda çoxsaylı bayatılar qoşmuşdur.

Həmin bayatılarda İrəvan sakinlərinin vətən həsrəti, vətən nisgili öz əksini tapmışdır. Şairənin ürək qanı yazılmış bayatılarından bir neçəsini sizlərə təqdim edirik:

*İrəvan qana düşdü,*
*Qəfil fəqana düşdü,*
*Təbriz, Gəncə hardadı,*
*Qollarım yana düşdü.*

*İrəvanın dağları,*
*Çiçək açıb bağları,*
*Yada salıb mən yazıq,*
*Ötüb-keçən çağları.*

*Qardaşım qaladadı,*
*Payı piyaladadı,*
*Çıx qalanın başına,*
*Gör bacın haradadı?*

*İgid mənim olunca,*
*Yada qənim olunca,*
*Qəbrimdən günəş doğar*
*Vətən mənim olunca.*

*Şəklimi qara çəkin,*
*Daşa-duvara çəkin.*
*Yurdumdan doydum desəm,*
*Saçımdan dara çəkin.* [1]

---

[1] Bu bayatıları bizə təqdim etdiyinə görə ağayi Nasir Əhmədiyə təşəkkür edirik.

## Göy məscid və İrəvanın digər məscidləri

Xanlıq dövrünə aid fəsildə bu tarixi mədəniyyət abidəsinin tikintisi, quruluşu, daxili strukturu barədə bəzi məsələlərə toxunmuşduq. Son illərdə İran İslam Respublikası ilə Ermənistan arasında bağlanmış müqaviləyə uyğun olaraq İslam Cümhuriyyətinin mədəniyyət abidələri üzrə mütəxəssislərindən ibarət nümayəndə heyəti Göy məscidin qalıqlarını tədqiq etmiş, onun yenidən qurulması və bərpası ilə bağlı təkliflər paketi hazırlamışdır. Heyət üzvlərindən ağayi Bağır Ayətullahzadə Şirazinin şəmsi tarixi ilə 1375-ci ilin şəhrivər və aban aylarında hazırladığı iki cildlik "İrəvan məscidinin tədqiqatı, təmiri və yenidən qurulması layihəsi" adlı əsəri bu mənada xüsusi əhəmiyyətə malikdir. Bu fəsildə həmin əsərin bəzi hissələrindən istifadə edilmişdir.

Əsərdə bu mədəni-tarixi abidə Came məscidi, Göy məscid, Xan və Hüseynəli xan məscidi adları ilə təqdim olunub. Onun özünəməxsus quruluşu və memarlıq üslubu barədə geniş danışılıb: "Məscidin xüsusi quruluşa malik mərkəzi hissəsi (günbəzxana, onunla yanaşı olan dua otağı) bütövlükdə 13 metr uzunluqda olmaqla 34 kvadratmetrlik yaraşıqlı və geniş salona malikdir. O, yeni və orijinal dəsti-xəttə malik olsa da, islam dövrü memarlığının bitkin nümunəsi sayılmalıdır.

Məscidin üslubu islam memarlığının bütün ölçülərini özündə əks etdirir. Məscidin digər yerləri – mədrəsə də bu xüsusiyyətlərə malikdir. Mərkəzi hissənin hər üç tərəfi günbəzlə örtülüb. Mərkəzi günbəzin diametri 11,5 metr, hündürlüyü isə məscidin mərkəzi döşəməsindən sayılmaqla 20 metrdir. Günbəz iki örtüklə (ör-

tüklər arasında məsafə 3 metrdir) örtülüb. Günbəzxananın ərazisi kvadratşəkilli olmaqla 20 guşəli dairəvi quruluşdadır. Günbəz sadə bəzəklərlə bəzədilib və bütövlükdə kaşı ilə örtülüb.

Başdan-başa türk-müsəlman mədəniyyətini əks etdirən binanın hicri -qəməri tarixi ilə 1305-ci ildən sonra 1330-cu ilə qədərki dövrdə quraşdırılmış qapı və divarında təkrar-təkrar müxtəlif formada həzrəti Əlinin (ə.) adı yazılıb.

Bəri başdan etiraf edək ki, binanın qalıqları və onun haqqındakı tarixi məlumatlar tədqiqatçılara kömək edə, onların işini asanlaşdıra bilər. Xüsusilə də, İranın Tarix Muzeyində saxlanılan 1885-ci ilə aid qeydlər olduqca önəmlidir. Doğrudur, həmin mənbələr 1930-cu illərə qədər yaxşı mühafizə olunsa da, sonrakı proseslərdə korlanmış, bir çoxları yararsız hala salınmışdır. Həmin sənədlərdə məscidin dəqiq yeri, görkəmi verilmişdir. Tədqiqatçı yazır: "Köhnə İrəvanın mərkəzi, onun çox axarlı-baxarlı məhəllələrindən biri olmuş Köhnə məhəllədə bu gün Əli Came məscidinin qalıqlarından savayı başqa bir nişanə qalmamışdır. Sürətli dəyişikliklər nəticəsində İrəvan şəhərinin siması xeyli dəyişib, xüsusilə də 1921-ci ildən bu yana İrəvan fərqli bir şəhərə çevrilmişdir.

XIX yüzilliyin sonlarında və XX yüzilliyin əvvəllərində çəkilmiş şəkillər İrəvan Came məscidinin yerləşdiyi ərazini təsəvvür etməyə imkan verir. Şəkilləri xronoloji ardıcıllıqla nəzərdən keçirdikdə həmin yerin tədricən dəyişdiyini görürük. Beləliklə, hicri-qəməri tarixi ilə 1330-cu ilə qədər (miladi tarixi ilə 1911-ci il) İrəvan sakinlərinin əksər hissəsinin müsəlman olmasını təsdiqləyən məsciddən indi heç bir nişanə qalmayıb. Bu təsvirlər müsəlmanlar yaşayan məhəllələrin və

məscidin ətrafının necə viranəliyə çevrilməsini də əyani şəkildə göstərir".

Bu gün məscidin ətrafı onun öz ərazisindən iki metr hündürdür (Yəqin ki, bu, geoloji proseslər nəticəsində baş vermişdir). Tarixi faktlar həmin məscidin bir zamanlar necə bir qaynar məkan olduğunu təsdiqləsə də, fəqət bu gün onun keçmiş əzəmətindən əsər-əlamət qalmayıb. Bu əraziyə daxil olmaq qadağan edilmişdir. Fikrimizcə, imkan yarandığı halda, bu yerlərdə arxeoloji qazıntılar aparmaqla müsəlman sakinli tarixi İrəvan şəhərinin əslini bərpa etmək olar.

1885-ci ilə aid (hicri-qəməri tarixi ilə 1303-cü il) sənədlər (şəkillər) İrəvan Came məscidinin o zaman hələ dağılmadığını və işlək olduğunu göstərir. Bu vəziyyət hicri-qəməri tarixi ilə 1330-cu ilə qədər (miladi tarixi ilə 1912-ci ilə qədər) davam edib. Həmin dövrə qədər müsəlmanlara Came məscidindən istifadə etməyə rəsmən icazə verilibmiş.

İlk tədqiqat zamanı məlum olub ki, İrəvan Tarix və Təbiət Muzeyi məscid-mədrəsə kompleksinin ərazisini bütünlüklə işğal edilib. Binadan muzey kimi istifadə olunduğu bu 65 il ərzində ona vəhşi münasibət bəslənilib. Dağıdıclıq elə bir səviyyədə olub ki, bu, faktiki olaraq məscidin fiziki mövcudluğuna son qoyub...

Məsciddə çoxlu kitabələr var. Cənub-şərq tərəfdəki şəbistanın cənub divarında mehrabşəkilli daşın üzərində nəstəliq xətti ilə Hüseynəli xan, İrəvan şəhəri, "Came məscidi", məscidin tikilməsinə çəkilən xərclər haqqında məlumatları özündə ehtiva edən 12 beytlik bir şeir həkk olunub. Onun sonunda kitabəni yazan katibin adı, yazılma ili (1179-cu il) və binanın tikilmə tarixi göstərilib.

Məscidin tikinti xərci bəylərbəyi, İrəvan hakimi Hüseynəli xan Qacar tərəfindən ödənilib. Həmin məbləğ 6 min tüməndən çox olmuşdur. Kitabələrdə yazıdığına görə, günbəzxana və iki qonşu şəbistandan ibarət olan məscidin əsas hissəsi Zəndiyyə dövrünün əvvəllərində Hüseynəli xan Qacar tərəfindən tikilib və istifadəyə verilib.

Bu məsciddə bir neçə qəbir daşına da rast gəlinib. Məsələn, iki qəbir daşı dəhlizdədir. Onlardan birinin üzərində hicri-qəməri tarixi ilə 1204-cü il yazılıb, qərb eyvanının şimal hissəsindəki digər qəbir daşında isə bu sözlər nəqş edilib:

*Va fədət aləlkərim Bəğirzad*
*Mən əl-həsənat valğəlb-ül islam.*
*Vəl həml-ül zad əğbəh koll-i şeyin*
*İza Kan əl-vofud il-əl kərim.*

*Zamanın əşrəfi nəcib cənnətməkan xanın*
*Mələk sifəti heç bir bəyana sığmaz.*
*O, mələk əxlaqı bəyənilmiş bir insan idi,*
*O, insan libası geyinmiş bir mələk idi.*

*1330*







**Azərbaycan türklərinə məxsus qoç heykəli (Orta əsrlər). İrəvan xanlığı (indiki Ermənistan) ərazisində Azərbaycan türklərinə məxsus heykəllər və qəbirüstü daşlar erməni vandalları tərəfindən məhv edilmişdir**

## Məscidin tikintisinə yardım etmiş şəxslər

Bu məscidlə bağlı diqqətçəkən hadisələrdən biri də hicri-qəməri tarixi ilə 1325 və 1328-ci illərdə onun abadlaşdırılması məqsədilə camaatın maliyyə yardımı toplamasıdır. Həmin vəsaitlə bağçanın ətrafına 22 mildən artıq hasar çəkilmişdir. Ağayi Əbdürrəhman Vahabzadə ianə verənlərin adlarını və verdikləri illəri bir-bir sadalamışdır:

Əli Əkbər Kərbəlayi Əlizadənin ianəsi. 1325
Əmi Hacı Abbaszadə Gəncəvinin şəxsi ianəsi. 1328
Kərbəlayi Rza Hacı Cabbarzadənin ianəsi. 1328

Hacı Mirzə Əlizadənin ianəsi. 1328

Ağa Səməd Bəzzazın ianəsi. 1328-ci il cəmadiül-əvvəl ayının 15-i

Mir Məhəmməd Məhəmmədzadə Səfərlinin ianəsi. 1328

Məşhədi Mürtəza Məşhədi Məhəmməd Əlizadənin ianəsi. 1328

Məşhədi Əli Məhəmməd Qasımzadənin ianəsi. 1328

Bağır bəy Bəzzazın ianəsi. 1328

Məşhədizadənin ianəsi. 1328

Rza bəy Lütfəli mərhum Bəyzadənin ianəsi .1328

İsmayıl Zeynalzadənin ianəsi. 1328

Məşhədi Əmir İbrahim Mircəmilzadənin ianəsi. 1328

Məşhədi Əli Əkbər Kərbəlayi Əsgərzadənin ianəsi. 1328

Kərbəlayi Abbas Əli... Rəcəbin qardaşının ianəsi. 1328

Ağa Mirismayıl Mir Heydərzadənin ianəsi. 1328

Hacı Əliəkbər ağanın ianəsi.

Kərbəlayi Məşhədi Məhəmmədzadənin ianəsi. 1328

Hacı İbrahim Xəlilin ianəsi. 1328

Abdulla Hacı Babazadənin ianəsi. 1328

Məşhədi Yusif və onun qardaşı Ağa Həsənin ianəsi. 1328

Məşhədi Bağır Hacı İbrahimzadənin ianəsi. 1328

Bu məlumatın bir yerində deyilir: “Bu əsərin son hissələrinin yazıldığı günlərdə bizim həmkarlarımızdan olan ağayi Əbdürrəhman Vahabzadə İrəvan "Came məscidi"nin bir şəklini bizə göndərib. Həmin şəkil bir çox cəhətdən əhəmiyyətlidir və gələcəkdə məscid meydanının layihələşdirilməsində ondan istifadə etmək olar. Şəkilin altında konkret tarix göstərilsə də, o, bir o qədər inandırıcı görünmür. Əlimizdə olan digər şəkil-

lərlə müqayisə apardıqda  və məscid hovuzunun ətrafında toplanmış camaatın geyimini diqqətlə araşdırdıqda məlum olur ki, həmin şəkil hicri-qəməri tarixi ilə 1328-ci ildən əvvəlki dövrə aiddir. Yəni şəkil hələ bağçanın ətrafına dəmir hasar (bu, hicri-qəməri tarixi ilə 1328-ci ilə aiddir) vurulmadığı dövrdə çəkilmişdir. Həmin dövrdə məscidin hovuzu çox abad olmuşdur. Belə ehtimal etmək olar ki, möminlər hovuzun ətrafına toplaşaraq, günorta namazı üçün dəstəmaz alırlar. Hələlik günbəzxananın şəbistan qapısı bağlıdır.

Məlumatdan aydın olur ki, bu gün İrəvan şəhərində 8 məscidin xarabalıqları qalmışdır. İran mütəxəssisiləri onların beşinin tarixini araşdırmış, tikilmə və fəaliyyət dövrünü öyrənmişlər.

Məlumatda Sərdar məscid-mədrəsəsi barədə deyilir: "Bu səfərdə Sərdar məscidi ilə yaxından tanış olduq. 1868-ci ildə çəkilmiş 19 saylı şəkli madam Devivlovanın "Səfərnamə"sindəki qravüra ilə tutuşdurduq. Şəkillərin müqayisəsi və şəhərdəki dini ocaqların xarabalıqlarının ilkin təhlili nəticəsində bu məscidin Abbas Mirzəyə və İrəvan qalasının sərdarına  aid olması qərarına gəldik".

1826-cı ildə İrəvana gəlmiş İtaliya diplomatik nümayəndə heyətinin albomundakı 47 saylı şəkil də dediklərimizi təsdiq edir. İrəvan qalasına aid həmin şəkildə qala divarlarının arasından bir məscidin günbəzi görünür. Həmin günbəz tarixçilərin təsvir etdikləri günbəzlə eynidir. Hazırda Sərdar məscidindən təkcə günbəzin şimal-şərq guşəsini saxlayan sütun və ona birləşik hücrə tikintilərinin bir hissəsi qalıb. Bu mədrəsə-məscidin naxışları və onun daş bünövrəsi bir çox cəhətdən İrəvanın "Came məscidi"nə bənzəyir. Doğrudur, bu məscid Qacariyyə dövrünün əvvəllərinə aiddir,

ancaq o, üslub baxımından Səfəviyyə və Zəndiyyə dövrünün memarlıq (İsfahan səbki) xüsusiyyətlərini özündə əks etdirir və öz dövrünün bariz memarlıq nümunəsidir.

"Sərdar məscidi" barədə danışarkən madam Devivilovanın bu məscid (o, bu məscidi qədim memarlıq abidəsi kimi təqdim etmişdir) barədə yazdıqlarını xatırlamamaq olmur. Madam Devivilova iki məqamı xüsusi vurğulamışdır:

1. Filipin də şərhində bu məscidin mərkəzində yerləşən böyük hovuzdan danışılır.

2. Tələbələrin dinləmələrindən, onların təhsillə məşğul olmalarından və məsciddəki şəraitdən, onun şəkildəki əksindən aydın olur ki, bu gün xaraba qalmış məscid bir vaxtlar elm-maarif mərkəzi olub. Ehtimal ki, madam Devivlova o zaman abad İrəvan "Came məscidi"ndə tələbələrin qarşısında çıxış edib, sadəcə olaraq məscidləri qarışdırıb. Belə görünür ki, madam Devivlovanın məlumatı 1881-ci ilə (hicri-qəməri tarixi ilə 1299-cu ) aid olmuşdur. Filipin çəkdiyi şəkillə onun yazdıqları arasında 19 il fərq vardır.

## Ermənistan Respublikasında qalmış islam abidələri

Bir qədər əvvəl Ermənistanda olmuş, onun siyasi, iqtisadi, mədəni həyatı barədə material hazırlamış "Həmşəhri" qəzetinin müxbiri Mustafa Məqsudi Göy məscidin və bu ölkədəki digər qiymətli islam abidələrinin də hazırki vəziyyətinə nəzər yetirmişdir. Onun qələmə aldığı məqalə adı çəkilən qəzetin 3 sayında dərc edilmişdir. Həmin məqalədə deyilir: "İran səfirliyinin Ermənistanın məsul mədəniyyət işçiləri ilə

apardığı üçillik müzakirələrdən sonra da məscid xaraba vəziyyətdədir. O, yiyəsiz və sahibsiz qalmışdır. Bürokratik əngəllər və ötür-ötür oyunları onu təmir etməyə imkan vermir. Erməni tərəfi bu tarixi binanın təmir və bərpasına mane olmaq üçün bütün vasitələrdən istifadə edir.

"Göy məscid" Ermənistanda Səfəviyyə dövründən qalmış yeganə islam abidəsidir. O, İrəvan şəhərindəki "Müqəddəs Sarkis" kilsəsinin yaxınlığında yerləşir. Bu qədim məscid bir zamanlar elmi-ictimai mərkəz olmuş, müsəlmanlar buraya toplaşmışdır. Ancaq sonralar Yazıçılar Birliyinə verilmişdir. İndi isə məscid viranə qalıb. Qeyd edilməlidir ki, Qarabağ münaqişəsi zamanı İrəvan müsəlmanlarının bütün dini mərkəzləri xarabalığa çevrilmiş, bu və digər şəhərlərdəki müsəlman qəbiristanlıqları yerlə-yeksan edilmişdir.

"Göy məscid" 1765-ci ildə təsis edilmişdir. O, Ermənistan ərazisində şiəliyin yeganə sənət nümunəsidir. Məscidin giriş qapısının yaxınlığındakı şərab dükanı adamın gözünə girir. Onunla üzbəüzdə avtobus dayanacağı var. Dağılmış divarların ön tərəfindən vurulmuş paslı dəmir örtüklər bu məscidi kənardan çox kədərli göstərir. Prospektdən baxanda məscid görünmür. Pilləkənlə qalxıb məscidin həyətinə daxil oluruq. Bura sarı, qırmızı yarpaqlarla örtülmüşdür. Döşəmədəki daşlar zamanın zərbələri altında əyri-üyrü şəklə düşüblər. Qövsi qapıları çürümüş hücrələr həyətin hər tərəfindən görünür. Həyətin şərq hissəsi xarabalığa çevrilib, divardakı otlar quruyub-qalıb. Həyətdəki kətilin də üzərinə sarı-qırmızı yarpaqlar tökülüb.

Məscidin firuzəyi rəngli günbəzi uzaqdan cilvələnsə də, yaxına gələndə onun toz-torpağa batdığını görürük. Günbəzin sol tərəfindən bir ağac budağı qalxıb.

Məscidin həndəvərinə səpələnmiş kaşıların üzərində “Qurani-Kərim”in ayələri rəsm olunub və orada hicri-qəməri tarixi ilə 1305-ci il yazılıb.

Həyətin ortasındakı hovuz quruyub, çat-çat olub. Burada bir neçə ala-bula küçük bizi qarşılayıb, ətrafımızda oynaşır. Bir dalandan keçib məscidin şimal hissəsinə tərəf gedirik. Günəş göy günbəzin arxasında parlayır. Qopub-dağılmış daşlar üzərindəki müqəddəs yazılar bir anda xəyalımızı Şah Əbdüləzim ibn Babuyyə dövrünə aparır. Xaraba məscidi tənha buraxırıq. Çıxış qapısındakı dəlikdən gələn səs sükutu pozur. Tramvaylar, avtobuslar, avtomobillər, adamların bitib-tükənməyən gediş-gəlişi... Bura erməni əlifbasının ilk yaradıcısı Mesrop Maştuts prospektidir...

Ermənistanda çox az islam abidəsinin izi qalmışdır, amma onlar böyük dəyərə malikdir. Xarabalığa çevrilmiş "Göy məscid"dən əlavə, Gürcüstan sərhəddi yaxınlığındakı Haxçat adlanan məntəqədə Səfəvi dövrünə aid dini-tarixi abidələr var. Bununla yanaşı, Ermənistan-Türkiyə sərhəddində də son illərdə viranəliyə çevrilmiş bir müsəlman məscidinin izləri qalmaqdadır.

Hazırda "Ermənistan" adlandırılan respublikada və bütün "Qukasiyan" torpaqlarında ən qədim dövrlərdən azərbaycanlılar yaşamışlar, indi isə burada çox az sayda yezidi kürd qalmışdır. Bu bölgənin sakinləri əsasən sünniməzhəb olmuşlar. Onlar ermənilərin təmizləmə siyasəti nəticəsində zorla Azərbaycan Respublikasının müxtəlif ərazilərinə və digər respublikalara köçürülmüşlər. Bu siyasətin davamı olaraq Ermənistanda yaşayan rus və kürdlər də bu respublikadan qovulmuşlar".[1]

---

[1] "Həmşəhri" qəzeti, 25-26 fərvərdin 1375 hicri-şəmsi ili



İrəvanda Azərbaycan türklərinə məxsus Gürcü karvansarasının qalıqları



Köhnə İrəvan bazarı (1905-ci il)

# İrəvan üləmaları və ruhaniləri

Bu bölgədən bir çox görkəmli elm adamları, ruhanilər və din alimləri çıxmışlar. Onların əksəriyyəti ömrünün sonunadək İrəvanda yaşamış və İran-rus müharibələrində fəal iştirak etmişlər. Bir çox ruhanilərin məzarı indi də bu şəhərdə qalıb. Təbrizdəki Hacı Səfərəli məscidinin imam cüməsi mərhum ayətullah Seyyid Höccət İrəvaninin atası ayətullah Seyid Əli İrəvaninin və onun babası ayətullah Seyid Əbdülməcid İrəvaninin *(Şəmsi tarixi ilə 1371-ci ildə vəfat etmişdir)* məqbərəsi İrəvan şəhərindədir.[1]

Doktor Əqiqi Bəxşayişinin yazdığına görə, ayətullah Seyid Əli İrəvaninin ulu babası Xosrov şah dövründə İrəvana köçmüşdür. Seyid Əli hicri-qəməri tarixi ilə 1258-ci ildə İrəvan şəhərində doğulmuş və hicri-qəməri tarixi ilə 1324-cü ildə Nəcəfüləşrəf şəhərini

[1] Seyid Mehdi Dərvazeyi. Ayətullah Seyid Əbdülməcid İrəvaninin tərcümeyi-halı. Məscid nəşri, şəmsi tarixi ilə 1371-ci ilin şəhrivər və mehr ayı

ziyarət edərkən orada vəfat etmişdir. Vəsiyyətinə uyğun olaraq o, "Vadi-ül İslam"da dəfn olunmuşdur.[1]



**Mərhum Ayətullah Mirzə Əli İrəvani**



**Mərhum Ayətullah Mirzə Yusif İrəvani**

İrəvandan başqa məşhur ruhanilər də çıxmışdır. Ayətullah-ul-əzim Seyid Şəhabəddin Mərəşi Nəcəfinin yetirmələri olan ayətullah Mirzə Əbdülhüseyn İrəvani, Mirzə Bağır İrəvani, mərhum ayətullah Seyid Məhəmməd Hadi Milaninin tələbəsi Hacı Mirzə Əliağa İrəvani də əslən İrəvandan olmuşlar.[2]

Ümumiyyətlə, bu şəhərdən çıxan görkəmli din xadimlərinin hamısının adını çəkmək mümkün deyil. Onların arasında elə mötəbər alimlər var ki, onlar təkcə elmi dairələrdə deyil, bütün dünyada şiələrin mərcəyi-təqlidi kimi tanınmışlar. Onlardan biri də Fazil İrəvani kimi tanınan mərhum ayətullah molla Məhəmməd İrəvanidir. Yəhya Dövlətabadi yazır: "Hicri-qəməri tarixi

---

[1] Məfaxer-e Azərbaycan. I cild, səh.211, 243, 357, 408
[2] Məfaxer-e Azərbaycan. I cild, səh.211, 243, 357, 408

ilə 1281-ci ildə şeyx (Mürtəza) Ənsari dünyadan köçür və onun ölümündən sonra görkəmli şəxslərin hamısı ortaya öz iddiasını qoyaraq, onun yerinə keçmək istəyir. Əlbəttə, bu elmi dairənin tələbələrinin də rəis seçkisinə müdaxilə etmək hüququ var idi. Onlar əsasən türklərdən ibarət idilər. Hər qrup hövzə rəisinin onlardan olmasına çalışırdı. Göstərilən vəzifəyə isə iki namizəd vardı – bunlardan biri Ağa Seyid Hüseyn Kuhkəməri, digəri Molla Məhəmməd İrəvani idi. Belə olan halda Hacı Seyid Hüseyn birinci, İrəvani ikinci rəis olur. Ancaq çox keçmədən Hacı Seyid Hüseyn dünyasını dəyişir. Beləliklə, Molla Məhəmməd İrəvani birinci rəis və Şeyx Məhəmməd Həsən ikinci rəis seçilir".[1]

Doktor Əqiqi Bəxşayişi bu görkəmli ruhanini belə təqdim edir: "Ayətullah Molla Məhəmməd ibn Məhəmməd Bağır İrəvani-Nəcəfi böyük fəqih, əxlaq sahibi, fiqh sahəsində hövzənin ən nüfuzlu şəxslərindən biridir. O, görkəmli müctəhidlərdən biri olmaqla, elmi, zəkası, natiqliyi sayəsində fazil şəxslər arasında birinci yerdə dayanırdı. İrəvani hicri-qəməri tarixi ilə 1232-ci ildə İrəvanda dünyaya göz açmış, ibtidai təhsil aldıqdan sonra İraqa köçmüşdü. Əvvəl Kərbəlada mərhum Seyid İbrahim Qəzvinidən dərs almış, sonra dörd il sərasər fiqh və fiqh üsulunu öyrənmişdi. Sonralar Nəcəfüləşrəfə mühacirət edərək uzun müddət həmin şəhərdə yaşamış, tədris və təlimlə məşğul olmuş, müasirləri arasında Fazil İrəvani kimi şöhrətlənmişdi. Ayətullah Seyid Hüseyn Kuhkəməri vəfat edəndən sonra zamanın mərcəyi-təqlidi təyin olunmuş, bütün Azərbaycan və Qafqaz müsəlmanlarının şəri məsələlərlə

[1] Yəhyanın həyatı. I cild, səh.25

bağlı problemlərini həll etmişdir. O, Şeyx Tusi məscidində camaat namazına durar, bütün alim və təhqiqatçılar onun hüzuruna gələrdilər. O, idarəetmə fənninin bilicisi şeyx Murtəza Ənsarinin, ənvarül-fiqh sayılan şeyx Həsənin və məntiq elminin ustadı kimi tanınan şeyx Məhəmməd Həsənin yanında oxumuşdu. Şeyx Ənsari və şeyx Məhəmməd Həsən ona ictihad icazəsi vermişdi.

Onun "Kitab-ül-bey-ül-istidlali", "Ehkam-ül-xələl fil-səlavat", "Əl-məkasib-ül-məhərrəmə", "Hiceyyətizən", "Əmr və nəhy ictimada" risalələrinin, "Əllamə qaydalarına əlavə", "Beyzəvi təfsirinə haşiyə", "Risaleyi-elmiyyə" kimi əsərlərinin adlarını çəkə bilərik.

Mərhum Böyük Hacağa yazır: "O, zəvabət (idarəetmə), məntiq və s. dərslərdə iştirak etsə də, əllamə şeyx Murtəza Ənsarinin mühazirələrinə daha çox vurulmuşdu. Seyid Kuhkəmərinin vəfatından sonra o, mərcəyi-təqlid oldu. Onun öz xətti ilə yazılan "Kitab-ül-bey-ül istidlali" əsərini oğlu Şeyx Mahmudun yanında gördüm".

O, hicri-qəməri tarixi ilə 1306-cı il rəbiüləvvəl ayının 3-də (cümə günü) vəfat etmişdir. İrəvani Şeyx Cavad, Şeyx Mahmud, Şeyx Murtəza kimi saleh alimlər yetişdirmişdir.

İrəvan bölgəsinin görkəmli simalarından biri də həkim Mirzə Əbülqasim İrəvanidir. O, "Məfaxer-e Azərbaycan" kitabında belə təqdim olunur: "Mirzə Məhəmməd İrəvaninin oğlu həkim Mirzə Əbülqasim hicri tarixi ilə XIII əsrin əvvəllərində Azərbaycanın adlısanlı şəxslərindən olub. O, yenilikçi bir təbib, açıqgözlü həkim, bənzərsiz fəqih olmuşdur. Bu böyük alim hicri-qəməri tarixi ilə 1187-ci ilin məhərrəm ayının 18-də (şənbə gecəsi) Azərbaycanın İrəvan şəhərində dün-

yaya gəlmişdir. Valideynləri və bütün nəsli həmin vilayətin üləmalarından olmuşdur.

Böyük fəzilət sahibi və alim olan Mirzə Əbülqasim dini və dünyəvi elmlərdə bənzərsiz idi. Əsli İrəvandan olan bu şəxs İsfəhan şəhərində məntiq və natiqlik elmləri üzrə təhsil almışdı. Kərbəla şəhidlərini ziyarət etdikdən sonra Təbrizdə məskunlaşmışdı. O, böyük fəqihlə Təbrizdə, "Qübbeyi-İslam"da görüşmüşəm. O, istedadlı tədqiqatçı və Mürtəza vurğunu idi. İraqa, Xorasana səyahət etmiş, ömrünün çox hissəsini dövrünün üləmaları və dünyanın fəzilət sahibləri arasında keçirmişdi. İranın bütün ariflərini görmüş, dövrün şeyxlərinin xidmətinə yetmişdi".[1]

Mərhum Mirzə Əbülqasim dini və dünyəvi elmlərin fəziləti ilə bəzənmiş saf xarakterli bir alim, təmizqəlbli bir arif insan idi. O, şəriətdə sabitqədəm, təriqətdə və mücahidətdə fikrini dəyişməyən, əksər elm və fənlərdə, o cümlədən ədəb, şəriət, tibb, hikmət elmləri sahəsində bənzərsiz zəka sahibi idi. O, böyük təfsir ustası ayətullah Seyid Əli Təbatəbaidən rəmz açmağın sirlərini öyrənmişdi. Dövrün irfan sahibi olan şeyxlərin - "Bəhr-ül-məarif" kitabının müəllifi mərhum Molla Əbdüssəməd Həmədaninin, Hacı Məhəmməd Hüseyn İsfəhaninin, Hacı Məhəmməd Cəfər Həmədaninin, Hacı Molla Abbasəli Benabinin *(Allah hamısına rəhmət eləsin!)* təlim etdiyi bilikləri mənimsəmiş və yeri gəldikcə onlardan bəhrələnmişdi. O, qeyd etdiyimiz elmlərdən savayı, tibb sahəsində də geniş biliyə malik olmuş, müalicədə yeni üsullardan istifadə etmişdir. Lakin təbibliklə davamlı məşğul olmamış, daha çox fəqihliyə fikir vermişdir. Qacarlar dövləti, xüsusilə də Abbas Mirzə ona bö-

---

[1] Bustan-ul səyahət, səh.190

yük ehtiramla yanaşar və hər dəfə döyüşə yollanmazdan öncə gəlib onunla görüşərdi.

Azərbaycanın mollabaşısı olmuş mərhum Hacı Mirzə Əbdülkərim *(hicri-qəməri tarixi ilə 1294-cü ildə vəfat etmişdir)* onun övladlarından biri olmuşdu. Nəvəsi Hacı Mirzə Məhəmməd Əli də mollabaşı olmuşdu. Başqa bir nəvəsi Hacı Mirzə Fəzləli isə müctəhidliyə qədər yüksəlmişdi. O, hicri-qəməri tarixi ilə 1287-ci ildə anadan olmuş, müctəhid Hacı Mirzə Məhəmmədhəsən Zinuzinin yanında təhsil almışdı. Sonradan Nəcəfə gedərək burada şeyx Zeynalabidin Mazandaraninin, Kaziminin, Fazil Şəribaninin məktəbində öz elmini təkmilləşdirmişdi.

Bu təmiz qəlbli insan, ilahiyyatçı alim, mütəfəkkir hicri-qəməri tarixi ilə 1237-ci ildə Təbrizdə vəfat etmiş və Seyid Həmzə məqbərəsində dəfn edilmişdi.[1]

Təbrizli filosof Əbdülhüseyn "Mətrəh ül-Ənzar" kitabında yazır: "Abbas Mirzə hicri-qəməri tarixi ilə 1237-ci ildə Osmanlı dövləti ilə müharibəyə yola düşərkən vidalaşmaq və xeyir-dua almaq üçün həkim İrəvaninin yanına gəldi. Görüş zamanı İrəvani dedi ki, siz bu döyüşdə qalib gələcəksiniz, amma inanmıram biz bir daha görüşə bilək. Belə də oldu. O, həmin ildə vəfat etdi".

Mollabaşı kimi tanınan, həkim İrəvaninin oğlu Hacı Mirzə Əbdülkərimin qəbri Təbrizin Sərxab dağındadır. Məscid, təkyə, su anbarı ondan yadigar qalmışdır.[2]

"Səfa" təxəllüslü Hacı Mirzə Fəzləli ağa da İrəvaninin nəvələrindən olmuşdur. O, ədəbi-mədəni fəaliyyətlə məşğul olmuş və ilk Milli Şura Məclisi dövründə

---

[1] Məfaxer-e Azərbaycan, səh.731

[2] Məhəmməd Əli Sofut. Dostların dastanı, səh.79

Azərbaycandan nümayəndə seçilmişdir. Doktor Müctəhidi onu ciddi alim və siyasətçi kimi dəyərləndirmişdir: "Mirzə Fəzləli ağa Mollabaşı Hacı Mirzə Əbdülkərim İrəvani-Təbrizinin oğlu idi. Onun atası Azərbaycanın fəzilət sahiblərindən olmuş və hicri-qəməri tarixi ilə 1294-cü ildə vəfat etmişdir. Hicri-qəməri tarixi ilə 1262-ci ildə Təbrizdə onun fars dilinin qrammatikasına aid risaləsi nəşr olunub. Bu şəxsin əruz vəzni və qafiyə sistemi haqqında da əsərləri də vardır. Mirzə Fəzləli ağa hicri-qəməri tarixi ilə 1272-ci ildə anadan olub və 1337-ci ildə müalicə olunmaq üçün Berlin şəhərinə getmiş və orada vəfat etmişdir.

Mirzə Fəzləli ağanın çoxlu əsərləri var. Onun ən kamil əsəri "Hədayiqül-arifin"dir. Bu əsərdə o, bəzi ayə və surələri təfsir etmişdir. Müəllif öz şərhlərində şiələrin məşhur yeddi böyük kitabına - "Kafi", "Mən la yəhzər-əl fəqih", "Təhzib", "Estebsar", "Vafi", "Vəsail", "Bəhar"a istinad etmişdir.  O, şeir yazmış, divan bağlamışdır.

Əslən İrəvandan olan Mollabaşı tərcümə sahəsində də ciddi fəaliyyət göstərmişdir. Ümumiyyətlə, onun əsli-nəsli irfan və təsəvvüfə bağlı olmuşdur. Şeyxiyyəçilər və şəriçilər arasında mübahisələr də olsa, Mollabaşı hər iki tərəf arasında etimad qazanmışdı. Birinci Məclisə seçkilər zamanı o, şeyxiyyəçilər tərəfindən vəkil seçilərək Tehrana göndərilib.

Mirzə Fəzləli ağa fazil və alim bir insan idi. Onun bilik və zəkasnı iki böyük müasiri də təsdiqləmişdir. Bunlardan biri Seyid Həsən Tağızadə idi. O, "Kavə" qəzetində Mirzə Fəzləli ağanın fəzilətindən və yüksək elmi savadından söhbət açmışdır. Məhəmməd xan Qəzvini isə özünün iyirmi məqalədən ibarət avtobioqrafik əsərində Berlində Mirzə Fəzləli ağa ilə görüşündən və onun geniş zəkasından bəhs etmişdir. O

yazırdı: "Mirzə Fəzləli ağanın ərəb və əcəm ədəbiyyatı sahəsində heyrətamiz biliyə malik olduğunu gördüm".

Mollabaşının nəsli Movləvi soyadını qəbul etmişdir. Bunun la da onlar irfana olan məhəbbətlərini bir daha təsdiq etmişlər.[1]

Kəsrəvi Azərbaycan nümayəndələrinin, o cümlədən Mirzə Fəzləli ağanın Tehrana gəlişi barədə yazır: "Həmin gün Tehranda başqa bir şadyanalıq var idi. Dediyimiz kimi, o gün yeddi vilayətin nümayəndələri Tehrana gəlib çıxmışdı. Adamlar dəstə-dəstə küçələrə çıxır, gələnləri sevinc və sevgi ilə qarşılayırdı. Tehran özlüyündə nadir günlərindən birini yaşayırdı. Həmin dövrdə Azərbaycanın adı daha ucadan səslənirdi. Xalq yeddi vilayətin nümayəndəsinin gəlişini Məclis üçün qələbə hesab edirdi. Sənətkarlar darvazanın ağzında sıraya durmuşdular. Tehran camaatı nümayəndələr gələn kimi onların ayağının altında qurbanlar kəsdi. Hacı Sadıq adlı bir nəfər ucadan şüarlar səsləndirirdi. O, Azərbaycandan gələn nümayəndələrin ayağı altında kəsmək üçün iki yeniyetmə oğlunu gətirmişdi. Ağa Mirzə Fəzləli dedi: "Biz özümüz gərək bu iki növcavanın qurbanı olaq. Bizim dövranımız keçib, biz nə ediriksə, onlar üçün edirik". [2]

Məhəmmədəli şah tərəfindən Məclis top atəşinə tutulduqdan sonra Mirzə Fəzləli ağanın da mənzili qarət edildi. Yalnız çox-çox sonralar ədliyyə orqanı təşkil olunarkən o, Möhtəşəmüssəltənə Mirzə Həsən xanın dəvəti ilə onun üzvü oldu. Hicri-qəməri tarixi ilə 1326-cı ilin rəbiüssani ayının 5-də İran ədliyyə dövlətinin ədalət məhkəməsinin Mirzə Fəzləli ağaya göndərdiyi

---

[1] Bax: Doktor Mehdi Müctəhidi. Məşrutə dövründə Azərbaycanın şəxsiyyətləri, səh.124
[2] Ə.Kəsrəvi. İranın Məşrutə tarixi, səh.216

məktubda oxuyuruq: "Cümə günü... möhtərəm vücudi-şərifinizin ziyarətinə nail olmağı və bununla səadətə yetməyi öz həyatımızda ən yaxşı qənimət və sərmayə hesab edəcəyik".[1]

O, hicri-qəməri tarixi ilə 1334-cü ildə müalicə üçün Avropaya səfər etdi və beş il orada yaşamalı oldu. Petroqrad, Stokholm, Hollandiya və Londona səyahət edərək, elmi, ədəbi, tarixi məsələlərə aid dərin məzmunlu bir "Səfərnamə" yazdı. Onun əsl iqamətgahı və mənzili Berlində olub. O, iranlıların ədəbi cəmiyyətinin üzvü idi... Aşağıdakı bir neçə beyt onun Berlində yazdığı "Novruziyyə" qəsidəsindəndir:

*Yenə Cəmşidin fərvərdin bayramı və novruzdur,*
*Qoca dünyanın cavanlıq çağıdır.*
*Uzaq insanların və sirr əhli olan dostların heç biri*
*Bu məclisdə kədərli və qəmli olmamalıdır.*
*Qəlyanları tez yandırın, ud və bərbətləri çalın!*

*Ey piri muğan, bu gün bayram və şadlıq günüdür,*
*Səndən bir işarə gəlməlidir ki, ləbinin şirinliyini biləк.*
*Zamanı fövtə vermədən Cəmin yadigarı olan çərx*
*dövr eləyir,*
*Asimandan bayram mübarəkdarlığı gəlir:*
*"Yaşasın İran və onun xalqının başı uca olsun!"*

*Bütün iranlılar, onların dünyadakı dostları üçün*
*Dövranın humayununu daim xöşbəxt və*
*səadətmənd et.*
*Elə et ki, bundan dünyaya pay düşsün.*
*Ey bir olan Allah, bütün bu işləri ehtiyacsız et.*

---

[1] Qulamhüseyn Mirzə Saleh. Bohran-e demokrasi dər məcles-e əvvəl, səh.1

O nadir fazil şəxs Berlində vəfat etdi və öz vəsiyyəti əsasında Berlindəki müsəlman qəbiristanlığında torpağa tapşırıldı. Onun başdaşının üzərində bu sözlər yazılıb: "Qalullah təali fil hədisi qüds: La ilahə illəllah hosni. Fəmən dəxəl hosni əmn min əzabi. İlahiyyatçı alim Mirzə Fəzləli Təbrizi İrəvani vəfat etdi. Bu zəngin bilik sahibi olan alim, abid və arif Mirzə Əbdülkərim Mollabaşı Azərbaycanda doğulmuş və hicri-qəməri tarixi ilə 1339-cu ilin cəmadiül əvvəl ayının çərşənbə gecəsi (miladi tarixi ilə 1921-ci ildə) vəfat etmişdir".

## İrəvanın bəzi məşhur adamları

İrəlidəki fəsillərdə haqqında danışdığımız sərdar və əmirlərdən əlavə, bu bölgədən bütün İranda ad-san sahibi olan çoxlu görkəmli insanlar çıxmışdır. Onlardan bir neçəsi haqqında qısa məlumat verək.

Məhəmməd şah Qacar dövrünün sədri-əzəmi olmuş Hacı Mirzə Ağası adı ilə tanınan Hacı Mirzə Abbas İrəvanda doğulub və orada boya-başa çatmışdı. O, bayat tayfasından olan və hicri-qəməri tarixi ilə XIII əsr İrəvan ədib və şairləri arasında böyük nüfuza malik Mirzə Müsəllimin oğlu idi. 14 yaşa qədər İrəvanda ilk təhsilini alan Hacı Mirzə Abbas sonradan təhsilini davam etdirmək üçün müqəddəs Kərbəlaya yola düşmüş və burada bir müddət Fəxrəddin ləqəbli Axund Molla Əbdülsəməd Həmədaninin yanında elm öyrənmişdi. Lakin hicri-qəməri tarixi ilə 1216-cı ilin zilqəddə ayının 18-də (Qədri Xum bayramı günü) vəhabi dəstələri Kərbəlaya hücum edərkən Molla Əbdülsəməd Həmədani şəhid olmuşdu. Bundan sonra Hacı Mirzə Abbas Azərbaycana qayıtmış və naib-üs-səltənət Abbas Mirzə ilə tanış olmuşdu. Abbas Mirzə onu öz məclislərinin yuxarı başın-

da oturdur, xüsusi ehtiram göstərirdi. Bir qədər keçəndən sonra Naib-üs-səltənə onu oğlu Məhəmməd Mirzəyə müəllim təyin edir. O, sonradan düz 13 il şagirdi Məhəmməd şahın sədri-əzəmi olmuşdu. Hicri-qəməri tarixi ilə 1264-cü ildə Məhəmməd şah vəfat etdikdən sonra o, yenidən Kərbəlaya getmişdi. 1265-ci ildə vəfat edən Hacı Mirzə Abbas Kərbəlada dəfn olunmuşdur.

Hacı Mirzə Ağasının tərcümeyi-halını yazmış Məhəmməd xan onun nazir fəaliyyəti barədə deyir: "...Xaricilərlə ən ciddi məsələlərlə bağlı fikir mübadiləsini çox vaxt Hacı aparırdı. Dövlətini və millətini sevən nazirlərin bir qismi vacib idarəçilik işinin niyə bu tədbirsiz adama tapşırılmasının səbəbini anlaya bilmirdilər. Bir-iki məmurun etirazına və narazılığına baxmayaraq, camaat indiyə qədər Hacıdan razılıq edir. Onun dövründə Tehranda çörək bir abbası olmuşdu. Ət, yağ və digər gündəlik tələbat malları o qədər ucuz olmuşdu ki, əhali indiyəcən bu barədə danışır.

Hacı ədalətli idi, heç kəsin edam və həbs olmasını istəmirdi. O, çörəyi tək kəsməz, qonaq-qaranı sevirdi. Ölümə məhkum edilmiş bir çox insanları xilas etmiş, edamdan qurtarmışdı. O, həqiqətən, duası Allah tərəfindən qəbul edilmiş şəxslərdən idi. Dövlətin və xalqın keşiyində dayandığı müddətdə buraxdığı bir-iki səhv və ehtiyatsızlıq Hacının xidmətlərini azaltmır.

Əlbəttə, Allah adamı və iman sahibi olmaq heç kəsin dövlət işində səhv buraxmasına bəraət qazandırmır. Onun yol verdiyi səhvlər daxilindəki pislikdən doğmamışdı. O, bəzi məsələlərdə nə qədər ehtiyatsızlıq edirdisə, xalqa qarşı bir o qədər xeyirxah idi. Xalq onun dövründə əmin-amanlıq içində yaşayırdı. Mərhum şahın ona göstərdiyi etibarın onda biri başqalarına göstərilsəydi, ölkə əhalisinin yarısı qətlə yetirilərdi.

...Bir gün Hacı divanxanaya daxil olur. O, hovuzun kənarında oturub əlini suya salır. O zamankı divanxana işçilərindən biri *(bu yaxınlara qədər sağ idi)* onu görür. Həmin şəxs Hacının yanına bir neçə dəfə xahişə gəlsə də, Hacı onu eşitməmişdi. Buna görə də ürəyində Hacıya qarşı kin bəsləyirdi. O, Hacını hovuzun kənarında görüb, arxadan yaxınlaşaraq, qəflətən onu hovuza itələyir. Biçarə Hacını sudan çıxarırlar və bu əməlinə görə həmin xidmətçini cəzalandırmaq istəyirlər. Ancaq Hacı icazə vermir, deyir ki, bu çarəsiz mənim əlimdən təngə gəldiyi üçün, bu addımı atıb. Bundan sonra Hacı onun xahişini yerinə yetirir".[1]

Hacını mədh edən bir şeirdə deyilir:

*Bu başdan o başa gəzsən dünyanı.*
*Tapmazsan İrəvan qocası tək ziyalı bir insanı.*[2]

Yüksək şairlik istedadı olan Hacı öz müəllimi Fəxrəddin Əbdüssəməd Həmədaniyə olan sevgisinə görə "Fəxri" təxəllüsünü götürmüşdü. Onun şeirlərindən birində deyilir:

*Yenə yar məhəlləsinin havası başımdadır,*
*Dəvəni yüyən çəkən kimi Təbriz də məni özünə*
*tərəf çəkir.*
*Mən Məcnun kimi Leyli həvəsi ilə gecə -gündüz*
*Dağ-daşın seyrini qılmaqdayam.*

Hacı Mirzə Ağasi bir çox risalələr yazmışdır. Onlardan bir neçəsini qeyd etməyi lazım bilirik:

---

[1] Etimadüs-səltənə. Sədrüt-təvarix. Məhəmməd Müşirinin redaktorluğu ilə çap olunub, səh.184
[2] Etimadüs-səltənə. Mirat-ül Bildan. Doktor Hüseyn Nəvainin redaktəsi ilə, I cild, səh.187

1. "Sultanlığın 40 fəsli". Hacı bu risaləni hicri-qəməri tarixi ilə 1245-ci ildə Həcc ziyarətindən qayıtdıqdan sonra Xoy şəhərində qələmə almışdı. Risalə "Müqəddimə", "Əxlaq", "Fəlsəfə" və "Ürfan" adlı fəsillərdən ibarətdir.

2. "Kəlamlar". Ürfani üslubda yazılmış peyğəmbərlik və imamlığın vacib şərtlərini əks etdirən iki qısa fəsildən ibarətdir. Risalə belə başlanır:

"Mənim dediyim məsələ sənin düşüncənə uyğundur,

Xalq düzgün mülahizə həsrətindədir".

3. Hacı bu risaləsində "Səham Abbasiyyə" risaləsindən də bir hissəni xatırladıb.

4. Onun iki adsız risaləsi də vardır. Onlardan biri belə başlanır:

"Bu zəmanə mənim canımı aldı,
Yusifin köynəyinin qoxusunu tapmış kimiyəm.
Qurban olduğum ruh sahibi əmr edir ki...".[1]

İkinci risalə isə belə başlayır: "Ürfan təbii məsələlərə bürünməyib. Aşağı aləmdəki cismin cövhəri iki hissəyə bölünüb...".[2]

İrəvan mühaciri kimi tanınan Hacı Şeyx Həsən rus-İran müharibələrindən sonra İrəvandan Təbrizə köçmüşdü. O, "Daniş" təxəllüsü ilə tanınan Ürfəüddövlə Mirzəxanın atası idi. "Daniş" Qacariyyə dövrünün məşhur adamlarından olub. Doktor Müctəhidi onun haqqında yazır: ""Daniş" təxəllüslü Mirzə Rzaxan Ürfəüddövlə hicri-qəməri tarixi ilə 1270-ci ildə Təbrizdə doğulmuşdu... O, burada ibtidai təhsil aldıqdan sonra bir nəfər tacirin yanında katib kimi İstanbula

---

[1] Əziz Dövlətabadi. Sərayendeqan-e şer-e parsi dər Qəfqaz, səh.306

[2] Yenə orada, səh.45

getmişdir. Orada  fransız və ingilis dillərini müəyyən qədər öyrənən Daniş İstanbuldan Qafqaza gələrək Tiflisdə konsulun diqqətini çəkmiş və  nəhayət, İran konsulluğunda tərcüməçi sifəti ilə işə qəbul olunmuşdur. Hicri-qəməri tarixi ilə 1296-cı ildə ərəb əlifbasının çətinliklərindən və onun dəyişdirilməsinin vacib olmasından bəhs edən "Risale-ye rüşdiyyə" adlı kitab yazaraq çap etdirmişdir. Həmin kitab ona elə bir şöhrət və ad-san qazandırdı ki, sonda Peterburqda İranın səlahiyyətli nümayəndəsi təyin olundu.

Miladi tarixi ilə 1899-cu ildə müharibənin qarşısının alınması məqsədi ilə Haaqada dünya ölkələrinin nümayəndələrindən ibarət bir konfrans keçirildi. Həmin konfransda bağlanan sülh müqaviləsi sülhsevərlər tərəfindən yüksək qiymətləndirildi. Onlar elə guman edirdilər ki, bu addımla ümumi sülhə nail olunacaq. Ürfəüddövlə bu konfransa İran dövləti tərəfindən nümayəndə seçildi və o, "Sülh məsnəvis"i adlı bir şeir yazaraq onu bütün ölkələrin prezidentlərinə və rəhbərlərinə göndərdi.

Konfrans ümumi sülhü qoruya bilməsə də, bəşəriyyət üçün faydalı və əhəmiyyətli bir addım atılmışdı. Ümumiyyətlə, yalnız sülh məqsədi ilə böyük və kiçik dövlətlərin nümayəndələrindən ibarət bir konfransın təşkil edilməsinin özü mühüm hadisə idi. Buna görə də Asiyanın kiçik bir dövlətinin nümayəndəsi olan Ürfəüddövlənin "Sülh məsnəvisi" yazması və əsərin şairin özü tərəfindən təbliğ edilməsi onun diqqət çəkməsinə səbəb oldu və o, bir neçə dilə tərcümə olundu.

Belçika Sülh Cəmiyyəti Ürfəuddövlənin beş büstünü hazırlayıb, Lion Universitetinə, Belçika Sülh Cəmiyyətinə, Ürfəuddövlənin özünün Tehranda təsis etdiyi "Daniş" məktəbinə, Monako Universitetinin Qale-

reyasına, Monakodakı şahzadə Albert Beynəlxalq Sülh Cəmiyyətinə göndərdi. Belçikanın Lion Universiteti ona Şərq ədəbiyyatı sahəsində doktor, Paris Sülh Cəmiyyəti isə "Prins sülh" adını verdi. Xülasə, qısa zaman ərzində bizim mütərcimimiz bir əsər çap etdirmək sayəsində çox münasib mövqe, geniş populyarlıq, belə demək mümkünsə, dünya şöhrəti qazandı. Sülhsevərlər istəyirdilər ki, bu sahədə bir nəfəri məşhurlaşdırsınlar, o da bu insanın bəxtinə düşdü.

Prins Ürfə "Sülh məsnəvisi"ndən əlavə, farsca, türkcə, fransızca ondan artıq mənzum və mənsur risalə çap etdirib. O risalələr müfəssəl şəkildə bizim tərtib etdiyimiz "Ürfənamə"də dərc olunub".[1]

Öz şeir divanında təkrar-təkrar Ürfəuddövləni mədh edən şəxslərdən biri də Mirzə Əli Ləli olmuşdur. Aşağıdakı qitə Mirzə Rzaxan səfirliyə göndəriləndə yazılmışdır:

*Ey Ürfəuddövlə, dövlət səndən razıdır,*
*Sən həm prins rütbəsindəsən, həm də əşrəfsən.*
*İndi ki, sən səfir və sərdar oldun*
*Sənin vəsfində qələm qılınca dönüb.*

Məşhur Azərbaycan şairi Mirzə Əli Ləli hicri-qəməri tarixi ilə 1252-ci ildə İrəvan şəhərində dünyaya göz açmış, 20 yaşında atası Hacı Ağa Mirzə ilə Təbrizə getmişdi. Alimin bacısı oğlu, mərhum Hüseynağa Naxçıvani Təbriz Ədəbiyyat İnstitutunun hicri-qəməri tarixi ilə 1335-ci ilin baharında çap etdiyi jurnalda dayısı haqqında yazır: "Mirzə Əli Ləli XIII əsrin ikinci yarısında və XIV əsrin əvvəllərində məşhur hikmət və

---

[1] Doktor Mehdi Müctəhidi. Recal-e Azərbaycan dər əsr-e məşrutiyyət, səh.12

ədəbiyyat bilicilərindən biri idi. Bu böyük alim həm də şeirdə fövqəladə istedada malik idi. Onun şeirləri sadə və aydın, dolaşıq fikirlərdən uzaq, eyni zamanda dil və üslub baxımından mükəmməl poeziya nümunələridir. Şair Xoydan İrəvana gəlmiş Hacı Həsən adlı bir şəxsə müraciətlə yazdığı satirasında deyir:

*Görün, Hacı Həsən ağa nə qədər canə gəlib,*
*Dayanmayıb bu qışı Xoydan İrəvanə gəlib.*
*Bu vəxtidə onu qoymadılar çıxa evdən*
*Görəsən, onlara nə üzr və bəhanə gəlib?*
*Bəli, əgər İrəvan gərmsir olsaydı,*
*Demək olurdu qışı şahsun Muğanə gəlib.*
*Və ya olaydı bu yerdə bir övliya qəbri,*
*Bərayi nəzir deyərdim bu astanə gəlib.*
*Bu yer həmin İrəvandı ki, qışda daş çatlar*
*Həmişə bu qış əlindən öz əhli canə gəlib.*
*Yayı-yazı buraxıb qışda çıxmayan səfərə*
*De, bir görüm sənə, ey bəndeyi-xuda, nə gəlib?*

Mərhum doktor Əbdülhadi Hairi Məhəmməd Nədim İrəvaninin özünü və əsərini oxuculara təqdim edib. Onun yazdıqları barədə qısaca danışacağıq. Doktor Hairi yazır: "Məhəmməd Nədim Barforuşinin (Hicri-qəməri tarixi ilə 1241-ci ildə (miladi tarixi ilə 1825-ci ildə) vəfat etmişdir) Qərb tərəfindən istismarın genişlənməsi müqabilində və İranda qarışıqlıq düşdüyü bir vaxtda idarəçilik, maliyyə və hərbi sahədə islahatların aparılması təklifi ilə yazdığı əsərlərin bəzisi təsir altında yazılsa da, lakin çox tutumlu, səlisdir. O, Fətəli şahın sarayında kitabxanaçı, şahın qiraətçisi və nədimi olmuşdur. Onun atası Məhəmməd Kazım İrəvani Barforuşi Ağa Məhəmməd xan Qacarın sarayında "xansalar" kimi tanınırdı. Fətəli şahın nədimindən qalan yega-

nə kitab "Məfrəhül-qülub"dur. Onu İranda tapa bilmədik. O, kitabın yeganə əlyazma nüsxəsi Britaniya muzeyinin kitabxanasında qalıb... "Məfrəhül qülub"ün beş fəsli əxlaq haqqındadır. Kitabın "Xatimə" adlanan bölməsi də beş məqalədən ibarətdir.[1]

Bu bölgənin müasir İran tarixində adı keçən əsas şəxslərindən biri də Münşizadədir. Müvərrixüldövlə Sepehr onun haqqında yazır: "Mirzə Kərim xan Monşavofun oğlu Mirzə İbrahim Münşizadə İrəvanın tanınmış və əsilzadə nəslindəndir. 1126-cı ildə şah sultan Hüseyn Səfəvi tərəfindən XIV Luinin sarayına səfir göndərilən Məhəmməd Rza bəy də həmin nəslin başçılarından idi.

Münşizadənin atası Kərim xan hicri-qəməri tarixi ilə 1307-ci ilin əvvəllərində Nəsrəddin şah Avropaya sonuncu dəfə səfər edərkən ondan İrana köçməyə icazə istəyir. O vaxt 11 yaşı olan oğlu İbrahimlə birgə hicri-qəməri tarixi ilə 1307-ci ilin cəmadiülaxir ayında Tehrana gəlib çıxır.

Kərim xan kazak kazarmasında ruslar əleyhinə qrup yaradır və bundan qorxan Kaskov Qacar qəsrindəki qonaq evində ona işgəncə verir. Münşizadə atasından sonra kazak kazarmasına daxil olur və bütün ömrü boyu burada ruslar əleyhinə iş aparır. Nəhayət, o da məşhur Lyaxovun qəzəbinə gəlir və hicri-qəməri tarixi ilə 1325-ci ilin səfər ayında dostu, briqada generalı Əsədullah Əbulfətzadə *(Əbülfətzadənin tərcümeyi-halı ilə tanış olmaq üçün "Varlıq" jurnalına bax. Hicri-qəməri tarixi ilə 1372-ci ilin payız nömrəsi)* ilə birgə kazak kazarmasından çıxıraq Məşrutə mücahidlərinə qoşulur. Məşrutə yaranandan sonra Münşizadə

---

[1] Nəxostin ruyarui-ye əndişegəran-e İran ba doruye-ye təməddon-e burjuazi-ye Qərb, səh.443

bir çox mühüm vəzifələrdə çalışmış, Qar və Feşafuyədə maliyyə işçisi, hicri-qəməri tarixi ilə 1332-ci ildə Xar və Firuzkuhda maliyyə nəzarətçisi olur. Daha sonra isə o, Cəza Komitəsinin əsasını qoyur.[1]

1378-ci şəmsi ilində Türkiyədə vəfat etmiş məşhur tərcüməçi Məsud Rəcəbniya İranda tanınan məşhur irəvanlılardan idi. İrəc Əfşari onun haqında yazır: "Güclü qələmə sahib tərcüməçi, ədəbiyyat və mədəniyyət yanğısı ilə yaşayan insan Türkiyədə vəfat etdi. Atası Rəcəbov tanınmış ziyalı idi və İrəvandan İrana köçmüşdü. Doktor Yusif İrəvaninin dostlarından və həmyerlilərindən idi. Rəcəbovun üç oğlu var idi; Məhəmməd Asim *(O da mütərcim idi və 1323-cü ildən başlayaraq onun tərcümələri dövrün jurnallarında nəşr olunurdu. Bir-iki roman tərcümə edib)*, mühəndis Davud Rəcəbi *(Müsəddiq dövlətində nazirlikdə işləyib)* və bizim fazilimizin qiymətli dostu Məsud Rəcəbniya.

Doktor Mirin oğlanları deyirdilər ki, onların mərhum ataları İsveçdən İrana qayıdanda fars dilini dürüst bilmirdi. Doktor Mir həmişə deyirmiş ki, fars dilini Məsuddan öyrənmişəm. Məsud üç-dörd yaşında ikən doktor Mir onunla böyüklərdən daha çox söhbət edərmiş.

Rəcəbniya tarixi kitabları və Səfərnamələri tərcümə etməyi sevərmiş. O, Bəhmən Əncüməninin səmimi üzvlərindən idi. Bəhmən Əncüməni əlli il doktor Məhəmməd Dəbirsiyağinin və doktor Məhəmməd Cavad Məşkurun sayəsində mövcud olmuş və hələ də bir neçə nəfərin hesabına yaşamaqdadır.

Rəcəbniya nəfsi tox, insansevən adam idi. O, aramla danışardı və şirin bəlağət sahibi idi".[2]

---

[1] İran dər cəng-e bozorg, səh.416
[2] "Buxara". 6-cı say, 1378-ci ilin xordad və tir ayları, səh.215

# İrəvan şairləri

İrəvandan bir çox görkəmli şairlər çıxmış və onlar şeirlərini əsasən Azərbaycan türkcəsində və farsca yazmışlar. Onların arasında ərəb dilində yazanlar da olmuşdur. Əvvəlki səhifələrdə həmin şairlərdən bəzilərinin haqqında qısa məlumat verdik və onların yaradıcılıq nümunələrilə tanış olduq. Sonda bir daha bu mövzuya qayıdaraq İrəvan əsilli bəzi sənətkarlar barədə söhbət açmaq, onların yaradıcılığından qısa nümunələrlə sizi tanış etmək istəyirik: Aşüftə İrəvani, Aşub İrəvani, Bidil İrəvani, Çeşmə İrəvani, Höccət İrəvani, Hərif İrəvani, Dəlil İrəvani, Şakir İrəvani, Fəxri İrəvani, Qabil İrəvani, Qüdsi İrəvani, Nazim İrəvani və s.

Onlardan üçü, Rzaqulu xan - Çeşmə İrəvani, Hüseynəli xan - Qabil İrəvani, Həsən xan - Şəhab İrəvani təxəllüsü ilə yazıb yaratmışdır. Çeşmə və Qabil İrəvani Fətəli şahın oğlu Mahmud Mirzənin yaxın qohumu, Şəhab İrəvani isə Fətəli şahın digər oğlu Rüknüldövlə adlanan Molla Zaman Əlinağı Mirzənin nəslindən idi.

**Aşüftə İrəvani**nin əsl adı Kəlb Hüseyn bəy idi. O, İrəvanın əsil-nəsəbli ailəsindən çıxmış və vilayət şeyxülislamı Hacı Molla Məhəmmədin qardaşı oğlu idi. Cavanlığında Tehrana gələrək Zilli-sultan Əlişahın himayəsində yaşamışdı. Onun bəlağətli və lətafətli nitqinə müasirləri həsəd çəkmişdir. Aşuftə İrəvani şeirlərindən birində deyirdi:

Dedin, mənim vüsalımı məgər yuxuda gördün?
Məgər mən yata bilirəm ki, yuxu da görəm?

**Aşub İrəvani:** Bu təxəllüs altında yazıb-yaradan Mirzə İsmayıl hicri-qəməri tarixi ilə XIII əsrin məşhur İrəvan şairlərindən olmuşdur. O, Fətəli şah Qacarı

(hicri-qəməri tarixi ilə 1211-1250) mədh edən çoxlu şeirlər, qəsidələr yazmışdır.

O, Müslümün oğlanlarının məzarı üstündə Hüseyn xan (Fətəli şahın kürəkəni və İrəvan hakimi) və onun qardaşı Həsən xan tərəfindən ucaldılmış məqbərəni ziyarət edərək aşağıdakı beytləri söyləmişdi:

*Sarayı asimana ucalan xaqanın hakimiyyəti dövründə,*
*Cəsarətli şəhriyarın dünyanı bəzədiyi günlərdə,*
*Aşub öz qələmilə bu möhtəşəm tarixi yazdı...*
(Bu səadətin əsasını Hüseyn və Həsən qoydu)

**Bidil İrəvani:** İrəvanın tanınmış zadəganlarından biri olan bu şəxsin əsl adı Paşaxan idi. O da hicri-qəməri tarixi ilə XIII əsrin istedadlı şairlərindən hesab olunur. "Bidil" təxəllüsünü qəbul etmiş sənətkarın ürəyəyatımlı məhəbbət şeirləri vardır:

*Hüsnündə və nazında çox fitnələr var,*
*Kaş ki, əhdində vəfalı olaydın.*
*Gəldin, gəlişinlə behişti bəzədin,*
*Getdin, gedişinlə qiyaməti əyan etdin və qiyamət qopardın.*
*Əgər sənin billur kimi əlindən bir cam içsəm,*
*Məst olub, məhşər gününədək özümə gələ bilmərəm.*

**Çeşmə İrəvani:** Əsl adı Rzaqulu idi. O, Fətəli şahın oğlu Mahmud Mirzənin əmirlərindən olan Məhəmməd xan Qacar İrəvaninin oğlu idi. Rzaqulu İrəvani illərlə Nəhavənddə şahın baş xidmətçisi olmuş, yüksək əxlaq və mədəniyyəti ilə fərqlənmişdi. O, hər yerdə hörmət və izzətlə qarşılanmışdı. Aşağıdakı nümunə onun şeirlərindəndir:

*Əgər bu dilbər mənə mehribandırsa,*
*Asimanın mehriban olmaması da kədərli deyil.*
*Qəlbimdən çıx, ey qəm, çünki bu gecə*
*Canan ilə görüş ehtimalı var.*

**Höccət İrəvani:** Mirzə Məhəmməd İrəvani hicri-qəməri tarixi ilə XIII yüzilliyin söz sahiblərindəndir. Fətəli xan Səbanın qəsidəsinə cavabında İrəvan sərdarının dilindən aşağıdakı mətləli şeiri deyib:

*Ey Səba, sənin yurdundan bu diyara səba gəldi,*
*Onun ətrindən hər yan müşki-ənbər qoxusu ilə doldu.*

**Hərif İrəvani:** Hicri-qəməri tarixi ilə XIII əsrdə yaşayıb. Naibüssəltənə Abbas Mirzənin mədhinə aşağıdakı mətləli qəsidəni yazıb:

*Novruz gəldi və isfənd ayı keçdi,*
*Keçdi azər ayı və yenə gəldi azar ayı.*

**Dəlil İrəvani**: Fətəli şah Qacar dövrünün şairidir. Şahı mədh edən bir qəsidə yazıb və həmin qəsidənin bir yerində İrəvan hakimi Hüseyn xanın bünövrəsini qoyduğu İrəvan məscidinin tikintisindən söz açmışdı:

*Bu mina üzlü məscid*
*İrəvanda da onlardan yadigar qaldı,*
*Dəlil ondan ilham alıb, yazıb- yaratdı,*
*Onların xeyirxahlığından bir məscid ucaldı.*

**Şakir İrəvani**: Şeyx Musa İrəvani hicri-qəməri tarixi ilə XIV əsrin söz sahiblərindəndir. O, Şakir təxəllüsü ilə yazıb-yaratmışdır. Şeyx Musa xoşavazlı

vaiz, şirindilli natiq olub. Çiçək xəstəliyi nəticəsində iki gözünü itirmiş və üzü çopur-çopur olmuşdu. O, hədsiz güclü hafizəyə malik olub. Şair dostları arasında qurman kimi tanınıb, çillə plovu və badımcanı sevib. Çox vaxt aşağıdakı beyti zümzümə edərmiş:

*Canım kimi sevdiyim yeməklər*
*Çillə, cücə və badımcandır.*

**Şəhab İrəvani:** Məhəmməd xan Qacar İrəvaninin oğlu Həsən xan ilk gəncliyindən nümunəvi əxlaqı, gözəl davranışı ilə seçilib. O, dövrünün elmlərini kamil öyrənib. Məhəmməd Mirzə yazır: "Həsən xan gəncliyində Əli Nağı Mirzənin yaxın dairəsinə düşüb və indi də (hicri-qəməri tarixi ilə 1240-cı il) həmin şəxsin yanında hörmət və izzət sahibidir. Bu insanların köməyi ilə qəzəl yaradıcılığında xeyli irəli gedib". Həsən xan Mahmud Mirzəni mədh eləyən bir şeirində deyir:

*Zülfün üzündə oddan çıxan tüstüyə bənzər,*
*Ey hökmdar, sənin tüstündən göz yaşarır.*

**Qabil İrəvani:** Məhəmməd xan Qacarın oğlu, Çeşmə və Şəhab İrəvanilərin qardaşı olan Hüseynəli Mahmud Mirzənin müasirlərindən və yaxınlarındandır. Onun belə bir şeiri var:

*Sənin zülmlərindən çox gileyim var,*
*Bizim gileyimiz çox, sizin hövsələniz.*
*O uzun hörüklərdən təkcə mən həyəcanlı deyiləm,*
*Bu hörüklər mənim kimi çox insanları divanə etmişdir.*

**Nazim İrəvani:** Abbasqulu xan Cavanşirin oğlunun yavəri olan Əli Əkbər xanın oğlu Əli xan İrəvandan İrana köçmüşdü. Nəsrəddin şaha yaxın idi. Bir müddət

xarici işlər naziri və ədliyyə naziri olmuşdu. Əli Əkbər xan Təbrizdə məskunlaşmışdı. İbrət Naininin yazdığına görə, o, buradan Herata göndərilmişdi... Heratdan qayıtdıqdan sonra Tehrana gəlmiş və orada vəfat etmişdi.

Tehranda doğulan Əli xan fars dili üzrə təhsil aldıqdan sonra orduda xidmət etmişdi. O, polkovnik rütbəsinə yüksəldikdən sonra bir müddət rus səfirliyinin mühafizəsinə rəhbərlik etmiş, sonra köhnə qoşun hissələri dağıldığına görə, kazak məktəbində çalışmış, bir müddət orada hərbi fənləri tədris etmişdi. Tədricən sultanlıq rütbəsinə yüksələn Əli xan dəfələrlə Ərdəbil və Qaracadağa ezam olunaraq orada öz vəzifəsini yerinə yetirmişdir. Bundan sonra ingilis səfirliyinin mühafizəsinə rəhbərliyə cəlb edilmiş və altı il həmin vəzifədə çalışmışdı. Hal-hazırda qoşun komandanlığının baş müşavirlər idarəsində xidmətini davam etdirir. Əsas məşğuliyyəti qəzəl yazmaqdır və bu sahədə mərhum şair Mühitin yolunu davam etdirir. O, şeirlərindən birində yazır:

*Nə üçün sənin ətrini gülə veriblər?*
*Məgər onlar sənin gözəl üzünü görməyiblər.*
*Gülə de ki, rəngin ilə fəxr eləmə,*
*Bir külək əsər səni soldurar.*

*Əgər qiyamət günü Nazim torpaqdan qalxsa,*
*Birinci səni axtarıb tapar.* [1]

---

[1] Tərcümeyi-hallar və ixtisarla verilmiş İrəvan şeir nümunələri *Əziz Dövlətabadinin "Qafqazda fars şeirinin nümayəndələri"* kitabı əsasında hazırlanmışdır.

## İrəvanın Mirzə Müslüm Qüdsinin qələmi ilə tərənnümü

Hacı Mirzə Ağasinin atası “Qüdsi” təxəllüslü Mirzə Müslüm İrəvan şairlərindəndir. O, əsərlərində, o cümlədən üç yüz beytdən artıq olan bir məsnəvisində doğulduğu torpağı vəsf etmişdi. Beytləri kitabın müxtəlif fəsillərində Həsən Xəttam adı ilə verilən bu məsnəvini oxuculara təqdim etmək yaxşı olar. Əziz Dövlətabadi onun haqqında yazır: "Qüdsi divanının bir nüsxəsi 2814 nömrəsi altında Hacı Məhəmməd Naxçıvaninin “Şadrəvan” kitabxanasında saxlanılır. 23 x16 ölçüdə olan divan 350 səhifədən ibarətdir və hər səhifədə 18 beyt vardır. Burada Rəsuli-Əkrəm (s.s), dövrün əmir və vəzirlərinin tərifi, tarixi hadisə və faciələrə, böyüklərin vəfatına aid madeyi-tarixlər, fars, türk, ərəbcə məsnəvilər, qəzəllər yer almışdır.

Bu məsnəvidə Çuxursəd, Qırxbulaq, Xan bazarı, Dərəbağı, Xan məscidi, Göyçə yaylağı kimi İrəvan məhəllələrinin bir çoxunun adı çəkilir".

## Mirzə Müslüm Qüdsi
## "İrəvanın vəsfi" məsnəvisi

*Yer üzü Şərqdən Qərbə, heç şübhəsiz,*
*İnsanın cismi kimidir bir fərqsiz.*
*O üzdən ki, bədən cana möhtacdır,*
*Bu bədənin ruhu məhz İrəvandır.*
*Onda ki, səadət tutmuşdur qərar,*
*Ondan adın  Çuxursəd qoydular.*
*Fələkdən nə qədər ad nazil olsa,*
*Dünyada ona tay tapılmaz əsla.*
*Xoşbəxtlikdə o qədər ki, müşərrəf,*
*Vilayət adın ondan almış, əlbət.*
*Çün qızıldan qiymətlidir torpağı,*
*Bəs ondan törəmiş dövləti, varı.*
*Gümüşdən qiymətli bir içim suyu,*
*İnsana can verər bu su, doğrusu.*
*Torpağının hər qarışı qazılar,*
*Tanrı sənətinin mədənini andırar.*
*Birisi canın qoya bu  ölkəyə,*
*Sahib olar çoxlu vara-dövlətə.*
*Kimsə bir ovuc yerə toxum səpər,*
*Ondan sonsuz qədər məhsullar dərər.*
*Hər qarışı bərəkət torpağının,*
*Tükənməzdir il boyu məhsulu.*
*Torpağının dəmyədir hər parçası,*
*Bir çaya deyil möhtac tüm bucagı.*
*Araz nəhri qollarsız Araz deyil,*
*Dəryaya qovuşmasi yaxın deyil.*
*Var suyunun şirinliyi bu sayaq,*
*Saysız qollarından deyildir uzaq.*
*Kimsə ona sahib ola bilməzdi,*
*Gər İrəvan bunu rəva görməzdi.*

*Hər yaz geniş çölləri başdan-başa,*
*Yağış sularından olar tamaşa.*
*Qış gələndə dagları sonsuz qardan,*
*Gümüş kimi bərq vurarlar uzaqdan.*
*Bu yerlərin misilsiz ab-havası,*
*İnsanın başından alar həvəsi.*
*Saray baxçaların sonsuz səfası,*
*Oğrunu sənətdən eylər, qısası.*
*Məhlələri vüsal kuyun andırar,*
*Pərişan qəlblərin şamın yandırar.*
*Qədim şəhrin  möhtəşəm hər küçəsi,*
*Cənnət bağının, san, bir nişanəsi.*
*Ürəkləri ovlayan bir şəhər bu,*
*Sinələri oxşayan bir məkan bu.*
*Yarandığı gündən bu günə kimi,*
*Görməmiş siması xəzan nəsimi.*
*Qırxbulağın zülal çeşməsi axar,*
*Abi-kövsər kimi hər yerdən keçər.*
*Kimsə suyundan bir qurtum gər dadar,*
*Meyin tamın həmən o an unudar.*
*Ağaclardan ucadır sarayları,*
*Günəş işığına oxuyar meydan.*
*Ağac budaqları bir tavus kimi,*
*Başında oluşan bir çətir kimi.*
*Hər tağının günəşli işləməsi,*
*Üfüqdə günəşin bir nişanəsi.*
*Hər kimi tutsa İrəm paxıllığı,*
*Xatirindən pozular rahatlıgı.*
*Suyu şuxluqdan, elə bil, gülər,*
*Can evindən qəmi, kədəri silər.*
*Cənnət məkanıdır ab-havası,*
*Ruha qida verər zövqü səfası.*
*Əbədi həyat ağacıdır, sanki,*

*Qocalığında da bar verər çünki.*
*Eyş və işrət saçan bu saraylarda,*
*Naxoşluq ürəkdə heç olmaz peyda.*
*Gər son zamanlar düşmüş fitnə-bəla,*
*Qiymətli nüfuzu olmuş mübtəla.*
*Əmniyyətini Xuda var eyləsin,*
*Qönçə dodağın gülümsər eyləsin.*
*Bazarı, xanı və karvansarası,*
*Gül üzlü gözəllər onun səfası.*
*Əhli dünyagörmüş bu uca yerin,*
*Cümləsi yaranışıdır göylərin.*
*Buralarda tədbirlidir hər bir kəs,*
*Öz qismətini arar, yazar hər kəs.*
*Camaat ölkəsi tək xoşsifətdir,*
*Əhali elmə qarşı xoşxilqətdir.*
*Yaranışının gözəllik mizagı,*
*Xatırladır Səfaxan çarbazarı.*
*Dükanı, pasajı xatir oxşayan,*
*Gözəl hücrələri əcəb xoşməkan.*
*Hind Turan malları ilə dopdolu,*
*Rum və İran mallarının çox bolu.*
*Burda hər cür ucuz mallar satılar*
*Alış-satış hər zaman rəvac olar.*
*Meydanının kənarları hüdudsuz,*
*Səfasıdır necə hədsiz-hüdudsuz.*
*Xan məscidinin bakirə fəzası,*
*Cənnət bağı parçasının səfası.*
*Yerdəki daşları dür kimi parlar,*
*Hər baxan baxışa bir ruh bağışlar.*
*İşlənmiş beytinin həqqi hörməti,*
*Riqqətə gətirər, inan, abidi.*
*Əgər kimsə burda edə ibadət,*
*Tərk etməz buranı bir daha, əlbət.*

*Göz sataşssa mehrab tağına əgər,*
*Onu görməkdən, inan ki, məst edər.*
*Üfüqün hər bir tərəfindən, sanki,*
*O tağa məhəbbətlər yağar, bil ki.*
*Qaşının çatmasının işarəti,*
*Nakam ürəyə şəfadır xilqəti.*
*Aliliyindən hər bir güşəsinə,*
*Ay, Günəş nur qondurar şüşəsinə.*
*Qübbəsinin firuzədəndir rəngi,*
*Boynundakı daş-qaş kimidir, sanki.*
*Minarəsi-boyu uca ümidlər,*
*Bu çal kişinin əsasına bənzər.*
*Gül dəstələrinin lətafətindən,*
*Açarlar yepyeni güllər ətrindən.*
*İman əhlinə qapısı açılar,*
*Bura girən təklənmiş mələk olar.*
*Bir kimsə görməmiş onun bəlasın,*
*Rəhmətlər olsun qoyana binasın.*
*Xəyal aşa bilməz özəl bürcləri,*
*İnsan tuta bilməz burda heyrəti.*
*Qalası dünyadan tamam ayrıdır,*
*Belə bürclü hasar harada vardır?*
*Tikilişidir dünyada əvəzsiz,*
*Bərklikdə zərbülməsəl oldu, şəksiz.*
*Uca imarətləri zər-zinətli,*
*Qəsrinin mənzərələri ləzzətli.*
*Zəngi çayının vadisi, xüsusən,*
*Xavərnak qəsridir sanki, deyəsən.*
*Çayının səfası ilə qəsrləri,*
*Əlçatmazlıq təsdiqidir rəmzləri.*
*Zəngi çay deyil, cənnət bulağıdır,*
*Aynası gözəlliklər soragıdır.*
*Adı dillərdə onun dastan oldu,*

*Bu səbəbdən də adı Zəngi oldu.*
*Mənbəsindən ta ki, uzaq çöllərə,*
*Suyunun qətrəsi getməz hədərə.*
*Onun saf suyu dür kimi parıldar,*
*Nisan qətrəsi tək od tutar yanar.*
*Suyu içindəki saysız balıqlar,*
*Dalğalardan  parça-parça tək olar.*
*Üzündəki saysız ördək və qazlar,*
*Ovçu və şahinlərdən kənar üzər.*
*Burada ab-hava ənbər kimidir,*
*Körpünün dörd yanı cənnət kimidir.*
*Zəngi ətrafının yaşıl fəzası,*
*Sanki, Avropanın olan nəşəsi.*
*Göz oxşadıqca gülür yer elə bil,*
*Harda var belə gözəllik, onu bil.*
*Çəməndə xoş güllər, səbzələr içi,*
*Yelpazə çəkər hər an Səba yeli.*
*İnsanı şövqü-həvəsə hökm edər,*
*Ruhu və canı  əyləncəyə çəkər.*
*Agil bilə bilməz harda otursun,*
*Güllərdən hansının ətrini alsın.*
*İşrət səfa məclisi dolub daşar,*
*Zövq, əyləncə və gülüş başdan aşar.*
*Hər kim burda baharda getsə bağa,*
*Xəzanında yüz yaz açar uçmaga.*
*Qala ətrafında söyüdlük bağı,*
*Ərən bağçasının eşsiz misalı.*
*Yaşıllıqlarının hər bir parçası,*
*Arxlarladır aşiq-məşuq misalı.*
*Sərvin, ağcaqayının rişəsindən,*
*Ab-kövsər su axar çeşməsindən.*
*Zülal suyu yaşıllıqları bəzər,*
*Göy çəmənləri, sanki, fərşə bənzər.*

*Küknar söyüd ilə olmuş qol-boyun,*
*Narbəndlər başdan ayağa bir oyun.*
*Yasəmənlər kölgəsilə əl-ələ,*
*Hər birinin altı ayrı mənzərə.*
*Gülüstanı bir zümrüd parçasıdır,*
*Qırmızı söyüdü mərcan daşıdır.*
*Yaşıllıqlarında eşq dolu otlar,*
*Səfaları ilə qəlbləri oxşar.*
*Bülbülünün fəğanı yaxın qəlbə,*
*Şəlalə səsi edər axın qəlbə.*
*Cana can verər sərvinin nihalı,*
*Azadlığı əldən alar xəyalı.*
*Söyüd budaqları, sanki, bir Məcnun,*
*Leyli saçları tək olmuş didərgin.*
*Şəhər bağçasından bir az aralı,*
*Əsən külək, sanki, Səba misalı.*
*Ulu böyüklərin təb dünyası tək,*
*Yan-yörəsi çox da genişdir, gerçək.*
*Yenişli-yoxuşlu bütün hər yanı,*
*Cənnət misalı tək səfa bagları.*
*Bağçaları Misir bağları tək,*
*Dadlı-tamlı meyvələr verər qəşəng.*
*Dadanlar bu meyvələrin dadından,*
*Olarlar çox uzaq bir daha qəmdən.*
*Dadı yüz kam ləzzət verər insana,*
*Bal dadı ondan heç düşməz uzağa.*
*Qızılı almalarının ətrindən,*
*İnsana ruh bağışlar ləzzətindən.*
*Ruhu, lətafəti canlı kimidir,*
*Bağban yetirdiyi daru kimidir.*
*Ayaması Qoşazənəxdanlıdır,*
*Dəribən yenməsi daha tamlıdır.*
*Narı dodaqlara təbəssüm qoyar,*

*Dadından dünyada kimsəmi doyar?*
*Ləzzəti fərəh bəxş edər aləmə,*
*Bağların büsatın yayar aləmə.*
*İçi, sanki, balla, şərbətlə dolu,*
*De ki, şərab şüşəsidir dopdolu.*
*Meyvələrinin nur parlaqlığından,*
*Danələri olar kənardan əyan.*
*Yeyliməsi insana qüvvət verər,*
*Həyat mənbəyi tək ona güc verər.*
*Gül, parıltıdan haldan-hala düşər,*
*Bağ onun ətrindən gülaba dönər.*
*Armud düşkünlərə bir əlac olar,*
*Bostan şənliyinə bir saqi olar.*
*Qəndli budaqları qızıla bənzər,*
*Dolu sürahiləri bal və şəkər.*
*Qaranlıqda o çəmənlərdə gecə,*
*Damlası şam tək işıq saçar necə.*
*Şirinlə lətafət araya gəldi,*
*Ondan armud adı dünyaya gəldi.*
*Parlaqlıqda meylər ilə yarışar,*
*Gözəllərlə bir arada sayrışar.*
*Ətəkləri tavus quyruğu kimi,*
*Heyva sarılığı çırağban kimi.*
*O vadinin quruluşu, sanki, Tur,*
*Ağacların rəngi bir behişti-nur.*
*Cənnət ağacından başqa heç biri,*
*Bu heyvalar qədər verəmməz barı.*
*Gözəl şəmailli Yusifin ətri,*
*Bir neçə mənzildən alınar ətri.*
*Yetməz barın qaldırmağa budağı,*
*Torpaq olmuşdur onun səcdəgahı.*
*Bülbüllərin qəmli şaqraq səsləri,*
*Paran-parça edər duyan qəlbləri.*

*Təzə əriyi gözəl bir qız kimi,*
*Yanağın al ilə süsləmiş kimi.*
*Səhər vaxtı günəş üfüqdən parlar,*
*Yanar ağac kimi  parıltı saçar.*
*Kaftanı çün bədəninə təng gəldi,*
*Təpələri zəfərana döndərdi.*
*Bir anda hər şey öz yerini aldı,*
*Buluğ sərhəddinə özü ucaldı.*
*Hər tərəfdən onu arzu edərlər,*
*İstək, arzular baş alar, gedərlər.*
*Bu xoş mənzərənin çox şövqü olar,*
*Bundan çoxlu istəklər peyda olar.*
*O ərik deyildir, gözəl, vüqarlı,*
*Budaqda meyvədir dolu nabatlı.*
*Hacət yoxdur ona tərəf getməyə,*
*Və ya azar edib dərdin çəkməyə,*
*Aşiqlərin o vəfalı məşuqu,*
*Özü düşər, sevindirər aşiqi.*
*Saflığından tumu nəmayan olar,*
*Huri vücudu, sanki, əyan olar.*
*Vəsfin əgər etmək istəsə bir kəs,*
*Dadlara bələd olmalıdlr bəs.*
*Adını dilinə ğətirsən əğər,*
*Şəkərdən dodaqlar yapışar məğər.*
*Üzümlərinin rəngarəngliyindən,*
*İstəklər qarışar onun əlindən.*
*Parlaq ulduzlara tarması bənzər,*
*Ətəkləri tərtəmiz, altı ğülzar.*
*Saysız salxımından nəşələr yağar,*
*Dünya onun eşqinə tərif söylər.*
*Gözəl salxımına nəzər edə kəs,*
*Baxışından ol şəxs həmən olar məst.*
*O nəfis noğulun şəffaflığından,*

*Nəfis zay olar giriftarlığından.*
*Nəşəni üstələmiş dadı ilə,*
*Bir mey mənbəsidir salxımı ilə.*
*Təminin ləzzətindən kam alar nuş,*
*Şirinlik dünyası olar fəramuş.*
*O tapılmaz noğula düşsə kölğə,*
*Ağırlığa dözməz, su olar, bəlkə.*
*Dadlı tamı onun rənginə sığmaz,*
*Lətafəti tum fəzasına sığmaz.*
*Zənginin kənarı, dərə bağları,*
*Dörd tərəfdən xatırladar bulvarı.*
*Fələyin kəhkəşanıdır bəzəyi,*
*Çün burdan alarlar həmən ənbəri.*
*Onun kamalına tam bir nişanə,*
*Ağıllar onunla yetişər kama.*
*Qüdrəti hiyləsiz pərgar yaratdı,*
*Bağçalardan Zəngar xətti yaratdı.*
*Həndəsi gözəlliklərin ziynəti,*
*Gümüşü arxla bəzədi xilqəti.*
*Hər bir bağın var cənnətə oxşarı,*
*Zəngidən çox arxlar onun axarı.*
*Hərəsi bir çeşmə içməli suyu,*
*Gecədən alarlar qara-qorxuyu.*
*Ceşmə nuru Günəş işığı qədər,*
*Topa buludlardan görünər məgər.*
*Ağıl gücü ilə canı dərk edə,*
*Mümkünsüzdür gözlər onu dərk edə.*
*Su sadəliyin isbatı vardır,*
*... dandır ki, dəlili vardır.*
*Xəlxəl gözəlləri xoşsifət olar,*
*Buzun aynasından həm gözəl olar.*
*Ağac boyları huri qaməti tək,*
*Baxan ürəklərə nur verər gerçək.*

*Tuba misal agacın hər guşəsi,*
*Xoşavaz quşların saysız yuvası.*
*Sərməstlər dövrəsində büsat qurar,*
*Başların çiyninə qoyar uyuyar.*
*Söyüdlər sərvləri qucmuşlar, bax elə,*
*Aradan Ay, Gün nuru sızmaz belə.*
*Hər kəs onun ləziz dadına yetər,*
*Şəkər neyinə üzü qarə yetər.*
*Tut ağacının say-hesabsız qolu,*
*Çəmənin olmuşlar ipək örtüyü.*
*Yaşıl yarpaqları mənzərə açmış,*
*Budaqları zümrüd tablo yaratmış.*
*Tut adlı şəkərli noğulu çoxdur,*
*Tərifin yetirmək imkanı yoxdur.*
*Noğulunun ləzzətin Səba ölçər,*
*Xoşluğunu gəlinlər nisar eylər.*
*Onun şövqi məzəsinin şənliyi,*
*Qənd ilə adam ondan alar tərliyi.*
*O, bir huri bakirənini məməsi,*
*Şərbət kamıdır ürəyə nəşəsi.*
*Ballı südü ilə cocuğa məlhəm,*
*Beşik zəifinə bir odur məlhəm.*
*O tapılmaz noğula düşsə nəzər,*
*Şəffaflıqdan ərir, suya dönər.*
*Lütfün gözü ilə, bax, necə haldır,*
*Bir baxmaqla hasil olan kamaldır.*
*Hər yanıyla o qənd parçası yanar,*
*Ulduzlar tək birlikdə də parıldar.*
*Baldır, süddür tərliyindən təzəsi,*
*Kamlar hasilə yetirər nəşəsi.*
*Noğlunun ətəyindən sürüşməsi,*
*Budağına zərər verməz düşməsi,*
*Gər hüsnü insana bir sevincdir,*

*Pulla alınması rəvac deyildir.*
*Bazarı hər ləyaqət sahibinin,*
*Məskənində olar kasad onun.*
*Məxsusən, dünya vəzinən ölkənin,*
*Bilgisi süst ola ölkə əhlinin.*
*Qələm ki, baxçanın vəsfindən yazar,*
*O yazının hər sətrindən bal axar.*
*Bax ki, suyun dəyişən qüdrətinə,*
*Nəbat butə bal olar qüvvətinə.*
*Sənayedə var olmayan ölkənin,*
*Torpağından qənd olar hasil, yəqin.*
*Nazlı dilbərlərin sözü kimi,*
*Həyat bağışlar cana özü kimi.*
*Onda gülabla qənd vüsala yetmiş,*
*Sonda xam şəkərin dadını vermiş.*
*Qəndin gərçi nəşəsi olur da çox,*
*Nə yazıq onun qədər fərahı yox.*
*Del ki, təzə qəndin eşqinə düşər,*
*Dadının atəşi ciyərə düşər.*
*Bitki eşitsə zülalın balını,*
*Tilsimin şüşəsi sanar malını.*
*İncəliyindən bir uşaq kimidir,*
*Dodaqları cocuq təbəssümüdür.*
*Sözlərini gözləri ilə söylər,*
*Özündən təzə qənd olurmu məgər?*
*Yeyə onu, olmamış hasil, xəyal,*
*Ürək parçalanar, üz verər məlal.*
*Birəcik uşaq kimi o nazpərvər,*
*Azca tozdan olar dərdli o sərvər.*
*Bıçaq parıltısı tək üzə düşər,*
*Şəkər tək çilənər, axar da, gedər.*
*Yanında bıçağın çəkilməz adı,*
*Yazılar varlığına anda adı.*

*Nur səsi əgər ona əyan olar,*
*Sanasan, Turi-sina yeksan olar.*
*Musaya çox da vacib olmuş bu iş,*
*Ol vadidə nəleynini çıxarmış.*
*Ud, mişki yetişdirən çəkər cəfa,*
*İyindən ətrafı alarlar səfa.*
*Hər yerdə o yaşasa, salsa məskən,*
*Ətrindən o yerlər olarlar gülşən.*
*Ancaq Misirli lütf üzlü Yusif,*
*Züleyxa mehrinin qurbanı Yusif,*
*Bir anda dost əğyarından ayrılar,*
*Zindanlar qəminə giriftar olar.*
*Qəm yemə, nədən ki, qəm ağladandır,*
*Zindandan çıxanlar əziz adamdır.*
*Əzm yazını alar, yenidən yazar,*
*Yazılmışı qurdlar əlilə pozar.*
*Onun ətrafı yaylaq mənzərəsi,*
*Meydən sonra olan həyat nəşəsi.*
*Gözdə görünər hər kəsə möcüzə,*
*Burda hər bir tərəf özü möcüzə.*
*Ərz ki, gövhər ətəyindən ayrılar,*
*Uzaqlıq, sanasan, bir yaxın olar.*
*Dörd tərəfi yaylaq dağları sarmış,*
*Elə bil, dörd daşı olan daşqaşmış.*
*Bir tərəfdə onun Ağmanqan dağı,*
*İran şahlarının bəyən oylağı.*
*Vəsfinə bəsdir ki, xaması onun,*
*Namələrə olmuş ünvanı onun.*
*Oradan bir adlı-sanlı istəsən,*
*İşrəti natamam olmaz biləsən.*
*İstək yapışar hər kəs yaxasından,*
*Çəkər bura İran uzaqlarından.*
*İşrətin büsatın qurarlar burda,*

*Qalmasın arzular gözdə, ürəkdə.*
*Əgər bu mənanı tuta bilməsən,*
*Təhmasibi, Nadiri düşünəsən.*
*Bir yanda Elaks dağı sərəfrazdır,*
*Gəlintək gözəldir, işvəlinazdır.*
*Tər gül gözəli ilə bir arada,*
*Ürəkdə dözüm şövqü qalmaz arada.*
*Hər yerdən minlərlə çeşmələr doğmuş,*
*Sevinc yaşları tək somsoyuq olmuş.*
*Həkim olaydım kaş, gül cövhəri,*
*Neçə sirrdən hali edərkən əqli.*
*Bir təbdən olur bunca mümkün hasil,*
*Bir qarışdan yüz cür gül olur məhsul.*
*Bütün çöllər, dərə, səhra və düzlər,*
*Maral buynuzundan meşəyə bənzər.*
*Bütün kəvşənləri ahu ilə dolu,*
*Dağlıqları ağlı, bozlu, kəklikli.*
*Havanı tutmuşdur tərlan şahinlər,*
*Tüləklər, qırqovullar, həm laçınlar.*
*Leyləyin balası güclü və nazlı,*
*Poladdan çəngli, almaz dimdikli.*
*Gözəl əlamətli xoş mənzərəsi,*
*Ürəklər ovlayar mənzərəsi.*
*Əgər ondan birini əldə edə kəs,*
*Sanki, vilayəti ovlamışdır bəs.*
*Ovuna elə ki, pərvazlanar o,*
*Cəldlikdə şahini dalda qoyar o.*
*Ov qəsdilə qanad çalanda hərdən,*
*Qartal qorxusundan tük tökər onlar.*
*Erkək quş görsə onun kölgəsin,*
*Yuvasında itirər öz kölgəsin.*
*Tümüylə açarsa ov qanadını,*
*Əsqa quş daha açmaz qanadını.*

*İran Rum şahlarına bir hədiyyə,*
*Tapılmaz belə yaxşı bir töhfə.*
*Pəncəsinin, bil ki, ayrıdır hüsnü,*
*Ki, əldən-ələ gəzidirərlər onu.*
*Yer kürəsində ürəyə ən yaxın,*
*Yumurtadan çıxmış bir bala şahin.*
*Şirin-şəkər camalı-hüsnü onun,*
*Gətirər ağla saf bal aynasın.*
*Ağıllı müdriklər bu görünüşdən,*
*Haqq dünyasına yol açarlar düşdən.*
*Şirindir ağızların püstə suyu,*
*Canın nəşəsinə kam verər suyu.*
*İki yüz arının neştərində nuş,*
*Yazmaqla dadında olmaz fəramuş.*
*Gər dayəsi tifli kamlı böyüdər,*
*Bəxşiş sovqatın ballı götürər.*
*Zaman sonra ömür yetəndə sona,*
*Can vermənin kamı olmaz insana.*
*Gər nasın şəfası balın şəninə yetər,*
*Yeni həyat bundan əvəzsiz olar.*
*Səhəndin, Mişabın yaylaq balları,*
*Dünyada tapılmaz onun tayları.*
*Əgər onları bir araya alasan,*
*Gözəlliklərini ölçmək istəsən,*
*Sonda işin əsli necə hal olar,*
*Kədulu noğul dönər çinar olar.*
*Bircə kasə sən doldurasan ondan,*
*Qabının gili üstən olar əyan.*
*O yaqut məcunun bir parçası olar,*
*Ürək qəmdən həmən fərəhnak olar.*
*Qənnad usta halva bişirsə ondan,*
*Bitki dəmin partlar paxıllığından.*
*Niqabın alı versən rüxsarından,*

*Milçəklər kimi ona cumar insan.*
*O üzdən şəkərli oldu ayinə,*
*Xosrov meyl elədi gözəl Şirinə.*
*Fələk göz aləmə açmış necə?*
*Nəzərin yer üzünə dikmiş necə?*
*Gözəllik məskəni Göyçə yaylağı,*
*Dünyada olmaz ki, onun oxşarı.*
*Başdan-başa o, bir behişt kimidir.*
*Müşg, ənbər, səfadan doğmuş kimidir.*
*Yaşıl xürrəm torpağı zümrüd olmuş,*
*Gülü, yaşılı şehlərə qərq olmuş.*
*Rəngarəng güllərinin işvəsindən,*
*Tüm yer üzü dar olmuş səbzəsindən.*
*O gülşəndən gələn ətir, elə bil,*
*Məryəmdən gələn Məsihidir, elə bil.*
*Necə  ölüm bir dəm cana can verər,*
*Cana can gətirən anadan gələr.*
*Təzə bitki gülləri bir bəzəkdir,*
*Yerə salmış məxməri fərş, bəzəkdir.*
*Nazik ot qorxudan, sanki, titrəyər,*
*Əlifə nəsimi məgər ki, dəyər?*
*Səbzələr bu haldan pəjmürdə olmaz,*
*Soyuqluğundan o, əfsurdə olmaz.*
*Uzaqdan-uzağa gözün görüşü,*
*Dağlar başına yetməz yürüşü.*
*Səbanın yeli ətrafına tələsər,*
*Sonda, sanasan, hasiləmi yetişər?*
*Kimsə bir an bu ölkədə yaşar,*
*Həqiqətin behiştin ondan anlar.*
*Əcaib olar ordakı insanlar,*
*Əgər ki, cənnəti edər təmənna.*
*Kimsə gündən qala bilməz narazı,*
*Buludlar ondan edərlər razı.*

*Bulud deyildir, xoşrəngli bir qanad,*
*Narahat ürəyə verərlər rahat.*
*Bulud deyildir, şahlar çətri,*
*İlahi lütfüdür də həm işığı.*
*Kölgədə fərqli cah-cəlalı gör,*
*Səadətin verdiyi sərmayəyi gör.*
*Bəzən yüngülcə yağdırar yağışın,*
*Səpər o əhli-işrətə yağışın.*
*Bəzən düşərkən parə-parəsinə,*
*Şəbəkələr salar öz dövrəsinə.*
*Hava rəngli suyundan dolu külüng,*
*Huşu aparar o ahəngi-külüng.*
*Gözəl nəqşə kimi çox da aramla,*
*Havada çəkər o xəttlər nizamla.*
*Gah təsbehlər kimi nizamlı olar,*
*Gah da dönər, gedər, nəzmi pozular.*
*Aləmin qəmi ilə gəlsə də o,*
*Təmizlər  ürəkləri qəmlərdən o.*
*Belə qurşaq tutdu dünyada qərar,*
*Üfüqlər də belə oldu bərqərar.*
*Bu cür behiştə oxşar qarış olmaz,*
*O cür də xoş sulu çeşmələr olmaz.*
*Nə çeşmə, deyəsən, kövsər mədəni,*
*Soyuqluqda buzdan olar əzəli.*
*Ondan bir qurtum hansı suya düşər,*
*O su canlanar, həmən canə gələr.*
*Tanrı bu gözəllikləri çox verdi,*
*Altı ölçüdə hüsnü digər verdi.*
*Göyçə gözəllik siması göstərər,*
*Bu mənzərə su çərxi tək dövr edər.*
*Gözəllik o üzə çox da yaraşır,*
*Üzü parlaq aya bənzər, yaraşır.*
*O cilvənin hər bəzək işləməsi,*

*Artırar ondakı başqa bir hüsnü.*
*Burada hər kəs səfa qulluğunda,*
*Bu hər səviyyədə olar ortada.*
*Dövrəsi bu cənnət misal çəmənlər,*
*Özü isə kövsər hovuzu qədər.*
*Sanki əbədilik şux bir gözəldir,*
*Ləpələnən gülərüzlü mələkdir.*
*Bu ləpələrdən qəlblərə qəm girməz,*
*Əksinə, nəşələr ondan əksilməz.*
*Kimsə bu cürə xoş zülaldan başqa,*
*Şirinlik dənizi görməmiş başqa.*
*Nə dəniz, bəlkə, balıqlı bir dəniz,*
*Nə balıq, bəlkə, Tanrı sirri, şübhəsiz.*
*Birisi orda ömrü vursa başa,*
*Eyni balığı görməz ki, olsun qoşa.*
*Balıqlar o qədər ki, çoxluğundan,*
*Su yarıq tapa bilməz sıxlığından.*
*Bir gəmi əgər orda xarab olar,*
*İçinə su deyil, balıqlar dolar.*
*İran Rum ellərində tüm süfrələr,*
*O təzə balıqlar ilə süslənər.*
*Odur Misir qəndi kimi xoş, əndər,*
*Hər tərəfə illik karvanla gedər.*
*Faydalı səfa suyundan nə deyim,*
*Yaraşar ona "həyat suyu" deyim.*
*İki mənalarda edər onca fərq,*
*Biri işıq, o biri zülmətə qərq.*
*İsgəndərin təfəkkürü ecazkar,*
*İsgəndərin bəzək təbi ecazkar.*
*Ki, bu təbii suya siz şükr edin,*
*Zülmətə əcələ qovuşar, bilin.*
*Sorsanız ki, bu su haradan gəlir?*
*Hansı bir ölkədən uzanıb gəlir?*

*Ağmanqan dağından o, rişə alar,*
*Can oylağı olan çöllərə axar.*
*Mühiti naxoşluq qəmindən uzaq,*
*Hava səfasından olar xoşməzaq.*
*Torpağı atəşli kibrit parçası,*
*O üzdən yetirər qızıl parçası.*
*Kəndlərinin xoş ovqatlı durumu,*
*Fələyin dörd səmtindən almış onu.*
*Yerləri hümmət süfrəsi açmış,*
*Arzuya uyğun hər istəyi vermiş.*
*Məhsul artımı o qədər ki, olar,*
*Mühasib bu işə heyrətdə qalar.*
*Birisi o xoş diyara yetişər,*
*Ürəyi qəşş edər, torpağa düşər.*
*Bəli, o torpağın belədir suyu,*
*Kəs görəmməz oxşar yuxuyu.*
*Dünyanın gözü işıq bəzəyidir,*
*Şərur eli ölkələr mələyidir.*
*Elə bir mələk ki, dövr xaqanlığı,*
*Tümü o cah-cəlala hökmranlığı.*
*İstərlər o torpaqdan bircə parça,*
*Mülkləri içində yer ala, bəlkə.*
*Ola ki, o şəhrin sahibi ola,*
*Dünyanın mülkündə bir qəni ola.*
*Əsl adı bu varlı mələyin Sərur,*
*Danışıq dili etmiş onu Şərur.*
*Suru xatırla, ona şur dedilər,*
*İşıq kimi zülmətdə gizlədilər.*
*O mələk xakı rəngilə seçilər,*
*Yetkin ağıl onu cəvahir bilər.*
*İranın o savad bəzək halalı,*
*Odur təşnələrə çarə suları.*
*İlin tüm günləri burada yazdır,*

*Yazı yayı xəzandan çox uzaqdır.*
*Yanvardan iyula otları yaşıl,*
*Çatdırar heyvanı kama bu yaşıl.*
*Əgər hörümçək yetişərsə ona,*
*Neçə gündə dönər nər bir dəvəyə.*[1]

[1] Əsəri fars dilindən Şəmsi Pənahoğlu tərcümə etmişdir.

## Müəllifdən

Yeniyetmə çağlarımdan Arazın o tayındakı məşhur şəhərlərin adlarını eşitmişdim. İrəvan da onlardan biri idi. Tarix və coğrafiya kitabları ilə ünsiyyət qurduğum sonrakı illərdə gördüm ki, bu şəhəri Ermənistan Republikasının paytaxtı kimi qələmə verirlər. Halbuki bu şəhəri də Azərbaycan Respublikasının digər şəhərləri, o cümlədən Bakı, Gəncə, Naxçıvan, Şəki, Şamaxı, Şuşa və s. kimi müsəlman sakinli bir şəhər bilirdim. Bu ziddiyyət beynimdə suallar yaratdı və xeyli müddət idi ki, onların cavablarını axtarırdım. Beləliklə, tale yar oldu və bu məsələ ilə bağlı tədqiqatlara başladım. Nəticəsi möhtərəm oxuculara təqdim etdiyim bu əsər oldu.

Bu əsərin yazılmasında və nəşrində əziz dostlarım köməkçim və yardımçım olublar. Onların sırasında Şərqi Azərbaycan İrs Təşkilatının müavini möhtərəm Ağayi Əbdürrəhman Vahabzadəni qeyd etməliyəm. Bu kitabda Bağır Ayətullahzadə Şirazinin hələ çap olunmamış "İrəvan Camiə Məscidinin tədqiqi və bərpasının layihələşdirilməsi" adlı iki cildlik kitabın "Göy Məscid"ə aid fəslindən də istifadə olunmuşdur. İrəvandakı Göy məscidin şəkillərini mənə onlar vermişdilər.

İrəvan qətliamından xilas olmuş ailələrdən birinin övladı olan və hal hazırda Azərbaycan bölgəsinin ədəbi simalarından sayılan ağayi Nəsir Əhmədi İrəvan Darülmüəlliminin şəklini bizə verməkdən əlavə, məni həmin qətliamdan xilas olmuş digər ailələrlə tanış etmişdir. Onlardan biri onun hörmətli dayısı Mirzə Cəfər Raşidinin oğlu ağayi Əli Raşidi bizə sənəd və şəkillərlə yardım etmişdir.

Bundan əlavə, görkəmli ədib, "Zufa" nəşriyyatının müdiri ağayi Həmid Şahnəği də bu əsərin nəşri və çapı sahəsində xeyli zəhmət çəkmişdir. Bu şəxslərin hamısına təşəkkür edir, onlara cansağlığı, müvəffəqiyyət və başucalığı arzulayıram.

**Səməd Sərdariniya**
*Təbriz, İsfənd ayı, 1378*

## Mənbələr və məxəzlər

Kitablar:


۱- آذربایجان طنز روزنامه لری – ناظم آخوندوف
۲- آغامحمدخان قاجار – پناهی سمنانی
۳- ادبیات در جنگ های ایران و روس – هدایت الله بهبودی
٤- ارس در گذرگاه تاریخ – محمد حافظ زاده
٥- ارمنستان ۱۹۱٥ - ژان ماری کارزو – ترجمه فریبرز برزگر
٦- اسنادی از روابط ایران با منطقه قفقاز – از انتشارات وزارت امور خارجه
۷- اقتصاد و سیاست عصر صفوی – دکتر محمد ابراهیم باستانی پاریزی
۸- انسیکلوپدی آذربایجان – ماده اریوان قوبرنیاسی و اریوان خانلیغی
۹- ایران امروز – اوژن اوبن
۱۰- ایران در جنگ بزرگ – مورخ الدوله سپهر
۱۱- ایران در میان طوفان یا شرح زندگی عباس میرزا – ناصر نجمی
۱۲- ایران و عثمانی در آستانه قرن بیستم – رحیم رئیس نیا
۱۳- ایران و قفقاز – دکتر پرویز ورجاوند
۱٤- بحران دموکراسی در مجلس اول – غلامحسین میرزاصالح
۱٥- پژوهش هائی در تاریخ قفقاز – پروفسور و مینورسکی – ترجمه محسن خادم
۱٦- تاریخ آذربایجان – ترجمه ا.آ.افشار
۱۷- تاریخ آذربایجان – ترجمه دکتر نصرالله اسحقی بیات
۱۸- تاریخ اجتماعی و سیاسی ایران – سعید نفیسی
۱۹- تاریخ اجتماعی و سیاسی ایران در عصر صفوی – دکتر مریم امیراحمدی
۲۰- تاریخ ارمنستان – هراند پاسدار ماجیان – ترجمه محمد قاضی

۲۱- تاریخ اقتصادی ایران – چارلز عیسوی – ترجمه یعقوب آژند
۲۲- تاریخ ایران – پژوهش دانشگاه کمبریج – (ج ٤ و٥) – ترجمه حسن انوشه
۲۳- تاریخ خوی – دکتر محمد امین ریاحی
۲٤- تاریخ ده هزار ساله ایران (ج ٤) – عبدالعظیم رضائی
۲٥- تاریخ سیاسی و دیپلوماسی ایران (ج ۲) – علی اکبر بینا
۲٦- تاریخ شروان و دربند – پروفسور مینورسکی – ترجمه محسن خادم
۲۷- تاریخ عالم آرای عباسی – اسکندربیگ ترکمان – به کوشش ایرج افشار
۲۸- تاریخ فرهنگ آذربایجان – حسین امید
۲۹- تاریخ مشروطه ایران – احمد کسروی
۳۰- تاریخ معصر ایران (ج ۱) پیتر آوری – ترجمه محمدرفیع مهرآبادی
۳۱- تاریخ مغول – عباس اقبال آشتیانی
۳۲- تاریخ مفصل ایران – عباس اقبال آشتیانی
۳۳- تذکرة الملوک – میرزا سمیعا
۳٤- جغرافیای سرزمین خلافت شرقی – لسترنج – ترجمه محمود عرفان
۳٥- حکومت های محلی قفقاز در عصر قاجار – علی پورصفر
۳٦- حیات یحیی – یحیی دولت آبادی
۳۷- خاطرات سیاسی محمدساعد مراغه ای
۳۸- داستان دوستان – محمدعلی صفوت – به کوشش طباطبائی مجد
۳۹- دکتر جوادهئیت (مجموعه مقالات) – باکو – ۱۹۹٥
٤۰- دلاوران گمنام ایران درجنگ های ایران و روسیه – ژان یونیر – ترجمه ذبیح الله منصوری
٤۱- دو مبارز جنبش مشروطه – رحیم رئیس نیا – عبدالحسین ناهید
٤۲- دیوان اشعار میرزا علی لعلی
٤۳- دیوان اشعار میرزا مسلم قدسی

٤٤- دیوان فارسی سید ابولقاسم نباتی – دکتر حسین محمدزاده صدیق
٤٥- رجال آذربایجان در عصر مشروطیت – دکتر مهدی مجتهدی
٤٦- رقابت روسیه و انگلیس در ایران – منشور گرگانی
٤٧- روزنامه خاطرات ناصرالدین شاه در سفر سوم فرنگستان – از انتشارات سازمان اسناد ملی
٤٨- زندگانی شاه عباس اول – نصرالله فلسفی
٤٩- زندگی طوفانی، خاطرات سید حسن تقی زاده – به کوشش ایرج افشار
٥٠- زندگینامه پیر معارف رشدیه – فخرالدین رشدیه
٥١- زندگینامه جبار باغچه بان به قلم خودش
٥٢- سرایندگان شعر پارسی در قفقاز – عزیز دولت آبادی
٥٣- سه سال در دربار ایران – دکتر فوریه ترجمه عباس اقبال آشتیانی
٥٤- شاه اسماعیل صفوی – پناهی سمنانی
٥٥- شاه اسماعیل و جنگ چالدران – حجازی فر
٥٦- شرح زندگانی من یا تاریخ اجتماعی و اداری دوره قاجاریه عبدالله مستوفی
٥٧- سهریاران گمنام – احمد کسروی
٥٨- صدرالتواریخ – محمد حسن خان اعتمادالسلطنه – به کوشش محمد مشیری
٥٩- طرح مطالعه و احیای مسجد جامع اروان – باقر آیت الله زاده شیرازی – از انتشارات میراث فرهنگی
٦٠- عالم آرای نادری – محمد کاظم مروی – به تصحیح دکتر محمدامین ریاحی
٦١- عزیز و دو انقلاب – رحیم رئیس نیا
٦٢- قانلی سنه لر – محمد سعید اردوبادی
٦٣- قدیم ترک – اوغوزیورد و ارمنستان – عزیز علی اکبرلی – چاپ باکو – ١٩٩٤
٦٤- قره باغ در چشم انداز تاریخ – عبدالاحد بهراد
٦٥- قره قویونلو – پروفسور فاروق سومر – ترجمه دکتر وهاب ولی

٦٦- قفقاز در تاریخ معصر – آناهید میناسیان – ترجمه کاوه بیات
٦٧- گلستن ارم – عباسقلی آقا باکیخانوف
٦٨- ماهیت تحولات در آسیای مرکزی و قفقاز – منیژه تراب زاده و...
٦٩- مرآت البلدان – محمدحسن خان اعتمادالسلطنه – به کوشش دکتر عبدالحسین نوائی
٧٠- مفاخر آذربایجان – دکتر عقیقی بخشایشی
٧١- موادالتواریخ – حاج حسین نخجوانی
٧٢- موانع تاریخی رشد سرمایه داری در ایران دوره قاجاریه – احمد اشرف
٧٣- نادرشاه افشار – بادیباچه احمد کسروی
٧٤- نخستین رویاروئی های اندیشه گران ایران با دو رویه تمدن بورژوازی غرب – دکتر عبدالهادی حائری
٧٥- نقش ترکان آناطولی در تشکیل و توسعه دولت صفوی – فاروق سومر ترجمه دکتر احسان اشراقی
٧٦- یادداشت های قزوینی (ج ٣)

## Qəzet və jurnallar

١- اختر – چاپ استانبول - ١٣١٣ ه-ق
٢- ارگ – چاپ تبریز - ٢٣ / ١٣٧١/١٠
٣- ایران – چاپ تهران - ٢٧ و ٢٦ بهمن ١٣٧٦
٤- حکمت – چاپ قاهره - ٢٣ و ١٣٢٢ ه-ق
٥- سرداش – چاپ باکو – آبان ١٣٧١
٦- سلام – چاپ تهران - ٢٠ / ١٠ /١٣٧٥
٧- عصرآزادی – چاپ تبریز - ١٩ /١ / ١٣٧٨
٨- مسجد – چاپ تهران – شهریور و مهر ١٣٧١
٩- مطالعات آسیای مرکزی و قفقاز – بهار ١٣٧٤ و پائیز ١٣٧١
١٠- ناصری – چاپ تبریز - ١٣١٥ ه-ق
١١- وارلیق – چاپ تهران – بهار ١٣٧٤
١٢- همشهری – چاپ تهران - ٢٦ و ٢٥ فروردین ١٣٧٥

# MÜNDƏRİCAT

Əkrəm Rəhimli (Bije). İrəvan müsəlman-türk sakinli vilayət olmuşdur ....................................................3
Müqəddimə ....................................................................8
Coğrafi mövqe ...............................................................11
Ad....................................................................................18
Tarixi keçmiş .................................................................18
Dvin, yoxsa Dəbil ...........................................................21
Çuxursəd .........................................................................23
İrəvan Şah İsmayıldan Şah Abbasa qədər...............28
İrəvan I Şah Abbas dövründə....................................38
İrəvan sonuncu Səfəvi şahları dövründə.................49
İrəvan Nadir şah Əfşar dövründə............................55
İrəvan Ağa Məhəmməd xan Qacar dövründə .........70
XIX əsrin astanasında İrəvanın iqtisadi durumuna bir nəzər ...................................................73
İrəvan İran-Rusiya müharibələrində .......................77
İrəvan Türkmənçay müqaviləsindən sonra .............90
İrəvan Nəsrəddin şah dövründə ..............................99
İrəvan XX əsrin astanasında ..................................114
İrəvan 1905-1906-cı illər erməni-müsəlman davasında ..................................................................119
İrəvan müsəlmanlarının soyqırımı ........................142
Qafqaz müsəlmanlarının beynəlxalq təşkilatlara müraciətləri ..........................................................147
Soyqırımdan xilas olmuş bəzi tayfalar .................160
Göy məscid və İrəvanın digər məscidləri .............164

Məscidin tikintisinə yardım etmiş şəxslər............168
Ermənistan Respublikasında qalmış islam abidələri.......................................................171
İrəvan üləmaları və ruhaniləri................................174
İrəvanın bəzi məşhur adamları..............................183
İrəvan şairləri .......................................................192
İrəvanın Mirzə Müslüm Qüdsinin qələmi ilə tərənnümü ...........................................................197
Mirzə Müslüm Qüdsi "İrəvanın vəsfi" məsnəvisi ...........................................................198
Müəllifdən...........................................................217
Mənbələr və məxəzlər..........................................218

Çapa imzalanmışdır: 04.07.2014
Kağız formatı: 60x84 1/16
Həcmi: 18,25 ç.v.; Sifariş: 391/3; Sayı: 300

Kitab “Zərdabi LTD” MMC
Nəşriyyat Poliqrafiya müəssisəsində
hazır diapozitivlərdən istifadə olunmaqla
ofset üsulu ilə çap edilmişdir.

*Ünvan: Bakı şəh., Keşlə qəs., N.Abdullayev küç., 12*
*Tel.: (012) 514-73-73*